FEYRUZ BAĞIROV

NAXÇIVAN · 2008



ZİYARƏTGAHLAR · TARİX · MƏNƏVİ İRS

NUH YURDUNA ZİYARƏT

“Nuh yurdu” adlanan qədim Naxçıvan diyarının tarixi keçmişindən günümüzədək xəbər verən mənəvi inanc yerləri-pirlər və ziyarətgahlar o cümlədən də tarixi arxeoloji abidələrdən bəhs edən vəsait geniş oxucular üçün nəzərdə tutulmuşdur.

NAXÇIVAN — 2008

Elmi-kütləvi kitab

FEYRUZ BAĞIROV

Nuh yurduna ziyarət

“Nuh yurdu” adlanan qədim Naxçıvan diyarının tarixi keçmişindən günümüzədək xəbər verən mənəvi inanc yerləri-pirlər və ziyarətgahlar o cümlədən də tarixi arxeoloji abidələrdən bəhs edən vəsait geniş oxucular üçün nəzərdə tutulmuşdur.

Elmi məsləhətçilər: İbrahim Kazımov — tarix elmləri namizədi;
Əli Həsənov — coğrafiya elmləri namizədi

Rəyçi: Qadir Həsənov — Naxçıvan MR tarixi və arxeoloji abidələri mühafizə cəmiyyətinin sədri

Redaktor: Hafiz Bağırov · **Korrektor:** Hafiz Yusifov

Kompüterdə yığan: Elvin Şahsuvarov və İlkin Rəhimov

Naxçıvan — 2008

Mündəricat

1 Ön söz 006

2 Müqəddimə əvəzi 008

3 Naxçıvan şəhərindəki ziyarətgahlar 013

Nuh türbəsi

Mömünə Xatun məqbərəsi

Yusif ibn Küseyir məqbərəsi

H. Cavid məqbərəsi

Cümə məscidi

Zaviyə məscidi

Kazım Qarabəkir Paşa məscidi

Həzrəti Zəhra məscidi

Pirqəmiş məhəllə məscidi

Mir Yəqub piri

Xədicəbəyim piri

Fatiməbəyim piri

"Süddü nənə" piri

"Müqəddəs məzarlar"

Pir Ömər Nəşəvi ziyarətgahı

4 Babək rayonundakı ziyarətgahlar 040

Nehrəm kəndindəki ziyarətgahlar

Səyyid Əqil sərdabəsi

Sirab kəndindəki ziyarətgahlar

Səyyid Hüseynlə Səyyid Həsən piri

"Ağac piri"

Səyyid Tağı piri

Xaraba məscid ziyarətgahı

Qara daş (Əhməd) piri

Şeyx İmran (Şahmərdan) piri

İsfəndiyar piri

Ocaqtəpə pirləri

Səyyid Əhməd piri

Çoban (Səyyid) Əli piri

Əshabi-Kəhf piri

5 Şahbuz rayonundakı ziyarətgahlar 066

Xudavəng piri

Hovuz piri

Yel piri

Şah Abbas piri

6 Culfa rayonundakı ziyarətgahlar 076

Şeyx Xorasan piri

Almәmməd piri

Gülüstan türbəsi

Ərəfsə piri

Göynük (Səyyid Həsən) piri

"İmamzadə" piri

"Nisəbəyim bulağı" piri

Saltax sərdabəsi

7 Kəngərli rayonundakı ziyarətgahlar 094

Asnı piri

"Nərbənd" və "İydəli" pirləri

8 Ordubad rayonundakı ziyarətgahlar 102

Tivi pirləri

Tir-Əbülfəth ələmi

Malik İbrahim piri

"Qara pir" ziyarətgahı

Nüs-nüs piri

Üstüpü piri

Səyyid Səfi (Səffan) piri

Gilan türbəsi

Şəmsəddin Məhəmməd piri

Dər kəndindəki pir

Xanağa piri

9 Şərur rayonundakı ziyarətgahlar 123

Parçı piri

Tənənəm piri

Axura Qaradaş piri

Hadı qaib piri

Havuş piri

"Şapur bulağı" piri

10 Sədərək rayonundakı ziyarətgahlar 135

"Tejkar" piri

"Ağatlı oğlan" piri

11 Əlavələr 140

H. Əliyevin Naxçıvandakı tunc büstü

Şahab məhəllə məscidi

Əlixan məhəllə məscidi

Şəhidlər xiyabanı

Şəhidlərin xatirə muzeyi

12 Son söz 150

13 Ədəbiyyat 156

14 Plan, xəritə və foto şəkillər 158

15 Müəllif haqqında 190

BÖLMƏ

Ön söz

Naxçıvan Muxtar Respublikasının tarixi arxeoloji abidələri və mənəvi ziyarətgahlarından məlumat verən “Nuh yurduna ziyarət” kitabı Feyruz Bağırovun bu səpkidə yazdığı ikinci işidir.

Kitabda geniş söhbət açılan pir yerləri, məscid və ziyarətgahlar o cümlədən də tarixi arxeoloji tikililər haqqında əvvəllər maraqlanan az olduğundan lazımi ədəbiyyatlar da yazılmamışdır.

Müəllif kitabında mədəniyyət və turizm təşkilatları tərəfindən əvvəllər adı çəkilməyən pirlər, məscid və ziyarətgahlar haqqında əhatəli şəkildə məlumatlar verməklə xalqımızın mənəvi abidələrinin yüksək səviyyədə qorunub mühafizə olunması və təbliğini istəmişdir.

Naxçıvan MR Tarixi və Arxeoloji Abidələri Mühafizə Cəmiyyətinin fəal üzvü, mədəniyyət və turizm işçisi olan F. Bağırov neçə illərdir ki, daim axtarışda olmuş və yazdığı tarixi-mənəvi məqalələri ilə dövrü mətbuatda çıxış etmişdir. Müəllifin uzun illər topladığı məlumatları kitabında Muxtar Respublikanın ayrı-ayrı rayon əraziləri ilə və Naxçıvan şəhərindəki tarixi ziyarətgahları yazıb göstərmişdir. O, kitabdakı hər bir ziyarətgah yerlərinin öyrənilməsi üçün uzun illər və ağır zəhmətlə qarşılaşmalı olmuşdur.

F. Bağırov dindar ziyalı olaraq qələmə aldığı xalqın mənəvi zənginliklərini öyrənmiş və bu işdə xeyirxah olmuşdur. O, çalışmışdır ki, kitabda bir-birindən maraqlı məqalələrlə oxucuların qəlbinə yol taparaq onları düşündürsün. Buna görə də müəllif heç bir çətinlikdən qorxmayaraq uzun illər başladığı xeyirxah işində Muxtar Respublikanın bütün rayon və kəndlərini addım-addım gəzmiş, ərazilərdəki mənəvi tarixi abidələrin yaranmasını və əhəmiyyətini yaşlı adamlardan öyrənmişdir.

Müəllif hər hansı bir ziyarətgahdan söz açarkən ərazinin fiziki-coğrafi şəraitini, əhalinin statistik-sosial məşğuliyyətini habelə turizmin inkişaf yollarını da göstərmişdir.

F. Bağırovun illər boyu düşüncələrindən süzülən “Nuh yurduna ziyarət” kitabı ilə oxucuların qəlbinə yol tapmaq niyyəti ilə səsinə səs verilməsini istəmişdir.

Muxtar Respublikada son illər tarixi və arxeoloji abidələrin qorunub saxlanılmasına və bərpa olunaraq xalqa çatdırılmasına dövlət qayğısı artırılmışdır. Dini kitablarda adı

çəkilən müqəddəs “Əshabi-Kəhf” pirinə də diqqət və qayğı göstərildiyindən, xarici ölkə turistlərinin marağına səbəb olmuşdur.

Müəllifin kitabına adı çəkilən müqəddəs pirin yaranmasından tarixi məlumatlar, elmi ədəbiyyatların izahlarından istifadə olunmuşdur.

Kitabda müasir dövrün ziyarətgahlarından da söz açılaraq Ümummilli lider möhtərəm H. Əliyevin Naxçıvan şəhərindəki büstü ilə muzeyindən, habelə şəhidlər və şöhrət muzeyindən də məlumat verilmişdir. Kitabda foto şəkillərlə rayon ərazilərinin xəritələri də oxucularda marağa səbəb olacaqdır.

“Nuh yurduna ziyarət” kitabı əhatəli yazıldığından turizmlə maraqlananların dəyərli məlumat vəsaiti sayıla bilər. Kitabda kiçik qüsurlara yol verilsə də tarixi mənəviyyatdan bəhs edən vəsait təqdirə layiqdir.

Qadir Həsənov Azərbaycan TAMC-nin Rəyasət heyətinin üzvü, Naxçıvan MR Tarixi Abidələri Mühafizə Cəmiyyətinin sədri.

18 aprel 2008-ci il.

FƏSİL 2

Müqəddimə əvəzi

Azərbaycan məmləkətinin tərkibində yerləşən Naxçıvan Muxtar Respublikası dağlıq ərazidən ibarətdir.

Nuh yurdu deyilən diyar Kiçik Qafqaz dağlarının cənub-qərbində yerləşmişdir. Ərazinin relyefi hər tərəfdən dağlarla əhatə olunduğundan“çuxura” bənzər formadadır. Buranın ən alçaq yeri okean səviyyəsindən 600 metr, ən hündür zirvəsi isə 3.917 metr yüksəkdədir.

Diyarın iqlimi quru və kəskin kontinentaldır. Ərazidə boz səhra, yarımsəhra torpaqları yayılaraq bitki örtüyü sarıdan kasıbdır.

Heyvanat aləmi əsasən yarımsəhra və çöl qurşağı heyvanları yayılaraq fauna və florası tipik formalıdır.

Nuh yurdu-Naxçıvan MR hər tərəfdən xarici dövlətlərlə əhatə olunmuş, sərhəd xəttinin uzunluğu isə 398 km-dir (Türkiyə ilə 11 km, İranla 163 km və Ermənistanla isə 224 km). Ərazinin forması romb həndəsi fiquruna oxşayaraq şimaldan-cənuba 75 km, qərbdən şərqə isə 158 km-dir.

1990-cı il tarixdə Ermənistan silahlı dəstələri tərəfindən tutulmuş Sədərək rayonunun Kərki kəndi daxil olmaqla ərazinin ümumi sahəsi 5,5 min km2 -dir. Dəfələrlə Naxcıvan MR-in ərazi inzibati sahələri dəyişdirilmişdir.

1961-ci ildən Şahbuz rayonu ləğv olunaraq Naxçıvan rayonuna birləşsə də, üç ildən sonra yenidən sərbəslik qazanmışdır.

1979-cu ildən Naxçıvan rayonu Babək adı ilə əvəz olunmuşdur.

1995-ci il 12 noyabr tarixli Azərbaycan Respublikasının Konstitutsiyasına əsasən, Naxçıvan MR Azərbaycanın tərkibində olaraq tabeliyində Sədərək, Şərur, Babək, Şahbuz, Culfa və Ordubad inzibati rayonları var idi.

2004-cü ilin 19 mart tarixindən Şərur rayonundakı cənub və Babək rayonunun şimal-qərb əraziləri yeni yaradılmış Kəngərli rayonunun tərkibinə verilmişdir.

Naxçıvan diyarı Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi və dünyəvi Muxtar Respublikadır.

Naxçıvan Muxtar Respublikasının hökuməti Ali məclis, Nazirlər kabineti və Ali məhkəmədən ibarətdir.

Naxçıvan MR dövlər rəmzləri Azərbaycan Respublikasının dövlət bayrağı, gerbi və dövlət himnidir.

Naxçıvan Muxtar Respublikasının 28 aprel 1998-ci il tarixdə qəbul etdiyi (əsas Qanunu) Konstitutsiyasını təsdiq üçün ölkə prezidenti H. Əliyev cənablarına təqdim edilmiş və 8 yanvar 1999-cu il tarixindən qüvvəyə minmişdir.

Həmin tarixi hüquqi sənəd, Nuh yurdu - Naxçıvanın dördüncü əsas qanunu olmuşdur.

Naxçıvan MR əhalisi milli tərkibcə türkdilli Azərbaycanlılardır.

Naxçıvan xalqı dini və əxlaqi ənənələrə maraq göstərərək kütləvi xalq tamaşalarını bu günə kimi qoruyaraq saxlamışlar. Naxçıvanlılar dözümlü, səbrli və nikbindirlər.

1989-cu ilin əvvəllərində Naxçıvan vilayətinin əhalisinin sayı 294 min nəfər olmuşdur.

1999-cu ilin yanvar ayında isə əhali 20 faiz artaraq 354 min 89 nəfərə çatmışdır.

2006-cı ilin statistik məlumatına görə isə Naxçıvan Muxtar Respublikasında 376 min 360 nəfər əhali yaşamışdır.

1989-1991-ci illər ərzində Nuh yurdu ərazilərinə Ermənistandan 5 minə yaxın məcburi köçkün gəlmişdir.

Naxçıvan Muxtar Respublikasının paytaxtı Şərqin Qapısı sayılan Naxçıvan şəhəri, okean səviyyəsindən 750 metr yüksəklikdədir.

Naxçıvandan Bakı şəhərinə olan məsafə istər dəmir yolu, istərsə də avtomobil yolu ilə 600 (616) km-dir (“Atlas doroq SSSR” (rusca), Moskva, 1972, səh. 55). Hər iki yollar Ermənistan ərazisindən keçdiyindən ermənilər tərəfindən bağlanmışdır. Müqaviləyə görə müxtəlif yüklər İran ərazisindən keçməklə daşınır.

Əhali ilin bütün fəsillərində yalnız hava nəqliyyatından istifadə edirlər.

Haliyyədə Naxçıvan şəhərində 70 min 183 nəfər əhali yaşayır.

Sovetlər dövründə Naxçıvanda sosial tikinti sahələrinə əsasən yetmişinci illərdən başlanılmışdır. Şəhərdə I, II və III saylı yaşayış mikrorayonları, "Yeni Naxçıvan" və "Əliabad" yaşayış sahələri tikilərək əhaliyə mənzillər verilmişdir.

Naxçıvan şəhəri qədim və mədəni yaşayış məskəni olmaqla orta əsrlərdə tarixi "ipək yolu"nun üstündə salınmışdır.

XX əsrin əvvəllərində Naxçıvanda maarif və mədəniyyət, kustar sənətkarlıq və sənaye sahələri ihkişaf etmiş, Avropadan-Asiyaya gedən transkontinental poçt-teleqraf rabitə xəttinin məntəqəsi (şəhərdəki "Təbriz meydanı" məhəlləsində) olmuşdur.

Naxçıvan şəhərində əvvələr olduğu kimi indi də məhəllə adları saxlanılmaqdadır. Onlardan Atabəylər, Anbar, Ağabəylər, Bəktaş (Bəydaş), Cıdıllı, Cığatay, Çaparxanlı, Çimən, Çuxur, Əlixan, Dabbaqxana, Xıncov, Xoylu, Xoşulu, Kəngərli, Gomayıl, Qala, Qaraağac, Qoçüstü, Qurdlar, Zaviyə, Şahab, Pirqəmiş, Sallaqxana, Sarvanlar, "Təbriz meydanı" və başqalarını göstərmək olar.

XX əsrin əvvəllərində Naxçıvan şəhərində 4 karvansara, 12 buzxana, 1 zorxana, 5 məktəb (mədrəsə), 2 xəstəxana (azarxana), kömrük, poçt-teleqraf və jandarma məntəqələri olmuşdur. Bundan başqa şəhərdə Cümə və məhəllə məscidləri, 17 su dəyirmanı, 5 hamam, müxtəlif klub və iyaşə sahələri də fəaliyyət göstərirdi. Naxçıvan şəhər əhalisini içməli və təsərrüfat suyu ilə təchiz edən, çeşmələr (kəhrizlər) qazılmışdır ki, onlara vəsait qoyan xeyriyyəçilərin adları ilə bildirmişlər. Həmin su çeşmələri Cəfərqulu xan, Qizxanım, Mirzə Bədəl, Kor kişi, Qələndər, Kərbəlayi Musa, Sarbanlar (Miriş ağa), Çuxur, Məşhədi Tahir, Ağam Əli (Xan), Şahbaz ağa, Cığatay və başqaları olmuşdur.

1972-84-cü illər ərzində Naxçıvan şəhərində quruculuq işləri genişləndirilmiş, zavod və fabriklər, birlik, elm və mədəniyyət, səhiyyə-sağlamlıq və idman sahələri inkişaf etdirilmişdir. Həmin illərdə Muxtar Respublikamızda kənd təsərrüfatı ilə yanaşı istehsal sahələri də vüsət etmişdir. Bütün bunlara diqqət və qayğı göstərən Azərbaycan Respublikasının rəhbəri olmuş cənab H. Ə. Əliyevin siyasi uzaq görənliyindən yaranmışdır.

Planlı sosialist sistem dağıldıqdan sonra müəssisə və sənaye sahələrindəki enerji, yanacaq və xammal qıtlığı yarandı. Nəticədə isə işsizlik yaranaraq sosial sahələr ağırlaşmışdır.

70-80-ci illərdə Naxçıvan şəhərində Azərbaycan MEA-nın Elm Mərkəzinin şöbəsi, üç teatr, yeddi muzey, ali və orta ixtisas məktəbləri, kitabxanalar, mədəniyyət sarayı,

klublar, asudə vaxt mərkəzləri, mədəniyyət və istirahət parkları, idman-sağlamlıq məktəbləri, yaradıcı ziyalı birlikləri, rabitə və radio-televiziya mərkəzləri, nəşriyyat və poliqrafiya mərkəzləri, stadion, xəstəxana və doğum evi, mehmanxana, daimi kino qurğuları, ictimai-iaşə və universal mağazalar fəaliyyət göstərmişdir.

Naxçıvan şəhərində onlarca uşaq və körpələr evi, gündüz və növbəli axşam ümumtəhsil məktəbləri, məktəbdən kənar tərbiyə müəssisələri, uşaq musiqi və incəsənət məktəbləri və sairə əhalinin xidmətində olmuşlar.

80-ci illərdə Naxçıvan xalqı Azərbaycanın memarı olmuş Əcəmi Əbubəkr oğlunun 850 illik yubleyi tədbirlərini keçirərək böyük sənətkara qoyulacaq abidənin yazılı daş lövhəsini qoymuşlar. (Həmin yerdə Əcəmi Əbubəkr oğlunun qranitdən heykəli ucaldılmışdır). Naxçıvanlı rəssam və tişə ustaları tərəfindən şəhərdə görkəmli şəxslərə H. Əliyev, C. Məmmədquluzadə, M. S. Ordubadi, H. Cavid, N. Nərimanov və başqalarına xatirə heykəllərini yonmuşlar. Bundan başqa şəhərdə xalq qəhramanlarından Koroğlu, Babəkə, Oğuz elinin ağsaqqalı Dədə Qorquda da layiqli heykəllər qoyulmuş, müharibə veteranlarına xatirə abidələri ucaldılmışdır.

Haliyyədə Naxçıvan diyarında mədəni quruculuq ənənələri davam edir. Zəhmətkeşlər iməcliklər keçirməklə Nuh yurdu olan qədim diyarı gülüzarlığa çevirmişlər.

Bütün bu işlərin görülməsinə Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Yusif oğlu Talıbovun qayğı və təşəbbüsü nəticəsindən irəli gəlir.

Naxçıvan əhalisi prezident H. Ə. Əliyevlə fəxr edərək ona ümumilli lider adını vermişlər.

Naxçıvan Muxtar Respublikasına İrandan keçməklə elektrik enerjisi və qaz xətləri H. Ə. Əliyevin siyasi yolunun davamçısı, ölkə prezidenti cənab İlham Heydər oğlu Əliyevin səyi nəticəsində çəkdirilmişdir.

Naxçıvan əhalisinin güzəranı yaxşılaşmış, yeni iş yerləri açılaraq istehsal sahələri genişlənməkdədir. Kənd təsərrüfatını inkişaf etdirmək üçün sahibkarlara dövlət qayğısı artırılmışdır. Naxçıvanda sosial mədəni quruculuq işləri durmadan genişlənir, əhalinin güzəranı yaxşılaşmaqla təbii artım çoxalır.

Naxçıvanlılar, ziyalı gənclər bilik və bacarıqlarını inkişaf etdirərək internet vasitəsi ilə Azərbaycan mədəniyyətini, elm və tarixini, mədəni zənginliklərimizi dünya ictimaiyyətinə çatdırmağı bacarırlar.

Bir vaxtlar elm xadimi, geologiya-mineralogiya elmləri doktoru professor Mirəli Qaşqay (1907-1977) Naxçıvanın yeraltı və yerüstü təbii zənginliklərini görərək “Azərbaycanın Uralı” adlandırmışdır. Bu sözlərə fəxrlə əlavə etmək olar ki, Nuh Yurdu Naxçıvan mənəvi-tarixi ziyarətgahlarla zəngin bir diyardır.

Haliyədə Naxçıvan Muxtar Respublika Mədəniyyət və Turizm Nazirliyində qeydə alınmış Arxeoloji və Tarixi-Memarlıq Abidələrinin sayı 500-ə yaxındır. Onlardan 17-si Naxçıvan şəhəri, 48-i Babək, 51-i Şahbuz, 74-ü Culfa, 41-i Kəngərli, 81-i Ordubad, 89-u Şərur və 9-u Sədərək rayonları ərazisindədirlər.

Bu kitabda Muxtar Respublikadakı bir sıra tanınmış ziyarətgahlardan məlumat verilmişdir.

FƏSİL 3

Naxçıvan şəhərindəki ziyarətgahlar

İndiki Naxçıvan şəhərinin cənub qurtaracağında nekropol ərazilərində Eramızdan əvvəl II və I minilliklərdə mədəni insanlar yaşamışlar. Arxeoloqlar ərazidə qazıntı işləri apararaq nadir maddi-mədəniyyət nümunələri aşkar etmişlər. Qədim Naxçıvan nekropolu e.ə. 1600-1400-cü illərdə olmuşdur. Bundan başqa Naxçıvan çayın sahillərindəki kurqanlarda da qazıntı işləri aparılaraq sübut olunmuşdur ki, e.ə. I minillikdə və ondanda əvvəllər burada mədəni insanlar məskunlaşmışlar.

Şəhərin şərq hissəsi "Yeni Naxçıvan" deyilən yaşayış yerlərində, qədim insanların yaşadıqları bir daha məlum olmuş və alimlərin fikrincə həmin ərazi e.ə. III - e. XVII əsrlərdə şəhər yeri olmuşdur. Maraqlıdır ki, indiki şəhər qəbrstanlığının şimal hissəsində (indiki xanım qızlar litseyi yerində) yer qazıntıları zamanı müxtəlif qədim mədəni əşyalar tapılaraq, üzərində "Nəx"sözü yazılmış mis və gümüş sikkələr çıxmışdır.

Naxçıvan şəhərinin adının toponiminə gəldikdə "Nəx(çi)-Nuhun adıdır, "van" isə yurd sözü deməkdir. Bir sıra tarixçilər buranın adını "Nəqşi-cahan"da deyirlər.

Ərazidə insanlar məskunlaşdıqca bir çox inanc yerlərini də yaratmışlar.

Şübhəsiz ki, bu qədim diyarda tarix boyu ziyarətgahlar olmuş və bəziləri də hətta dövrümüzədək qalmışlar. Naxçıvan şəhərinin cənubundakı "Köhnə qala" (Yezdabad qalası – XI-XVII əsrlər) yaxınlığında qədim tikili-ziyarətgah vardır ki, həmin yerə Nuh türbəsi (imamzadəsi) də deyərlər.

Həmin ərazidə Nuh peyqəmbərin qəbir yeri olmuşdur ki, 1950-ci ildə buldozerlə sökülərək düzənlənmişdir.

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyində qeydə alınmış Arxeoloji və Tarixi-Memarlıq Abidələri aşağıdakı kimidir;

Qədim Naxçıvan şəhər yeri (E.ə. II minnillikdə)

Qədim Naxçıvan nekropolu (E.ə. 1600-1400-cü illər)

I Antik Naxçıvan nekropolu (E.ə. IV-II əsrlər)

II Antik Naxçıvan nekropolu (E.ə. II-I əsrlər)

III Antik Naxçıvan nekropolu (III-VII əsrlər)

Orta əsr Naxçıvan nekropolu (XI-XVIII əsrlər)

Nuh türbəsi

Xalq arasında bura müqəddəs yer kimi imamzadə də deyirlər. Həmin tikili-türbə soğana bənzər formalı künbəz hissədən və iki yaruslu əsas binadan ibarətdir.

Tikilinin hörgü-inşaat materialları ərazidəki digər qədim hörgülərindən çox-çox fərqlidir.

Nuh türbəsinin dəqiq tikilmə tarixi öyrənilməmişdir. Lakin türbə ilə yanaşı tikilmiş imamzadə binası XVIII əsrin 20-ci illərinə aid olunur.

Bunu əsaslandıran 1920-ci illərdə Naxçıvanda olmuş epiqraf alim İ. Əzimbəyovun yazdığı və haliyyədə yerində olmayan ərəbcə yazılmış daş kitabənin mətnidir. (İ. Azimbekov "Musulmanskie nadpisi Naxıçevana" (rusca) Bakı-1929, səh. 310.)

Kitabənin ərəbcədən tərcüməsi belə olmuşdur; "1722-1732-ci illərdə bu imamzadə ərəb və əcəmin ixtiyar sahibi, səxavətli xaqan, möhtərəm əmir, ən böyük sultan, şah oğlu-şah Əbu Müzəffər Təhmasib Bahadur xanın hökümdarlığı dövründə günahları bağışlanmağa layiq mərhum Hacı Polad bəyin oğlu sahibkar, zəmanənin xeyirxahı olan Rufan bəyin əmri ilə tikilmişdir".

1975-77-ci illərdə görkəmli alim, mərhum akademik Ə. R. Salamzadə (1916-1983) ilə memarlıq doktoru K. M. Məmmədzadə burada maraqlı tədqiqat işləri aparmışlar. Alimlər buradakı Nuh türbəsinin tikilmə tarixini dəqiqləşdirə bilməsələr də ingilis, rus və azərbaycan dillərində qiymətli kitab yazmışlar (Ə. Salamzadə "Arazboyu abidələr".Bakı-1979).

XIX əsrin ortalarında Naxçıvanda olmuş rus şərqşunası N. V. Xanıkov imamzadə türbəsini səfəvilər dövrünün şahı II Təhmasibin zamanında tikilməsini güman etmişdir. O, burada olarkən yuxarıda adı çəkilən daş kitabəni oxuyaraq yazıya görə əsaslandırmışdır (Azərb. respub. tarix. inst. elmi arxivi. inv. №1076. səh. 15).

Rus alimi V. M. Sisoyevin yazdığına görə 1818-ci ildə Abbasqulu xanın vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin də məzarı orada olmuşdur. Əllinci illərdə binada bərpa işləri aparılarkən məzar yeri sökülərək kitabə də itirilmişdir.

Yazı hərfləri pozulan yeni gətirilmiş daş kitabənin ərəbcədən tərcüməsi belədir; “Onun sahibi mərhum Kulkuta şahın qızı mərhumə günahları bağışlanmış xoşbəxt şəhid, yüksək Allahın (rəhmətinə) getmiş Ba (nu) Şahbikə, fani dünyadan əbədi dünyaya köçdü. Doqquz yüz altıncı ildə”. (miladi tarixi ilə isə 1500-cü il) (H. F. Səfərli “Naxçıvan ziyarətgahları”. B-1998. səh. 9).

Nuh türbəsinin yaxınlığındakı təpədə (şərq hissədə) “Nuhun qəbri” adlı köhnə tikili olmuşdur. Bu yeri realist rəssam B. Kəngərli şəklini çəkmişdir. Lakin həmin tarixi “Qəbir” yeri 1950-ci ildə şəhər qəbirstanlığı sahəsinin genişləndirilməsi bəhanəsi ilə sökülmüşdür. Yaşlı adamların dediyinə görə həmin qəbir yeri VIII əsrdə ərəblər tərəfindən bərpa edilmişdi.

Nuh peyğəmbərin adı ilə bağlı toponimlər yalnız Naxçıvandadır. Onlardan Nuhəcr, Nuhdabanı, Nuhcuvan, Nəxci, Nəşəvi və başqalarını göstərmək olar.

1960-cı ildə İ. Səfərli küçəsində məktəb binası tikilərkən təpədəki torpaq altından içərisində qadın uzanmış daş məzar aşkar olunmuşdur. Qiymətli tapıntı Leninqrada (Ermitaj muzeyinə) aparılmış və bu barədə mətbuatda “Yatmış gözəlin sirri” sərlövhəli elmi məqalə yazılmışdır. Mütəxəssislər daş məzardakı qadını Nuh peyğəmbərin arvadınınkı olduğunu ehtimal etmişlər.

Nuh türbəsi Naxçıvan MR Mədəniyyət və Turizm nazirliyinin 518nömrəli tarixi tikilisi kimi qeydə alınaraq dövlət tərəfindən qorunmaqdadır. Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbovun imzaladığı 2006-cı il 28 iyun tarixli sərəncamı ilə Nuh peyğəmbərin Naxçıvandakı məzarüstü türbəsi bərpa edilməkdədir.

> *“Bütün aləmlər içərisində Nuha salam olsun!*
>
> **(Səffat surəsi, 79)**

Mömünə Xatun məqbərəsi

XII əsrdə Naxçıvanda İraq-Səlcuq türkləri İslam dinini yayaraq, memarlıq nümunələri olan türbə və məqbərələr tikdirmişlər. Həmin abidələrdən biri Naxçıvan şəhərindəki memar Əcəmi Əbubəkir oğlunun inşa etdiyi möhtəşəm Mömünə Xatun məqbərəsidir.

Məqbərə 1186-cı ildə Atabəy Eldəniz Şəmsəddinin oğlu Məhəmməd Cahan Pəhləvanın anası Mömünə Xatunun əziz xatirəsinə gəlini Zahidə Xatun (bəzi mənbələrdə isə oğlu Cahan Pəhləvan) tərəfindən tikdirilmişdir.

> *“Mömün olmaqla bərabər, yaxşı işlər görən kişilər və ya qadınlar Cənnətə daxil olacaqlar. Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz!”*
>
> **(Nisa surəsi, 124)**

Naxçıvan şəhərinin cənub–qərb hissəsində “xandiki” adlanan uca sahədə tikilmiş abidə baxanları heyran edir.

Hündürlüyü 26 metrə çatan tikili on üzlü olmaqla konusvari formadadır. Yeraltı və yerüstü hissədən olan binanın divarları xaricdən on güşəli, daxildən isə dairəvidir.

Məqbərənin yerüstü hissəsi möhkəm kürsülükdə yerləşdirilərək, üz tərəfdən tuf daşlarla üzlənmişdir.

On üzlü olan xarici divarlarının doqquzu bir-birindən fərqli olaraq həndəsi mürəkkəb naxışlarla (mavi-göyrəngli kaşı kərpiclərlə) bəzədilmişdir.

Binanın giriş qapısı onuncu üzün divarındadır. Məqbərənin küncləri fiqurlu hörgülərlə bəzədilərək Qurandan sözlər yazılmışdır.

Əllinci illərdə binada bərpa-təmir işləri aparılarkən naxışlı yazılara əhəmiyyət verilmədiyindən sözlərin oxunuşu çətinləşmişdir.

Məqbərənin daxili divarları sadə olaraq, orada dekorativ dairəvi medalyon işarəsi vardır. Həmin işarələr indiyənədək mütəxəssislər tərəfindən öyrənilməmişdir.

Məqbərənin yeraltı hissəsi sərdabə tiplidir. Bura on güşəli mərkəzdən başlayaraq aşağıya tərəf daralan sütundan ibarətdir. Həmin sütun binanın yerüstü sahəsinin döşəməsini və ağırlıq daşıyıcı taraz rolunu oynayır.

Mömünə Xatun məqbərəsi dövrümüzədək qalsa da istər mərhumə və istərsə də böyük Əcəminin məzarları haqqında dəqiq tarixi məlumat əldə olunmamışdır.

Yaşlı nəslin adamları söyləyirlər ki, məqbərəninin birinci yeraltı mərtəbəsində yerdə məzar və yazılı daş kitabələr olmuşdur. Lakin bərpaçı inşaatçılar erməni millətindən olduğundan oradakı məzar yeri sökülməklə yazılı kitabələr aparılmışdır.

Həmin illərdə qəbir üstü yazılı daş kitabələrin üzünün köçürülməsi işləri Naxçıvan mətbəəsinin foto-sinkoqrafı Aşot Markaryana həvalə olunmuşdur. . .

Bütün bunlara baxmayaraq Mömünə Xatun məqbərəsi xalqımızın ziyarət yerlərindən olmaqla dünya mədəniyyətinin incilərindən sayılır.

Haliyyədə məqbərə şəhərdəki Açıq səma altındakı muzeyin ərazisindədir.

“Pərdə arxasında nə var görəcək,

Elmisiz yəqinə qəlb haçan çatar!?

Candan elm tələb et, bədəndən əməl,

Bu yolda verəcək iman sənə əl.” (Marağalı Əhvədinin (1274-1338) şeiri ixtisarladır).

Yusif ibn Küseyir məqbərəsi

Qoca Şərqin qapısı sayılan Naxçıvan şəhərində böyük Əcəmi Əbubəkr (1120-1196) oğlunun tikdirdiyi tarixi bina mərhumYusif Küseyir oğlunun xatirəsinə inşa olunmuşdur.

Dövrünün nüfuzlu şəxsiyyətlərindən olmuş və Yusif Küseyr oğlu haqqındakı məlumatı yalnız məqbərə üzərindəki yazılı epiqrafdan öyrənilmişdir.

Məqbərənin giriş qapısında qədim kufi xətti ilə ərəbcə yazılmış sözlərin mənası belədir; “Əməli Əcəmi İbn Əbubəkr əlbənan, ən Naxçıvani. ” (Bu binanı naxçıvanlı memar (bənna) Əcəmi Əbubəkr oğlu tikmişdir).

Məqbərə bişmiş kərpiclə hörülərək, səkkiz üzlü və pramida şəkilli örtükdən ibarətdir. Hündürlüyü 7 metr olan binanın əsas iki, yeraltı və yerüstü hissələri vardır.

Məqbərədəki yazıdan belə məlum olur ki, miladi tarixi ilə 1162-ci ildə dünyasını dəyişmiş kübar cəmiyyətdən olmuş mərhum Yusif Küseyir oğlunun məzarüstü məqbərəsidir.

Yaxşı olardı ki, tədqiqatçılar mərhumun hansı nəsildən və şəxsiyyətin olmasını araşdırılardı.

Mərhum Akademik Z. Bünyadov yazmışdır ki, Əcəmi hicri tarixi ilə 557-ci ildə Şeyx Yusif İbn Qasirin (İbn Qüseyyirin)? məzarüstü məqbərəsi, Nuh Yurdu Naxçıvan şəhərində tikmişlər (“Şəhriyar” qəzeti, 1997-ci il №14. səh. 3).

Məqbərənin içərisində döşəmədə səkkiz güşəli dəlik qoyulmuşdur ki, hava hərəkəti olsun. Məqbərənin aşağı hissədə yerdə heç bir məzar yeri ilə yazılı kitabə yoxdur.

Məhəllənin yaşlı adamları söyləyirlər ki, həmin yerdə məzar üstü böyük yazılı kitabə olmuşdur. Binanın ətrafında isə məhəllədə yaşayan bağdadı müşteyid Əbu Əsədullah Mirağa sülaləsindən olan, üzərində ərəbcə yazılı qəbrlər olmuşdur. Məqbərədəki yazılı daş əllinci illərdə götürülmüş, ətraf qəbrlərin yerində isə şəxsi evlər tikilmişdir.

Yusif Küseyr oğlunun xatirəsinə tikilmiş məqbərə son illərdə Naxçıvan MR Ali Məclisi rəhbərliyinin təşəbbüsü ilə bərpa olunmuş, ətrafı abadlaşdırılaraq xalqa çatdırılmışdır.

Məqbərə xalqımızın mənəvi tarixi ziyarətgahı olmaqla, memarlıq abidəsi kimi Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyində qeydə alınaraq qorunmaqdadır.

“Yəmən soltanının baxdım qəbrinə,

Bir kəfən çıxarıb o, verdi mənə.

Dedi ki, gülmə sən səxavətimə,

Dünyadan köçərkən, bu çatıb mənə.”

(Nizami Gəncəvinin (1141-1209) şeiri ixtisarladır).

H. Cavid məqbərəsi

“. . . Ən çox sevdiyin ilkin?

O Allah ki, yeri, göyü, İnsanları xəlq eylər!

Sonra kimlər?

Sonra onun göndərdiyi elçilər... “

Həmin sətirlərin müəllifi Azərbaycan xalqının unudulmaz şairi, Hüseyn Cavid Rəsizadə olmuşdur.

H. Cavid 1882-ci ildə Naxçıvan şəhərində doğulmuş, şəhərdəki mədrəsədə daha sonra isə Məmmədtağı Sidqinin dərs dediyi natamam məktəbdə oxumuş, Təbriz şəhərində isə orta təhsilini başa çatdırmışdır.

Gənc Cavid İstanbul darülfununda azad dinləyici kimi filologiya elimlərindən bilik qazanmış və sonra Naxçıvana qayıtmışdır. Ailəsi ilə birlikdə Bakıya köçən Cavid, indiki Dövlət Universitetində müəllimlik etmişdir.

Bakıdakı ictimai dövr Cavidin bəxtinə “qara ləkə” gətirdi “Pantürkist islamçı” adı ilə tutulub soyuq Sibirə sürgün edilmişdir.

Allahın varlığına inanan Cavid vətənini, millətini və dinini hər şeydən əziz tutmuşdur.

Tale onu əvvəl Maqadandakı əmək-islah düşərgəsinə, daha sonra isə İrkutskdəki siyasi əmək-islah düşərgəsinə aparmışdır.

Cavid Sibirdə siyasi dustaq kimi günün on saatını ağır işlərdə işləmiş, əlinə kağız-qələm düşən kimi yaradıcılıqla məşğul olurdu.

Siyasi dustaqlarla onunla olan həmyerlisi Nehrəmli Abbasqulu ustanın dediyinə görə, Cavid gecələr zəif işıqda əlinə keçən kağız (qəzet) parçalarına şerlər yazar və gödəkçəsinin pambıq sırıqlarında gizlədərdi. Bir dəfə ondan soruşdum ki, yazdıqların nədir? O, isə şüşəsi sınmış eynəyinin altından gülümsəyərək, “Kəndim haqqında poemadır” demişdir.

Xəstə şair 1941-ci ilin soyuq qışında qürbətdə əbədiyyətə qovuşmuşdur.

Qədirbilən xalqımız Cavidin şəxsiyyətini uca tutdu. Onun 100 illiyi ərəfəsində Azərbaycan xalqının Qəhrəman oğlu H. Ə. Əliyevin təşəbbüsü ilə 1982-ci ildə İrkutsk vilayətinin Tayşet rayonu Şevçenko kəndindəki 59 № -li məzardan sökülərək cəsəd qalıqları Naxçıvana gətirilmişdir.

1982-ci ilin 3 noyabr tarixində H. Cavidin cənazəsi qoyulmuş tabut Naxçıvanda torpağa basdırılmışdır. Şairin cənazə namazına minlərlə naxçıvanlı dayanmış, ruhuna dualar oxumuşlar.

Elə həmin ildən Naxçıvan və Bakı şəhərində şairin əvvəllər yaşadığı evlər xatirə muzeylərinə çevrilmişdir. Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərovun və Mədəniyyət naziri Rəşid Qazıbəyovun təşəbbüsləri ilə müəllif, Naxçıvanda çəkdiyi 500-dən artıq xronikal-sənədli foto şəkil dəstini neqativləri ilə bərabər hər iki muzeyə bağışlamışdır.

Cavid sevər naxçıvanlılar böyük Cavidin məzarı üzərində məqbərə tikilməsini arzulamışlar.

1996-cı ildə Azərbaycan Respublikasının prezidenti, möhtərəm H. Ə. Əliyev cənablarının təşəbbüsü ilə (şairin yeganə övladı Turan xanımın xahişi ilə) Cavidin həyat yoldaşı

Müşkinaz xanımın Bakıdan və oğlu Ərtoğrulun Naxçıvan qəbrstanlığından sümük qalıqları çıxarılaraq mərhumun yanında dəfn etmişlər.

Türkiyənin “Star” şirkətinin inşaatçıları hər üç məzarların üstündə məqbərə tikmiş və 1996-cı ilin 30 oktyabr tarixində başa çatdırmışlar.

Əsasən iki mərtəbədən ibarət olan məqbərənin yer altı hissəsində məzarlar yerləşdirilərək yer üstü hissəsində isə çoxüzlü konusvari bina ucaldılmışdır.

Yuxarı hissəsinin içərisində Cavidin mərmərdən yonulmuş heykəli ilə aşağıya baxmaq üçün şüşəli vitrin quraşdırılmışdır.

Məqbərənin ümumi hündürlüyü 10 metr olaraq özüllə divarları dəmir-betondan tökülmüş və ağ mərmərlə də üzlənmişdir.

Məqbərənin ön qapısı üst hissəyə, arxadakı qapıdan isə aşağıya girmək üçündür.

Ön qapısı ilə yan üzlərdəki pəncərələr çəhrayı şüşələrlə vitraj olunmuşlar.

Məqbərənin qarşısındakı meydanda yazılı daş qoyularaq üzərində “29 oktyabr 1996-cı il tarixdə böyük H. Cavidin məqbərəsi, H. Əliyevin şəxsi təşəbbüsü ilə tikilmişdir ” sözləri yazılmışdır.

Məqbərənin ön qapısı üstündə iri hərflərlə “Hüseyn Cavid”, arxa qapının üstündə isə “memar Rasim Əliyev, heykəltaraş Ömər Eldarov” söləri həkk olunmuşdur.

2004-cü ilin payızında Bakı şəhərində böyük dramaturq və şair Hüseyn Cavidin yadigarı qızı Turan xanım vəfat etmişdir.

Azərbaycan Respublikasının prezidenti cənab İ. Əliyevin təşəbbüsü ilə mərhumənin cənazəsini Naxçıvana gətirilərək məqbərədə dəfn etmişlər.

H. Cavidin Naxçıvandakı ev muzeyinə tez-tez ziyarətçilər gələrək şairin keçdiyi həyat yolu ilə tanış olub,yaxındakı məqbərədə dəfn olunmuş məzarları ziyarət edirlər. Gənc evlənənlər böyük şairin ailə üzvlərinin məzarlarına gül dəstələri qoyaraq Allahdan rəhmət duaları oxuyurlar.

H. Cavidin Naxçıvandakı məqbərəsi xalqımızın mənəvi ziyarətgahlarındandır.

H. Cavidin məzarüstü məqbərəsi yaxınlığında 1982-ci ildən fəaliyyəy göstərən ev-muzeyi vardır. Muzeydə şaririn şəxsi əşyaları, əlyazmaları və tarixi fotoşəkillər saxlanılır.

> *Həqiqətən, Allah iman gətirib yaxşı işlər görənləri (ağaçları) altından çaylar axan cənnətlərə daxil edər. Allah istədiyini edər...”*
>
> (Həcc surəsi, 14)

Cümə məscidi

Naxçıvan şəhərindəki Cümə məscidi 1911-ci ildə tikilərək bir neçə dəfə təmir olunmuşdur.

Məscidin minarəsi ilə əsas binası bişmiş kərpiclə hörülərək üzlənmişdir. 15 metr ucalığında olan minarəyə məscidin içərisindən dairəvi pillələrlə qalxırlar.

İyirminci illərdə Rus Şura hökuməti Naxçıvanda yarananda əsgərlər tərəfindən bir neçə məhəllə məscidlərin bişmiş kərpicləri sökülüb aparılmışdır. Cümə məscidinə də top atəşi ilə zərbə vurularaq minarənin orta divarı hər iki tərəfdən deşilmişdir. Həmin illərin yaddaşını naxçıvanlı realist rəssam Bəhruz Kəngərli tablolarında təsvir etmişdir. 2004-cü ilin payızından Naxçıvandakı Cümə məscidi Naxçıvan Mədəniyyət və Turizm Nazirliyinin Memarlıq abidələrinin bərpa idarəsi tərəfindən sökülərək yenidən bərpa işləri aparılır. Məscidin qərb tərəfdəki divarının sökülməsinə səbəb, qarşıdan keçən avtomobil yolunun genişləndirilməsi və qərb divarındakı giriş qapısı ləğv olunaraq şimal tərəfdən qoyulmasındadır. Haliyyədə bərpaçı inşaatçılar məscidin həyətini abadlaşdıraraq, təhlükəli vəziyyətdə olan divarların özüllərini betonla möhkəmləndirirlər. Bərpaçılar Cümə məscidində yenidən qurma inşaat işləri apararaq tezliklə möminlərin ixtiyarına verməyi söz vermişlər.

Əvvəllər Naxçıvan Cümə məscidində son bərpa işlərindən əvvəl giriş qapısının üstündə 60x120 sm. ölçüsündə divarda hörülmüş daş kitabə olmuşdur. Kitabənin hərfləri əski əlifbasında olaraq Azərbaycan türkcəsində mətni aşağıdakı kimi yazılmışdır;

- “Allaha və axirıt gününə inananlar, Allahın məscidlərini təmir edirlər (Quran “Tövbə” (9) surəsi, ayə 18. 9/18 (Ramazan ayının 18-i nəzərdə tutulmuşdur) xilqətin əvvəlindən axırına qədər bəxşişkar Allaha sitayiş, sonra rəfrəfə səvar olan və peyğəmbərlərin axırıncısı Məhəmmədə salavat və salam olsun. Onun fasiləsiz vəsisi olan Heydər ləqəbli Əlini çağır, Əlini axtar. Onun zövcəsi və 11 övladı həqiqətdə yaranmışların ən yaxşısıdır.

- Bu Cəfəriyyə məscidi (Şiə müsəlmanlarının 6-cı imamı Cəfər-Sadiq nəzərdə tutularaq və Cəfəri məzhəbinə işarə olunur). 1311-ci ildə bina edildi. Çay yuxarısında iki dükan

qoydum, birini məsrəf etməkdən ötrü, digərini də, mücavirlərdən ötrü (Burada şəhərə gəlmiş müsafirlər nəzərdə tutulurlar).

Mənim Allahım! Məhəmmədin və əhli beytin xatirinə bu kiçik bəxşişimi qəbul et. Məndən sonra məscidin memarını axtar. Sonar səkkizinci imamdan sonra adla adlanır.

Mərhum naxçıvanlı Hacı Novruzun oğlu Xeyrulla, cənab Hacı Məhəmməd Cəfər ağanın səyi ilə Rəcəb ayı 1311-ci ildə tamamlanır.

Onu yazan Məhəmməd Təqi, həkk etdi Məhəmməd Saleh, hər ikisi Təbrizlidirlər. ”

Yazıdan məlum olduğu kimi Cümə Məscidini, Naxçıvanın qazisi Hacı Məhəmməd Cəfərin təşəbbüsü ilə Təbrizli Məhəmməd Tağı adlı xeyriyyəçilər tərəfindən tikdirilmişdir.

Məscidin bənnası (memarı) da təbrizli nəqqaş Məhəmməd Saleh adlı usta olmuşdur.

Məsciddə son bərpa işlərinə başlananda binanın yan divarları yenidən üzlənmiş, kümbəzlə yan (giriş) qapıları sökülmüş və daş kitabə də yerinədən götürülmüşdür.

Naxçıvan Cümə məscidində eyni vaxtda 500-dən artıq adam ibadət edə bilirdi.

İki mərtəbəli məscidin cənub divarında mehrabı, yan divarında isə daxili eyvanları olmuşdur.

Məscidin içərisində kümbəzdən böyük elektrik çilçırağı asılmış, yan divarlarında isə yağlı boya ilə Məkkə və Mədinədəki ziyarətgahların tabloları çəkilmişdir.

> *“Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!”*
>
> **(Yunus surəsi, 44)**

Zaviyə məscidi

Naxçıvan şəhərindəki şəhid A. Tarverdiyev küçəsi ilə Təbriz küçəsinin kəsişdiyi yerdə Avropa memarlıq üslubunda məscid binası vardır. Zaviyə məscidi adlandırılan bina XVIII əsrdə (Həsənov “Naxçıvan MSSR-in tarixi və arxeoloji abidələri”. Naxçıvan-1988. səh. 3) avropalı xeyriyyəçilər tərəfindən inşa olunmuşdur. Zaviyə əski söz olaraq künc, bucaq deməkdir. Məscid binası bişmiş kərpiclə tikilib bir minarəli, səkkizbucaqlı

mürəkkəb konfiqurasiyalıdır. Binanın şimal divarında bir pəncərəsi, pilləkənli giriş qapısı və bürcü vardır. Minarə bürcünün forması orta əsrlərin avropasayağı qala bürclərinə oxşayır. Məscidin cənub divarında sonradan hörülmüş ensiz pəncərə yerləri qalmışdır. Cənub-qərb tərəfdəki divar bütöv hörülmüşdür. Binanın qərb tərəfdən ikitağlı giriş qapısı və bir pəncərəsi vardır. Giriş qapısı eyvanlıdır, sağ tərəfdə isə üç ədəd uzunsov pəncərələri olaraq şüşələri rəngli mozaika ilə bəzədilmişdir. Məscidin şərq tərəfdəki divarı mürəkkəb formalı olaraq qapı yerləri hörülmüşdür.Məscid binası əsasən iki mərtəbəlidir. Onu yalnız şimal tərəfdən görmək mümkündür.

Səksəninci ildə bina əsaslı təmir bərpa olunmuş pəncərələrini xarrat E. Rüstəmoğlu qoz ağacından yonub hazırlamışdır.

Naxçıvandakı Zaviyyə məscidinin fəaliyyəti 1924-cü ilədək olmuş, şəhərdəki Rus Şura höküməti gələndən sonra burada təmir işləri aparılaraq yenidən qurma nəticəsində içəridə tamaşa zalı olan kiçik səhnə düzəldilmiş, 12 metrlik minarəsi isə yarıyadək sökülmüşdür.

Bundan sonra binada gündüzlər iclaslar keçirilər, axşamlarsa müsamirə tamaşaları yaradılardı.

1936-cı ildən Naxçıvanda zona kino-foto idarəsi yaradıldığından (Naxçıvan zona kino-foto idarəsi" (indiki Firdovsi küç. ev №24). 1959-cu ildən "Naxçıvan kino-prokatı idarəsi" olmuş və Qala məhəlləsindəki sərhədçilərin köhnə tövlə binasına köçürülmüşdür. Haliyyədə həmin binada Naxçıvan MR Dövlət Film Fondu"nun arxivi yerləşmişdir)) məscid binasında axşamlar kino tamaşaları göstərilərdi. Tamaşalar səssiz olduğundan ağ parçadan tikilmiş ekran qarşısında qoyulmuş qramafon valları çaldırılardı.

1954-cü ildə yeni tikilmiş 205 tamaşaçı zalı olan kinoteatr binasında səsli filimlər göstərilməsi nəticəsində əvvəlki məscid binasına E. Telman adı verməklə pionerlər klubuna çevrilmişdir.

1982-ci ildə pionerlərə yeni məktəblilər sarayı tikildiyindən, məscid binası təmir edilərək orada H. Cavid-poeziya teatrı yaradılmışdır.

İlk günlərdən teatr tamaşaçılara həsrət olduğundan fəaliyyətini dayandırmalı olmuşdur.

1991-ci ildə Sovet dövləti dağıldıqdan sonra Zaviyə məscidi yenidən qaplarını möminlərin üzünə açır. Burada xeyriyyəçi Hacı Sahib Əli oğlu tərəfindən "Xeyriyyə

cəmiyyəti" yaradılır. Həmin cəmiyyətin fəaliyyətində qüsurlar olmş, 1996-cı il tarixindən məscid yenidən bağlanmışdır.

Haliyədə Zaviyə məscidi Orta əsr memarlıq abidəsi kimi yenidən təmir-bərpa olunmaqdadır.

"(Ya Rəsulun!) Haqq sənin Rəbbindədir, buna heç vaxt şübhə edənlərdən olma!"

> *"Hər kəsin üz tutduğu bir qibləsi vardır. (Ey müsəlmanlar!) Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın...!"*
>
> **(Bəqərə surəsi, 448)**

Kazım Qarabəkir Paşa məscidi

Həmin məscid binası XVI əsr türk memarı S. Osmanın tikdirdiyi üslubunda Türkiyənin Dəyanət İşləri Başkanlığının sifarişi ilə inşa edilmişdir.

1995-ci ilin 20 sentyabr tarixində tikintisinə başlanan binanın xərclərini Belcikalı türklərin vəsaiti ilə ödənilmişdir.

Məscidin memarı Çingiz Seçkin, layihə mühəndisi isə Həmid Turac olmuşlar.

Qoşaminarəli məscid binasının giriş qapısı (portal) şimal tərəfdəndir. Bina üç mərtəbəli qurularaq, özülü, divarları, kümbəzlə minarələri dəmir betondan tökülmüşdür. Divarlara xaricdən Qaradağ mişar daşından üzlük pilitələri hörülmüşdür.

Məscid binasının sahəsi 550, həyəti ilə birlikdə 13.min kvadrat metrdir. Minarələrin hündürlüyü 38, əsas kümbəz 19, yanlarındakı kümbəzlər isə 4 metr ucalığındadır.

Binanın birinci mərtəbəsində böyük dəhlizlə yardımçı otaqlar, ikinci mərtəbəsində isə kişilərin ibadət salonu, cənub divarda da mehrab vardır.

Mehrabın ətrafında mərmər üzərində ərəbcə Quranın "Bəqərə" surəsindən "Ayətəl-kürsü" ayələri həkk edilmişdir.

Məscidin üçüncü mərtəbəsinə minarələrdən pillələrlə yol geədərək yan divarlardakı eyvanı xatırladan qadınların ibadəti üçündür.

Məscidin pəncərələri rəngli şüşələrlə vitraj işlənmiş, daxili divarlar naxışlarla bəzədilərək, minarə ilə künbəzlərin üst örtüklərinə qurğuşun təbəqəsi çəkilmişdir.

Məsciddə eyni vaxtda 1000 nəfərin ibadəti nəzərdə tutulmuşdur. Salonun içərisində kümbəzdən çilçıraq asılmış, əzan vermək üçün müasir avadanlılar quraşdırılmışdır. Məscidin həyətində layihəyə görə 300 nəfərlik mədrəsə ilə 200 nəfərlik ümumi yataqxana tikilməsi nəzərdə tutulsada inşaat işləri dayandırılmışdır.

Məscidin giriş qapısı üstündə divarda ərəb və türkcə aşağıdakı sözlər yazılmışdır;

“Kazım Karabekir Paşa Camii” Naxçıvan halkına kardeşlik hediyyesi olarak Belçikada yaşayan türklerin katkılarıyla türkiye diyanet vakfı tarafından Çintaş A. S-yaptırılmışdır. 1997”

Bundan başqa məscidin sağ divarında türk və azəri ləhcəsi ilə aşağıdakı sözlər də yazılmışdır;

“Kazım Karabəkir (1882-1948). Mustafa Kamal Atatürkün yaxın silahdaşı olan böyük Türk sərkərdəsi və dövlət xadimi Birinci Dünya müharibəsi və Milli Mücadilə dövründə Şərqi Anadolunun Rus və Erməni işğalından xilas elədi və “Şərq Fatihi” adını qazandı (G. Məmmədova “Qarabəkir əfsanəsi” (sənədli roman) Bakı “Zaman” nəşri. 2001. 488 səh.).

Türk istiqlal hərbinin çox əhəmiyyətli dönüş nöqtəsi olan Ərzurum konqresinin keçirilməsində tarixi bir rol oynamışdır. Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçilərək Məclisə sədrlik etmişdir. Tarix və maarif sahələrində bir çox əsərlərin müəllifidir. ”

Naxçıvanda tikilən məscidə görkəmli türk sərkərdəsi və ictimai xadimi olmuş, 1918-21-ci illərdə Naxçıvan diyarını erməni quldurlarından təmizləyən Kazım Qarabəkir Paşanın adı verilmişdir.

1999-cu il 13 oktyabr tarixində məscid qaplarını həmişəlik olaraq naxçıvanlı dindarların üzünə açmışdır. Açılış mərasimində Azərbaycan Respublikasının prezidenti H. Ə. Əliyev, Türkiyə Cumhuriyyətinin Dəyanət işləri başkanı Mehmed Nuri Yılmaz və Kazım Qarabəkirin qızı Timsal Qarabəkir xanım da iştirak etmişlər.

Məscidin açılışı mərasimini türkiyənin “Samanyolu” (STV) teleşirkəti tərəfindən tamaşaçılara yayımlanmışdır.

Məscidin ilk axundu Abdulhəmid Övləc Əfəndi olmuşdur. Bayram və Cümə günlərində məscid daha izdihamlı olur.

> *“Ey iman gətirənlər! Səbir və dua ilə kömək diləyin. Çünki Allah səbr edənlərlədir.”*
>
> **(Bəqərə surəsi, 153)**

Həzrəti Zəhra məscidi

Məscidin təməlini 1992-ci ilin “Qurban bayramı” günündə, Sarbanlar məhəlləsindəki mərhum Miriş Ağanın həyətində, İranın Urmiyəli inşaatçıları tərəfindən qoymuşlar. . .

XVIII əsrin axırlarında müqəddəs Əshabi-Kəhf mağarasını ziyarətə gəlmiş İraqlı zəvvarlar arasında Miriş Ağa adlı mömin şəxs (onun ismi Əl Miriş İbn Əbdüllah olmuşdur) Naxçıvan şəhərində ailə qurub yaşamışdır.

1898-ci ilin tarixində Miriş Ağanın ailəsində Cəfər adlı bir uşaq anadan yetim doğulur. Körpənin qayğısı ilə əvvəlcə xalası sonradan dayısı məşğul olaraq onu şəhərdəki ruhani mədrəsəsində tərbiyələndirmişlər.Cəfər 5 yaşına çatanda atası da dünyadan köçməklə valideyinlərindən yetim qalmışdır.

Quranı avazla oxuyan Cəfəri, dayısı şəhərdəki rus-tatar məktəbinə qoymuş və burada ibtidai sinfi bitirməklə onu Təbrizdəki yeddisiniflik məktəbdə oxutdurmuşdur.

Təbrizdəki məktəbi bitirən Cəfəri dayısı Naxçıvana gətirərək Mirişli soyadı ilə “Zikr” məktəbinə qəbul etdirmişdir.

1918-ci ildə şəhərdəki mədrəsədə müəllim işləyən, Cəfəri 20 yaşında gənc ikən dövlət işinə gətirirlər. Həmin illərdə Naxçıvanda yaradılmış Araz (Türk) Respublikasının Dövlət Baş Nazirliyinin maarif və mənəviyyat şöbəsinin müvəkkili olmuşdur.

Cəfər ağa Mirişli pedaqoji və dövlət məmurluğunu işləməklə cümə günlərində də, məsciddə xütbə oxuyaraq oradakı tələbə yataqxanasında rayon və kəndlərdən gəlmiş tələbələrə tərbiyyəçilik etmişdir.

Böyük İnsan, mömin pedaqoq, dövlət xadimi olmuş Mir Cəfər Mirişli 1979-cu ildə 81 yaşında dünyadan köçmüşdür. Haliyyədə onun ailəsindən oğlanları Akif atasının peşəsini davam etdirən müəllim, Adil isə sağlamlığın keşiyində duraraq həkim işləyirlər.

Altmışıncı illərdə Naxçıvan şəhərində köhnədən qalma yaraşıqsız evləri sökərək yerində ictimai binalar tikirdilər.

1962-ci ilin 29 noyabr tarixində Mir Cəfər müəllimin ata evinin söküntüsünə başlayırlar.

Burada bir neçə möcüzəvi hallar baş vermişdir;Söküntü aparan buldozerin sürücüsü maşınında keçindiyindən işləri yarımçıq qoymuşlar.

1977-ci ilin əvvələrində həmin yerdə yenidən tikinti işlərinə başlamışlar. Ekskavatorun çalovu böyük qaya parçasına ilişməklə polad məftilləri qırılmışdır. Hadisədən sonra işlər yenə də yarımçıq qalmış, on il keçəndən sonra burada "Səadət sarayı" binasını tikmək istəmişlər. İşin təməlini qoyarkən yeraltı təkan olmuş, qorxudan bir neçə fəhlə ruhi sarsıntı keçirməklə şikəst olmuşlar.

1992-ci ilin Qurban bayramı günündə yarımçıq qalmış tikinti meydançasında-mərhum Miriş Ağanın ocağında Naxçıvan MR Ali Məclisinin sədri cənab H. Əliyevin iştirakı ilə məscid binasının özülü qoyulmuşdur.

Ümumi sahəsi 1400 kvadrat metr olan məscid binası iki mərtəbəli və qoşa minarəli tikilmişdir. Minarələrin hündürlüyü 31 metr bişmiş kərpiclə hörülərək üstü minalı kaşılarla üzlənmişdir.

Məscidin üzü şimal səmtinə olmaqla birinci mərtəbədə yardımçı otaqlar, ikinci mərtəbədə isə kişi və qadınların ibadət salonu tikilmişdir. Geniş salonunun ortasından qara pərdə kümbəzin içərisindən isə böyük elektrik çilçırağı asılmışdır.

Məscidin portal darvazasında yuxarıdan ərəb və azəricə "Həzrəti Zəhra məscidi" sözləri yazılmışdır. Binanın kümbəzi ilə yan divarlarında Qurandan sözlər yazılaraq bəzədilmişdir. Kümbəzdə ərəbcə "Allahu Əkibər" (Allah təkdir) sözləri yazılmış, həyətdəki hovuzlarda əlvan balıqlar saxlanılır, həyətyanı sahədə isə dekorativ bəzək kolları əkilib.

Məscidin həyətində qaya parçası üzərində latın qrafikası ilə yazılı lövhə vardır. Qaya üzərindəki yazı belədir; "Heydər məscidi". Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işlərkən möhtərəm Heydər Əliyev və İran İslam Respublikasının Bonyade Mostezəfan və Cambazane Enqelabe Eslame fondunun prezidenti, ağaye Möhsen Rəfiqdust tərəfindən imzalanmış protokola əsasən Ayətulla Xamneyi Həzrətlərinin və zati-aliləri Heydər Əliyevin himayəsi ilə tikilmişdir. "

1999-cu ilin 10 noyabr tarixində məscid öz qaplarını Naxçıvanlı möminlərin üzünə açmışdır. Mərasimdə Azərbaycan prezidenti H. Əliyev, İranın din işləri müvəkkilləri və Naxçıvandakı İran konsulu Turi cənabları da iştirak etmişlər. Məscidin açılışında adamlara Quran kitablarını hədiyyə vermişlər. Məscid binası müasir kommunikasiya və

istilik sistemi ilə təmin olunmuş, eyni vaxtda burada 1000 nəfərdən artıq adam ibadət edə bilər.

2005-ci ildə məscidin künbəzində təmir işləri aparılaraq qurğuşun lövhələrlə örtülmüşdür.

> *"Allahın doğru yola saldığı kimsəni də, heç kəs yoldan çıxarda bilməz. Məgər Allah yenilməz qüvvət sahibi, intiqam sahibi deyilmi?!"*
>
> **(Zümər surəsi, 37)**

Pirqəmiş məhəllə məscidi

Naxçıvan şəhərindəki Pirqəmiş məscidinin yaranması tarixi VIII əsrə aid edilir.

Belə deyirlər ki, Naxçıvanda İsalm dinindən öncə İraq əcəmi vilayətələrindən bir nəfər qələndər (tərki dünya) gələrək, indiki məscid yerində özünə daxma tikmiş və tənha ömür sürmüşdür.

Qələndər öldükdən sonra, adamlar mərhumun cənazəsini adət üzrə daxmasında böyük saxsı küpədə dəfn etmişlər. (İslamdan öncə İnsan cəsədləri adətən Zərdüşt qanunlarına görə, günahkarlar yandırılar, günahsızlar isə böyük küplərdə torpağa basdırılarmış.)

Baxımsız qalan daxma uçub-tökülür, yeraltı sular ətrafda sıx qəmişlik bitirir.

Atəşpərəst əhali, bayram günlərində bivaris qələndərin (daxması) "məzarı" yanında tonqal qalayaraq (Avesta" kitabındakı atəşbazlıq, Zərdüşt dinin əsasını təşkil edirdi. Həmin dinin bir neçə təriqət formaları Hindistanda qalmaqdadır) oranı ziyarətgaha çevirmişlər.

Zaman keçir, qələndərin adı unudulur, yalnız xalqın yaddaşında ziyarət yeri kimi "pirqəmiş" olaraq qalmışdır.

IX əsrdə Naxçıvan torpaqlarını Ərəb xilafəti ələ keçirmişdir. Onlar Azərbaycanda yeni yaranmış İslam dinini təbliğ etməklə atəşpərəstliyi qadağan etmişlər.

Ərəb xilafətinin başçıları atəşpərəst "kafərləri" diri-diri qala divarlarına hördürərək, qadınlarla uşaqları isə sürgün edib Bağdada aparmışlar (İraqda yaşayan Kərküklər, Azərbaycandan sürgün olunmuşların ulu sülaləsidir). Haqsızlığı görən xalq kütlələri, ərəb işğalçılarına qarşı üsyanlara qalxırlar. Babək Xürrəminin qaldırdığı al rəngli azadlıq

bayrağı (sancağı) ilə, Qafqazdakı tayfalar birləşərək, ərəb yadellilərinə qarşı vuruşmuşlar. On ilə yaxın Bəzz qalasını qoruyub saxlayan Babək xain sərkərdələri tərəfindən təklənərək erməni Səhl Sumbatyanın əli ilə tutularaq edam etdirilmişdir.

Atəşpərəst nəşəvililər haqsızlıqları görərək Azərbaycanı qarət edən "müsəlmanlara" qarşı çıxırlar. Xalqın qəzəbindən qorxan ərəblər əskidən qalma atəşpərəst məbədlərini uçurmayaraq güzəştə getmişlər. Zərdüştçü atəşpərəstlərdən ağır vergilər almaqla onların mənəviyyatlarına toxunulmur. Həmin məbədlərdən bir neçəsi Muxtar Respublikamızın kəndlərində (Kükü, Badamlı, Gal və s.) dövrümüzədək qalmışdır.

Bununla belə iri yaşayış yerlərində ərəblər tərəfindən məscidlər tikilmiş, Naxçıvanda İslam dini təbliğ edilərək, Quran təlimləri keçirilmişdir.

Ərəblər yerlərdə İraqlı müsəlmanlardan İslam təlimçiləri təyin edərək, xalq arasında onları səyyid (toxunulmaz şəxslər) adlandırmışlar. Səyyidlərin adlarına "şeyx" sözünü də əlavə etməklə hüquqi fitvaları (hökümləri) onlara həvalə etmişlər. . .

Naxçıvandakı Pirqəmiş məscidi ərəblər tərəfindən tikilmiş ilk tarixi ziyarətgahdır. Ərəb əmirləri, zavallı qələndərin məzarı yanında (Məzar əllinci ilədək məscidin həyətindəki tut ağacının yanında idi.) məscid binası qurmuşlar. Həmin dövrlərdə məscid gil kərpiclə hörülərək zaman-zaman bərpa olunmuşdur. Həmin bina düzbucaqlı şəkildə tikilərək hündürlüyü 5, eni 20 və uzunluğu 30 metr ölçüsündə olmuşdur. Divarlar samanlı gillə suvanaraq, içəridən tavana (üst örtüyə) dayaq tirləri qurularaq üstü torpaqla örtülmüşdür.

Məscidin bir qapısı, iki pəncərəsi, mehrabı, minbəri və içəridən dama qalxmaq üçün daşdan hörülmüş pillələri olmuşdur.

XX əsrin ortalarınadək Pirqəmiş məhəllə məscidi möminlərin ibadətxanası olmuşdur.

Məscidin həyətində əkilmiş qocaman tut ağacından ehtiyacı olanlar ehsan kimi istifadə etmişlər.

60-cı illərdə şəhərdəki məhəllə məscidləri bağlandıqlarından, Piqəmiş məscidində gecələr (Məhərrəm ayı ərəfəsində) bir nəfərin ibadət etməsinin şahidi olmuşlar. Həmin "möcüzəvi" əhvalatdan sonra yerli rəhbərlərin göstərişi ilə şəhərdəki məhəllə məscidləri uçurdulmuşdur. Həmin illərdə yerli mətbuat səhifələrində "ateist tribunası" başlıqlı qərəzli məqalə və felyotonlar dərc olunurdu. (Azərbaycanda "Bilik" cəmiyyətlərinin xətti ilə ateist təbliğatı güclənmiş "Müsəlman təriqətləri", "Tüfeyli

ocaqları" və başqa kitabları nəşr olunmuş və əhali arasında bədii-publistik filmilər pulsuz təbliğ olunaraq yayılırdı) 1960-74-cü illərdə kütləvi təbliğat vasitələrinin xüsusi muxbirləri tərəfindən dindarlar "ifşa olunaraq" təqiblərə məruz qalmışlar (Bax, "Kirpi", "Kommunist", "Şərq qapısı", mətbu orqanları və "Mollanın sərgüzəşti" 1960-cı ilin filmi, rejiss. T. Sasanpir, müəllifi K. Tağıyevdir).

Xərabə məscid yerində ictimai bina tikmək istəyirlər. Torpaq qazılan yerdən içərisində İnsan sümükləri olan saxsı küp tapılmışdır (Haliyyədə həmin küp tarix müzeində saxlanılır). Torpaq altında o cümlədən küfi xatti ilə ərəbcə yazılmış saxsı bardaq içərisində sikkələr də üzə çıxmışdır ki, həmin ianəni qoyanlar məscidin təmiri üçün saxlamışlar. Tikintidə qəribə işlər meydana çıxmışdır ki, işləyən ekskavatorun yanacaq çəni öz-özünə çatlayaraq yanacaq yerə tökülmüş, ertəsi günü çən dəyişdirildikdən sonra işləyən saz mühərrikin çarxları sınmış və təmir olunmuş mühərriklər işə başlarkən polad məftillər qırılaraq yerə tökülmüşdür.

Ekskavator sürücüsü qorxudan ruhi xəstəliyə tutularaq xəstəxanada keçinmişdir.

Qazılmış məscidin yeri xəndək şəklində uzun illər baxımsız qalmışdır.

1975-ci il (on ildən sonra) orada hamam binası tikilərək istifadəyə veriləndə tərs hörüldüyü aşkar olmuşdur.

1992-ci ildə yanacaq qıtlığından hamam fəaliyyətini həmişəlik dayandırmış, baxımsızlıqdan binanın avadanlıqları sökülərək aparılmışdır.

1996-cı ilin "Qurban bayramı" günündə məhəllə camaatının təklifi ilə xeyriyyəçi A. Kazımovun vəsaiti ilə sökülmüş hamam binası yerində məhəllə məscidi inşa olunmuşdur.

1998-ci ilin 26 aprel tarixində (Məhərrəm ayının əvvəlində) Naxçıvandakı Pirqəmiş məhəllə məsçidi yeni görkəmi ilə qaplarını möminlərin üzünə açmışdır.

Məscidin tikintisində mühəndis K. Möhsün oğlu, memar M. Əli oğlu, bənna İ. Ələsgər oğlu, xarrat Həbib usta və başqalarının əməyi olmuşdur. Məscid binasının tikintisinə layihə sənədlərinin hazırlanmasında məhəllə ağsaqqallarından Hacı Məhəmmədlə Talıb həkimin də xeyirxah işləri olmuşdur.

Pirqəmiş məhəllə məscidi öz görkəminə görə şəhərdəki digər məscidlərdən seçilir.

Məscid binasının ümumi sahəsi 400, həyətyanı hissəsi isə 1500 kvadrat metr ölçüsündədir. Ikimərtəbəli məsciddə eyni vaxtda 500 nəfər ibadət edə bilər.

Məscidin uca minarəsi ilə kümbəzi də vardır.

Binanın divarları bişmiş kərpiclə üzlənərək Quran ayələri yazılmışdır.

Səkkiz metr ucalığındakı minarənin yuxarısında ərəbcə "Allahu Əkibər" sözləri ilə "1998-ci il" tarixi yazılmışdır.

> *"Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə inanan, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə bilərlər."*
>
> **(Tövbə surəsi, 18)**

Mir Yəqub piri

Naxçıvan şəhərindəki Mir Yəqub piri (Şəcərələri peyqəmbər nəslindən olmayan səyyidlərin soyadı əvvəlində "mir" (möhtərəm) sözü əlavə olunurdu.) Mömünə Xatun məqbərəsindən 300 metr şimalda sıldırım təpə üzərindədir.

Pir iki tikilidən ibarət olub, torpaq sürüşməsindən uçub. Yanında yeni binalar tikmişlər. 1990-cı ildə tikilmiş yeni pirin binasını Muxtar Respublikanın keçmiş rəhbəri mərhum A. Cəlilovun təşəbbüsü ilə bərpa etdirilmişdir. Pir binası bişmiş kərpiclə hörülüb iki kiçik otaqlardan ibarət olub. İkinci otaqda simvolik müsəlman məzarları qurulmuşdur ki onlar mərhum Mir Əli ilə Mir Yəqub adlı mömün şəxslərindir.

Pirin yaranması XIX əsrin axırlarında İraqın Kərkük əyalətindən zəvvarlar Naxcıvandakı müqəddəs Əshabi-Kəhf ziyarətgahını görməyə gəlirlər. Gələnlərdən ikisi Yaqubla Əli şəhərdəki orta əsr Cümə məscidində mücövürlük edərək ömrlərini də, burada başa vurmuşlar.

> *"Korla görən, iman gətirib yaxşı əməllər edənlərlə pislik edən eyni olmaz..." (Mömün surəsi, 58) Ondan başqa heç bir tanrı yoxdur. O həm dirildir, həm də öldürür. O həm sizin Rəbbiniz, həm də ulu babalarınızın Rəbbidir."*
>
> **(Duxan surəsi, 8)**

Yaşca böyük olan Mir Əli vəfat etdikdən sonra Naxçıvan mömünləri mərhumun cənazəsini şəhər qəbrstanlığında dəfn edirlər. Bir müddətdən sonra tənha qalan Mir Yəqub da vəfat edir və vəsiyyətinə görə cənazəsini yaşadığı məscidin həyətindəki daxmasında basdırırlar (Cənazələrinin həyət sahəsində basdırılması adətləri Kərküklü soydaşlarımızdan qalaraq, haliyyədə Gürcüstanda yaşayan müsəlman kəndlərində davam etdirilir).

Şəhərin mötəbər şəxslərinin tələbi və qazinin fitvası ilə Mir Əlinin də cənazəsinin sümükləri qəbrstanlıqdan gətirilərək daxmada yenidən torpağa basdırılmışdır.

Həmin daxma xalq arasında Mir Yəqub piri adı ilə İnsanların inanc yerinə çevrilmişdir.

1955-60-cı illərədək Mir Yəqub pirində qurbanlar kəsilib ehsanlar verilərdi.

Xədicəbəyim piri

Pir binası, Naxçıvan şəhərindəki şəhid A. Tarverdiyev küçəsində "Zaviyə məscidi"ndən 100 metr cənub tərəfdədir.

Bir əsr öncə həmin ərazidə ("Təbriz"lə "Zaviyə" məhəllələrinin kəsişdiyi yerdə) şəhərdəki mötəbər adamlar evlər tikmiş, orada tacir və baqqal dükanları, bazar meydanı və karvansara binaları salmışlar.

1960-cı illərdə ərazidə söküntü aparılaraq yerində beşmərtəbəli ictimai binalar tikilmişdir. Söküntü zamanı pirin yeri "müqəddəs" ziyarətgah kimi xalq tərəfindən qorunub saxlanılmışdır. Xədicəbəyim pirinin yaranma tarixi dəqiq məlum olmasa da yaşlı nəslin söyləmələrinə əsasən, pirdə qadın məzarı olmuş, baş daşı üzərində ərəb əlifbası ilə "Mömünə Xədicəbəyim" sözləri yazılmışdır.

Tarixdən məlumdur ki, Mömünə Xədicəbəyim adlı nüfuzlu qadın, Ərdəbilli Şeyx Səfinin oğlu Şeyx Cüneydin zövcəsi (arvadı) olmuşdur (M. Nemət "Azərbaycandakı pirlər". Bakı-1992. C. Zeynaloğlu "Müxtəsər Azərbaycan tarixi". Bakı-1992. F. Kərimzadə "Xudafərin körpüsü" (tarixi trilogiya). Bakı-1982-87).

Naxçıvan şəhərində orta əsrlər dövründə imkanlı feodal nəslindən olmuş şəxslərdən bir neçəsi xeyriyyəçilik etməklə məscidlər (ziyarətgahlar) tikdirmişlər.

Xədicəbəyim Şah İsmayılın ata nəslindən olan Şiyə müsəlmanlarının yeddinci imamı Museyi Kazımın şəcərəsindən ehtimal olunur. Mömünə Xədicəbəyim savadlı və xeyirxah olduğundan, xalq arasında ona "Xədicə kübar" (Xədiceyi-kübara) adını da demişlər.

Çox təəssüf ki, mərhumənin məzarı üzərində tarixi lövhə əllinci illərdə götürüldüyündən haliyyədə onun şəxsiyyətindən dəqiq məlumat vermək mümkün deyildir.

Pirdəki məzar yeri uzun illər baxımsızlıq üzündən yaddaşlardan çıxmaqla goreşən nadanlar tərəfindən sökülmüşdür.

1995-ci ildə xeyriyyəçi B. Surxay oğlunun vəsaiti ilə pirdə yenidən qurma-təmir işləri aparılmış, qəbr yeri düzəldilmiş və üzərində piramida şəkilli sərdabə binası tikilmişdir. Tikintidə mərhum Hacı Məzahir İsmayıl oğlunun məsləhətləri ilə Naxçıvan MR Nazirlər Kabineti dini işlər və şəhər icra hakimiyyəti memarlıq şöbələri müvəkkillərinin icazələri əsasında layihə işləri həyata keçirilmişdir.

Pir sərdabəsini mömün bənna Kərbəlayi Qəhrəman Əli oğlunun zəhməti ilə inşa edilmişdir.

Pirin yerdən hündürlüyü 14 metr olaraq 8 üzlü piramida şəkillidir. Sərdabənin 7 divarında yuxarıdan kiçik ölçülü pəncərələri və ön tərəfdə isə iki tağlı qapısı vardır.

Pirin içərisində döşəmədə (1 metr hündürdədir) simvolik formada məzar yeri qurulmuş, içərisi elektrik fənəri ilə işıqlandırılmışdır.

Sərdabənin qapısı üstündə divarda “Xədicəbəyim piri” sözləri yazılmış kaşı lövhə vurulmuşdur.

Pirdə tez-tez məhəllə adamları tərəfindən pir sahibinə Quran oxunur, ehsanlar verilir.

> *“(Ey insanlar!) Gəlin Allaha səcdə edin. (Allaha) ibadət edin!” (Ondan başqasına itaət etməyin!)*
>
> **(Nəcm surəsi, 62)**

Fatiməbəyim piri

Pir Naxçıvan şəhərindəki Əlixan məhəlləsindəki (Əzizbəyov və 20 yanvar küçələrinin birləşdiyi yerdə) köhnə qəbrstanlıq ərazisindədir.

Fatiməbəyim piri haqqında məhəllənin yaşlı qadını mərhumə Həcər xanım Məşədi Əbdül qızının söyləməsinə görə 30-40-cı illərdə İrandan (Cənubi Azərbaycanın ərazilərindən) Naxçıvan şəhərinə mühacirlər gəlmişlər. Onlar şəhərin ayrı-ayrı

məhəllələrində firavan yaşamış, adamlara qaynayıb qarışmışlar. Gəlmələrdən biri də Səyyid Əbdüllah adlı mömün şəxs ailəsi ilə birlikdə Əlixan məhəlləsindəki Məşhədi Yusif kişinin həyətində (indiki 20 yanvar küçəsi, ev № 25) yaşamışdır. (Haliyyədə ev baxımsızlıqdan uçub-dağılmaqdadır.)

Həmin illərdə Naxçıvandakı "İranlı mühacirlərə" demokratlar damğası vurulmaqla müxtəlif təzyiqlər göstərilmişdir (1935-ci ildə İran Azərbaycanında demokratik xalq hərəkatı güclənərək, Sovet Azərbaycanı ilə birləşmək imkanı yaransa da, İ. Stalin tərəfindən qadağalar tətbiq olunmuşdur). Əlacsız qalan Əbdüllahın ailəsi təkrar İrana köçməli olmuşdur.

1939-cu ildə Mirəbdüllahın Fatimənəyim adında qızını İrandakı yaşlı ruhaniyə siğə edirlər (İslam dinindəki müvəqqəti (müddətli) nigah forması). Bir ildən sonra Fatimənəyimin ərindən oğlu olur. Iranın irticaçı şah rejimi "Şurəvidən dönmüş" vətəndaşlara qarşı amansız cəza tədbirlərinə başlayırlar.

Fatimənəyimin valideyinləri İran xəfiyyəsi tərəfindən tutulur sorğu-sualsız zindana salınırlar. Bundan qorxuya düşən Fatimənəyimin əri arvadının talağını geri qaytarır, uşağı da anasından aldırır (İslam dinindəki hər növ nigahların pozulması forması).

Iranda iztirablar keçirən Fatimənəyimi xeyirxah adamlar tərəfindən təkrar Naxçıvana gətirirlər. Naxçıvanda Fatimənəyimin əvvəllər yaşadıqları həyət sahibi Məşhədi Yusif kişi tərəfindən himayəyə alınır.

Çox çəkmir ki, tale Fatimənəyimin üzünə gülməyərək himayədarı mömün həyət sahibi dünyasını dəyişir. Tənha qalan Fatimənəyimə məhəllənin xeyirxah qonşuları tərəfindən maddi köməkliklər göstərilir. Qonşusu Səriyyə İmran qızı (nağılçının anası) Fatimənəyimlə siğə bacı olaraq ona maddi və mənəvi köməkçi olmuşdur.

Yeganə körpəsinin həsrətini çəkən Fatimənəyim 1956-cı ilin soyuq qışında ömrünün 42-ci ilində dünyadan köçür.

Fatimənəyim Mir Əbdullah qızının cənazəsini məhəllənin adamları tərəfindən dəfn edilmiş və məzarı ziyarətgaha çevrilmişdir. . .

1998-ci ilin 11 mart tarixində məhəllə mömünlərinin xahişini nəzərə alan xeyriyyəçi T. Allahverdi oğlu tərəfindən səyyid məzarının üstündə sərdabə tikdirilmişdir. Sərdabənin tikilməsinə nadan "gor eşənlər" tərəfindən məzar yerinin sökülməsi səbəbi olmuşdur.

Məzarüstü sərdabənin tikintisini bənna Kərbəlayi Qəhrəman Əli oğlu tərəfindən inşa edilmişdir.

Sərdabə səkkiz üzlü piramida şəkilli hündürlüyü 8 metr bişmiş kəpiclə hörülərək içərisi də gəclə suvanmışdır.

Səkkiz üzlü sərdabənin 7 divarında 80x50 sm. ölçüsündə kiçik pəncərələri, bir üzündə isə qapısı vardır.

Altı diametrlik döşəməsində ortada simvolik məzar yeri qoyulmuşdur ki, əsas məzar ərazinin relyefinə görə iki metr dərində qalmışdır.

Pirin ətraf sahəsi abadlaşdırılmış, elektrik işığı ilə təchiz olunmuş, giriş qapısı üzərində divarda kiçik lövhə vurulmuşdur.

1996-cı ildə pirdəki məzar üstündə bir gəncin hönkürərək ağlamasının şahidi olmuşlar. İranlı oğlan mərhumənin oğlu kimi, məhəllə sakini Səfər Hacı İbrahim oğlunun qonağı olmuşdur.

> *"(Quran) yaxşı əməllər edənlərə bir hidayət və rəhmətdir."*
>
> **(Loğman surəsi, 3)**

"Süddü nənə" piri

Həmin pir, Naxçıvan şəhərindəki Şahab məhəlləsində B. Hüseynov (keçmiş Firdovsi) adına küçədə şəxsi həyətdədir.

"Süddü nənə" adı ilə şöhrət tapmış pir yerində böyük qara meteorit daşı vardır (V. Baxşəliyev "Pirlərlə bağlı miflər və inanclar." Bakı-2006).

Daşın çəkisi 25 kq, ölçüsü 17x43x53 sm-dir.

Göydən düşmüş meteoritin forması qadın bədəninin sinə hissəsinə bənzədiyindən ona "nənə" (ana) adını vermişlər.

Nadir səma cismi təəssüf ki diqqətsizlikdən "döşlərin" ortasından çatlayaraq sınmışdır. Qara daşın qoyulduğu taxçada 8 ədəd kiçik yumurtavari meteorit daşları vardır ki, həyət sahibinin söyləməsinə görə həmin daşlar sonradan qoyulmuşlar.

"Süddü nənə" pirinin yaranması tarixçəsini belə söyləyirlər:

Orta əsrlərdə ərəb xilafəti Naxçıvanda İslam dinini yayarkən həmin məhəllədə ilk məscid binalarını tikmişlər. (Pirqəmişlə Şahab məscidləri). Tezliklə şəhərdəki Pirqəmiş məscidi şöhrət taparaq mömünlərin toplantı yerinə çevrilmişdir. Məhəllədə Bağdatdan gələn müşteidlər ev tikdirərək burada sakin olurlar. Onlar səyyid (toxunulmaz şəxs) adlandırılaraq şəhərdəki əhaliyə müsəlmançılığın qanunlarını təbliğ edirlər. Onlardan biri də, Əbu Əsədullah Mirağa sülaləsindən olanlardır.

Səyyid Əsədullah tayfasındakı sülaləsinin onüçüncü tayfa başçısı olmuşdur ki, onun Naxçıvanlı zövcəsindən (qadınından) Heydər adlı oğlu olmuşdur.

Mir Heydər Ağa evlənərək Həbib adlı oğlu olmuş. Mir Həbibin isə İsmayıl adında varisi (oğlu) həyata gəlmişdir.

On doqquzuncu əsrin axırlarında Mir İsmayıl ağa Naxçıvanda feodal nəslindən olan xalq nüfuzlu səyyidlərdən olmuşdur.

Mir İsmayıl ağanın Heydər, Cəlal, Cəmal, Ruhi və İsfəndiyar adlarında oğlanları, Səkinə adında isə qızı olmuşdur.(Sülalənin məzarları Yusif Küseyir oğlu məqbərəsi ətrafında olmuşdur.)

Haliyyədə “Süddü nənə” pir həyətində mərhum Mir Həsən Mir İsmayıl oğlu ilə arvadı Rübabə xanım Mir Ələkbər qızı qalmışlar.

Mir Həbib Ağanın birinci övrəti (arvadı) öldükdən sonra Rübabə adlı kənizindən Xanımla Tovuz adlarında uşaqları olmuşdur.

Mir İsmayıl ağanın oğlu Mir İsfəndiyarın (İ. Əsədullayev 1960-70-ci illərdə isə Ədəbiyyat muzeyinin rəhbəri vəzifəsində işləmişdir) söyləməsinə görə (familiyası Əsədullayev olmuşdur) səma “qonağı”nın yerə düşməsi və həyət yerinin sonradan pirə çevrilməsini atasından eşitmişdir.

Keçmiş vaxtlarda (XVIII əsrin doxsanıncı illərində) sübh əzanı vaxtı, göy gürüldayaraq şimşək çaxmış və leysan yağışı yağmışdır.

Güclü şimşək çaxmasından həyətə göydən odlu kütlə düşərək torpağa batmışdır. İldirim düşən yerdən uzun müddət bitki bitməyərək çuxur şəklində qalmışdır.

Bir gün Qurban bayramı ərəfəsində həyət sahibi Mir İsmayıl ağa yuxusunda həyətdəki ildırım düşən çuxurdan iniltili qadın səsinin nailəsini eşitmişdir.

Həmin yuxu görməni bir neçə dəfə təkrar etdiyindən həyətdəki çuxur yerini qazaraq və torpaq altından (qazılan yer indi su quyusudur) qara daşı tapıb çıxarmışdır.

Həmin vaxtan da, formasına görə "Süddü ana" (nənə) adlanan daş müqəddəs bilinmişdir.

Həyət sahibi daşın tapılmasından sonra Allahdan qorxaraq hər il həyətində qurbanlar kəsib ehtiyaclılara ehsan edərmiş. . .

Haliyyədə əvvəlki həyətin forması dəyişilsə belə "süddü nənə" deyilən daş divardakı taxçada ehtiramla qorunmaqdadır.

Əvvəllər "Süddü nənə" pirinə gələn ziyarətçilərə həyət sahibi mərhum Mir Həsən Mir İsmayıl oğlunun ikinci arvadı Səmayə xanımın xidməti olmuş, Bakıda yaşayan oğlunun yanına getdiyindən pirin şöhrəti itirilmişdir.

"Müqəddəs məzarlar"

Naxçıvan şəhərindəki Qoçüstü məhəlləsinin Sabir küçəsində (döngə 6, ev № 8) yaşlı mömün məşhədi Məhərrəm Binət oğluna məxsus mülk yerində "Müqəddəs məzarlar" piri vardır.

Həyətə darvazadan girərkən sağ tərəfdə alçaq iki pəncərəli ev (daxma) vardır. Burada 500 kvadrat metr sahəsindəki həyətin sağ tərəfində qonşu divarına yapışıqlı kiçik "əl damı"da tikilmişdir.

Həyətdəki topaq əkin üçün yararlı olsa belə baxımsızlıqdan həyət sahəsini alaq otları basmışdır. Bütün bunlara səbəb isə həyət sahibinin təkidilə söylədiyi müəmmalı yuxu yozmaları olmuşdur.

Məhərrəm kişnin yuxularında gördüklərinə əsasən ərazidə müqəddəs şəxslərin dəfn olunduğu məzar yerləri olmuşdur. Tarixi keçmişlərə nəzər salındıqda həqiqətən də, həmin ərazilərdəki məzarlıqları burada gedən qanlı-qadalı müharbələr dağıdaraq yaddaşlardan silmişdir.

Məhərrəm kişi əslən Qarabağlar kəndindən olan etiqadlı möminlərdəndir. O, neçə illərdir ki, dərvişliklə özünü xalqa tanıtdıraraq bir təhər günlərini keçirir.

Məhərrəm kişi həyət sahəsində ev tikərək burada yaşadıqdan az sonra yuxularında ona adları çəkilən "müqəddəs şəxsiyyətlərin" dəfn olunduğu məzar yerləri bildirilmişdir. Bu işdən bir müddət narahat olsa belə, lakin yuxularını heç kəsə söyləməmişdir. Bununla belə yuxu görmələr bir neçə dəfə təkrar olunduqdan sonra əlacsızlıqdan özü-özünə

həyətlərindəki məzar yerlərini bərpa etmiş və hətta mərhumların adlarını da yazıb bildirmişdir.

Məhərrəm kişinin aşkar etdiyi müəmmalı "Müqəddəs məzarlar"ın bir neçəsi həyətin sol tərəfində və hətta binaların içərisinə düşmüşdür.

Sement daşla hörülmüş məzarların, baş daşlarında ölənlərin adları aşağıdakı kimidir:

1) Siyan ibn Araun, 2) Araun ibn Merin, 3) Merin ibn Akim, 4) Akim ibn İsak, 5) Nun ibn Şəmun və sairədir.

Göründüyü kimin məzar yazılarından "məlum olmuş" ki, (?) mərhumlar eyni kökdən (qəbilədən) olanlarmış.

Məhərrəm kişinin yaşı doxsana çatsa da, iti gözləri, yaddaşı möhkəm və qaməti də şuxdur. Qocanın söyləməsinə görə dəfələrlə yuxularında ona üzü niqablı qara-geyimli bir şəxs tərəfindən məzar yerləri ilə ölənlərin adlarını bildirmişdir.

Tarixi keçmişlərə nəzər yetirdikdə, həqiqətən orta əsrlərin əvvəllərində orada (ərazidə) Nəşəvi şəhərinin məzarlıq yeri olmuşdur. İslamdan öncə dəfn olunan şöhrətli adamların cəsədləri küplərdə basdırılırdı.

Pir həyətindəki məzar yerlərində möcüzəvi hadisə (görsənti) baş verməkdədir. "Müqəddəs məzarlara" gəlib baxanlar oradakı qəribəliklərin şahidi olurlar. Məzar yanındakı quru torpaq üzərində müəmmalı heroqlif yazılara rast gəlinir. Alban əlifbasına oxşar yazıları süpürməklə onlar möcüzəvi şəkildə yenidən peyda olurlar.

Bütün bunlar isə pirə gələnləri heyrətləndirərək düşündürür.

> *"Şübhəsiz ki, Allah göylərin və yerin qeybini bilir. O, ürəklərdə olanları da biləndir!"*
>
> **(Fatir surəsi, 38)**

Həyətə gələn ziyarətçilər (darvaza qaısı həmişə açıq saxlanılır) niyyət etdikləri ianə nəzirlərini açıq qapısı olan otaqdakı pəncərələrə qoyub gedirlər. Ayda bir dəfə həyətinə baş çəkməyə gələn Məşhədi Məhərrəm kişi qoyulmuş ianə qoyanlara dualar edir.

Son illərdə məlum olan "Müqəddəs məzarlar" piri, Naxçıvan MR Tarixi və arxeoloji abidələr cəmiyyəti tərəfindən qeydə alınaraq Mədəniyyət və Turizm Nazirliyinin

mütəxəssisləri baxmışlar. Çox yaxşı olardı ki, ərazidə arxeoloji qazıntılar aparılaraq mütəxəssislər tərəfindən elmi şəkildə öyrənilərdi.

Pir Ömər Nəşəvi ziyarətgahı

Naxçıvandakı Pir Ömər sərdabəsi orta əsrlərdən qalma pir yeridir.

Pir yeri şəhərdəki Sarbanlar məhəlləsindəki İslam Səfərli küçəsi 24 № -li evin həyətindədir. Orada üç böyük (2x4,5 m) romb formalı daş parçaları olmuş, onlardan birini, əvvəlki həyət sahibi qırıb-dağıtmış, sürdüyü avtomaşın faciəvi sürətdə yanıb külə dönmüşdür 14-cü əsrin tarixçisi Z. Qəzvinin "Zeybe tarix-e qozide" (seçilmiş tarix) kitabında Naxçıvandakı həmin pir haqqında məlumat verilmişdir. Cəlairlər dövlətinin (1341-1431) şahzadəsi Sultan Əhmədin (1382-1410) hakimiyyətə qarşı mübarizəsi dövrlərində pirdəki qəbr üstü sərdabə dağıdılaraq oradakı əlyazma kitabları qarət olunmuşdur.

Naxçıvanlı yaşlı adamların söyləmələrinə görə keçən əsrin iyirminci illərinədək pir yeri bərpa olunaraq ziyarətgah olmuşdur. Təpəlikdəki mövcud pirin ətrafında müsəlman qəbrstanlığı ilə Sarbanlar məhəllə məscidi də, olmuşdur. Naxçıvanda Rus hakimiyyəti başladıqdan sonra ateist təbliğatı güclənməklə oradakı sərdabələr sökülmüşdür.

Rus əsgərlərinin əli ilə Naxçıvandakı "Pir Ömər" sərdabəsi uçurulmuş, qəbr yeri dağıdılmış və söküntüdən çıxan kərpicləri sərhəd qoşunlarına qazarmalar tikmişlər.

Uçurulmuş sərdabə ilə məzar, dövrünün üləmalarından və Sarbanlar məhəllə məscidini tikdirən xeyriyyəçi, şöhrətli şəxs mərhum Şeyx Ömər Nəşəvinin olmuşdur.

Məhəllənin yaşlı adamları pir yerləşən həmin həyətə gələrək orada şam yandırıb pir sahibinin ruhuna dualar oxuyar, həyət sahibi Mehdiyev Bəşir Yusif oğluna Allahdan rəhmət diləyərlər.

> *"Rəbbimiz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!"*
>
> **(Mömün surəsi, 60)**

FƏSİL 4

Babək rayonundakı ziyarətgahlar

1979-cu il tarixdən Naxçıvan rayonu, Babək adı ilə əvəz olunmuşdur.

Rayonun ümumi sahəsi 0,9 min km2 (2005-ci ildən), əhalisi isə 66 min nəfər (2005-ci ilin statistik məlumatı) olaraq məşğuliyyətləri əkinçilik və heyvandarlıqdır. Rayonun təkcə Nehrəm kəndinin yaşlı qadınları İslam dinindəki hicaba əməl edirlər.

Babək rayonunun ərazi relyefi cənuba tərəf meyillidir. Yüksək yerləri Sarı dağ (1725 m), Əshabi-Kəhf dağı (1665 m), Qaş dağı (1395 m), Duz dağı (1153 m) və ən alçaq sahəsi Araz çayı sahilidir ki, okean səviyyəsindən 600 metr yüksəkdədir.

Babək rayonundakı Araz çayı üzərində 1965-ci ildən bənd tikilərək gücü 40 meqavat/saat olan SES qurulmuşdur.

Bənd tikilərkən əmələ gələn "dəryaça"da XII əsr Astaabad şəhər xərabəlikləri ilə Təzə kənd (Qızıl Vəng), Yəmxana, Bulqan və Qaraçuğ kəndləri su altında qalmışdır.

Ərazidə Araz dəryaçasına Naxçıvan çayının suları tökülərək hidro yardım göstərir.

Rayonun mərkəzi Babək qəsəbəsi, Naxçıvan şəhərindən 8 km cənubda yerləşir.

1965-ci ildən həmin qəsəbə yerində yeni tipli çox mərtəbəli binalar tikilmiş, əvvəlki Təzə kəndlə Yəmxana kəndlərinin əhalisi ora köçürülmüşdür.

Rayon mərkəzində son illərdə yaraşıqlı məscid binası tikilib istifadəyə verilmişdir.

Babək rayonunda qədim İnsanların yaşayış məskənləri olmuşdur. Belə ki, Ocaqtəpə, Quyulu dağ, Vayxır nekropolları, Kültəpə kəndindəki yaşayış yerləri eramızdan əvvəl V-I minilliklərin yadigarıdırlar. Bundan başqa Gərməçataq kəndindəki Ağdaban şəhər xərabəlikləri eramızdan əvvəl I min illiyə aiddir (Q. Həsənov "Nax. MSSR-in tarixi və arxeoloji abidələri". Naxçıvan-1988. səh. 10). Adı müqəddəs Quranda çəkilən Əshabi-Kəhf mağarası Eramızdan əvvəl VII əsrdən qalmışdır.

Duzdağ mədənindəki mövcud mağaralar eramızdan əvvəl II-I minillik əsrlərin yadigarıdır.

Təəssüf ki, ticarət mərkəzi olan qədim Astaabad şəhəri orta əsrlərin XII-XIX yüzilliklərində inkişaf etmişsə də, (Şeyx Nəiminin vətəni) öyrənilmədən Araz çayı

dəryaçasında qalmışdır.

Babək rayonu ərazisində eramızdan əvvəl V-I minilliklərə aid kurqan və nekropollar çoxdur.

Mineral bulaqları ilə də, (Vayxır, Sirab və s.) şöhrət tapmış müalicəvi suları İnsandakı qastiritlər, mədə-bağırsaq yaraları, xroniki kolit və xolesitit, yuxarı tənəffüs yollarının xroniki iltihabı, podoqra, piylənmə, şəkər diabeti və digər xəstəliklərə şəfa verir.

Babək rayon mərkəzi ilə bir çox kəndlərdə məscidlər tikilmiş, İslam mənəviyyatı olan ziyarətgahlar xalqın tarixi sərvətinə çevrilmişdir.

Nehrəm kəndindəki ziyarətgahlar

Nehrəm kəndi Babək qəsəbəsinin 4 km cənub məsafəsində yerləşir, əhalisi 12.439 nəfərə (2005-ci il st.məl.) çataraq üzümçülük və heyvandarlıqla məşğuldurlar. Nehrəm kəndində əhalinin bir-biri ilə etnik qohumluğu digər kəndlərə görə fərqləndiyindən doğulanların göz piqmentləri qonurluqdan maviliyə, tük örtükləri isə qəhvəyidən-sarı rənginə məruz qalmışdır. (Belə fizioloji dəyişikliklər Sədərək qəsəbəsindəki əhalidə də, rast gəlinir.)

Nehrəm kəndinin adının yaranması əvvəllər kəndin içərisindən axıb gedən “Nəhrab” (Böyüksu) çayının adından götürülmüşdür.

Haliyyədə həmin çay yatağı qalaraq “çaylax” adlanır.

V-XVIII əsrlərdə Nehrəm çayı ərazisində ilk məskunlaşan Araz sahilindəki Astaabadlı Şeyx Mustafalı tayfaları olmuşlar ki, onlar çayın sağ sahilindəki təpəlikdə (Qumqala məhəlləsində) evlər tikmişlər. Sonradan isə əraziyə Xoydan, Salmasdan, Təbriz və Urmiyədən Hacılar, Sarcalılar, Qarakeyxanlılar, Ocaqqululer, Adıgözəllilər, Hərzənlilər, Asorlar (İrakdan), Sesaranlar, Xoylular və başqa tayfalar da gələrək məskunlaşmışlar.

Nehrəmlilər Muxtar Respublikada yeganə olan qədim Astaabad danışıq şivəsini qoruyaraq saxlamışlar. Onların danışıq ləhcələri yumşaq ahəngdə olaraq sözlərindəki “ç” hərfini “k” kimi tələffüz edirlər.

Kənd əraziləri böyüdükcə müxtəlif məhəllə adları da yaranmışdır. Haliyyədə Nehrəmdə Xəndək, Qumqala, Təpəbaşı, Aşağa, Yuxarı, Çaylax, Hasar, Hasanlı, Bağarası, Dəmirçixana, Azərbaycan, Pircuvar yolu, Qızılvəng yolu və başqa məhəllələr vardır.

Kəndin əhalisi əmək sevər olduğu kimi qoçaq və mərd camaatdırlar. Nehrəmlilər basqınçı erməni quldurlarına qarşı əzmkarlıqla vuruşmuş, ikinci Cahan savaşlarında faşizmə qarşı könüllü sürətdə mübarizə apararaq şöhrət qazanmışlar. Nehrəmlilər ordu komandiri İkinci Dünya Müharbəsinin iştirakçısı polkovnik Nemət Kərimovla, tibb elmləri namizədi Cabbar Cəfərovla, həkim Əqil Mehdiyevlə, əmək qəhrəmanı Əliqara Əliyevlə, Mirzə Cəlilin qızı Münəvvər xanım və başqaları ilə fəxr edirlər.

Nehrəmlilərin əksəriyyəti həkimlik peşəsini seçərək xalqın sağlamlığı keşiyində durmuşlar.

Bir vaxtlar Nehrəm kənd məktəbində müəllim işləmiş böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin (1866-1932) ev muzeyi fəaliyyətdədir.

Nehrəmlilər İslam dininə daha çox bağlandığından kənddə qədimdən qalma 6 sayda məhəllə məscidləri fəaliyyət göstərməkdədir.

Kəndin ərazisində inanc yerləri olan pir və ziyarətgahlar da vardır ki, onlardan kənddəki "imamzadə ilə qəbrüstü sərdabə", "Qızılburun" dəmir yolu stansiyasındakı Tunc dövrünə aid "Ölən şəhər" xərabəlikləri tarixi abidəni göstərmək olar. Adı müqəddəs Quranda çəkilən qədim Tərsus şəhərinin xərabəlikləri olan "ölən şəhər" əraziləri sərhəd zolağına düşdüyündən ora getmək müşküldür.

Səyyid Əqil sərdabəsi

Nehrəm kəndindəki qədim qəbrstanlıq ərazisində Səyyid Əqilin məzarüstü sərdabəsinə "imamzadə" də, deyirlər. İmamzadə XVII-XVIII əsrlərdə tikilərək məscid olmuşdur.

Səyyid Əqil pirinin yaranması və sonradan məzarüstü sərdabənin tikilməsi tarixcəsini kənd sakini Kərbəlayi Məhəmməd kişi ata babasının söylədiklərini belə xatırlayır: İslam xəlifəsi Abbasilərin dövründə imam övladları təqib olunmuşlar (İslam xəlifəsi Harun-ər Rəşid ibn Abbasın hakimiyyəti (miladi tarixi ilə 786-809-cu illər) zamanında şiə müsəlmanlarının 7-ci imamı Həzrət Musa-Kazım zəhərləndirildikdən sonra onun övladlarını təqib etmişlər).

Şiə müsəlmanlarının 7-ci imamı həzrət Musa Kazimin ovladlarından Səyyid Əqil hicri tarixi ilə 225-ci ilədək indiki Nehrəm ərazisində gəlib yaşamış, orada da vəfat etmişdir. Həmin əraziyə köçüb gələn Şeyx Mustafalı tayfası mərhumun xatirəsini əziz tutaraq qəbirinin üstündə sərdabə tikmişlər.

Sərdabənin içərisində divarda ərəbcə “Ya rəbb, Ya Məhəmməd, Ya Əli” sözlərini yazmışlar. Digər divarda isə çərçivədə “Ya Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn” sözləri ilə “1138” (miladi 1725) tarixi yazılar da, vardır.

Tarixdən məlumdur ki, həmin sərdabənin tikilməsi Səfəvi hökmüdarı II Təhmasib şahın zamanında olmuşdur.

Sərdabənin içərisində digər bir ərəbcə yazılmış “. . . hərfləri Mehdi yazdı, (Şiə müsəlmanlarının 12-ci imamı Səccad Mehdi (ona həmd və salam olsun!) nəzərdə tutulur.”). 1138 Sözü vardır ki, “Mehdi” nəqqaşın adı da ola bilər?

Haliyyədə sərdabə binasının kümbəzi altında yerdə üstü qara örtüklü məzar vardır.

Hər il Nehrəm kəndindəki Səyyid Əqil pirinə gələn zəvvarların sayı çoxalır. Maraqlıdır ki, buraya İranla Türkiyəli ziyarətçilər gəlirlər.

Nehrəmlilər son illərdə pirə gələnlərin artmasını nəzərə alaraq orada müasir üslubda iki məscidlə istirahət otaqları (mehmanxana) tikmişlər. Pirə elektrik və su xətləri çəkilmiş, ətraf ərazisi abadlaşdırılmışdır.

Məlumat üçün bildirilir ki, Səyyid Əqilin qardaşları Səfi (Səffan) Ordubadın Düyülün kəndində, İbrahim Şərurun Xanlıqlar (Parçı) kəndində,Əhməd Zəngəzurun (Mehri rayonunda) Bufçar kəndində və Qasım isə İranın Sofiyan qəsəbəsində dəfn olunmuşlar. İmam övladlarının bacıları Hökümə xanım Abşeron rayonundakı Şıx kəndində, Rübabə xanım isə İraq ərazisində dəfn olunmuşlar (Bu barədə ayrı-ayrı tədqiqatçılar arasında fikir ayrılığı yaranmışdır. (Bax, H. F. Səfərli “Naxçıvan ziyarətgahları”. Bakı-1998. səh. 14, M. Nemət “Azərbaycan pirləri”. Bakı-1992. səh. 34).

> *“Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, (Allah) sizə Öz mərhəmətindən iki pay versin, sizə (Sirat körpüsündə) getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir!*
>
> **(Hədid surəsi, 28)**

Sirab kəndindəki ziyarətgahlar

Sirab kəndi Babək rayonunun mərkəzindən 14 km şimalda, okean səviyyəsindən isə 1000 metr yüksəklikdə yerləşmişdir.

Kəndin şimal-qərbində Sarı dağın (1725 m) ətəyindən soyuqsulu mineral-karbonatlı bulaqlar çıxır. Orada Borjom tipli 23-dən çox mineral bulaqlar vardır. Həmin mədən bulaqları e.ə. III-I minilliklərə aiddir.

Sirab kəndində 5 məscid binası olsa da əhalinin yalnız yaşlıları namaz qılırlar. Kənddə 2 min 730 nəfər (2005-ci ilin st. məl.) əhali yaşayaraq yalnız heyvandarlıqla məşğuldurlar.

Kəndin adının yaranması ərazidəki çoxsaylı yer təkindən çıxan "qazlı sular"la əlaqədar "sirrli su" sözündən götürülmüşdür.

Sirab kəndində haliyyədə bir neçə ziyarətgahlar vardır. Sirab kəndindəki nekropol XII-XVII əsrlərə aiddir.

> *"Yerdə və göylərdə heç bir şey Allahdan gizli qalmaz."*
>
> **(İmran ailəsi surəsi, 5)**

Səyyid Hüseynlə Səyyid Həsən piri

Həmin pir yeri Sirab kəndi ərazisində yerləşən XII-XVII əsrlərə aid köhnə qəbrstanlıq ərazisindədir. Orada dağ daşları ilə hörülüb tikilmiş kiçik daxmada iki məzar yeri vardır. Məzarların üstləri qara parça ilə örtülərək birində "Səyyid Hüseyin", digərində isə "Səyyid Həsən" sözləri yazılmış lövhələr qoyulmuşdur.

Pirin yaranması haqqında kənddəki möminlər belə söyləyirlər ki, keçmiş vaxtlarda Şərq ölkələrindən Naxçıvandakı müqəddəs Əshabi-Kəhf ziyarətgahına gələnlərdən iki nəfər Hüseynlə Həsən ərazidəki "möcüzəvi" mineral bulaqları görərək həmin sulardan içməklə özlərindəki xəstəliklərini aradan götürmüşlər. Onların bu kəndə gəlişindən sonra yerli əhali həmin sulardan istifadə etmiş və xeyrini görmüşlər. Kənddə qalıb yaşayan Hüseynlə Həsən əhaliyə mənəvi kömək etməklə arzusunda olanlara Ərəb əlifbası ilə yazıb-oxumağı öyrətmişlər. Səyyid "qardaşlar" kənddə qalıb səvab işlərlə vacib əməlləri (Vəfat edənlərin dəfn mərasimində təmənnasız iştirak etmək səvab işlərdəndir.) yerinə yetirərək xalqın hörmətini qazanmışlar. Bundan başqa dindar qardaşlar kənddəki məsciddə xütbələr oxuyaraq Quran kəlamlarını mömünlərə açıqlayardılar.

Hüseyinlə Həsən bir müddət kənddəki məscidlərdə yaşayaraq əcəlin hökmü ilə dünyalarını dəyişmişlər. Kəndin mömünləri onların məzarlarını yanaşı basdıraraq üstündə kiçik tikili tikmiş və bayram günlərində orada şam yandırıb ziyarət edərlər.

> *Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunan şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar. İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi olacaqlar."*
>
> **(Bəqərə surəsi, 81-82)**

"Ağac piri"

"Ağac piri" Sirab kəndinin mərkəzindəki XIX əsrdə tikilmiş məscid binasının yanındadır.

Pir yeri dağ daşlarından tikilərək kiçik daxmadan və içərisindəki məzardan ibarətdir.

Daxmanın qarşısında yolun kənarında qurumuş tut ağacının kötüyü qalmışdır ki, həmin ağacı pirdəki məzarda dəfn olunmuş Mir Ağa adlı şəxs əkmişdir. Tutun kötüyündəki yumru halqaların sayı 99-u keçdiyindən belə çıxır ki, təxminən 100 ildən öncə həmin tut ağacı orada əkilmişdir.

1930-cu ilərdə kolxoz sədri tərəsindən "Pirağacı" kəsdirilmişdir.

Daxmadakı məzar sahibi Mir Ağa (mərhumun əsl adı naməlumdur) keçmiş günlərdəki Əshabi-Kəhf ziyarətçilərindən olan əcnəbi müsəlmanlarından olmuşdur.

Kəndin yaşlı adamları bildirirlər ki, Mir Ağa kənddəki məscid binasını xeyriyyəçiliklə tikdirərək adamları İslam dininə cəlb etmişdir. Kənddə bivaris yaşayan Mir Ağanın vəsiyyətinə görə məhz yaşadığı məscidin həyətində dəfn etmişlər. Sonradan məzar üstündə kiçik "sərdabə" tikilərək məzarının qarşısındakı əkdiyi tut ağacını pir kimi ziyarətgaha çevirmişlər.

Maraqlıdır ki, "Ağac piri"ndə əvvəllər olduğu kimi indi də, nəinki Sirab əhalisi hətta ətraf kəndlərdən pirə gələrək orada qurban kəsib ehsanlar verirlər.

> *"Yer üzündə olan hər kəs fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir.*
> *Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?!"*
>
> **(Rəhman surəsi, 28)**

Səyyid Tağı piri

Pir Sirab kəndindəki eyni adlı çayın sağ sahilində XVII əsrdən qalma daxmadadır.

Daxmadakı məzar üzərində ərəbcə "Kərbəlayi Səyyid Tağı" sözləri yazılmış kitabə vardır. Kənddəki yaşlı sakinlər pirin qəribəliklərindən həvəslə danışırlar ki, otuzuncu illərdə pir binası koxoz idarəsi olduğundan oradakı məzar yeri sökülmüşdür.

Son illərdə pirdəki məzar bərpa edilərək ziyarətgaha çevrilmişdir. Kəndin xeyirxah möminləri bayram günlərində pirdə qurbanlar kəsdirib, ehtiyaclılara ehsanlar paylayarlar. Ehtimal etmək olar ki, mərhum Səyyid Tağı da şərq ölkələrindən gəlmə möminlərdən olmuş, vəsiyyətinə görə kənddəki mömünlər tərəfindən onun şəxsi həyətində dəfn etmişlər.

"İnamın olmasa Tanrıya, dinə,

Bağında ot bitər gül əvəzinə.

Görmək istəməsən fəryadı, ahı,

Yadından çıxmasın haqqən dərgahı."

(Ə. X. Dəhləvinin (1253-1325) şeiri ixtisarladır.)

Xaraba məscid ziyarətgahı

Sirab kəndinə girəcəkdə XVII əsrdə tikilmiş məscid binası vardır ki, kəndin əhalisi orada Quran oxuyub dualar edirlər. Bayram günlərində diqqətlə qulaq asıldıqda xarabəlikdən İnsan iniltilərinin imdad səsləri eşidilir.

Sovet dövrlərində həmin məscidə əhali arasında "cinli yer" kimi bildirilmiş, son illərdə isə ziyarətgaha çevrilmişdir.

Əsl həqiqətdə isə xaraba məscid ziyarətgahı sirablıların unudulmaz mənəvi məzar yeridir.

1918-ci ildə azərbaycan türklərinin qanına susayan millətçi Andranik Ozanyan silahlı dəstəsi ilə Naxçıvanı tuta bilməyərək Siraba gəlmişdir. Ermənilər kəndin əhalisini həmin məscid binasına yığaraq od vurub adamları ilə birlikdə yandırmışlar. Həmin faciənin hadisələrini kənddə olmayanlar sonradan erməni quldurlarının vəhşiliklərinin bir daha şahidi olmuşlar.

Sovet dövləti qurulduqdan sonra yeni nəslin vətəndaşları ermənilərin vəhşiliklərindən xəbərsiz olduqlarından Xaraba məsciddəki həmyerlilərinin şəhid olmalarını unutmuşlar.

Yaxşı olardı ki, müstəqilliyimizin inkişafı illərində Sirab kəndindəki Xaraba məscid ziyarətgahı xeyirxah adamlar tərəfindən abadlaşdırılaraq və orada qanlı-əzablı illərin tarixini yada salan monumental abidə ucaldılardı.

> *"Onlar Allahın nurunu (İslam dinini) öz ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır."*
>
> **(Səf surəsi, 8)**

Qara daş (Əhməd) piri

Həmin pir yeri Babək qəsəbəsindən 8 km məsafədə Naxçıvan çayının sağ sahilindəki Tumbul kəndi ərazisindədir.

Əhalisi Azəri türkləri olan Tumbul kəndində 1595 nəfər (2005-ci ilin st. məl.) vətəndaş yaşayır, əsas məşğuliyyətləri tərəvəzçilikdir.

Kəndin qərb hissəsində köhnə qəbrstanlıq yerində kiçik təbii qaya altında "Qara daş" və yaxud da "Əhməd piri" vardır. (2 iyul 1988-ci ildə Naxçıvanda baş vermiş zəlzələdən pirdəki qaya parçalanaraq uçmuşdur.)

Keçmiş vaxtlarda kəndin əhalisinin mənəvi görüşləri indikindən çox olmuşdur. Belə ki, 1930-cu illərdə Tumbul kəndinin mollası Kərbəlayi Seyfulla (ona Hacı Axund da deyərdilər), hökümət məmurları tərəfindən təqiblərə məruz qalaraq Arazdan İrana keçməli olmuşdur. . .

"Qara daş" (Əhməd) pirinin yaranmasını kəndin möminləri belə danışırlar ki, əvvəllər kənddəki Kənkanlı, Qəmbərli, Səfərli, Gödəkli, Kərpicli, Usubuşağı və digər tayfalar arasında ziddiyyətlər olardı. Tayfalararası savaşlar baş verdikdə kəndin ağsaqqalı mömün Əhməd kişi əli silahlı həmkəndlilərinin qəfil qurbanı olur. Günahkar adamlar öldürdükləri mərhumun meydini sürüyərək aparıb köhnə qəbrstanlıqdakı qayanın altına atırlar.

Ertəsi günü tayfalararası savaşlara son qoyulur. Kəndin mollası Kərbəlayi Seyfullanın sözü ilə ölünü dəfn etmək istəyirlər.

Onlar meyidin atıldığı yerə gəldikdə orada meyit əvəzinə iri qara daşın olduğunu görürlər. Hacı Axund bu işdə Allahın möcüzəsinin olduğunu bildirərək uca səsi ilə minancat verib, kəndlilərini qan tökməkdən çəkindirir.

Tayfalararası barışıqdan sonra hər tayfadan iki yaşar qoçları Allah yolunda qurban kəsib ətini yoxsullara paylayırlar.

O vaxtan Qara daş (Əhməd) pirində hər il ziyarətçilər gələrək qurbanlar kəsib ehsanlar paylarlar.

Haliyyədə pirdəki böyük daşın yanına kiçik qara daşlar da qoyulmuşdur.

Tumbullular bir-birləri ilə qohum olaraq mehriban və səmimi şəraitdə yaşayaraq qonaqpərvərdirlər. Azərbaycanın xalq artisti, prezident təqaüdçüsü, Tümbul kəndinin ağsaqqal müğənnisi, 78 yaşlı Abdulla Babayev musiqi sevərlərin yaxın dostu kimi hamının rəğbətini qazanmışdır.

> *"Şübhəsiz ki, Allah göylərin və yerin qeybini (gözə görünməyən sirlərini) bilir. Allah sizin nə etdiklərinizi görəndir!"*
>
> **(Hucurat surəsi, 18)**

Şeyx İmran (Şahmərdan) piri

Pir yeri (E.ə. I minillik) okean səviyyəsindən 850 metr yüksəklikdə olan Qaraqala kəndindəki köhnə qəbrstanlıqda yerləşir.

Babək qəsəbəsindən Qaraqala kəndinə 15 km-lik məsafədə asfalt yol uzanır. Kəndin əhalisi azəri türkləridir ki, əsas məşğuliyyətləri üzümçülük və taxılçılıq olaraq 568 nəfərdir (2005-ci ilin st.məl.)

Qaraqala kəndinin toponimi keçmişdə burada yabanı halda yayılmış "Qara qora" üzüm növündən götürülmüşdür. (Haliyyədə məhsuldar "Qara qora" ilə "Pişik üzümü" növlərinin kəsilməsi gözlənilir.)

Kənddə haliyyədə Namazlı, Tumurxanlı, Qocalı, Salmanlı və digər tayfalar yaşayırlar.

Qaraqala kəndinin kənarından keçən Sarıdağ selovunun sağ sahilində Kəlba Oruc tayfasından olanlar ayrıca məskunlaşmışlar.

Şeyx İmran (Şahmərdan) piri iki kahadan ibarət olaraq əvvəlincidə iki, sonuncuda isə bir məzarlar vardır.

Pirdəki kahalar sferik formalı təbii mağara divarlarını xatırladaraq hündürlüyü 2, 5, eni isə 3 m. ölçülərindədir.

Pirdəki qoşa məzarlar haqqında kəndin yaşlıları söyləyirlər ki, əvəllər mücövür olmuş Məmməd adlı mömin kişi ilə arvadınınkıdır.

Pirin yaranması haqqında isə belə deyirlər ki, həmin "daxmada" (kahada) Şahmərdan adlı (ona kənddəkilər "Şeyx İmran" adı vermişlər) mömün şəxs kəndin adamlarının nüfuzunu qazanaraq ölənləri Allah rzası ilə təmənnasız dəfn edər, onların ruhlarına Quran oxuyardı. Şahmərdan xeyirxahlıqla məşğul olsa da tənha yaşayaraq həyatdan əcəli ilə köçmüşdür. Adamlar mərhumun cənazəsini vəsiyyətinə görə yaşadığı "daxmasında" (kahada) dəfn etmişlər. Sonradan məzar yeri (kahalar) yerli camaat tərəfindən ziyarət edilərək pir yerinə çevrilmişdir.

Doxsanıncı ildə pirdəki Şahmərdanın məzar yeri nadan göreşənlər tərəfindən söküdüyündən yenidən xeyirxah adamlar tərəfindən bərpa edilmişdir.

> *"İman gətirib yaxşı işlər görənlər isə - Biz heç kəsi qüvvəsi yetdiyindən artıq yükləmərik – cənnətlikdirlər, onlar orada əbədi qalacaqlar!"*
>
> **(Əraf surəsi, 42)**

İsfəndiyar piri

Həmin pir yeri Babək rayonundakı iri yaşayış ərazilərindən Cəhri kəndindədir.

Cəhri kəndində 8454 nəfər (2005-ci il statistik məlumatı) əhali yaşayaraq üzümçülüklə məşğuldurlar.

Cəhri kəndi Babək rayonu mərkəzindən 23 km şimal qərbdə yerləşərək Cəhri çayının sol sahilindədir.

Cəhrililər əməksevər və mübariz İnsanlardırlar. İkinci Dünya savaşı iştirakçısı Qəhrəman Qəzənfər Əkbərovun əziz xatirəsinə həmkəndliləri heykəl ucaltmış və kənddəki küçələrdən birinə onun adını vermişlər.

Cəhri kəndinin toponimi e.ə. III əsrdə ərazidə ilk məskunlaşan İşıqlar tayfası ilə sonradan gəlmiş tayfalar arasındakı baş verən mübahisədən-cəhrdən əmələ gəlmişdir.

Kənddə məskunlaşmış İşıqlar, Salahlı, Cilovxanlı, Qarahindi, Mirzəməmmədli, Heydərxanlı, Dəvəçilər, Alkərimli, Əlibəyli, Muxtarlı, Çərçili və başqa tayfalar vardır.

Cəhrililər əzəldən mənəviyatı uca tutduqlarından məhəllələrində məscid binaları tikmiş və günümüzədək istifadə edirlər. Haliyyədə kənddə XIX əsrdən qalma məscid fəaliyyətdədir.

Kəndin köklü əhalisi Qafqaz oğuz türkləri ilə bərabər Mərkəzi Asiyadan gəlmiş Kəngərli tayfaları da olmuşdur.

Cəhri kəndində beş qəbrstanlıqla iki pir yeri vardır. Pirlərdən biri kəndin içərisindəki "Ağac piri"dir ki, digəri isə Qaş dağının (1395 m) yamacındakı İsfəndiyar piridir.

Həmin pirin yaranması haqqında kəndin yaşlıları söyləyirlər ki, Orta əsrlərdə iki cavan bir-birlərinə aşiq olurlar. İsfəndiyar adlı gənc nüfuzlu feodal ailəsindən olan Mehparə adlı qızı istədiyindən sevənlərə maneçilik törədirlər. Onlar sözləşib yaşadıqları ərazidən qaçmaqla Araz çayı sahillərinə gəlirlər.

Nəhayət ki, qaçqın gənclərin taleyi Naxçıvandakı Qaş dağındakı kahada birləşərək xoşbəxt gün keçirirlər. Qaçqın gəncləri təqib edən qızın adamları onları axtara-axtara gəlib kahada tapırlar. Əlisilahlı adamlar gəncləri bir yerdə tutub öldürmək istədikdə möcüzə baş verərək hər ikisi qara daşlara çevrilirlər.

Qızın adamları daş olmuş "qızlarını" kahanın qarşısında bina tikərək daşı ora qoyurlar. Kahanın içərisində qalmış "oğlan" isə toz-torpaqda qalaraq unudulur. . .

Zaman keçir, dövran dəyişilir İsfəndiyarın qoçaqlığından hər məmləkətlərdə danışılır. Bundan sonra İsfəndiyarın möcüzəvi sürətdə "qara daşa" dönməsinə insanlarda maraq artaraq, Qaş dağındakı İsfəndiyar pirini ziyarətə gəlirlər.

Ziyarətçilər kahadakı və binanın içərisindəki qara daşları ehtiramla seyr edərlər. Yaradanın möcüzələrinə şəkk etməyərək qurbanlıq ehsan ətini paylayırlar.

> *"Xoş bir söz günahları bağışlamaq əziyyətlə verilən sədəqədən daha yaxşıdır. Allah ehtiyacsızdır, həlimdir!"*
>
> **(Bəqərə surəsi, 263)**

Ocaqtəpə pirləri

Babək rayonundakı Alagöz Məzrə kəndində qədim İnsanların yaşayış məskənləri qalmaqla özünəməxsus tarixi mədəniyyətini saxlamaqdadır.

Onlardan biri e. ə. VI minilliyə aid olan Quyulu dağ yaşayış yeri, digəri isə eramızın I-XI əsrlərindəki Ocaqtəpə yaşayış yeridir.

Quyulu dağ yaşayış yeri (qalası) Alagöz Məzrə kəndinin şimalında sıldırım dağlar üstündədir. Həmin yerlər antik dövrlərə aid edilərək okean səviyyəsindən 1725 metr ucalığındakı Sarı dağdadır.

Ərazidə iki dərin quyular qazmişlar ki, onlar ya xəzinə yeri, yaxud da ki, yeraltı yolun girişi olmuşdur. Həmin quyulardan aşağıda mineral su bulaqlar qaynayaraq çıxırlar.

Ocaq təpə yaşayış yeri 1971-ci ildə mütəxəssislər tərəfindən öyrənilərək, buradan tapılmış tarixi mədəniyyət əşyaları tarix müzeyinə verilmişdir.

Mütəxəssislərin fikirincə Ocaq təpə yaşayış yerində qədim və şöhrətli Yafəs (Rəqim) şəhəri olmuşdur ki, haqqında danışılan pirlər oradadır (Q. Həsənov “Nax. MSSR-in tarixi və arxeoloji abidələri”. Naxçıvan-1988. səh-11. H. F. Səfərli “Naxçıvan ziyarətgahları”. Bakı-1998. səh. 24. (Nuh peyğəmbərin oğlu Yafəsin adını daşıyan şəhər olmuşdur)).

Alagöz Məzrə kəndi Naxçıvan şəhərindən 16 km. məsafədə Naxçıvançayın sol sahilindədir.

Kəndin adının yaranması Ehsan xanın qızı Mərziyyənin xatirəsinə verilib. Sonradan isə kənd Alagöz Mərziyyə kimi deyilmişdir. Həmin sözdəki “Mərziyyə” şəxs adı, 30-cu illərdə dəyişilərək “Məzrə” ilə əvəz olunmuşdur.

Yaşlıların dediyinə görə kəndin adının dəyişməsi ərazidə məskunlaşan Dərələyəzli tayfasının danışıq ləhcələrindən törənmişdir.

Kənddə 855 nəfər (2005-ci il st. məl.) yaşayaraq məşğuliyyətləri əkinçiliklə üzümçülükdən ibarətdir. Kənddə Zamanlı, İtqıranlı, Zərnətünlər, Axəşli, Kərbəoruclu, Lizbirtli, Dərələyəzli və başqa tayfalar yaşayırlar. Əhalinin əksəriyyəti dindar olmadıqlarından burada indiyənədək məscid binaları tikilməmişdir. Son illərdə isə xeyriyyəçi Sahib Əli oğlunun maddi köməkliyi ilə kənddə kiçik bir məscid tikilməkdədir.

Alagöz Məzrə kəndində iki qəbrstanlıq vardır ki, onlardan biri daha qədim dövrlərə aiddir.

Kəndin şimal tərəfində okean səviyyəsindən 1000 m yüksəklikdə böyük bir ərazidə qədim Yafəs (Rəqim) şəhərinin xərabəlikləri ərazisində yaşıllıq meşə zolağı ilə su tutumu 1 milyon m3 çatan "Mərziyyə gölü"də vardır.

Söyləmələrə görə, dünyanı su basandan sonra Nuhun gəmisində gələnlərdən peyqəmbərin oğlu Yafəslə gəlini həmin ərazidə Sarı dağın yamaclarında məskunlaşmışlar.

Qədim insanlar ərazidə çoxalaraq yaşadıqları yerə Yafəsin adını vermiş, lakin sonrakı törəmələr Allahın doğru yolundan azaraq atəşpərəstliklə məşğul olmuşlar. Bununla da, onlar Allahın bəlasına düçar olaraq zəlzələdən yaxa qurtara bilməmişlər. Güclü zəlzələdən sonra şəhərin əhalisindən yalnız iki nəfər, çobanla naxırçı salamat qalmışlar.

Tənha qalan naxırçı ilə çoban heyvanları çölə buraxaraq uçub dağılmış komalarında Tanrıdan daş olmalarını istəmişlər. Göy üzünü qara buludlar almış, şimşək çaxaraq leysan yağışı başlamışdır. Ölənlərin cəsədlərini sel suları aparmış, çobanla naxırçını isə xaraba qalmış komalarında ildırım zərbəsindən qara daşlara çevrilmişlər (V. Baxşəliyev "Pirlərlə bağlı miflər və inanclar." Bakı-2006).

İllər keçmiş, zaman dəyişilmiş əraziyə köçüb gələn tayfalar oradakı qara daşları Xudanın möcüzəsi saymış, ehtiram edilərək ziyarətgaha çevirmişlər.

Haliyyədə Ocaqtəpə pirlərindəki "ocaqlardan" birində kiçik koma tikilmiş, digərində isə yalnız uçuq divarlar saxlanılmışdır.

Sahəsi 20 hektardan çox olan Ocaqtəpə pirləri İnsanların mənəvi ziyarətgahlarına çevrilmişdir. Yaz-yay aylarında ərazinin füsunkar təbiəti görənləri heyran edir.

Mərziyyə gölündə müxtəlif su quşları özlərinə sığınacaq tapmış, belə ki, ərazidə ov ovlamaq yasaq olduğundan ətrafda kəklik, vağ, yaşılbaş ördək, vəhşi qaz, dovşan, tülkü, porsuq, kirpi, çanaqlı bağa və müxtəlif çay balıq növləri artıb çoxalmışdır.

Ocaq təpə ərazisi, İnsanların mədəni istirahəti üçün ən maraqlı yerlərdən biridir. Pirlərə gələn ziyarətçilər qurbanların kəsib mənəvi zövq alaraq Allahın möcüzələrinə bir daha heyran olurlar. . .

> *(Ya Rəsulum!) Yoxsa Əshabi-kəhfin və Rəqimin (Rəqim əhlinin) ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? (Xeyir, bu Bizim qüdrətimiz qarşısında adi bir işdir!)"*
>
> **(Mağara surəsi, 9)**

Səyyid Əhməd piri

Babək rayonundakı Didivar kəndi, qədim İnsanların yaşayış məskənləri olmuşdur. Burada e.ə. II-I minilliklərdə əcdadlarımız məskunlaşaraq yaşamışlar.

Didivar kəndi Naxçıvan şəhərindən 12 km-lik məsafədə yerləşir.

Kəndin adının mənşəyinə görə, əraziyə gəlmiş ilk Cığataylılar tayfasının məskunlaşdığı oradakı həyət sahələri iki tərəfindən (sağ ilə sol tərəfdən) mörhrə ilə divar çəkmələrindən "iki divar" adından götürülmüşdür.

Kəndin keçmişlərdə əsl adı "Divarlı" olsa da, sonradan Dudivar (iki divar) kimi dəyişilmişdir. Kənddə 1318 nəfər (2005-ci il st. məl) əhali yaşayaraq əsas məşğuliyyətləri əkinçiliklə üzümçülük ibarətdir. Kənddə e.ə. III-II minilliklərə aid nekropollar qalmaqdadır.

Didivar kəndindəki əhali onların əski tayfa başçılarının adları ilə adlanırlar; Cığataylı, Mehdiqulu, Əsgərli, Qasımlı, Bayramqulu, Hüseynqulu, Cəlali, Nəcəfalı və s.

Didivar kəndinin əhalisi uzun ömürlüdürlər. Kənddə köhnədən qalma qəbrstanlıqla bərpa olunmuş məscid binası qalır.

Məscid binasının həyətində inanc yeri olan Səyyid Əhməd piri vardır.

Pir binası möhrə ilə tikilərək köhnə binadan, taxta qapısı olan məzar yerindən ibarətdir.

Bişmiş kərpiclərlə hörülmüş məzar yanında iki böyük qara daş (meteorit) qoyulmuşdur. Pirdə ziyarətçilər üçün lazım olan şərait yaradılmışdır.

Pirin yaranması haqqında kəndin yaşlıları belə söyləyirlər ki, keçmişlərdə şərq ölkələrindən Əhməd adlı mömin müsafir Naxçıvandakı müqəddəs Əshabi-Kəhf ziyarətgahına gəldikdən sonra ərazinin təbiəti və əhalisi xoşuna gələrək və həmin kənddə qalmalı olur. O, burada İslam dinini əhaliyə təbliğ etməklə kəndin şəri işlərinə təmənnasız xidmət göstərərək məscid tikdirib daxmasında bivaris kimi dünyadan köçür.

Kənddəki nüfuzlu tayfalar tərəfindən mərhum Səyyid Əhmədin cənazəsini tikdirdiyi məscidin həyətindəki daxmasında dəfn edərək qəbrin üzərində daş kitabə yazdırmışlar.

Səyyid Əhməd pirinin mücövürü məşhədi Məhəmmədəli kişinin dediyinə görə 1989-cu ildə mərhumun məzarı üstündəki ərəbcə yazılmış "kitabə" yerindən çıxarılaraq şəhərdəki tarix muzeyinə aparılmışdır?

Buna görə də, pirdəki məzar haqqında dəqiq məlumatı söyləmək çətinləşmişdir.

Lakin bütün bunlara baxmayaraq Səyyid Əhməd pirinə hər il ətraf kəndlərdən ziyarətçilər gələrək burada Allah yolunda qurbanlar kəsib ehsanlar paylarlar.

> *"Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər.*
> *Allah tutduğunuz hər bir işdən xəbərdardır!"*
>
> **(Bəqərə surəsi, 271)**

Çoban (Səyyid) Əli piri

Pir Babək rayonundakı Payız kəndindədir. Payız kəndi okean səviyyəsindən 1.100 metr yüksəklikdə, Cəhri çayın hər iki sahillərində yerləşir. Kəndə Babək qəsəbəsindən 25 km-lik məsafədə asfalt yol çəkilmişdir.

Payız kəndi ərazisində e.ə. II-I minilliklərdə şöhrət tapmış möhtəşəm Çalxanqala şəhərinin (qalasının) xərabəlikləri tarixi simasını saxlamaqdadır.

Payız kəndi sözünün mənşəyi, ərazidə ilk məskunlaşan Kəlbaba tayfasının ilin payız fəslində gəlmələri ilə əlaqədardır.

Payız kəndinin əhalisi 1.074 nəfər (2005-ci il st.məl.) olaraq heyvandarlıqla məşğuldurlar.

Cəhri çayının üstündən salınmış körpü ilə kənddəki məktəb binasını payızlı Sosialist Əməyi Qəhrəmanı Qurban Abbasqulu oğlu Abbasovun (1926-2006) təşəbbüsü ilə tikdirilmişdir.

Payız kəndində Zamanlı, Əsədannı, Qaralar, Hüseyinli, Məhərrəmli, Sadıxlı, Kəlbabalı, Alyanlı və sairə tayfalar məskunlaşmışlar.

Kənddəki iki qəbrstanlıqdan birində möhrə ilə hörülmüş böyük bina vardır.

Sovetlər dövründə həmin binadan gündəlik tələbat malları dükanı kimi istifadə olunmuşdur.

Haliyyədə kənddə yaraşıqlı mağaza binası tikildiyindən həmin "dükan evi"ndən mömünlər məscid kimi istifadə edirlər. Binanın içərisindəki küncdə bərpa olunmuş məzar yeri vardır. Həmin məzar Səyyid Əli adlı mömün çobanın olaraq, payızlılar tərəfindən pir yeri kimi ehtiram göstərirlər.

Pirin yaranması haqqında yaşlı mömünlər söyləyirlər ki, keçmiş əsrlərdə möhtəşəm Çalxanqala camaatı Allahın doğru yolundan çıxaraq, atəşpərəstliklə məşğul olmuşlar. Onlar yaradana asi olduqlarından dağıdıcı zəlzələ nəticəsində şəhərlə birlikdə məhv olmuşlar. Zəlzələ sübh vaxtı baş verdiyindən əhali evlərində bir anlığa məhv olmuşdur.

Çöldə (qaşarda) qoyunlarının arasında salamat qalan çoban Əli Allahın möcüzəsini gözləri ilə gördükdən sonra Yaradana ibadət etmişdir.

Dağıdıcı zəlzələdən sonra ərazidə ilk məskunlaşan Kəlbaba tayfasından olanlar çoban Əlinin xeyirxah və mömün kimi görüb tanımışlar. Odur ki, tayfa başçısı hörmət əlaməti kimi çoban Əlini bundan sonra Səyyid Əli adı ilə çağırmış və dünyadan köçəndə isə onun cənazəsini yaşadığı həmin yerdə dəfn etmişlər. Həmin vaxtdan sonra çoban Əlinin məzarı ziyarət edilərək inanc yerinə çevrilmişdir. Kənddəki imkanlı mömünlər qurbanlıqlarını binanın qarşısında kəsib, ətini yoxsullara paylayarlar.

> *"And olsun dan yerinə; And olsun on gecəyə.*
> *O kəslər ki, məmləkətlərdə tuğyan edir, oralarda çoxlu fitnə-fəsat törədirlər. Nəhayət, Rəbbin onlara əzab qamçısı endirdi şübhəsiz ki, Rəbbin baxıb görür."*
>
> **(Dan yeri surəsi, 11-14)**

Əshabi-Kəhf piri

Adı müqəddəs Quranda çəkilən Əshabi-Kəhf piri, Babək rayonu ərazisində yerləşir (əvvəllər Culfa rayonu inzibati ərazisində olmuşdur), hündürlüyü okean səviyyəsindən 1.665 metr yüksəkdə olan Culus dağının mağarasındadır.

Əshabi-Kəhf vulkanik mənşəli dağ-mağarasına Naxçıvan şəhərindən 13 km-lik məsafədə rahat asfalt yol çəkilmişdir.

Bu müqəddəs pir yerinin tanınması hələ İslamdan çox-çox öncə (E.ə. VII əsrdə) İnsanlara məlum olmuşdur.

Əshabi-Kəhf pirinin yaranıb şöhrət tapması haqqında çox rəvayətlər deyilsə də, onlardan ən doğru-düzgünü Quran kitabında yazılanlardır.

Zülmkar büdpərəst Diqyanusun (Dağyunusun) hakimiyyəti dövründə haqsızlıqlara dözməyən bir neçə gənc (onların doğru-düzgün sayını yalnız Allah bilir) yaşadıqları Tərsus şəhərindən qaçaraq Qitmir adlı qırmızı tük itləri ilə birlikdə 309 il mağarada yatıb durmuş və sonradan Allah tərəfindən qeybə çəkilmişlər.

Həmin vaxtan da İnsanlar dağdakı mağaranı inanc yeri bilərək ziyarətgaha çevirmişlər.

Britaniya muzeyində "Munisnamə" adlı əlyazması saxlanılır ki, müəllifi XII əsrdə yaşamış Əbubəkr ibn Xosrov əl-Ustaddır. (Rusca surəti Azərb. MEA-ın kitabxanasındadır.)

Əlyazma 750 səhifə olaraq 17 fəsldən (babdan) ibarətdir. Maraqlıdır ki, buradakı 26-cı hekayə "Əshabi-Kəhf, Dağyunus və onların başına gələn işlər" adlanmışdır ("Şəhriyar" qəzeti, 1997-ci il № 3, 4, 5).

Şərqşünas S. Bəlağinin fikrincə həmin hadisə, bizim eranın 249-251-ci illərində yunan Deyokusun (Dəqyənusun) hakimiyyəti illərində Kiçik Asiyadakı indiki İzmir şəhərindən 40 km. cənub-şərq tərəfdəki dağda baş vermişdir (S. Bəlağı. "Quran qissələri". Bakı-1992. səh. 237).

"Munisnamə"dəki 26-cı hekayənin məzmunu belədir;

Rumlu Deyokus (Dəqyənus) adlı bir şəxs İran ərazisində təsadüfən xəzinə tapmaqla, özünə yaraşıqlı ev tikdirmiş, İran şahı ilə dost olmuşdur.

Dəqyənus İran ərazilərinə hücum edən Rumlu sərkərdəni onun əsgərlərinin əli ilə xainliklə öldürtdürür. Daha sonra isə azğınlaşaraq "dostu" İran hakimini arvadının əli ilə zəhərlədərək öldürür.

Dəqyənus ərazilərə hakim olmaqla qonşu vilayətlərin torpaqlarına sahib çıxır.

O, tezliklə "allahlıq" iddiasına düşərək xalqa zülmlər edir. Onun yaxın adamları olan Təmlixa, Təmlisa, Sətlixa, Zurnuş, Azənuş və Sadiqnuş, Dəqyənusun məsləhətçiləri olurlar (Qurana görə gənclərin sayı və adları yalnız Allaha bəllidir. Üləma S. Bəlağiyə görə onlar 1) Məksəlminə, 2) Təmlixa, 3) Yətunəs, 4) Saziyənus, 5) Minunəs, 6) Rəyyan, 7)

Kətittunəs və 8) Tənur olmuşlar. Şərqşünas Ə. Əhmədova görə isə, (“Nikatül-Quran, səh. 172) 1) Təmlixa, 2) Bərnus, 3) Sərnuş, 4) Məksilma, 5) Məslina, 6) Sazənus, 7) Kəftənus (çoban) və onun Qitmir adlı iti).

Araz çayı sahillərindəki Tərsus şəhərinin hakimi Dəqyənus bir gün ovda olarkən vəziri Təmlixa ilə onun dostları şahın zülmkarlığından yaxa qurtarmaq üçün dağlara tərəf qaçırlar.

Yolda onlara qoyun otaran bir çoban rast gələrək əhvalatdan xəbər tutmaqla Qitmir adlı iti ilə qaçanlara qoşulur.

Qaçqınlar Culus dağındakı mağaraya gəlib çatırlar, oradakı kahada oturub dincələrkən Allahın qüdrəti ilə yatmışlar. Bu zaman bir mələk onlara gözətçi olmuşdur.

Ovdan qayıdan Dəqyənus vəzirlərinin qaçdıqlarını öyrənməklə onların dalınca atlı göndərir.

Əhalisinə zülmlər verən Dəqyənusun qulağına it milçəyi girməklə onu öldürür. Yaradanı tanımayan günahkar Tərsus əhalisi güclü zəlzələ nəticəsində məhv olurlar.

İllər keçir mağaradakı kahada yatanlar 309 ildən sonra Allahın qüdrəti ilə oyanırlar. Elə hiss edirlər ki, yatdıqları vaxt bir gecə olmuşdur. Qaçan gənclərdən birinin ayağındakı yara yerinin sağaldığını görüb təəccüblə Yaradana şükrlər edirlər.

Çörək almaq üçün Təmlixanı çobanın paltarında şəhərə göndərirlər. Çörək satan Təmlixanın verdiyi “qədim” sikkəni gördükdə onun xəzinə tapdığını güman edir, şübhəli adam kimi tutdurur.

Şəhərin hakimi Nikofusun hüzurunda əlacsız qalan Təmlixa əhvalatı əvvəldən axıradək onlara danışır. Söhbətdən maraqlanan adamlar Təmlixanın sözlərinin doğru olmasını görmək üçün onunla mağaraya tərəf gedirlər. Təmlixa mağaraya çatdıqda adamlara bildirir ki, qabaqda gedib yoldaşlarını xəbərdar etsin və onlar izdihamı gördükdə qaçmasınlar.

Təmlixa mağaraya gələrək əhvalatı dostlarına bildirdikdə, onlar izdihamdan qorxaraq qaçmaq istəyirlər. Qitmir köpək gələnlərə tərəf hürür və onlar çobana iti təcili öldürməsini bildirirlər. Əlacsız qalan çoban vəfalı dostunu əlindəki çomağı ilə öldürür. Əhali onlara yaxınlaşdıqda gənclər qorxaraq mağaranın içərisinə qaçırlar. Şəhərdən gələnlər maraq üçün qaçanların ardınca mağaraya girirlər.

Gənclər mağaranın qurtaracağında Allahdan nicat istəyirlər. Allah-təala qüdrət və möcüzələrini göstərərək adamların gözü qarşısında onları qeybə çəkməklə yox edir. Bütün bu möcüzəni görən hökmdar Nikofus Allahın qüdrətinə inam gətirərək mömünlərdən olur.

Hökmüdarın əmri ilə mağarada məbəd tikilmiş və gənclərin əhvalatını divara yazırlar ("Munisnamə", vərəq 215-247. K. Nikitin "Narodnıye predaniya v Nax. uezde" (rusca). Tiflis-1882. səh. 107).

Mağarada qeyb olanların əhvalatları ilə bağlı yəhudi mifologiyasında yazılı mənbələrdə (Əhdi-əqiqdə) göstərilmişdir ki, Efes şəhərində yaşayan yeddi gəncin bütpərəst imperatorun zülmlərindən qaçaraq 309 il mağarada yataraq durmuşlar.

Maraqlıdır ki, həmin hadisə ilə əlaqədar hər ilin 4 avqust və 22 oktyabr tarixlərində Yəhudi dinində olan mərasim kilsələrdə qeyd olunur.

Həmin hadisə imperator Dekiy (249-252-ci illər) dövründə (III əsrdə I Şapur şahın (241-272-ci illər) hakimiyyəti) olmuşdur.

Araz çayının sol sahilində rumlu hökmdar Dekiyə xalq arasında Dəqyənus (zülmkar deməkdir) adını vermişlər (E. A. Krımskay "Sem spyaşix otrokov efesskix" (rusca), Moskva-1914).

Əshabi-Kəhflə bağlı deyimlər yeddi gəncin qeyb olduğu mağara əhvalatını bir neçə yerlərdə olduğunu iddia edirlər. Onlar Kiçik Asiyada (Türkiyədə), Fələstində, Suriyyada və Azərbaycanda (Naxçıvanda) olanlardır.

Lakin bilmək lazımdır ki, Quranda yazılan gənclərin əhvalatları məhz Naxçıvandakı mağarada olmuşdur. Bunu hələ XVII əsrdə məşhur səyyah Adam Oleri yazılarında göstərmişdir.

Əshabi-Kəhf mağarası ilə əlaqədar olan xalq deyimləri məhz Nuh yurdu deyilən Naxçıvandadır (S. M. O. M. P. K. T. P. (rusca), Tiflis, 1882. səh. 108-117).

Heç şübhəsiz ki, "Munisnamə"nin müəllifi ya Nuh yurdunda olmuş, ya da naxçıvanlı səyyah və tacirlərin söyləməsi əsasında yazıya almışdır. Bütün bu adı çəkilən ərazilərdə qeybə çəkilmişlərin "qəbirləri" vardır. İddiaçıların Qurandan xəbərləri yoxdur. Çünki müqəddəs Quranda onların qeybə çəkildiklər vurğulanır. Qeybə çəkilən insanların qəbirləri ola bilməz!

Missionerlər çalışırlar ki, qazanc məqsədi ilə “müqəddəs” yerlərə turistləri cəlb etsinlər.

Naxçıvandakı müqəddəs Əshabi-Kəhf ziyarətgahı Quranda yazılanlara oxşardır. Haliyyədə şərq ölkələrindən bura gələn turistlərin maraqları artdığından, Naxçıvan MR Ali Məclisinin 9 fevral 1998-ci il tarixli sərəncamı ilə pirdə abadlıq işləri aparılmış, içməli su çəkilmiş,elektrik işıqları quraşdırılmış və ziyarətçilərin məişət şəraitini yaxşılaşdırmaq üçün binalar tikilmişdir.

Mağaranın girəcəyində üzərində “Əshabi-Kəhf piri Azərbaycan prezidenti H. Əliyevin təşəbbüsü ilə burada bərpa və yenidənqurma təmir-tikinti işləri aparılmışdır” sözləri yazılmış qaya parçası qoyulmuşdur.

Nuh yurdunda yaşayan xalq arasında Əshabi-Kəhflə bağlı şifahi əsatir tarixində belə deyilir (H. S. Həsənli “Əshabi-Kəhf” (məlumat kitabı), Bakı İslam Universiteti, Bakı-2001).

Ölən şəhərdə (Araz çayın sol sahilində) zalım büdtpərəst Dağyunusun məmləkətində (Nuh yurdunda), hökmdar elan edib deyir:“Yer üzünün Allahı mən özümüməm və dediyiniz gözə görsənməyən tanrınızı tanımıram”.

Günlərin birində hökmdarın qulağına it milçəyi girərək ona əziyyət verir. Bunu görən vəzirlər Təmlixa ilə Müslüm hökmüdara deyirlər ki, sən necə “allahsansa” bir milçəyi qulağından çıxara bilmirsən?

Hökmdar belə tənəli sözlərdən qəzəblənərək vəzirlərini edam etdirmək istəyir. Vəzir Təmlixa dostları ilə bərabər şəhərdən dağlara tərəf qaçırlar. Yolda qarşılarına çıxan hökmdarın çobanı əhvalatı onlardan öyrənir və sürünü buraxaraq onlara qoşulur.

Çobanın qırmızı tüklü Qitmir adında vəfalı iti onlarla getmək istədikdə onu qovmaq istəyirlər.

Allahın qüdrəti ilə köpək adam kimi dil açaraq danışır;

“Siz niyə məni özünüzlə götürmürsünüz?”

Onlar itin danışığından heyrətlənərək belə deyirlər;

“Ona görə ki, sən itsən bizim cinsimizdən deyilsən”

Qitmir yerə yataraq üzünü mehribanlıqla onların ayaqlarına sürtə-sürtə deyir;

“Məhəbbət məzhəbində, səadət dinində, cins əsas şərt deyil. Çünki siz Allahın məhəbbətinə görə yola çıxmısınız, o da sizdən deyil”.

Bu sözlərdən sonra qaçanlar itə toxunmayaraq və gəlib dağdakı mağarada gizlənərək yatırlar.

Yatanlar yuxudan duranda görürlər ki, gün günorta yerindədir. Təmlixa çobanın paltarını geyərək çörək almaq üçün şəhərə gedir və şəhər əhalisini tanıya bilmir. Çörəkxanadan çoxlu çörək alıb pulunu verəndə, çörəksatan "köhnə" sikkədən şübhələnərək səs-küy salır.

Adamlar tezliklə Təmlixanı tutub şəhər hakiminin yanına gətirirlər. O, isə şəhər hakiminin başqası olduğunu gördükdə ürəklənib başına gələnləri onlara danışır.

Təmlixanın dediklərini yoxlamaq üçün onunla birlikdə yaşadığı evlərinə tərəf gəlirlər. Yarı uçuq daxmada qalan kor qocadan öyrənirlər ki, Təmlixa qocanın babasının cəddi babasıdır. Adamlar qocanın dediklərini hesablayaraq qaçqınların mağarada 309 il yatdıqlarını güman edirlər.

Bundan təəccüblənən adamlar Təmlixanın dostlarını gedib görmək istəyirlər.

Təmlixa hakimdən izn alır ki, mağaraya adamlardan qabaqda getsin yoldaşlarına olmuş qəribəlikləri danışsın.

Mağaradakılar Allahın möcüzəsindən agah olub adamların mağaraya gəlməyindən qorxub gizlənmək istəyirlər. Çobanın iti izdihamı görərək onlara hürüməyə başlayır. Təmlixa çobana deyir ki, təcili iti öldürsün. Çoban əlindəki çomağı ilə vəfalı dostunu vurub öldürür. Ölmüş itin cəsədini daş parçaları ilə örtən çoban əlindəki çomağını nişangah kimi torpağa sancır və hönkürərək ağlayır. Torpağa tökülən çobanın göz yaşları quru çomağı islatmış, möcüzəvi şəkildə göyərib tut ağacına çevrilir. . .

Təqib edən adamların yaxınlaşdığını görən cavanlar mağaranın içərilərinə qaçırlar. Mağaranın qurtaracağında onlar Allahdan imdad istəyərək möcüzəvi şəkildə adamların gözü qarşısında qeyb olurlar. . .

Möcüzəni görənlər Allaha qurbanlar kəsib, dağdakı mağaranı müqəddəs yer bilirlər.

Bütün bunların ən doğrusunu isə yalnız Allah bilir.

> *Müqəddəs Quranda yazılıb ki, "Rəbbinə iman gətirmişləri 309 il yatdıqdan sonra oyatmaqla İnsanları (Tərsus əhalisini) onların halı ilə beləcə tanış etdik ki, Allahın vədinin doğru olduğunu və qiyamətin qopacağına əsla şübhə olmadığını bilsinlər. . ."*
>
> **(Əl-Kəhf surəsi, 21)**

İnsan yarandığı gündən Yaradana inanaraq itaətkar olmuşdur.

Naxçıvandakı Əshabi-Kəhf mağarası İnsanların müqəddəs inanc yerlərindəndir.

Pirə asfalt yol ilə gələrkən adamları gün çıxan tərəfdən mənzərəli dağların panoraması cəlb edir. Yolda çalışmaq lazımdır ki, bir neçə dəqiqəliyə ətrafı diqqətlə seyr edəsən. Əsrlərlə yerin sinəsində müqəddəs Əshabi-Kəhf mağarasını qoruyub saxlayan Allah-Təala həmin dağ ilə yanaşı sol tərəfdə Sarı dağı, sağ tərəfdə Nuhəcir dağını sanki keşişçi yaratmış, vüqarlı Haça dağı isə onlara sərkərdə etmişdir.

Mağaraya çatanda müqəddəs Dağa salam verib, Allahdan kömək diləməklə sal daşlarla düzəldilmiş yol ilə pirə qalxın. Yol ilə üzü yuxarı gedərkən sol tərəfdə "yeddi kimsə" kahasında ayaq saxlayın.

Kahanın eni 4, hündürlüyü 2, dərinliyi isə 1, 5 metrdir. Orada Allah rzasına ehtiram namazı (İslam dinində "vacib" və "müstəhəb" ibadət formaları vardır ki, ərəbcə-"mütləq" və "bəyənilən" mənasındadır) qıldıqdan sonra niyyət edib kahadakı kiçik daş parçalarını divarlara yapışdırın (Daşların bir-birini cəzb etməsi fiziki qanuna uyğunluq olaraq ziyarətçilər tərəfindən adət halına salınmışdır).

> *Kahada illərlə yatanların divarda kürək yerləri ilə döşəmədə köpəyin pəncə izləri aydın görsənməkdədir ki, it haqqında Quranda yazılmışdır," . . . onların iti də, iki əllərini (pəncələrini) mağaranın astanasında uzadaraq yatmışdır"*
>
> **(Əl-Kəhf surəsi, 18)**

Quranda yazıldığı kimi günəşin doğduğu zaman işığın mağaranın sağ tərəfinə düşdüyünün şahidi oluruq.

Mağaradakı sal daşlar düzülmüş yol ziyarətçiləri Allaha ibadət etmək üçün qeyb olanların yerinə aparır. Buranın sahəsi 50 m2 olan "meydança"dan ibarətdir ki, ibadət

üçün məscid tikmişlər. Məscidin təbii qaya divarında iki səmtdə (qiblədə) ərəbcə yazılmış daş kitabələr vardır. Onların biri Qüds (Yerrusəlim), digəri isə Məkkə şəhərlərinə tərəf qoyulmuşdur.

Birinci kitabə daha qədim olduğundan üzərindəki yazıları oxumaq çətinlik törədir. Ikinci kitabə (145x35 sm. ölçüsündədir) hicri tarixi ilə 1190-cı ildə (miladi 1776-cı il) Naxçıvan hakimi Şükurullah xan Heydərqulu xan oğlu Kəngərli tərəfindən yazdırılmışdır.

Həmin kitabəni XVI-XVII əsrlərdə Naxçıvan hakimi Məqsud Soltan Kanqlının (Kəngərlinin) nəvəsi, Şükürullah xanın tapşırığı ilə pozulmuş və əvvəlinci daş kitabənin orjinalı əsasında üzü köçürülmüş, yenisi ilə əvəz olunmuşdur.

Mərmər lövhədəki epiqrafın ərəbcədən tərcüməsi belədir;-"Yoxsa Əshabi-Kəhfin və Rəqim əhlinin ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən. Xatırla ki, o zaman gənclər mağaraya sığınıb "Ey Rəbbimiz! Bizə öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver" –demişdilər.

Biz onları mağarada illərlə yuxuya verdik. Sonra iki tayfadan hansının onların qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq. . .

Günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə meyl etdiyini, batdığı zaman isə onları tərk edib sol tərəfə yönəldiyini, onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını görərdin. Bu Allahın möcüzələrindəndir. Allahın doğru yola saldığı kəs, doğru yoldadır. Allahın yoldan çıxartdığı şəxs isə, əsla doğru yol göstərən bir rəhbər tapa bilməzsən. Onlar yuxuda ikən sən onları oyaq sanardın. Biz onları sağa-sola çevirirdik. Onların iti də, iki əllərini mağaranın astanasına uzadaraq yatmışdır. Əgər sən onları görsəydin yəqin ki, səni dəhşət bürüyərək və dönüb qaçardın" (Yenə orada, ayə 9-18).

Əshabi-Kəhfə gedən turist-ziyarətçilər mağaradakı məsciddə Allah rzası ilə ziyarətlə ehtiram namazlarını qılaraq, yaradanın möcüzələrinə şəkk etməməlidir. Bundan sonra "damcıxana" kahasına qalxaraq niyyət etməklə tavandakı su damlalarının üstlərinə düşməsini gözləyərlər.

İlin yağmurlu vaxtlarında həmin kahada oturmaq təhlükəlidir. Tavandan su damlaları ilə birlikdə islanmış qaya parçaları düşə bilər.

Xalq deyimlərinə görə mağaradakı su damlaları qeyb olanların dövrlərində axar bulaq olmuşdur. Gənclər burada yatan müddətdə bulağın suları quruyub və sonradan ziyarətçilərin niyyət damcıxanasına çevrilmişdir (H. F. Səfərli "Naxçıvan ziyarətgahları" Bakı-1998. səh. 29. K. Nikitin "Narodnıye pridaniya v Nax. ueyezde" (rusca), Tiflis 1882. səh. 116).

Məscidin şimal tərəfindəki "divarda" yuxarıda kaha vardır ki, ona "Qəndil" (işıqlı yer) deyərlər. Ora çıxıb baxmağa izn verilmədiyindən nərdivan qoyulmamışdır. Maraqlıdır ki, ildə bir dəfə Ulus vaxtı (yaz gecə-gündüz bərabərləşdiyi anda) Qəndilin qaranlıq kahası möcüzəvi surətdə işıqlanır.

Əshabi-Kəhf mağarasında qayaların hər daşı özündə ilahi bir sirr saxlamışdır. . .

Mağarada bir-birindən möcüzəvi yerlər vardır ki, onlardan birisi "Haqq qapısı" deyilən yerdir.

"Qapı"dan keçəndə bəşərin sonuncu peyqəmbərinə salam (salavat) deyərək bu duanı oxumaq lazımdır (müstəhəbdir). "Allah sən məni şeytanın yolundan, bədnəzərin gözündən qoru və məni doğru yoluna apar (Əs-Səffat surəsi, 99). Bundan sonra ziyarətçilər mağaranın hər güşəsində paklaşaraq Allaha daha yaxın olduqlarını hiss edirlər.

Mağaradakı dağın üstündə "Cənnət bağı" deyilən sahədə yabanı şəkildə alma, armud ağacları, dağdağan, yemişan, zərinc və başqa kollar da bitmişdir.

Həmin yerə çıxmaq üçün mağaranın içərisindən nərdivan qoyulmuşdur. Qan təzyiqi olan şəxslərin dağın təpəsinə çıxmaları məsləhət görülmür, çünki bədbəxt hadisə ilə nəticələnə bilər. "Cənnət bağı"na dağın şərq tərəfindəki kanyonvari dərə ilə də qalxmaq mümkündür.

Ziyarətçilər mağaranın hər bir guşəsini gəzib dolandıqdan sonra Allah rızası üçün gətirdikləri heyvanlarını qurbangahda kəsib ətindən ehsan verirlər (İslam dinində qurbanlıq niyyəti iki cürdür; 1) "İsmayıl qurbanı", 2) "Qada qurbanı"dır. Birincidə kəsilmiş ətin üçdə bir hissəsi niyyət etdirənin və ikincində isə, kəsilmiş ətin hamısı doğranılaraq əzaları bərabər miqdarda bölünməklə pay halında niyyət etdirənin razılığı ilə ehsan edilir. Sahibkar yalnız həmin qurbanlıq paydan yaxınlarına verdiyi ehsanatdan istifadə edə bilər. "Tövzuhül-məsail". Bakı-1995. səh 336, məsələ 2080).

Hər gün ziyarətgaha yüzlərlə İnsanlar gələrək burada paklaşaraq Allahdan bağışlanmalarını istərlər.

Ziyarətçilər qayıdan zaman qurbangahla üz-üzə yolun sağ tərəfindəki Qitmir köpəyinin "məzarı"na baxa bilərlər. İslam dinində it murdar sayılsa belə sahibinə vəfalı olduğundan murdardırmı? Həmin suala şair hikmət fəlsəfəsində belə cavab vermişdir;

Pislərə yar oldu Lutun arvadı,

Ayrıldı peyğəmbər xanəgahından.

İt isə bir zaman Əshabi-Kəhfin,

Yaxşılarla getdi, oldu bir İnsan

(S. Şirazi "Gülüstan", Bakı-1987. səh. 40).

İslam alimləri yazırlar ki, qiyamət günündə Lut peyğəmbərin kafir arvadı ilə Qitmir köpəyin sifətləri dəyişiləcək və it Cənnətə qadın sifətində göndəriləcəkdir. Bütün bunların doğrusunu Allah bilir.

Təəssüf ki, Qitmir köpəyin basdırıldığı "məzar yerində" tut ağacının (simvolik şəkildə) əkilməsi heç kəsi düşündürməmişdir. . .

Adamlar xoş niyyətlə ziyarətdən qayıtdıqları zaman yol kənarında suyu qurumuş Pircuvar çayının yatağına rast gəlirlər. Yaz aylarında dağdan-təpədən axan sel suları özü ilə birlikdə qırmızı-qonur rəngli qum-çınqıl dənəciklərini gətirib çuxur yerlərə doldurar. Yağışdan-seldən sonra qum-çınqıl içərisində qara rəngli yumurta şəkilli meteoritlər gözə çarpır. Pircuvar selovunun allivüal qum yataqlarından tikinti materialı kimi istifadə olunur.

Ziyarətçilərin (turistlərin) istəkləri ilə Əshabi-Kəhf dağı yaxınlığındakı yer altından qaynayaraq köpüklə qalxan mineral "Təndir bulağı"na baş çəkə bilərlər (Qahab kəndindən 6 km. Cənub şərqdə). Yerin təkindən hər on beş dəqiqədən bir mineral tərkibli soyuq su təzyiqlə yer səthinə çıxır. Revmatik xəstəliklərin müalicəsində əhəmiyyətli sayılan "Təndir bulağı"nda on dəfə çimməklə qeyri-adi rahatlıq tapmaq mümkündür. Həmin suyun kimyəvi tərkibi radonlu, karbonqazlı, az minerallaşmış (1 litrində 4,7%) hidro karbonatlı, xlorlu-sulfatlı, natriumlu-kalsiumludur.

> *‘Təndirin” çatları laqeydlikdən tullantılarla dolduğundan bulağın su potensiyalı illərlə azalmağa başlamışdır.*
>
> *“Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini də görəcəkdir. Kim zərrə qədər pis iş görmüşdürsə onun zərərini də görəcəkdir”.*
>
> **(Əz-Zilzal surəsi, 7-8)**

FƏSİL 2

Şahbuz rayonundakı ziyarətgahlar

“Hər tərəfi zirvəlidir, çiçəkləri təzə tərdir.

Sərt qayası bir əsgərdir, ziyarətə gəl Şahbuza.

Çınqıllısı, Zor bulağı, hər bir otu can dərmanı,

Könlün oxşar hər zəvvarı, ziyarətə gəl Şahbuza.

İnsanları duz-çörəkli, çox mehriban bir ürəkli,

Oğullar var şir biləkli, ziyarətə gəl Şahbuza.

Sürüləri yaylaqlarda, Salvartıda, Batabatda,

Nəğməsi var dodaqlarda, dincəlməyə gəl Şahbuza,

Ziyarətə gəl Şahbuza.

(” Şahbuzlu şair N. Zeynalovun şeri ixtisarladır.)

Nuh yurdunun füsunkar dilbər guşələrindən biri olan Şahbuz rayonunun ərazisi 0,82 min km2, əhalinin sayı isə 21.641 nəfər (2006-cı ilin st. məl.) olmaqla bağçılıq və heyvandarlıqla məşğuldurlar.

Şahbuz qəsəbəsinə Naxçıvandan 33 km-lik məsafədə asfalt yolu gəlir. Rayonun fiziki coğrafi relyefi dağlıq ərazilərdən və azacıqda meşə-kolluqdan ibarətdir.

Ərazidəki yüksək yerlər Camaldın dağı (3.204 m), Salvartı dağı (3.161 m), Kükü dağı (3.120 m), Keçəl dağı (3.118 m), Biçənək (Ərikli gədik) aşırımı (2.346 m) olmaqla ən alçaq yeri isə okean səviyyəsindən 1.000 m yüksəkdə yerləşən Əzizbəyov kəndindəki Naxçıvan çayının sahilləridir.

Rayondakı əsas hidro mənbə Qanlı və Batabat göllərıdir ki, mənbələrini bulaqlardan götürərək Kükü çayı ilə axaraq Naxçıvan çayına (81,2 km) tökülür. Naxçıvan çayının üstündə 1999-cu ildə tikilmiş Heydər (Vayxır) gölünün su tutumu 100 mln. m3, sahəsi isə 4,54 km2-dir.

Şahbuz rayonundakı əhalisi türk dilli oğuz tayfaları olmaqla tarixi köklərini, adət və ənənələrini qoruyub saxlamışlar. Ərazilər qədim İnsanların yaşayış məskənləri olmuşdur. Batabat yaylasındakı qədim daş karxanaları, Kolanı, Mahmudoba və Külüs kəndlərindəki nekropollar Eramızdan əvvəl II-I minilliklərdən xəbər verir.

Keçili kəndindəki qəbirüstü daşlarda qədim mixi xətti ilə yazılar Eramızdan əvvəl III-II minilliklərdən qalmış hələ də tarixçi etnoqrafları maraqlandırır.

Şahbuzlular işgüzar, qonaqpərvər və uzunömrlüdürlər. Ərazidə ulu əcdadlarimizdan qalma milli adət-ənənələr, dekorativ tətbiqi sənət nümunələri, şifahi folklor mədəniyyəti, aşıq-saz sənəti bu günə kimi əhəmiyyətini itirməmişdir.

Şahbuz xalqı islam mənəviyyətinə diqqət yetirməklə yanaşı humanitar-hüquq elimlərinə də maraq göstərirlər. Biçənək meşəsində tikilmiş astrofizika rəsədxanası hələ sovetlər dövründən qurulmuş və tədqiqatlar aparılır. Şahbuzlular Məmməd Araz poeziyasının vurğunu olmaqla onunla fəxr edirlər.

Ulu Tanrı bu yerlərə cənnət gözəlliklərini bəxş edərək şəfa verici dərman bitkiləri bitirmiş, dadlı meyvələr yetirmiş, müalicəvi mineral sulu bulaqlarla zənginləşdirmişdir.

Batabatla Salvartı yaylaqlarında bəslənilən arı balları, Keçilinin, Külüsün ətirli meyvələri, Badamlının, Gömürün mineral suları süfrələrin bəzəyi olaraq İnsanların həyat tərzini yaxşılaşdırmışdır.

Biçənəyin yemişan kollu meşəsində bitən baldırqanı, çaşır və ətirli kəklikotu, dağ nanəsi, əvəz olunmaz milli mətbəx nemətləridir.

Biçənək meşəsində nadir heyvanlar yaşayır ki, onlar qonur ayı, meşə donuzu, tülkü, kəklik və sairədirlər. Azərbaycan ərazisində ən təmiz havası olan yer Biçənək meşəsindədir.

Şahbuz rayonu mərkəzində son illərdə yaraşıqlı məscid binası tikilib möminlərin ixtiyarına verilmişdir. Rayon mərkəzində dövlət tərəfindən diqqət mərkəzində olan Ahıllar evində mənəvi tədbirlər keçirilir.

Xudavəng piri

Həmin pir yeri Şahbuz rayonundakı Kükü kəndinin şimal qurtaracağındadır.

Kükü kəndinin adının əmələ gəlməsi qədim türk oğuzlarının ləhcəsində “Otlu yer” mənasından yaranmışdır.

Dağ çəmənliklərində bitən ətirli pencərlərdən bişiriliən milli “kükü” yeməkləri şübhəsiz ki, bu kənddən yaranmışdır.

Kükü kəndinə Şahbuz qəsəbəsindən 20 km-lik məsafədə asfalt yol gəlir. Ərazinin coğrafi relyefi dağlıq olduğundan burada Alp çəmənliklərində ağ ot (şiyav), çaşır, baldırqan, dağ laləsi, dazı otu, kəklik otu və başqa bitkilər yayılmışdır. Kəndin ortasından axan Kükü çayı (20 km) okean səviyyəsindən 2500 m yüksəklikdən başlayır.

Kükü kəndində 1466 nəfər (2005-ci ilin st. məl) əhali yaşayır, əsas məşğuliyyətləri arıçılıqla heyvandarlıqdan ibarətdir.

Kənddə XIX əsrdən qalma məscid binası indiyədək fəaliyyət göstərməkdədir.

Kükü kəndinin yaranmasına əsas səbəb ərazidə İslamdan öncə atəşpərəst Xudavəngilər tayfasının məskunlaşması olmuşdur. Həmin tayfa kahinləri tərəfindən ərazidə Xudavəng məbədini tikiblər. Onun fəaliyyəti orta əsrlərdə geniş şöhrət tapmışdır.

Kükü kəndinə Abbasilərin xəlifəliyi dövründə yaxın şərq ölkələrindən təqib olunmuş şiə təriqətindən olan müsəlmanlar gəlmişlər. Həmin müsəlmanlar arasında Həzrət Əlinin (ə) nəslindən olan yeddinci imam Musa Kazimin övladlarından da olmuşlar.

Kükü kəndinin əhalisi qısa ömürlüdürlər. Buna səbəb isə ərazidəki bioloji amillərin (qoz, qovaq, ardıc və sair) təsirindəndir.

Kənddəki Xudavəng pirinin adı qədim türk oğuzlarının ləhcəsində “Səslənən yer” və yaxud da ki, “Yaradanın çağırışı” mənasındadır.

Orta əsr atəşpərəstləri burada Zərdüştçülüyü yayaraq kahinlər tərəfindən xüsusi formada (gurultulu) səs çıxararaq ayinlərini icra edər, “günahkar” qız uşaqlarını tonqalda yandırmaqla yaradana qurbanlar verərdilər.

Küküdəki Xudavəng məbədinin tikilmə tarixi orta əsrlərin IV-VII əsrlərinə aid edilir (Q. Həsənov “Naxçıvan MSSR-in tarixi və arxeoloji abidələri”. Naxçıvan-1988. səh. 14).

Pir ərazisinin sahəsi 6400 m2. Kənd seysmik zonada olduğundan, ərazidə tez-tez yeraltı tərpənmələr müşahidə edilir. Nəticədə pirin (məbədin) möhtəşəm binası dəfələrlə uçub zədələnmişdir.

Doxsanıncı ildə pir binasında nadanlar tərəfindən xalqımızın tarixi arxeoloji abidəsi sökülərək dağıdılmışdır. Sökülmüş məzar yerində saxsı küpə qırıqları tökülüb qalmışdır.

Qədim məbəd tikilisi qırmızı-qonur tuf daşlarından dəmir alətlə yonularaq səliqə ilə hörülmüş, 25 m2 çatan bina sahəsindən ibarətdir. Məbədin həyətinə giriş darvazası 4 metr enində və 5 metrdə ucalığında iki tağlı taxta qapıdan ibarət olmuşdur. Həyətdəki suyu şəffaf olan çeşmə üzüaşağı kəndə tərəf axır.

Çeşmənin ətrafında üzü yonulub naxışlanmış daşlarla hörülmüş hovuz vardır.

Həyətin şimal-qərb tərəfində məbədin əsas binasına yapışıqlı 40 metr uzunluğunda yardımçı otaqlar tikilmişdir. Məbədin ümumi binasının forması Kiril əlifbasındakı "P" hərfinə oxşadılması zəlzələdən silkələnmənin qarşısını almaq üslubundadır.

Maraqlıdır ki, yonulmuş hörgü daşlarının üzərində keçi, qoyun, öküz, ilan, it, pişik (bəbir), skafandırlı adam, ov ovlayan adam, günəş, ay və tonqalın alov şöləsi cizgiləri yonulmuşdur. Hörgü daşları dördbucaqlı formada yonularaq aralarına qum, əhəng, gil, yumurta sarısı qarışığından olan məhlul tökülərək hörülmüşdür.

Pir binasının içərisindəki divarlarda qapı və pəncərə yerləri və mehraba oxşayan əymə başlı taxçaları vardır. Birinci giriş otağının döşəməsində sökülüb dağılmış məzar yeri qalmışdır. Xudavəng piri binasının uzunluğu 35 metr, eni isə 14 metrdir. Binaya daxil olarkən məzar olan otaqdan sola tərəf böyük uzunsov zala daxil olmaq üçün qapı yeri vardır. Binanın bütün qapı və pəncərələri, hətta üst örtüyünün tirləri götürülüb (çıxarılıb) aparılmışdır. Binanın şimal-şərq tərəfində təpəlikdə böyük dörkünc formalı üzləri yonulub naxışlanmış qurbangah daşı qoyulmuşdur.

Zərdüştçülükdə həmin daş üzərinə ölən İnsanların meydləri ilə "günahkar" qız uşaqları qoyularaq (uzadılaraq) yandırılardı.

Sovetlər dövründə həmin pir yerinə ətraf kəndlərdən ziyarətçilər gəlib, bulaq başında Allaha qurbanlar kəsib ehsanlar verərdilər.

Xalqımızın milli bayramı Novruzda kükülülər pir binasının geniş həyətində tonqal yandırıb, el şənliklərini keçirərdilər. Aşıqlar saz götürüb mənəvi söz yarışına girər, vətənpərvərlik nəğmələrini oxuyardılar.

Haliyyədə milli sərvətlərimiz olan Xudavəng pir binasının hörgü daşları laqeydsizlikdən ayrı-ayrı adamlar tərəfindən sökülərək ləğv olunmaq təhlükəsindədir. . .

Qədim Naxçıvan diyarında "vəng" adı ilə ikinci ziyarətgah (Astaabad şəhəri xərabəlilərində) yeri 1965-ci ildə Araz çayı dəryaçasında qərq olaraq "Qızıl Vəng" adı ilə tariximizdə yazılmışdır.

“...Mən sizi ibadət etdiklərinizə ibadət edən deyiləm!

Sizdə mənim ibadət etdiyimə ibadət edən deyilsiniz!

> *Sizin öz dininiz var, mənimdə öz dinim!”*
>
> **(Kafirlər surəsi, 4-6)**

Hovuz piri

Pir yeri okean səviyyəsindən 2.600 metr yüksəklikdə Şahbuz rayonunun Keçili kəndi ərazisindədir. Rayon mərkəzindən həmin kəndə 20 km-lik məsafədə asfalt yol uzanır.

Keçili kəndi, təbii gözəllikləri ilə digər kəndlərdən fərqlidir. Adi mahnılarda səslənən “Çınqıllı bulağı”nın sərin suyu, ərazidəki Siçanlı dağın ətəyindən çıxaraq borularla bir hissəsi kəndin içərilərinə çəkilmişdir.

Keçili kəndində 1.702 nəfər (2005-ci ilin st. məl) türk dilli oğuzlar yaşayaraq, əhalinin əsas məşğuliyyətləri bağçılıq və heyvandarlıqdan ibarətdir.

Kəndin adının yaranması əraziyə gələn Sofulu tayfası tərəfindən verilərək, buradakı vəhşi keçi sürüləri ilə əlaqədardır. Bundan sonra isə əraziyə Gorusdan Alməmmədli, Hacılı, Zeynalxanlı, Əşkaflı və başqa tayfalar da köçərək məskunlaşmışlar.

Əraziyə gələn ilk Sofulu tayfasından olanlar ovçuluqla məşğul olaraq, dağ və köfşənlərdə müxtəlif pirləri yaratmışlar.

Əhali əzəldən bəri müxtəlif niyyətlərlə yaratdıqları pirlərdəki yabanı gilə meyvə kolları budaqlarına, rəngli əsgi parçaları bağlayarlar.

Həmin adətlər qədim ovçu oğuzlarından qalaraq, getdikləri naməlum yerlərdən azmamaq üçün ağac və kol budaqlarına parçaları bağlamaqla yolu bələdləyirdilər. Təssüf ki, İslam dinində bütpərəstliyə aparıb çıxaran həmin adətlər dövrümüzədək qalmışdır. Belə “pir”lərdən Duzdağ piri, Tanın piri, Ərəzinmülkü piri, Sultanbudu piri, Yarğanbaşı piri və başqalarını göstərmək olar.

Kəndin mərkəzində sıldırım qayanın aşağısında (şəlalə yerində) Hovuz piri vardır ki, həmin ziyarətgah nəinki kənddə, rayon miqyasında şöhrət tapmış inanc yerlərindəndir.

Övlad həsrətində olanlar pirə ziyarətə gəlməklə Allahın köməkliyi ilə arzularına çatmaq istərlər.

Keçili əhalisi uzunömürlü olmaqla ərazidə üç qəbrstanlıqdan biri orta əsrlərdən qalmadır. Kəndin mərkəzindəki qədim məscid binasından indi də istifadə olunur.

Hovuz pirinin yaranması haqqında mömün yaşlı adamlar söyləyirlər ki, Sofulu tayfasından olan mömün Kərim kişi, bir gün yuxusunda görür ki, keçilərini suvardığı "şəlalə yeri" müqəddəs məkandır.

Kərim kişi kənddəki "şəlalə yeri"ni daş-kəsəkdən təmizləyərkən lil altından təbii hovuz yerini aşkar edir. "Hovuzun" içərisini təmizlərkən oradan qum altından qovuna oxşar qara daş (meteorit) tapır.

Tezliklə ahıl Kərim kişi əcəli ilə dünyasını dəyişir. Adamlar onun cənazəsini mərhumun vəsiyyətinə görə "hovuz"un yanında basdıraraq, tapdığı "qara daşı" da, baş daşı qoyurlar.Niyyət edənlər hər ilin Qurban bayramı günlərində "hovuz"un yanında gətirdikləri heyvanlarını Allah yolunda kəsərək ehsanlar verirlər.

1963-cü ildə kənddə yağan güclü leysan nəticəsində şəlalədən tökülən sel suları "Hovuz pirini" uçuraraq, məzar yerini də dağıtmışdır.

1988-ci ildə pir yeri təzədən bərpa olunaraq orada sərdabə tikmiş və simvolik məzar yeri düzəldilmişdir. Xoşbəxtlikdən sel suları ağır qara daşı uzaqlara apara bilmədiyindən, tapılaraq yenidən Kərim kişinin məzarına qoyulmuşdur.

Pirə gələn ziyarətçi gəlinlər niyyət edib qara daşı qucaqlarına götürərək Allahdan nicat istərlər. Hər kimin duasını Ulu Tanrı qəbul edərsə daşın çəkisi "azalmaqla", oğlan uşağına hamilə qalarlar. Niyyətlərinin qəbul olması ilə əlaqədar, gətirdikləri qurbanlıqlarını Allah yolunda kəsdirib yoxsullara ehsan edər və Kərim kişinin də ruhuna dualar oxunar.

Deyilənlərə görə keçilili Əbdülün (Qaçaq Quşdanın) anası Züleyxa da, bir vaxtlar hovuz pirindən nicat tapanlardan olmuşdur.

> *"(O Rəbbin ki) insana bilmədiklərini öyrətdi. Xeyir insan azğınlıq edər, axı sənin axır dönüşün Rəbbinədir!"*
>
> **(Ələq surəsi, 8)**

Yel piri

Şahbuz rayonundakı Badamlı kəndinin 4 km şimal qərb hissəsində qonşu Şada kəndinə gedən yolun kənarında, qədim bir tikili (məbədgah) vardır ki, ora “Yel piri” deyərlər.

Həmin məbəd binası islamdan öncə atəşpərəstliklə bağlı olaraq orta əsrlərin IV-VII yüzilliyinə aid edilərək Kükü kəndindəki Xudavəng ziyarətgahını xatırladır.

Şahbuz qəsəbəsindən Badamlı kəndinə 14 km-lik məsafədə asfalt yol gəlir.

Badamlı kəndi əraziləri qədim və orta əsr dövrləri İnsanlarının yaşayış məskənləri olmuşdur.Bütün bunlara sübut olaraq ərazidə X-XV əsrlərin nekropol və kurqan yerlərinin olmasıdır.

Kəndin ərazisində Azərbaycanda süfrə suyu kimi şöhrət tapmış “Badamlı” mineral suları zavodu vardır. Zavodun istehsal gücü ilbəil artaraq sifarişçilərin rəğbətini qazanmışdır. Badamlı kəndinin yaranması əraziyə cənubi Azərbaycandan gələn Gardalı tayfasının fars ləhcəli sözlərindən olmaqla “yelli su” mənasındadır.

Badamlı kəndində Gardalı, Alqocalı, İsmayıllı, Layışlı, Qaraboyalı və başqa tayfalar məskunlaşmışlar. Kənddə əskidən qalma iki məscid və iki qəbrstanlıq vardır. İnsanları uzun ömürlüdürlər.

Badamlı kəndinin əhalisi 1.101 nəfər (2005-ci ilin st. məl) olaraq əkinçilik və heyvandarlıqla məşğuldurlar. Kəndin ərazisində iki pir yeri vardır ki, onlardan biri rayonda şöhrət tapmış “Yel piri” (Pir-e-bad) və onunla qarşı tərəfdəki Çaxmaqlı təpəsindəki “Yemişanlı”dır. Yel pirinin şöhrət qazanması ora gedən xəstə ziyarətçilərin oynaq sümüklərindəki kəskin ağrıların sağalmasıdır.

Haliyyədə tarixi bina (atəşpərəstlik məbədi) yarı uçuq vəziyyətdədir. Şada selovunun sağ sahilindəki “Şeş təpəlik” (burada altı sayda təpələr vardır) ərazisindədir.

Ərazidə yabanı ağaclardan alma, armud, kol bitkilərindən yemişan, zirinc, it burnu (həməsur) və sərin sulu bulaqlar ziyarətçilərə xoş təsir bağışlayır.

Pir binası (orta əsr atəşpərəstlərin məbədi) qırmızı-qonur rəngli yonulmuş tuf daşları ilə hörülmüşdür. Binanın hündürlüyü 6, uzunluğu 12, eni 6 və divarların qalınlığıisə 1 metr ölçüsündədir. Binanın üst örtüyü ortadan yanlara maili vəziyyətində qurulmuş doxsanıncı ildə üst örtük tirləri, habelə qapı və pəncərələri sökülüb aparılmışdır.

Binanın üst örtüyünü saxlamaq üçün 1x1 metr qalınlığında qoşa dayaq sütunlar hörülmüşdür. Bina əsasən böyük otaqdan ibarətdir. İçərisində sökülmüş məzar yeri vardır. Kəndin yaşlı sakinləri təsdiq edirlər ki, həmin məzarda əraziyə gəlmiş Gardalı tayfa başçısı basdırılmışdır. Qəbrin üzərində əski (fars dilində) əlifbada yazılı daş lövhə olmuşdur.

Pirin həyətində tikilmiş yardımçı binalar sökülərək bərbad vəziyyətinə salınmışdır. Maraqlıdır ki, həyətin cənub tərəfində bir neçə müsəlman məzarları qalmışdır. Ola bilsin ki, həmin qəbirlər pirə baxan mücövürlərindir.

Pirdəki binanın içərisində küncdə atılıb qalmış 50 sm. diametrində və 20 sm. qalınlığında dairəvi formada daş vardır ki, onu bir neçə dəfə əzadakı ağrıyan yerə sürtməklə xəstələrin ağrıları azalır.

Pirə gələn xəstələr niyyət etdikləri qurbanlarını kəsib Tanrıdan nicat istərlər və oradakı ağacları suvararlar.

> *"And içirəm qiyamət gününə, O gün neçə-neçə üzlər sevinib güləcək, O gün neçə-neçə üzlər tutulub qaralacaq."*
>
> **(Qiyamət surəsi, 24)**

Şah Abbas piri

Həmin pir yeri Şahbuz rayonundakı Biçənək kəndinin yaxınlığındakı Batabat yaylasındadır. Bura e.ə. VII-VI əsrlərdə dəmir alətlə yonularaq sonradan "Fərhad evi" adı ilə tarixi arxeoloji abidə kimi tanınmışdır.

Biçənək kəndi rayon mərkəzindən 24 km şimal-şərqdə, Yevlax-Gorus-Naxçıvan avtoyolunun üstündədir. Kənddə 1.172 nəfər (2005-ci ilin st. məl) əhali yaşayır. Arıçılıq və bağçılıqla məşğuldurlar. Ərazidə müalicəvi mineral su bulaqları vardır.

Burada orta əsrlərdən qalmış Xinzirək yaşayış yerinin xərabəlikləri dövrümüzədək qalmışdır. Batabat yaylasında Ermənistanla sərhəd zolağında hündürlüyü okean səviyyəsindən 2.346 metrə çatan "Ərikli gədiyi" aşırımı yerləşir.

Tarixçilərin yazdıqlarına görə orta əsrlərdə ərəb islam xilafətinin qoşun dəstələri Naxçıvanda olduqdan sonra "Ərikli gədiyi" aşırımından keçərək Qarabağ səmtinə

(Beyləqanla Bərdəyə) atlarını sürmüşlər. Həmin yerə də onlar "Ərk gədiyi" ərəbcə "Uca hasar", "qala keçidi" deməklə sonradan söz "Ərikli" adı kimi dəyişilmişdir.

Biçənəklə aşırım arasında orta əsrlərdə tikilmiş aşırımlı daş körpü karvan yolu üstündə olmuşdur.

Şah Abbas piri deyilən "Fərhad evi" Batabat yaylasındakı "Zor bulağın" şərq tərəfində (4000 m-lik məsafədə) qara vulkanik tuf daş qayasındakı metal alətlə yonulmuş "mağara"dadır.

Həmin iri daşın yarısı torpaq altında qalıb, içərisində dörd "otaq yeri" qazılmışdır.

Otaqlar bir-birinin içərisindən keçməklə düz istiqamətdədirlər.

Birinci "otağa" girmək üçün 2, 20x1, 30 metr ölçüsündə "qapı" yeri qazılıb çapılmışdır.

Maraqlıdır ki, həmin "qapı" yerindən birinci "otağa" girərkən sağ tərəfdəki divarda saç-saqqalı kişi və sol tərəfdəki divarda isə qadın təsvirləri (barelyefləri) yonulmuşdur.

Yerli kənd ağsaqqalları həmin təsvirləri bəşərin ilk İnsanları olmuş Adəmlə Həvvaya işarə olunduğunu söyləyirlər. Divarlardakı şəkil sürətləri sanki qapinin gözətçiləri kimi, qonaqları salamlayırlar.

Otaqlarda oturub dincəlmək üçün səkilər, şam yandırıb işıqlandırmaq üçün isə taxça yerləi yonulmuşdur.

Qayalığın şimal-şərq tərəfindəki divarda oxunması çətinlik yaradan yazı olmuşdur ki, həmin tarixi lövhə nadan ziyarətçilər tərəfindən metal əşya ilə pozulmuşdur.

Orta əsr karvan yolu üzərindəki əhəmiyyətli "Şah Abbas piri" yaxınlığında karvansara tikilisinin xərabəlikləri qalmaqdadır.

Həmin yolda I Şah Abbas (1579-1629) qoşunları ilə Qarabağa gedərkən göy üzü qara buludlarla örtülmüş, leysan yağışlar başlamışdır. Şahın əsgərləri qorxuya düşərək daldalanacaq tapmadıqlarından, islanaraq xəstələnmişlər. Şah Abbas isə çadır qurulunca həmin qazılmış daş evdə yağmurdan canını qurtarmış və yağış kəsdikdən sonra Allah yolunda qurbanlar kəsdirib. İslanmış əsgərlərinə qızıl abbasilər paylamışdır. Daş yonan usta gətirilərək həmin qayada Quranın "Bəqərə" surəsindəki "Ayətəl-kürsu" duasını yazdırmışdır.

I Şah Abbas Qarabağdan uğurla qayıdan baş, həmin yerdə yenidən qurbanlar kəsdirmiş, daş evin yerini pir kimi ziyarət etmişdir. Bundan sonra çobanlar yaylağa gələrkən hava qaralıb yağışlar yağanda pir yerində Allaha qurbanlar kəsib, "otaqlarda" sığinancaq taparmışlar.

Batabat yaylağına istirahətə gələnlər yağışlı günlərdə Şah Abbas pirindən faydalanırlar.

> *"Şübhəsiz ki, Rəbbinin məqamından qorxanları iki cənnət gözləyir!"*
>
> **(Rəhman surəsi, 46)**

FƏSİL 2

Culfa rayonundakı ziyarətgahlar

Culfa rayonun ərazisi 995 km2 olub, coğrafi relyefində ən yüksək yeri Dəmirli dağı (3.368 m.) və ən alçaq sahəsi isə Yaycı kəndinin Araz çayı sahilləridir ki, okean səviyyəsindən 595 metr yüksəkdədir. Ərazidəki yüksək yerləri Zəngəzur silsiləsindəki Eşşək Meydanı aşırımı (2.862 m.), Göydağ (2.720 m.), İlandağ (2.415 m.) və Darıdağ (1.927 m.)-dir.

Culfa rayonu ərazisindəki Əlincə çayı (61,6 km) mənbəyini 2.800 m. yüksəklikdən başlayaraq Cuğa (Gülüstan) kəndi yaxınlığında Araz çayına qovuşur.

1987-ci ildən tikilib istifadəyə verilmiş Bənəniyar su anbarı 13 milyon m3 su tutumuna malik olaraq Əlincə çayından doldurularaq əkin sahələri suvarılır.

Culfa rayonun əhalisi 38.687 nəfər (2006-cı ilin st. məl.) olmaqla, əsas məşğuliyyətləri isə üzümçülüklə heyvandarlıqdan ibarətdir. Ərazidəki Yaycı kəndinin qadınları İslam dinindəki hicaba əməl edirlər. Culfalılar əməksevər olaraq mətin və mübarizdirlər.

XIII əsrlərdə Orta Asiyanın xaqanı Əmir Teymurun qoşunları Əlincə qalasını on iləddək mühasirədə saxlasa da, lakin qaladakı mübariz İnsanları məğlub edə bilməmişlər.

Culfa rayonu tarixi arxeoloji abidələrlə zəngin olduğundan ərazidə qədim insanların yaşayış məskənləri dövrümüzədək qalmışlar.

Ərazidə yerləşən Nəhəcir nekropolu (E. ə. III-I minillik), Ləkətağ nekropolu (E. ə. I minillik), Ərəfsə nekropolu (E. ə. II-I minillik), Milax kəndindəki Zoğallı yaşayış yeri (E. ə. IV minillik), Saltaq nekropolu (XIV-XVI əsrlər), Camaladdın yaşayış yeri (XVI əsr), Xanəgah nekropolu (XI-XVII əsrlər), Cuğa ilə Göydərə nekropolları (XIII-XVII əsrlər), Göynüklə Qazançı nekropolları (XIV-XVIII əsrlər), Bənəniyarla Kırna nekropolları (XIV-XVII əsrlər) və başqalarını göstərmək olar (V. Baxşəliyev “Pirlərlə bağlı miflər və inanclar.” Bakı-2006).

Allah-təala Culfa ərazilərinə müalicəvi mineral bulaq sularını əsirgəməmişdir.

Dünyada kimyəvi tərkibinə görə məşhur olan Darıdağdakı mərgümüşlü mineral termal suyu insan orqanizminin toxuma və dəri sisteminə müalicəvi təsir yaradır. Həmin suyun təsiri ilə insandakı qan azlığını aradan götürmək, sinir-əsəb sistemi, daxili və xarici

ifrazat vəzləri, mədə-bağırsaq, öd kisəsi, qara ciyər, mədəaltı vəzi və s. xəstəliklərin müalicəsində istifadə olunur. Habelə maddələr mübadiləsinin tənzimlənməsində, ürək əzələsinin fəaliyyətinin artırılmasında, dəri xəstəlikləri və gec sağalan yaraların müalicəsində həmin sudan tətbiq etmək olar.

Bundan başqa Cuğa kəndində "Gülüstan" soyuq mineral suyu sənaye üsulu ilə istehsal olunaraq müalicəvi mədən suları sırasında "Sirab"dan sonrakı yeri tutur.

Rayon mərkəzi olan Culfa şəhəri "Şərqin Qapısı" adlandırılıb, yarısı Araz çayından o tayda (İranda) qalmışdır. Müstəqillik əldə olunduqdan sonra Naxçıvan vətəndaşları Culfa şəhərindən Araz çayı üstündəki körpülərlə (dəmir yolu və avtomobillərlə) rahatlıqla İran İslam Respublikasına keçə bilirlər.

Culfa sözünün yaranma mənşəyi "culah" sözündən götürülmüşdür ki, toxucu, əyrici mənasındadır. Culfa şəhəri əhalisini I Şah Abbas (1579-1629) 1603-cü ildə (Səfəvi-Osmanlı müharibəsində) İsfahana köçümüş qədim şəhər yeri isə dağıdılmışdır.

Qədim Culfa şəhəri orta əsrlərin XII-XIII əsrlərində salınmış, 4 məscidi, 2 hamamı, bazar meydanı, karvansaraları, toxucu və əyirici emalatxanaları, karvan gömrük məntəqəsi və sair tikililəri olmuşdur. Haliyyədə indiki Culfa şəhərində 1997-ci ildən inşa olunmuş məscid binası, Gömrük idarəsi, dəmir yolunun lokomotiv təmiri məntəqəsi, transformatorlar təmiri sexi, çoxmərtəbəli yaşayış evləri, mədəniyyət mərkəzləri fəaliyyətdədir.

Naxçıvandan Culfa şəhərinə 40 km-lik dəmir və avtomobil yolları çəkilmişdir, əhalisi 2005-ci ilin statistik məlumatına görə 10.793 nəfər olmuşlar.

Culfalılar 1920-ci ildə Araz çayı üzərindəki körpüdə erməni quldurlarına qarşı mübarizə aparmış "Qırmızı tabor (dəstə)" komandiri Abbasqulu Şadlinskini gül–çiçəklə qarşılamışlar.

Yaxşı olardı ki, həmin tarixi günü unutmamaq üçün Culfada A. Şadlinskinin xatirəsinə monumental abidə ucaldılardı. . .

Şeyx Xorasan piri

Culfa rayon mərkəzindən 37 km-lik məsafədə Əlincə çayının hər iki sahilində Xanəgah kəndi vardır. Kəndin yaxınlığında okean səviyyəsindən 2.000 metr yüksəklikdə XII əsrin möhtəşəm istehkamı Əlincə qalası yerləşir. Qala ilə üzbəüz çayın sol sahilində qədim Paradaş şəhərinin xərabəlikləri qalmaqdadır.

Orada Azərbaycan xalqının filosofu, hürufilik təriqətinin bilicilərindən olmuş, Astaabadlı Şeyx Fəzullah Nəiminin məzarüstü sərdabəsi vardır. Bununla yanaşı orada XIV əsrdə tikilmiş və dəfələrlə bərpa olunmuş Şeyx Xorasan piri (xanəgahı) yerləşmişdir.

Hürufilik təriqəti altında xarici işğalçılara qarşı Azərbaycanda baş vermiş xalq hərəkatları tarixinə nəzər salsaq, həmin xanəgahın monqol işğalçılarına və teymurilərə qarşı baş vermiş mübarizələrdə görkəmli mövqe tutduğunu güman etmək olar (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992. səh. 49).

Kəndin yaranmasına səbəb bir tərəfdən ərazidəki mövcud Xanəgahla, digər tərəfdən isə Cahan xanın qədim Paradaş şəhərindəki iqamətgahı ilə bağlıdır.

Haliyyədə Xanəgah kəndində 1.212 nəfər (2005-ci il. st. məl.) əhali yaşayaraq heyvandarlıq və bağçılıqla məşğuldurlar. Kəndin əhalisi qonaqpərvər, əməksevər və uzunömürlüdürlər.

Xanəgah kəndində XVIII əsrdən qalma hamam, XVI əsrdən qalma məscid, XIX əsrdə qazılmış kəhriz quyuları və s. vardır.

Şeyx Xorasan piri kəndin yaxınlığındakı qədim Paradaş (xəzinə deməkdir) şəhərinin xərabəlik yerindədir. Burada qədim memarlıq abidələrindən məscid, mədrəsə və məzarüstü sərdabə tikililəri vardır.

Şeyx Xorasan piri iki mərtəbəli olmuş, iki tağlı giriş qapısı üzərində divarda ərəbcə yazılmış kitabə vardır.

Kitabənin tərcüməsi belədir:-"Bu müqəddəs, mübarək məqbərənin tikilməsinə öz xüsusi malı hesabına əmir, usfəhsalar (baş sərkərdə), qüdrətli, böyük alim, adil, dinin və dövlətin xoşbəxtliyi, islam və müsəlmanların gözəlliyi, hökmdarların və sultanların qılıncı, hər iki müqəddəs yerin (Məkkə və Mədinənin) şöhrəti, hacc zəvvarı və iki müqəddəs, mübarək məkanın dayağı Uluğ Qutluq Lalabəy əs-səfvəti (sufi) (Sufi-ərəbcə yun (cod) paltarlı adam (mömün) deməkdir. Həmin söz həm də, orta əsr türk dilli Qafqaz oğuzlarının ləhcəsində "əlifba" deməkdir ki, Hurifi təriqətindəki müsəlmanların 32 hərflik ana dilində yazı əlifbaları olmuşdur və sonradan farslaşdırılmışdır. A. Belov "Ateistin cib lüğəti". Bakı-1984. səh. 252).-Allah onun kölgəsini əsirgəməsin. Bu imarətin (mədrəsənin) (Orta əsrlərdə Azərbaycanda sufi müsəlman təriqəti geniş yayılaraq, Astaabadlı filosof Fəzlullah Nəiminin dərs dediyi mədrəsə nəzərdə tutulur) memarı hörmətli və alicənab Xacə Cəmaləddinindir " (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992. səh. 50).

Xanəgahda əsas binaya bitişik olan sərdabə də üstü qara örtüklə örtülmüş məzar, divarda isə ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Kitabələrin tərcüməsi belədir;-"Rəhimli, mərhəmətli Allahın adı ilə! Həmd olsun Ona-aləmlərin Rəbbinə, rəhimli, mərhəmətli olana, haqq-hesab gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən də, kömək diləyirik. "

> *"O bəndələr ki, "Pərvərdigara biz həqiqətən Sənə iman gətirmişik, günahlarımızı bağışlayıb bizi cəhənnəm əzabından qoru deyərlər.*
> *Və o, bəndələr ki, səbr edən, doğru olan, Allaha ibadət edən, mallarından fəqirlərə verən və sübh vaxtı Allahdan bağışlanmaq diləyənlərdir*
>
> **(Fatihə surəsi, 16-17)**

XIII əsrin axırlarında (1387-ci ildə) ərazidəki Əlincə qalasında Orta Asiya hakimi əmir Teymurun qoşun dəstələri yerli İnsanları öldürmüşlər. Əmirin oğlu Miranşahın əmri ilə Azərbaycanın görkəmli adamları qətlə çatdırılmış, kişilər vəhşiliklə öldürülərək qadınlarla uşaqlar isə Səmərqəndə sürgün edilmişlər.

Dövrünün görkəmli şair-filosofu Şeyx Fəzlullah Nəimini miladi tarixi ilə 1394-cü ildə Əlincə qalası yaxınlığında edam etmişlər (Ə. Rəhimov "Nəiminin öldürülməsi barədə İmadəddin Nəsiminin "Maddeyi-tarix" kitabı, Azərb. SSR. E. A. -nın məruzələri, XXXI cild, 1975. səh. 89). Naxçıvan xalqı mərhumun cənazəsini gizlin sürətdə aparıb xanəgahda (pirdə) dəfn etmişlər. . .

Hicri tarixi ilə 901-ci ildə Naxçıvan çuxurunda yaranmış müxtəlif dini təriqətlərə qarşı etiraz nümunəsi kimi savaşlar olmuşdur. Burada şiə müsəlman məzhəbiundə olanlar, sünnə məzhəbində olanlara qarşı çıxaraq, Nuh yurdu ərazilərindən onları (təriqətçiləri) qovmuşlar.

Həmin dövrlərdə Naxçıvana Xorasandan Şeyx Hacı Lələ Məlik adlı müşteyid gələrək, ərazidəki müxtəlif təriqətləri qadağan etmiş, yalnız şiə məshəbini elan etmişdir. Şeyx, Xanəgahdakı sərdabəni ziyarət edərkən qəflətən ömrünü tamamlayaraq orada da,dəfn olunmuşdur. Şeyxin məzarı üzərindəki daş kitabənin ərəbcədən tərcüməsi belədir;-"Bu cənnət (məqbərə), səxavətli, kamil, mükəmməl alim, şeyx hacıların və iki müqəddəs məkanın (Məkkə ilə Mədinənin) iftixarı, xalqlar arasındakı tayfaların (sufiliyin) mürşüdi, Allahı tanıyanların şeyxi, Hacı Lələ Məlikindir. Tikinti əzəmətli, kəramətli,

xatun, Xond Bikə Xatunun-onun isməti artıq olsun-səyi ilə doqquz yüz birinci ildə tamam oldu" (miladi tarixi ilə 1495-ci ildə).

Kitabədə adı çəkilən Şeyx Hacı Lələ Məlik, dövrünün böyük şeyxi olmuş və müqəddəs diyarda (Burada, Nuh yurdu-Naxçıvan müqəddəs torpaq əraziləri kimi nəzərdə tutulur) sufilik nəzəriyyəsini yayan Şeyx Əbu Ömər Nəşəvinin övladlarından (müridlərindən) biri olmuşdur (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992. səh. 51).

Şeyx Xorasan piri, haliyyədə Naxçıvanın tarixi memarlıq incilərindən sayılır. Dövlət tərəfindən bərpa olunmuş, Mədəniyyət və Turizm Nazirliyində qoruq kimi qeydə alınmışdır.

Xanəgah kəndində başqa bir ziyarətgah vardır ki, bura gələn ziyarətçilər həmin yerdə qurbanlar kəsərək ehsanlar verərlər. Həmin pirin yanında köhnə məscid binasının divarında hörülmüş daş üzərində ərəbcə kitabə vardır. Kitabənin üzərindəki yazı hərfləri bir neçə yerdən qopub korlandığından oxunuşu çətinlik yaradır.

Daş kitabənin tərcüməsi belədir;-"Bu şərəfli künbəzin bina olunmasını sahib əl-əzəm Hacı Məhəmməd bin mərhum, xoşbəxt şəhid, əmir Səyyid Əhməd əl-uğlaşami, vəfat etmiş, oğlu Əmirxan üçün ən böyük sultan Cahanşah Bahadur xanın vaxtında-(Allah onun hökmranlığını əbədiləşdirsin)-əmr etmişdir.

Və adı çəkilən bani (Hacı Məhəmməd) dəvət edən (ziyarətgaha çevrilmiş)-məqbərəyə üç "şeyi" vəqf (Vəqf-ərəbcə ümumxalq üçün istifadə olunan mülk, mal, kitab və sairədir) etmişdir. . . əkilmiş yer. . . bu dəfn yeri olan kümbəzə ildə. (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992. səh. 51). (Təcümədəki nöqtələrin yeri daş kitabədə ovularaq korlanmışdır).

Mümkündür ki, daş kitabədə adı çəkilən Səyyid Əhmədin məzarı orada olsun. Lakin zamanın hökmü ilə mərhumun məzarı itsə də, adamlar oranı inanc yeri kimi ziyarət edirlər.

Qaraqoyunlu hökmdarı Cahan şah (1436-1467) Nuh yurdunda bir çox tarixi memarlıq abidələrini tikdirərək nəsillərə yadigar buraxmışdır. Kitabədə adı çəkilən "xoşbəxt şəhid" ləqəbli sərkərdə Səyyid Əhmədin nəvəsi Əmirxan olmuş, vəfat edərkən həmin məqbərə (Şeyx Xorasan xanəgahı) və Əmirxanın dəfn olunduğu yer (məscid binası) onun tikilməsi tarixini çox-çox əvvəllərə aparır.

Qeyd etmək lazımdır ki, Cahanşah "Həqiqi" təxəllüsü ilə ana dilimizdə şeyrlər yazmış, dövrünün mədəni irsinə qayğı göstərmişdir.

Belə ki, onun Təbriz şəhərində tikdirdiyi "Göy məscid" (miladi 1465-ci ildə) binası, Ön Asiyada ən nadir və əvəzolunmaz memarlıq əsəridir (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992, səh. 53).

Xanəgah kompleksindəki son vaxtlar aşkar olunmuş daş kitabələrdən göründüyü kimi, burada (ərazidə) sufilik təlimi XVIII əsrin sonu və XIX əsrin əvvəllərinədək qalmış, sonradan isə onun fəaliyyəti dayandırılmışdır.

Lakin bütün bunlara baxmayaraq bu günə kimi müxtəlif təriqətli mömin zəvvarlar həmin ənəni davam edirlər (H. F. Səfərli "Naxçıvan ziyarətgahları". Bakı-1998. səh. 42).

1985-90-cı illərdə xanəgahda (pirdə) aparılmış bərpa zamanı Fəzlullah Nəiminin məzarüstü yazılı daş kitabəsi yoxa çıxmış, oradakı çoxsaylı əlyazma kitablar aparılmışdır.

Sovetlər dövründə ateizm təbliğatı güclü olduğundan bir çox müsəlman ölkələrindəki dini, tarixi mədəniyyət nümunələri aparılaraq xaçpərəst ölkələrinin muzeylərində nümayiş olunmaqdadır (1941-ci ildə Səmərqənddə Əmir Teymurun məzarı açılaraq, oradan məhrumun qılıncı, tacı ilə birlikdə kəllə sümüyü də, Leninqraddakı Ermitaj muzeyinə aparılmışdır).

"(Allah) onları doğru yola müvəffəq edəcək, onların əhvalını (dünyada və axirətdə) düzəldəcəkdir. Və onları (dünyada) özlərinə tanıtmış olduğu Cənnətə daxil edəcəkdir."

> *Ona görə ki, Allah iman gətirənlərin dostudur (himayədarıdır). Kafirlərin isə dostu (himayədarı) yoxdur!"*
>
> **(Məhəmməd surəsi, 11)**

Almәmməd piri

Culfa rayonundakı Camaldın kəndindən 5 km şimal-şərqdə köhnə qəbrstanlıq təpəliyində Almәmməd piri vardır. Pirin yaranma tarixi XVII əsrə aid edilir.

Camaldın (Cəmaləddin) kəndi Culfa şəhərindən 18 km məsafədə Əlincə çayının sol sahilində yerləşmişdir. Kəndin əhalisi 1.364 nəfər (2005-ci ilin st. məlumatı) olaraq

üzümçülük və heyvandarlıqla məşğuldurlar.

Kəndin adının yaranması burada ilk məskunlaşmış Cəmaləddinlər tayfası ilə bağlıdır.

Həmin tayfa əraziyə Cənubi Azərbaycandan (Urmiya vilayətindən) gələrək məskunlaşmışlar. Sonradan kəndə Zəngəzurun Gorusla Sisiyan bölgələrindən tayfalar köçmüşlər.

Əvvəllər kolxoz ambarı olmuş qədim məscid binası, son illərdə bərpa olaraq mömünlərin ixtiyarına verilmişdir. Məsciddə ruhani təhsilli Məşhədi Ramiz Adıgözəl oğlu əhaliyə İslam ehkamlarını təbliğ edir.

Almməməd piri 8x5 metr ölçüsündə daş hörgülü kiçik binadan ibarətdir. Orada üç məzar yeri vardır ki, ikisi həyətdə, biri isə otaqdadır. Həyətdəki məzarlar əvvəllər çoban olmuş mücövür Səfəralı kişi ilə Almməmədin arvadınınkıdır. Binanın içərisindəki qara örtüklü məzar isə pir sahibi-Almməmədindir.

Pirin həyətindən çeşmə çıxır. Orada ziyarətçilər üçün lazım olan avadanlıqlar qoyulmuşdur.

Pirin ərazisindəki köhnə qəbrstanlıqda qoç şəkilli daşdan yonulmuş məzar yerləri, yaxınlıqda isə 40-50 min il əvvəlin yaşayış məskəni olan mağara qalmaqdadır.

Almməməd pirinin yaranması haqqında kənddəki ahıl İnsanlar söyləyirlər ki, iki yüz il öncə Cəmaləddinlər tayfası Arazdan keçərək gəlib Əlincə çayı sahilində məskunlaşmışlar. Həmin tayfadan bir nəfər kişinin dərisinin rəngi qırmızı-sarı, tükləri isə ağ rəngdə olduğundan adına “almməməd” demişlər.

Bivaris (övladsız) Almməməd bir gün Allaha dua edib niyyət edir ki, heyvanları (qoyunları) əkiz bala doğarlarsa, erkəklərini qurban kəsib, ətini kasıblara ehsan edəcəkdir. Səxavəti olmayan Almməmədin həmin il boğaz qoyunlarının hamısı əkiz bala doğurlar. Acgöz kişinin var-dövləti artır, dediyi sözlərini unudur...

Bir gün günorta üstü hava qaralaraq toz-duman bürüyür və leysan yağışı başlayır. Çöldə çoban Səfəralının sürüsündə otlayan heyvanlar pərən-pərənə düşüb dərələrə dağılırlar. Ertəsi günü hava açılır qəzəblənmiş Almməməd çobanla birlikdə itmiş qoyunlarını axtarmağa gedirlər. Onlar çöldə-dərədə canavarlar tərəfindən parçalanmış cəmdəklərə rast gəlməklə yalnız mağarada iki qoyunla bir qoçu salamat tapırlar.

Yorulub əldən düşən Alməmməd gəlib köhnə qəbrstanlıqdakı çeşmə suyundan içərək sərinləyir və həmin yerdə mürgüləyib yatır.

Yuxuda ona belə deyirlər;-“Alməmməd, sən verdiyin vədəni unutmusan”. Yuxudan hövlənək qalxan Alməmməd tufandan salamat qalmış qoçu Allah yolunda qurban kəsərək tövbə edir. Sonra o, əti doğrayaraq kənddəki yoxsullara paylayıb, əhvalatı olduğu kimi sonsuz arvadına danışır. Arvad ərini tənbeh edib ətin hamısını camaata payladığı üçün onu evdən qovur.

Deyingən arvadından bezmiş Alməmməd evdən çıxıb birbaş köhnə qəbrstanlığa gedir ki, orada onu qurdlar yesinlər.

Alməmməd bulaq başında yatır. Sübh tezdən güclü yer silkələnməsindən qalxıb zəlzələdən qorxur.

Kənddəki evlər dağılır. Alməmmədin isə evi arvadının başına uçub tökülür. Yaralanmış arvad ərinə etdiyi pisliyə görə peşiman olub və axtara-axtara gəlib Almməmmədi tapır. Bulaq başında Alməmmədin yaralı arvadı canını tapşıraraq dünyadan köçür.

Alməmməd arvadının cənazəsini oradaca torpağa basdırıb dəfn edir.

Evləri uçub dağılmış Alməmməd çobanın köməkliyi ilə bulaq başında kiçik bir daxma tikirlər. Tezliklə Alməmməd dünyasını dəyişir. Vəsiyyətinə görə çoban onu daxmasında basdırır.

Bir müddət keçdikdən sonra Alməmmədin məzarı olan daxma İnsanların inanc yerinə-pirə çevrilmişdir. Səfəralı kişi orada “mücövürlük” edərək əcəlin hökmü ilə dünyadan köçməli olur.

Pirə gələnlər mücövürün cənazəsini daxmanın həyətindəki arvadın məzarının yanında dəfn edirlər. Bundan sonra Alməmməd piri ərazidə şöhrət taparaq ziyarətgaha çevrilmişdir.

Son illərdə pirdə yeni bina tikilmiş, mücövür Səfəralının qəbiri isə qapı önünə düşmüşdür.

> *İnsana bir zərər toxunduğu zaman Bizə dua edər. Sonra dərgahımızdan ona bir nemət əta etdikdə: "Bu mənə yalnız biliyimə görə verilmişdir!"-deyər. Xeyir, bu bir imtahandır, lakin onların əksəriyyəti bunu bilməz!"*
>
> **(Zümrələr surəsi, 49)**

> *"Əgər Allah sizdən Onun (mal-dövlətinizin) hamısını istəsə və bunu sizdən israrla tələb etsə, siz xəsislik göstərərsiniz və o da kin-küdrətinizi zahirə çıxardar."*
>
> **(Məhəmməd surəsi, 37)**

Gülüstan türbəsi

Gülüstan türbəsinin tikilmə tarixi XII əsrin sonu və XIII əsrin əvvəllərinə aid etmək olar.

Gülüstan tarixi-arxeoloji türbəsi Culfa şəhərindən 5 km şimal-qərbdə əvvəlki Cuğa kəndi yaxınlığında Araz çayının sahilindədir.

Türbə sərhəd zolağında olduğundan ora icazəsiz getmək mümkün deyil.

Gülüstan (Cuğa) kəndinin əhalisi 482 nəfərdən ibarətdir (2005-ci ilin st. məl.), heyvandarlıqla məşğuldurlar.

Kəndin yaxınlığındakı əzəmətli tarixi memarlıq abidəsinin adının yaranması orta əsrlərdə şöhrət tapmış və indi xərabəlikləri qalan qədim Gülüstan şəhəri ilə bağlıdır.

Azərbaycan alimlərindən Ə. Salamzadə və K. Məmmədzadə 70-ci illərdə orada tədqiqat işləri apararaq həmin abidəyə tarixi baxımdan ən yüksək qiymət vermişlər (Ə. Salamzadə. "Arazboyu abidələr". Bakı-1979).

Sovetlər dövründə xalqımızın qiymətli mənəvi-tarixi ziyarətgahı sərhəd qoşunları əsgərlərinin güllələrinin nişangahına çevrilmişdir. . .

Gülüstan türbəsi iki mərtəbəlidir. Birinci mərtəbədəki binanın içərisində məzar yeri vardır. Sovetlər dövründə həmin məzar yeri sökülərək bərbad hala salınmış, məzarın üstündəki yazılı daş kitabə də, itirilmişdir. Çox güman ki, belə sərdabələr dövrünün nüfuzlu feodal şəxslərindən olması mümkündür.

Tarixə nəzər saldıqda e.ə. 530-cu illərdə Araz çayı kənarında Gülüstan şəhəri ərazisində İran şahı Kir ilə Massagetlərin (qədim oğuz türkləri olmuşlar) hökmdarı, qeyrətli qadın, hakim Tomiris ana ərazidəki igidləri toplayaraq düşmənə qarşı ədalətli müharibə etmişlər. Həmin dövrlərdə əsir düşən Kirə, Tomiris ana qan içirtməklə onu öldürmüşdür.

Çox güman ki, türbədəki məzar yeri Tomiris ananın şəhid oğlununkudur.

Orta əsrlərin XII əsrində "Böyük Atabəy" adını almış Şəmsəddin Eldənizin (1136-1175) hakimiyyəti döründən sonra bir neçə mənəviyyat abidələri tikilmişdir ki, onlardan biri isə 1187-1190-cı illərdə Gülüstan türbəsi olmuşdur.

Sərdabənin divarları dörd sıra ilə uzanan iri daş səthlərdən ibarətdir. Sərdabənin aşağası ilə yuxarı mərtəbəsi arasında əlaqə qoyulmuşdur. Türbənin üz hissəsi yaxşı yonulmuş qırmızı rəngli tuf daşından tikilib, yuxarı hissədəki on iki til və səthlərini dövrələyib keçən çatma tağlı, qoşa burma formalı naxışlarla bəzədilmişdir.

Türbənin dövrəsinin bölgüləri ilə onun naxışlarındakı bəzək elementləri eyni ilə böyük Əcəmi Əbubəkir oğlu Naxçıvani məktəbinin sənətkarlığı ilə işlənmişdir.

Gülüstan türbəsindən şimalda selovun içərisində soyuq sulu mineral bulaq çıxır. Bulaq Gülüstan adı ilə şöhrət tapmışdır.

> *"...Allaha şərik qoşan kimsə göydən düşən, quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə bənzər."*
>
> **(Həcc surəsi, 31)**

Ərəfsə piri

Ərəfsə kəndi Culfa rayonu ərazisindəki Əlincə çayının sağ sahilində yerləşərək rayon mərkəzindən bura 55 km-lik məsafədə yol gəlir.

Kənddəki əhalinin sayı 940 nəfər (2005-ci ilin st. məl.) olaraq heyvandarlıq və bağçılıqla məşğuldurlar. Ərəfsə kəndi okean səviyyəsindən 1800 metr yüksəklikdədir. Ərazidə şirin sulu çeşmələrlə və mineral bulaqlar vardır.

Kənndə məskunlaşmış əhali əsasən orta əsrlərdə Cənubi Azərbaycandan (Mərənddən), Gığıllı ilə (Xoydan) Məhəmmədli və İraqdan gələn Ərəb tayfalarından ibarətdir. Bundan

sonra isə, həmin əraziyə Zəngəzur mahalından Çuxurlu ilə Eminəli tayfaları da, köçmüşlər.

Ərazidə orta əsrlərdən qalma iki qəbrstanlıq vardır ki, onlardan birində Ərəfsə piri yerləşmişdir. Bundan başqa burada XVII əsrdən qalma daş körpü və XIV əsrdən qalma "Xərabə şəhər" ərazisi ilə məscid vardır.

Kəndin adının yaranması əsasən buradakı pirlə bağlı olaraq "üç ərəb" sözündən götürülmüşdür.

Pir binasında 1985-ci ildə təmir-bərpa işləri aparılıb. Orada iki otaq və eyvan tikmişlər.

Otaqlardan birində üç sayda müsəlman məzarları vardır.

Ərəfsə pirinin mücövüri Nübar Yusif qızının söyləməsinə görə pirdəki məzarlardan biri Səyyid Hüseyn ağanın (H. F. Səfərli "Naxçıvan ziyarətgahları". Bakı-1998. səh. 43. M. B. Mirheydərzadə "Əbrəqunus dairəsi, məşhur Əlincə çayın sahillərində vaqe. . . " "Azərbaycanı öyrənmək" dərgisi, Bakı-1930. № 4-5), digərləri isə onun oğlanlarınındır.

Pirin həyətində göyərmiş Qara çalı kolunun budaqlarına rəngli əski parçaları bağlamışlar. Kolun yanındakı "ocaq" yerində isə qara hamar daşlar (meteoritlər) qoyulmuşdur.

Ərəfsə pirində ziyarətə gələnlər üçün lazım olan şərait yaradılmış, ora (təpəyə) qalxmaq üçün yol çəkilmişdir.

Tarixçi alimlər Ərəfsə pirinin yaranmasının XV əsrlərə Səfəvi hökmdarı I İsmayılın (1501-1524) hakimiyyəti dövrlərinə aid edirlər. Pir binası XIX əsrdə yenidən bərpa olunmuşdur.

Deyilənlərə görə ərazidə Səyyid Hüseyn tərəfindən mədrəsə yaradılmış, İslam dinindən təlimlər keçirilmişdir. Pirdəki mərhum Səyyid Hüseynin məzarı yanındakı digər qəbir yerləri ola bilsin ki, Onun davamçılarından (müridlərindən) olanlardır.

Təssüf ki, məzarların üzərində heç bir yazılı kitabə dövrümüzədək qalmamışdır.

Pir binasının geniş həyətyanı sahəsində yaz aylarında bitən, adı "Qırmızı kitaba" düşmüş nadir "Boz ot" bitkisi yayılmışdır. Təbii müalicə üsulu ilə həmin otun cövhərindən sonradan ağır eşidən adamları müalicə edirlər. Müalicəni kənddəki "mücövür" kimi tanınmış Nübar nənə tərəfindən həyata keçirilir.

Ərəfsə piri ilə üzbəüz Əlincə çayının sol sahilində təpə döşündən soyuq sulu mineral bulaqlar qaynayırlar. “Ağşal bulağı”nın yanındakı azacıq minerallaşmış karbon qazlı su, Gürcüstandakı “Barjomi” tipli olmaqla daxili xəstəliklərin müalicəsində əvəz olunmazdır. Buna görə də kənddəki əhali uzunömürlü və sağlam əhval ruhiyədədirlər.

> *“(Ey insan!) Sən (dua edərkən) səsini ucaltsan da (heç bir fərqi yoxdur). Çünki Allah sirri də sirdən daha gizli olanı da bilir.*
> *Allahdan başqa heç bir tanrı yoxdur. Ən gözəl adlar (Əsmayi-hüsna) yalnız Ona məxsusdur!”*
>
> **(Taha surəsi, 8)**

Göynük (Səyyid Həsən) piri

XV əsrdə tikilmiş pir yeri Culfa rayonundakı Göynük kəndində, ərazinin şimal tərəfindəki mənzərəli çəmənlikdədir. Göynük kəndinin adının yaranması məhz ərazidəki çəmənliklə bağlı olmuşdur. Göynük kəndi okean səviyyəsindən 2.000 metr yüksəklikdə yerləşmişdir. Oradakı dağlar çiçəkli çəmən bitkiləri ilə örtüldüyündən, “Alp çəmənlik qurşağı”nı xatırladır.

Göynük kəndində e.ə. III minillik nekropol olaraq ərazidə XIV-XVII əsrlərin yaşayış yeri qalmışdır.

Həmin ərazidə yayılmış nadir bitkilərdən şiyav (ağ ot), dağ laləsi, baldırqan, çaşır, dağ kəvəri, kəklikotu, uşqun, dağ nanəsi, yemlik, qazayağı, süsən, digər kol bitkilərindən zərinc, yemişan, itburnu (həməsür) ilə bərabər alma, alça, armud və sairə ağaclar bitmişdir.

Ətraf yamaclarda müxtəlif gəmirici heyvanlar, quşlardan kəklik, bildirçin, göyərçin və sair yaşayırlar.

Ərazi əzəldən pir yeri olduğundan orada ov etmək “günah iş” sayılmış, heyvanat aləmi zənginləşmişdir.

Göynük kəndindəki əhalinin sayı 213 nəfər (2005-ci ilin st. məl.) olaraq əsas məşğuliyyətləri arıçılıqla heyvandarlıqdan ibarətdir.

Kəndin azacıq əkin sahələri dəmyə üsulu ilə suvarıldığından məhsuldarlıq aşağadır.

Göynük kəndinə Culfa şəhərindən 44 km-lik məsafədə yol gəlir. Kənddə indiyənədək məscid binası tikilməmişdir.

Pir ərazisində adi formada tikilmiş üç daxma vardır ki, içərisindəki məzarlar əvvəllər orada mücövür olmuş İsmayıl kişi, arvadı Pəri ilə yeganə qızları Gülüzarınkıdır.

Daxma-Sərdabələr dağ daşları ilə hörülüb üstü örtülmüş, qəbirlərin üstlərinə qara rəngli parça çəkilmişdir. Həmin daxmalardan 50-60 metr aralıda dərə yamacında Səyyid Həsənin məzarı vardır ki, ora pir yeridir.

Göynük kəndindəki pirin yaranması haqqında müəmmalı söhbətlər deyirlər.

Azərbaycanda səfəvilər dövründə İslam dinindəki şiə təriqəti güclənərək inkişaf etdirilmişdir. Orta əsrlərdə Naxçıvanın ərazilərinə İraqla İrandan (Cənubi Azərbaycandan) müsəlman tayfaları gəlib çox hörmətlə yaşamışlar. Onların içərisində iki qardaş Həsən ilə Hüseyn Əshabi-Kəhf ziyarətindən sonra ərazini özlərinə ikinci vətən seçmişlər. Qardaşlardan böyüyü Hüseyn Ərəblər (indiki Ərəfsə) kəndinə, kiçiyi Həsən isə Göynükdə qalmışlar. Hər iki qardaş müsəlman vacibatlarını əhaliyə öyrədib müqəddəs Qurandan təlimlər aparmışlar. Onlar xalq arasında əxlaqı keyfiyyətlərinə görə hörmət qazanmış, adamların mənəvi dəyərlərinə yardımçı olmuşlar. Dünyalarını dəyişərək Hüseyni Ərəfsə, Həsəni isə bir neçə ildən sonra Göynük kəndində dəfn etmişlər. Həmin vaxtlardan isə yerli camaat tərəfindən səyyid qəbrləri ziyarət edilməklə pir yerlərinə çevrilmişdir.

Səyyid Həsən pirinin mücövürü Zəngəzur mahalının Qozulca (Bartaz-düşgəli) kəndinin sakini İsmayıl kişi ilə arvadı nüvədili Pəri xanım olmuşlar. Mücövürlər vəfat etdikdən sonra həmin pirə onların yeganə qızları Gülüzar tərəfindən baxılmışdır.

Gülüzarın valideyinləri öldükdən sonra pirə gələn ziyarətçi Həsənalı adlı kişi onunla evlənmiş, Nübar adında qızları olmuşdur.

Tezliklə Həsənalı ilə Gülüzar dünyadan köçür. Nübar kənddə babasının evində yaşamaqla pirə mücövürlük etmişdir.

1950-ci ildə pirə ziyarətə gələn dul Məmmədqulu kişi Nübarı özünə siyqə (müddətli nigahdır) etmiş və bəxtiqara olan qız, uşaq üstə dünyadan vaxtsız köçmüşdür. . .

Haliyyədə pirin mücövürlərindən olmuş Nübar Həsənalı qızının 96 yaşlı dayısı qızı Tovuz nənə Abdulla qızıdır. Tovuz nənə Babək rayonundakı Şıxmaxmud kəndində ixtiyar sahibi olmuş, gözlərinin nuru getmiş və eşitmə qabiliyyətini itirmişdir. . .

Göynük pirinin mücövürü mərhum İsmayıl kişi haqqında kənd sakinləri (xüsusilə qahablılar) belə deyirlər ki, gənc yaşlarında o, Nüvədidən Pəri adlı bir qızı qaçıraraq onunla evlənir. Qızın yaxın əqrabaları onları axtarıb Mincivanda tapırlar. Sübh əzanında İsmayılı namaz üstündə arxadan qılıncla başını bədənindən ayırırlar. Oğlanın qanlı cəsədini kəsilmiş başı ilə bərabər kəhriz quyusuna saldıqdan sonra Pərini götürüb aparırlar. . .

Həmin hadisədən yeddi (on) il keçəndən sonra Əshabi-Kəhf mağarasında qeybdən möcüzə baş vermişdir.

İsmayılın başı bədənindəki nəşi uzandığı vəziyyətdə şiddətli asqırmaqla dirilib canlanmışdır. İsmayıl ayağa duraraq kəsilmiş boğazını əlləri ilə yoxladıqdan sonra dizi üstə yerə düşüb Allahın möcüzəsinə şükr etmişdir. O, yerə səcdəyə əyiləndə qulağına səs gəlmişdir. “İsmayıl, get ailəni Göynük pirində axtar tap və orada da, qalmış ömrünü yaşa”.

Həmin səsdən qorxan İsmayıl soraqlaşaraq Göynük kəndinə gəlmiş və pirin yerini tapıb, ömrünün qalmış yeddi (on) ilini orada mücövürlüklə keçirmişdir.

İsmayıl Göynükdə özünə bir daxma tikib qalarkən çox istəyir ki, Mincivana gedib arvadı Pərini axtarsın. Lakin pirə gələn ziyarətçilər gündən-günə artdığından onun macal tapmağa vaxtı olmur. Hərdən Naxçıvandakı Cümə məscidinə gələr, elə həmin gün də piyada kəndə qayıdarmış.

Onu Naxçıvan məscidində görən yaşlı möminlər söyləyirdilər ki, Göynüklə Nəhəcir kəndlərinin mollası İsmayıl kişi boynu sarıqlı vəziyyətdə həmişə qaradinməz fikirli olardı.

Allahın qüdrəti ilə bir gün İsmayıl kişi Məhərrəm ayının əvvəlində Əshabi-Kəhfdə mincivanlı ziyarətçilərlə birlikdə gəlmiş Pərini yeddi (on) ildən sonra qucağındakı körpə Gülüzarla birlikdə görüşdürmüşdür. Həmin anda qucağındakı körpəsi ilə Pəri Allaha dua edərkən İsmayılın yanıqlı məskurəsini (imam Hüseynin şəhadətinin təsvirini) eşidərək sevincindən ağlamışdır.

Bundan sonra onlar sevinərək Yaradana şükr etməklə Göynük kəndinə gəlmişlər.

1925-ci ildə soyuq payız günlərində İsmayıl kişi Göynük kəndində dünyadan köçmüşdür. Kəndin adamları tərəfindən İsmayıl kişinin vəsiyyəti ilə onun cənazəsini pir

yaxınlığındakı otlaqda əmanət qəbir formasında (şimal-cənub istiqamətində) basdırmışlar.

> *"Şübhəsiz ki, dirildən də, öldürən də Bizik. (Axır) dönüş də Bizim hüzurumuzdadır."*
>
> **(Qaf surəsi, 43)**

> *"Həqiqətən ölüləri dirildən, onların (dünyada) nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik..."*
>
> **(Yasin surəsi, 12)**

> *"Göylərin, yerin və onlarda olan hər şeyin hökmü Allaha məxsusdur. Allah hər şeyə qadirdir!"*
>
> **(Maidə surəsi, 120)**

"İmamzadə" piri

Həmin pir yeri Culfa rayonundakı Dizə kəndindədir. Rayon mərkəzindən 16 km şimalda, Xoşkəri çayının sol sahilində "İmamzadə" piri ziyarətgahdır.

Dizə kəndinin əhalisi əsasən Zəngəzur mahalından köçüb gələn tayfalardır.

Əhalinin sayı 1.008 nəfər (2005-ci ilin st. məl.) olaraq məşğuliyyətləri üzümçülüklə heyvandarlıqdan ibarətdir.

Kənddə hələ sovetlər dövründən qalma mədəni iqdisadi və sosial inkişaf yaradılmış, burada orta məktəb, klub, kitabxana, uşaqbaxçası, tibb-mama məntəqəsi, rabitə şöbəsi və ictimai-iaşə mərkəzi binaları tikilmişdir.

Dizə kəndində məscid binası tikilmədiyindən əhalinin cüzi hissəsi dindardır.

Ərazidəki "İmamzadə" pirində nəinki dizəlilər, o cümlədən də, qonşu kəndlərdən ziyarətçilər gəlib Allah yolunda qurbanlar kəsir, ehsanlar verərdilər.

> *İmamzadə" piri haqqında istər kənddəki yaşlı nəsil, istərsə də elmi mütəxəssislər dəqiq məlumat əldə edə bilmədiklərindən ziyarətgahın yaranması haqqında iddialar müxtəlifdir.*
> *"Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu şübhəsiz ki, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün təlqin edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız."*
>
> **(Ənam surəsi, 121)**

"Nisəbəyim bulağı" piri

Həmin bulaq-pir yeri Culfa rayonundakı Şurud kəndində qədim ziyarətgahdır.

Şurud kəndi öz gözəlliyi ilə digər kəndlərdən fərqlidir. Bura Culfa şəhərindən 23 km məsafədə yol gəlir.

Şurud kəndi okean səviyyəsindən 2.200 metr yüksəkdədir. Əhalisi 180 nəfər (2005-ci ili st. məl) olaraq məşğuliyyətləri əsasən arıçılıq, bağçılıq və heyvandarlıqdan ibarətdir.

Kəndin yaranması və adının mənşəyi hələ orta əsrlərdə ərazidə atəşpərəstliklə əlaqədar olmuş, kahinlərin üzüm və xüsusilə giləmeyvələrdən hazırladıqları alkaqollu "Şurud" içkisi ilə adlanmışdır.

Kənddə Zərdüşt dini icra edən kahinlərin tikdirdikləri atəşpərəstlik məbədi, son illərə kimi qalmışdır. Həmin məbədlərdən digəri qonşu Gal kəndində tikilmiş, orta əsrlərdən qalma tarixi memarlıq abidələri idi.

"Nisəbəyim bulağı" piri İlandağın (Haça dağın) (2.415 m.) uca zirvəsinə qalxan cığırın üstündədir. Yerli adamların adətinə görə həyətlərindəki meyvə ağaclarına qurd daraşanda (ağac və kol bitkilərində xəstəlik olanda) insanlar pirə gələrək qurbanlar kəsir, ehsanlar verərdilər. Pirdəki bulağın gözünü qum-çınqıldan arıtlayaraq suyundan (lilli sudan) aparıb xəstəlik tutmuş yarpaqlara çiləməklə Allahdan bol məhsul diləyərdilər.

Çox maraqlıdır ki, həmin adətlərdən sonra xəstəlik tutmuş ağac və üzüm tənəkləri sanki "sağalmaqla" məhsuldarlıq bollaşardı.

Sovetlər dövründə dini ayinlər İnsanlara qadağa olduğundan pirə gələn ziyarətçilər kənddəki ziyalı ateistlər tərəfindən təqib edilərdilər.

Azərbaycan xalqı 1991-ci ildən sonra müstəqilliyə çıxaraq, dövlət quruculuğu inkişaf etdikcə tarixi memarlıq abidələrimiz milliləşdirilmişdir.

Şurud kəndindəki "Nisəbəyim bulağı" piri xalqımızın mənəvi inanc yerlərindən olmaqla elmi şəkildə öyrənilməsi zəruridir.

> *"Məgər sən bilmirsən ki, göylərin və yerin səltənəti ancaq Allaha məxsusdur və sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur?!"*
>
> **(Bəqərə surəsi, 107)**

Saltax sərdabəsi

Culfa rayonundakı Saltax kəndinin şimal-qərb tərəfində, Əlincə çayın sağ sahilində orta əsrlərdən qalma köhnə qəbrstanlıq ərazisində sərdabə vardır. Hər tərəfi uca dağlarla əhatə edilmiş sərdabə binası kiçik daşlardan hörülərək tikilmişdir. Hər ilin Məhərrəm ayının əvvəlində qonşu kəndlərin əhalisi ora toplanaraq Kərbibəla tarixi hadisələri ilə əlaqədar şəhidlik-ölməzlik mərasimlərini əyaniliklə yada salırlar.

Saltax kəndi Culfa rayon mərkəzindən 30 kilo metr məsafədədir. Əhalisi 1. 566 nəfərə çatan (2005-ci ilin st. məl.) saltaqlılar iki tayfadan ibarət olmaqla onlardan bir qismi orta əsrlərdə Cənubi Azərbaycan ərazilərindən köçmüş, ikinci qismi isə Zəngəzur əyalətlərindən olan maldar tayfalardan ibarətdirlər. Əhali heyvandarlıq və əkinçiliklə məşğul olaraq qonaqpərvər və dindardırlar. Kənddəki əzəmətli məscid binasından hələ keçmiş sovetlər dövründən mömünlər cəsarətlə istifadə etmişlər. . .

Saltax sərdabəsi üstü tacvari formada tikilmiş qədim bina olmaqla qapısı çıxıntılıdır. Qapının divarları bişmiş kərpiclə hörülmüş, kərpiclərin (ondan birində) üzündə yan-yana çəkilmiş cizgilər aydın görsənməkdədir. Həmin işarələr şiə müsəlman təriqətindəki "pənc Ali əba" (beşlik)-tarixi beş nəfər şəxsiyyətlərin adlarını bildirir ki, onlar Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn həzrətlərinə hörmət mənasındadır.

Sərdabənin içəri divarları gəclə suvansa da, bir neçə yerdən uçub tökülmüşdür. Binanın içərisində məzar yerində bir vaxtlar hec kəsin oxuya bilmədikləri sufi xətti ilə yazılmış daş kitabə olmuş və sonradan yoxa çıxmışdır.

Baxımsızlıq və laqeydlikdən sərdabədəki məzar yeri sökülərək dağıdılmışdır.

Kənddə X əsr qədim yaşayış yeri və XIV-XVI əsrlərdən qalma 2 nekropol əraziləri vardır. Saltax sərdabəsini orta əsrlərin XIV-XVI əsrlərinə aid tarixi memarlıq abidəsi kimi göstərmək olar.

Yerli sakinlərin söyləməsinə görə məzar yeri sökülənədək yaxin kəndlərdən ora ziyarətçilər gəlib qurbanlar kəsərdilər. . .

“(Allah) öz mərhəmətindən dolayı sizin üçün gecəni və gündüzü yaratdı ki, dincələsiniz, Onun lütfündən ruzi diləyib axtarasınız. Bəlkə şükr edəsiniz!”

> *“De: “Rəbbim hidayətə gələni də, haqq yoldan açıq-aşkar azanı da yaxşı tanıyır!”*
>
> **(Qəsəs surəsi, 85)**

FƏSİL 7

Kəngərli rayonundakı ziyarətgahlar

Kəngərli rayonu Naxçıvan Muxtar Respublikasında yaradılmış sonuncu inzibati ərazidir. Əvvəllər Şərur və Babək rayonları ərazilərindəki bir neçə ucqar kəndlər yeni yaradılmış Kəngərli rayonu tabeliyinə keçirilmişdir.

Kəngərli rayonu 2004-cü ilin 19 mart tarixində Muxtar Respublikanın tərkibində olmaqla ərazisinin sahəsi 0,7 min km2, əhalisi isə 25 min 63 nəfərdir. (2005-ci ilin statistik məlumatı) Rayonun mərkəz məntəqəsi Qıvraq qəsəbəsidir ki, okean səviyyəsindən 760 metr yüksəklikdə yerləşərək əhalisi 4237 nəfərdir. (2005-ci ilin statistik məlumatı)

Yeni yaradılmış Kəngərli rayonu tərkibində 1 qəsəbə ilə 10 kənd daxildir.

Kəngərli rayonundakı əhali qədim türk dilli azəri oğuzları və Mərkəzi Asiyadan gəlmiş Kanqlı (Kəngərli) tayfaları məskunlaşmış, məşğuliyyətləri isə əkinçiliklə heyvandarlıqdan ibarətdir. Ərazidə həmçinin atçılıqla dəvəçilik inkişaf etdirilərək dövrümüzədək qalmışdır.

Kəngərli rayonundakı Şaxtaxtı ilə Qarabağlar kəndlərindən görkəmli şəxsiyyətlər çıxmışdır. Onlardan Behbudağa Şaxtaxtinski, Həmidağa Şaxtaxtinski, Məhəmmədağa Şaxtaxtiniski, tarixçi Kamran Rəhimov, Qaraş Mədətov və başqalarını göstərmək olar.

Kəngərli rayonunun inzibati ərazisi şimaldan Şərur rayonu, simal-şərqdən Ermənistan (Dərələyəz dağ silsiləsi ilə), şimal-şərqdən Babək rayonu ilə və qərbdən, Araz çayı boyunca İranla həmsərhəddir.

Şaxtaxtı kəndində Araz çayı üzərindən salınmış körpüdən İran ərazilərinə keçmək üçün dövlət keçid-gömrük məntəqəsi vardır.

Rayonun ərazisində yüksək yerlər Keçəltəpə dağı (2.744 m.), Qaraquş dağı (2.600 m.), Anabad dağı (2.081 m.), Qabıllı dağı (1.125 m.) və Xok dağı (1.063 m.)-dir. Ən alçaq ərazi isə Şaxtaxtı kəndindəki Araz çayı sahilidir. Bura okean səviyyəsindən 700 metr yüksəklikdədir.

Rayon ərazisindəki yararlı torpaq sahələri Xok kəndi yaxınlığında 1966-cı ildən istifadəyə verilmiş 1,2 milyon kubmetr su tutumu olan süni göldən suvarılır.

Ərazidəki yeganə çay yatağı Lizbirt çayıdır ki, başlanğıcını Keçəltəpə dağından götürərək Naxçıvan çayın sağ qolu Cəhri çaya tökülür.

Rayon ərazisindəki torpaq örtüyü müxtəlifdir. Əsasən boz-qonur torpaqlarda sürünən və gəmirici heyvanlar daha çox yayılmışlar.

Kəngərli rayonu əraziləri qədim oğuz türk tayfalarının yaşayış məskənləri olmuşdur. Ərazidə zəngin tarixi-arxeoloji və memarlıq abidələri ilə yanaşı inanc yerləri olan mənəvi ziyarətgahlar da qalmışdır.

Rayon ərazisində Son Tunc ilə Dəmir dövrlərinə aid olan Qalaçıq yaşayış yeri (E. ə II-I min illərdə), Qarabağlar qəbrstanlığı, Govurqala xərabəlikləri, Çalxanqala yaşayış yeri, Şaxtaxtı kəndi yaxınlığındakı nekropollar (E.ə. III-II minillik), Yurdçu kəndindəki Babatəpə qədim yaşayış yeri ilə sərdabə (E.ə. X-XIII əsrlər) vardır.

Orta əsrlərdə (XII əsrdə) Qarabağlarda tikilmiş 16 metr hündürlüyündə olan qoşa minarəli məscidlə qəbirüstü türbə (1187-ci il) və başqa tarixi memarlıq abidələrini göstərmək olar.

XVIII əsrin türk səyyahi Övliyya Çələbinin yazdığı “Səyahətnamə” kitabında göstərilmişdir ki, qədim Qarabağlar şəhərində 10 minə yaxın ev olmuş, 70-ə yaxın məscidləri, karvansaraları, hamam və bazarı ilə birlikdə İnsanların inanc yerləri olan pirləri (Asnı pirini göstərmişdir) olmuşdur.

Məlumat üçün bildirilir ki, (yaşlı nəslin dediklərindən) Qarabağlarda (sovet dövləti yaranan illərdə) rus əsgərləri tərəfindən məscid və qədim tikililərin kərpicləri sökülərək aparılmış, Qıvraq kəndində sərhədçilərə binalar tikmişlər.

2004-cü ildə Qarabağlar kəndindəki tarixi və memarlıq (o cümlədən pirlər) abidələri təmir-bərpa olunaraq əvvəlki görkəmlərinə qaytarılmışdır. Tarixçi alimlər göstərirlər ki, Qarabağlar kəndindəki türbədə XIV əsrdə Elxan hökmüdarı Hülaki xanın arvadı Quti xatun dəfn olunmuşdur. Buna görə də, həmin abidəyə Quti xatun məqbərəsi deyirlər.

Asnı piri

Kəngərli rayonundakı iri yaşayış məntəqələrindən olan Qarabağlar kəndində orta əsrlərin on ikinci yüzilliyindən qalma qoşa minarəli türbə ilə Asnı piri vardır (1187-ci ildə Azərbaycanın Elxan hökmüdarı Hülaki xanın arvadı Qutay (Quti) Xatunun məzar üstü məqbərəsi. Qədim Qalaçıq əhalisi 40 gün mərhuməyə matəm saxlamaqla, bel

qurşaqlarını qara parçalarla əvəz etmişlər. Bununla Qalaçıq şəhərinin adı dəyişilərək "Qarabağlar"la əvəz olunmuşdur). Pirin yaranma tarixi e.ə. I minilliyə dayanır.

Kənddəki yaşlı adamların söyləmələrinə görə, Asnı dağındakı bulağın suyu uzaq Göycə (Sevan) gölünün suları ilə əlaqədardır. . .

Keçmiş vaxtlarda Qarabağlar (Qalaçıq) şəhərinə, uzaq Göycə mahalından Ağbulaqlı bir tacir karvan ilə daş duz aparmaq üçün Naxçıvana gedən vaxt Qalaçıqdakı bazarda dayanmalı olur. O, bir şəxsin əlində özünün əvvəllər itirdiyi naxışlı əl ağacını görərək tanıyır və sevincək on il əvvəl başına gəlmiş kədərli hadisəni xatırlayır.

Göycə gölündən qayıqla keçən zaman qəflətən yaranan tufan nəticəsində qayıq çevrilmiş və tacir çətinliklə üzüb çıxmışdır. O, hadisədən sonra suda batan mallarından çox, qara ağacdan yonulmuş naxışlı əl ağacının suda batmasına heyfislənmişdir.

Tacir özünün əl ağacını qalaçıqlı şəxsdən alaraq sübut etmək üçün yivli baş hissəsini burub açır və içərisindəki gizlətdiyi qızıl sikkələri yerə tökür.

Camaat təəccüblənərək tacirin (qonağın) əl ağacı ilə qızıllarını özünə qaytarırlar. Tacir isə halallıq kimi qızılların yarısını itmiş əl ağacını tapan şəxsə verib və onun haradan tapdığını soruşur. Ağacı tapan şəxs Allaha şükr edərir, əl ağacını təpədəki Asnı bulağından tapdığını söyləyir.

Həmin əhvalatı eşidən Qalaçıqlılar (Qarabağlılar) Asnı bulağını Allahın möcüzəsi kimi müqəddəs bilib, oranı pirə çevirmişlər (V. Baxşəliyev "Pirlərlə bağlı miflər və inanclar." Bakı-2006). Tacir isə qalan qızılları xərcləyərək Asnı bulağında min baş erkək qurbanlıq quzu kəsdirməklə əhaliyə ehsan vermişdir.

Qarabağlar kəndinə Qıvraqdan 7 və Naxçıvandan isə 40 km-lik yol gəlir.

Kənddəki əhalinin sayı 5. 902 nəfər (2005-ci ilin st. məl.) olmaqla əsas məşğuliyyətləri əkinçiliklə heyvandarlıqdan ibarətdir. Kənddəki şəxsi təsərrüfat sahibləri Naxçıvan diyarında şöhrət tapmış qırmızı rəngli "Qarabağlar soğanı"nı əkib becərirlər.

Məlumat üçün bildirilir ki, həmin məhsuldar soğan cinsi Culfa rayonundakı Yaycı kəndinin təsərrüfatlarında da, əkilib becərilir.

Qarabağlar kəndində qədim türk dilli oğuz tayfaları yaşayırlar. Onlar Bəydillilər (qədim Qalaçıq əhalisidirlər), Turxanlılar, Süleymanlılar, Cığallılar, Ağahəsənlilər, Alamədətlilər və sonradan məskunlaşmış "Daşməhəlləli" tayfalardırlar.

Qarabağlar kəndi okean səviyyəsindən 1.200 metr yüksəkdə meyilli relyefi olan dağ döşündə salınmışdır. Kəndin ortasında orta əsrlərdən qalma Qutayxatunun məzarüstü məqbərəsi ilə Qoşa minarəli qədim məscid tikililəri vardır. Son illərdə orada tikinti-bərpa işləri aparılmışdır.

Qarabağlar kəndində yeddi sayda qəbrstanlıq vardır ki, onlardan üçü eramızdan əvvəlki dövrlərə aiddir. "Ocaq dibi" adlı qəbrstanlıqda üç sərdabə tipli "imamzada" kompleksi vardır.

Kənddə haliyyədə iki məscid fəaliyyət göstərir ki, onlardan biri 109 il öncə İmam Musa Kazimin şəcərəsindən olmuş, xeyriyyəçi Məhəmməd ağa səyyid Yəqub oğlu tikdirmişdir. İndi isə məsciddə xeyriyyəçinin nəvəsi Məşhədi Mirağa Mir Hüseyn oğlu rövzəxanlıq edir.

Qarabağlar kəndində haliyyədə möminlərin sayı olduqca azdır. Kənddə əhaliyə mədəni sosial şərait yaradılmış, iki orta məktəb, peşə məktəbi, mədəniyyət evi, kitabxana, muzey, istirahət parkı, 300 nömrəlik ATS, poçt-teleqraf qovşağı, uşaq bağçası, kino qurğusu, xəstəxana, gündəlik tələbat malları mağazaları, iaşə xidməti pavilyonları və sairə fəaliyyətdədir.

Kənddəki istirahət parkını "Şöhrət" ordenli müharibə veteranı K. Kazımovun təşəbbüsü ilə salmışlar.

İndiki Qarabağlar kəndinin şimal-şərq hissəsində okean səviyyəsindən 1.280 metr yüksəklikdə qədim "Qalaçıq" şəhərinin xərabəlikləri qalır. Ora eramızdan əvvəl II-I min illiklərdə şöhrətli şəhərlərindən biri olmuşdur. Ərazidəki 2.000 metr yüksəklikdə "Pələng qayası" dağının cənub ətəklərində düzənlik sahədə Asnı bulağının suyu axmaqdadır.

"Asnı" sözü, "asi"- günahkar deməkdir.

Ərazidə qədim dövrlərdə güclü zəlzələlər olaraq dağdan vulkan püskürmüşdür. Qalınlığı 2-3 metrədək olan vulkan külü nəinki kənddə, hətta ətraf ərazilərdə belə qalmaqdadır.

Ərazidəki Qarabağlar (Qalaçıq) şəhəri 2.081 m. yüksəklikdə Dərələyəz dağ silsiləsindəki mövcud vulkan püskürməsi nəticəsində qədim İnsanların yaşayış məskənləri (evləri) uçaraq yanıb dağılmış, əhali Yaradana asi olduqlarından kütləvi sürətdə məhv olmuşlar. Uçuq şəhərdən qalmıış azacıq sayda əhali şikəst vəziyyətdə olaraq mömün çoban

Bəydillinin tabın-tayfası tərəfindən Qalaçığı tikib qurmuş və sonrakı nəsillərə ötürmüşlər. . .

Haliyyədə kənddəki Asnı (asi) bulağının suyu həmin zəlzələdən sonra yaranmışdır.

Türkiyə dövlətinin Qars vilayətində Arpaçayın qollarından birinin adı Asnı (Asi) adlanır. Qədim türk dilli oğuz tayfalarının folklor deyimlərində belə bir bayatı vardır ki;-"Arpa çayı aşdı-daşdı, sel Saranı aldı-qaçdı". . .

Həmin bayatıda deyilənlər tarixi həqiqətlə bağlı olan hadisə yuxarıda adı çəkilən Saranı sel suları aparması Asnı ilə Arpa çaylarının qovuşduğu yerdə baş vermişdir.

Maraqlıdır ki, həmin zəlzələdən sonra Qalaçıq əhalisindən bir dəstə adamlar Qars tərəfinə köçüb getmiş, məskunlaşdıqları ərazidəki çaya Asnı adını vermişlər. Türkiyədəki həmin əhali hələ də, Qalaçıq danışıq şivəsi (ləhcəsi) ilə danışırlar...

Qarabağlar kəndindəki Asnı piri əsrlər keçsə də Allahın möcüzələri nəticəsində dağ başında yaratdığı gur sulu bulağı ilə insanların inanc yeri kimi ziyarətgahına çevrilmişdir.

Asnı bulağının suyunun tərkibi təmiz və şəffaf olmaqla düzənlikdən çıxaraq axıb kəndə tərəf tökülür. Bulağın suyunun axım əmsalı dəqiqədə 1.000 dekolitirdən çox olaraq sürəti saniyədə 2 metrə çatır.

Bulağın çıxdığı yerdə suyun eni 3 metr dərinliyi isə 2,3 metrdir. Orada yabanı Qara çalı, itburnu (həməsur), yemişan kolları ilə bərabər cır armud, alma, alça kimi meyvə ağacları bitmişdir. Sonradan adamlar su arxı boyunca söyüd və iydə ağaclarını əkmişlər.

Bulağın başında bitmiş Qara çalı kolunun budaqlarına, ziyarətə gələnlər niyyət edərək rəngli parça qırıntıları kolun budaqlarına bağlayarlar.

Həmin bulaqdan 50 metr cənub istiqamətdə rayonda şöhrət tapmış "Asnı piri"nın binası vardır. Əvvəllər həmin yer (bina) 7x5x3 metr ölçüsündə dağ daşlarından hörülərək tək otaqdan ibarət olmuşdur. Otağın içərisində 3 metr ucalığında damın örtüyünə dayaq tirlər qoyulub. İki tağlı taxta qapı ilə pəncərəsi olan pir "evində" məzar yeri vardır.

Həmin qəbir 1999-cu ildə bərpa olunaraq betonla üstü örtülmüşdür. Məzarüstü qədim sufi əlifbası ilə yazılmış daş kitabə oradakı çəkisi 4-5 kiloqrama çatan Qara daş (meteorit) yoxa çıxmışdır.

Kənddəki yaşlı adamların söyləməsinə görə pirdəki məzar sahibi qədimlərdə Göycə gölündə itirdiyi əl ağacının içərisində gizlətdiyi qızıl sikkələri burada tapmış tacir (bivaris) Həmdullahınkıdır. (Həmin şəxsin adını əvvəllər pirdə mücövür olmuş mərhum Binət kişinin oğlu 90 yaşlı Qarabağlarlı məşhədi Məhərrəm kişi bildirmişdir.)

2005-ci ilin 6 dekabr tarixli Naxçıvan MR Ali Məclisi sədrinin imzaladığı sərəncamla Muxtar Respublikanın hər yerində olduğu kimi Qarabağlar kəndində də, tarixi və mədəniyyət abidələrinin qorunub saxlanması və passportlaşdırılması işləri sürətlənərək kənddəki orta əsrlərdən qalma memarlıq abidələri ilə bərabər Asnı piri də, yenidən təmir bərpa olunmuşdur.

Asnı pirində zəvvarlar üçün mədəni-məişət şəraiti yaradılmışdır. Pirin binası yenidən dörd künc formalı tikilmiş və künc diarlarında uca çıxıntılarla hörülərək milli naxışlarla bəzədilmişdir.

Sovet dövründə pir yaxınlığındakı daş karxanasının fəaliyyəti nəticəsində ətrafdakı fauna və flora zənginliyi pozulmuşdur.

Lakin bütün bunlara baxmayaraq pirin ərazisində bitən nadir dərman bitkilərindən bir neçə növü qalmışdır. Ərazidə dağ nanəsi ilə xüsusi arealı olan ətirli kəklikotu yayılmışdır.

Bundan başqa dağ döşündə xüsusilə yaz aylarında Güləbətin, Gəngiz otu, Gülxətmi, Ətirşah və digər dağ gülləri daha çox olurlar.

Asnı pirinə əsasən yenicə nigah bağlamış gənc ailələr ziyarətə gələrək Allaha qurbanlar kəsdirib ehsanlar verirlər. Bulaq suyundan apararaq xeyir-bərəkət və xoşbəxt ailə qurmaq üçün xəmirə qarışdırıb çörək bişirirlər. Asnı pirindəki bulaq suyu gənc ailə quranların xoşbəxtliklərinə təminat zəmini yaratmaqdadır.

> *"De: "Göylərin və yerin Rəbbi kimdir?" de: "Allahdır!" De: "Belə olduqda, Onu qoyub özlərinə nə bir xeyir, nə zərər verə bilənlərimi özünüzə dost edirsiniz?!" De: "Heç korla görən və ya zülmətlə nur eyni ola bilərmi?!..."*
>
> **(Rəd surəsi, 16)**

“Nərbənd” və “İydəli” pirləri

Kəngərli rayonu ərazisindəki Xok kəndində “Nərbənd” və Şaxtaxtı kəndində “İydəli” pirləri mövcuddur. “Narbənd” piri XIX əsrin axırlarında, “İydəli” piri isə XVII əsrin əvvələrində yaradılmışdır.

“Nərbənd” piri Xok kəndinin cənub qurtaracağında iri gövdəli çox illik Nərbənd ağacının altındadır. Qara ağac fəsiləsindən olan ali bitki, rəvayət edilir ki, Adəmlə Həvvanın üstündə Cənnətdən gətirildiyindən müqəddəs bitkilərdən sayılır (V. Baxşəliyev “Pirlərlə bağlı miflər və inanclar.” Bakı-2006).

Nərbənd sözü-dəvə qoşqusu olub. Möhkəm oduncağı, sıx yarpaqlı budaqları və “hava təmizləyən” rolunu oynayan meşə ağaclarındandır.

Muxtar Respublikanın florasının zəngin yaşıllıqları arasında Nərbənd ağacı əvəzolunmazdır. Həmin ağac əsasən Şərur rayonunun Mahmud kənd ərazisində, Ordubadın bir çox yaşıllıqlarında və xüsusən də, Babək rayonundakı Qahab kəndi ərazisində yayılmışdır. Yetmişinci illərdə Naxçıvan Dövlət Universitetinin həyətyanı sahəsində (biologiya elmləri namizədləri Əli Məmmədov, İsmayıl Sadiqov, Taryel Talıbov və başqalarının əməyi sayəsində) Nərbənd ağacı əkilib çoxaldılmışdır. Haliyyədə Azərbaycan MEA Naxçıvan bölməsi Bioresurslar İnstitutu əməkdaşları tərəfindən Nərbənd ağacı çoxaldılaraq şəhərimizin park və xiyabanlarında əkilməkdədir.

Xok kəndindəki “Nərbənd” pirinə xüsusilə xarratlıqla məşğul olan sənət adamları gəlirlər. Onlar ağacın kökündəki çalada şam yandırıb gətirdikləri suyu ora tökməklə Allaha dua edər işlərinin rəvan olmasına, ağaca ömür verilməsinə niyyət edib və rəngli parçaları budaqlara bağlayardılar. Çoxdandır ki, milli məişətimizdə işlədilən toxmaq, vəl, bel təpçəyi, quşqun, vərdənə, oxlov, həvəng və digər ağacdan qayırılmış əşyalar dəbdən düşərək muzeylərə verildiyindən (onları düzəldən ustalar olmadığından) “Nərbənd” pirinə ziyarətə getmək unudulmuş və laqeyd şəxslərin ucbatından 300 illik yaşı olan müqəddəs ağacın bir tərəfi yandırılmışdır. . .

Nuh yurdunun hər güşəsi müqəddəsdir. Yurdumuzun tarixi abidələrini, həmçinin təbiətini qorumalıyıq.

Kəngərli rayonundakı Şaxtaxtı kəndində “İydəli” pir yeri vardır ki, ərazinin qız-gəlinləri ora gedib niyyət edər və gətirdikləri rəngli parçaları iydə ağacının budaqlarına bağlayarlar. Allaha dua edərək talelərinin xoş keçməsini arzulayıb iydə çiçəyini (yarpağını) dəmləyib içərlər.

Rəvayətə görə Govurqalalı İydə çiçəyi adlı gözəl qızı zor ilə varlı çirkin qoca kişiyə ərə vermək istəyirlər. İydə çiçəyi bədirlənmiş ay işığında gecə gizlin gələrək bağçada Yaradana üz tutub imdad istərkən iydə ağacına çevrilmişdir. Həmin vaxtdan ora müqəddəs bir yer olmuş, iydənin toxumları tökülərək torpaqda göyərdiyindən iydəli sahə (bağ) yaranmışdır.

Keçmiş illərdə "İydəli" pirində niyyət edənlər qurbanlıq heyvan gətirib kəsər, ətindən ehsan verərdilər. Ağacları suvarıb, iydələrindən yığıb bərəkət simvolu kimi aparıb bişirdikləri xamıra qatar və yarpaqlarından dəmləyib içərdilər.

Haliyyədə "İydəli" pirinə ziyarətə getmək unudularaq mənəvi dəyərlərdən uzaqlaşdırılmışdı. Amma çox illik ağacları əkib becərmək, səvab olaraq ibadətə bərabər tutulmalıdır.

> *"(Ya Rəsulum!) De: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz! Onlar yenidən nə vaxt diriləcəklərini də bilməzlər!"*
>
> **(Nəml surəsi, 65)**

FƏSİL 3

Ordubad rayonundakı ziyarətgahlar

Ordubad rayonunun ərazisi 0,97 min km2, əhalisi isə 42.884 (2006-cı ilin st. məl.) nəfərdir.

Rayon mərkəzi Ordubad şəhəri Naxçıvandan 75 km, məsafədə olaraq Zəngəzurun Bəlkə (3.000 m.) dağının cənub yamacında salınmışdır. Rayonun ərazisində nadir heyvan, bitki və tarixi arxeoloji abidələrlə zəngin olduğundan qoruq elan olunmuşdur.

Ərazinin coğrafi relyefi dağlıq sahə olduğundan ən yüksək yeri Qapıcudi (Qapıcıq) (3.906 m) dağı, alçaq sahəsi isə Dəstə kəndindəki Vənənd çayının Arazla qovuşduğu (580 m) sahilləridir. Ordubad sözünün mənası-sutkada iki dəfə əsən küləkli yer deməkdir.

Ordubad şəhəri Naxçıvan Muxtar Respublikasında tarixi-arxieoloji abidələri ilə zəngin olan qoruq şəhərdir. Şəhərin qədim adı Urdubad olmuş, mənası sutkada iki dəfə əsən külək deməkdir. Bundan başqa ərazidə qədim türk dilli oğuz tayfaları yaşayıb. Məskunlaşdığı yerin adını "Ördübad" qoymuşlar ki, bu da ördək beli deməkdir. Doğrudan da, şəhərin yerləşdiyi ərazinin coğrafi relyefini kiçildilmiş formada görsək sanki ora ördək beli kimi əyri vəziyyətdədir. Ordubad şəhəri XII əsrdə salınmışdır.

Rayonun ərazisində dağ çayları çoxdur. Bütün çaylar öz mənbələrini Zəngəzurun cənub silsiləsindən başlayırlar. Sulu çayları Ordubad çayı (19 km), Vənənd çayı (29,4 km), Gilan çayı (53,4 km), Düyülün çayı (29,6 km), Əylis çayı (21 km), Gənzə çayı (15,6 km), Kotam çayı (7,8 km), Kilit çayı (4,8 km) və sairədir.

Gilan çayı mənbəyini 3.065 metr yüksəklikdəki füsunkar gözəlliyi ilə rayonda şöhrət tapmış, dərinliyi 6,5 m. Sahəsi isə 1,5 hektara çatan "Göy göl"dən başlayır. Çobanlar yay aylarında sürülərini yüksək dağ gölü ətrafında otarır. Həvəskar arı saxlayanlar isə pətək qutularını güllü çəmənlikdə qurarlar. Göl sahilində ilin isti vaxtlarında dörd fəslin əlamətlərinə rast gəlmək mümkündür. Belə ki, bir tərəfdə quzeydə qar örtüyü olur, güneylərdəki çəmənlikdə isə quzular mələşərlər.

Göy gölün yaxınlığındakı qayalıqda əfsanəvi "Qız-oğlan" (E.ə. II-I minillik) adlı pir vardır. . .

Ordubad rayonu qədim İnsanların məskənləri olduğundan ərazidəki Gəmiqaya abidələri elmi şəkildə öyrənilmişdir. Naxçıvan MR Ali Məclisinin 2001-ci il 26 aprel tarixli

“Ordubad rayonundakı Gəmiqaya tarixi abidəsinin tədqiq edilməsi haqqında” sərəncamı ilə elmi ekspedisiya təşkil olunmuşdur. Ekspedisiyanın tərkibində ərazinin geoloji yaşı, bioresursları, toponomikası, arxeologiyası və ətraf kəndlərin etnoqrafik folkloru üzrə alimlər tədqiqat aparmışlar.

Aparılan elmi tədqiqatlar nəticəsində Gəmiqaya Erkən Tunc, Erkən Dəmir və Erkən Orta əsrlərə aid qəbirlər tapılmışdır. Qaya rəsimləri isə e.ə. IV-I minilliklərə aid edilir.

Ordubad rayonu ərazisindəki tarixi abidələr çoxdur, onlar Sabir kəndində Subatın yaşayış yeri (E. ə. I minillik), həmin kənddəki nekropol (E. ə. II minillik), Muncuq təpə nekropolu (E. ə. II-I minillik) qədim dövrlərə aiddir.

Tunc dövrlərinə aid olan Aza kəndindəki qəbrstanlıq, Vələver, Dər və Aza kəndlərindəki daş qoçlar, Nəsirvazdakı (Gəmiqayadakı) yazılı daş abidələri, Tivi kəndindəki pir yerlərini göstərmək olar.

Orta əsrlərə aid Kilit kəndindəki mağara, Vələver istehkamı, Üstüpü qəbrstanlığı, Anabat, Yuxarı Əylis, Yuxarı Aza, Vənənd və başqa kəndlərdəki yaşayış məskənlərini göstərmək olar.

Ordubad şəhərində hər məhəllənin özünə məxsus məscidləri vardır ki, onların əksəriyyəti XVIII-XIX əsrlərdə tikilmişdir (Q. Həsənov “Naxçıvan MSSR-in tarixi və arxeoloji abidələri”. Naxçıvan-1998. səh. 3). Bunlar Cümə, Ambaras, Sər şəhər, Mingis, Dilbər, Təkşeyi, Qeysəriyyə, Qarahovuz, Üstürləngə, Əngəci, Mehrəmcə, Hacı Abutalıb, Çınqılbaşı, Hacı Məmmədhəsən, Hacı Məmmədəli, Qaraçağaq, Kərbəlayi Əkbər məscidləridir.

Şəhərin küçələrində binaların altından axan su çeşmələri vardır ki, onlar Dilbər, Sərşəhər, Hacı Tağı, Hacı Məmməd, Qarahovuz, Əngəc, Bilal, Mədrəsə, Qırxayaq, Şeyx Əlixan, Əbdülrəhman, Şayı, Meyrəncə, Teci adları ilə tanınmışdır.

Ordubad rayonunun əhalisi əsasən Zəngəzur mahalı ilə Araz çayının sağ sahilindəki (Cənubi Azərbaycandan) bölgələrdən gəlib məskunlaşıblar.

Ordubad şəhərinin əhalisi Təbriz şivəli ləhcə ilə danışırlar. Şəhərdəki yaşlı qadınlar İslam dinindəki hicaba əməl edərək çadra örtürlər.

Ordubad rayonundakı əhali digər rayon əhalisindən fərqlənərlər. Ailə qurarkən nigah pozulmalarına yol verməz, ağsaqqal sözünü yerə salmazlar.

Rayon ərazisindəki əhali meyvəçilik və heyvandarlıqla məşğul olur, baqqal ticarətinə maraq gostərirlər.

Ordubadlılar İslam dininə etiqadlı olduqlarından I Şah Abbasın hakimiyyəti dövründə müxtəlif vergilərdən azad edilmişlər. Əhali dini və dünyəvi elmlərə maraq göstərmiş, mədəniyyət və incəsənət sahələrinə biganə olmamışlar. Onlar milli ənənələrə sadiq qalaraq Novruz bayramı günlərində el şənliklərini təntənəli keçirər, "Xan bəzəyər", kosa ilə keçəlin məshəkəli səhnəciklərinə baxarlar.

Ordubad xalqı orta əsrlərin ensklopedik biliklərini qazanmış N. Tusinin nəslindən olan akademik İsrafil Məmmədov, akademik Y. Məmmədəliyev, yazıçı M. S. Ordubadi, yazıçı və publisist Ə. Əylisli, xanəndə H. Qubadov, müharibə qəhrəmanı N. Rəfiyevlə və başqa görkəmli şəxslərlə fəxr edirlər.

Ordubad şəhərində Azərbaycan MEA-nın "Darıdağ" elm-istehsalat karbo-hidratlı sular birliyinin Elmi Mərkəzi fəaliyyət göstərir.

Ordubad rayonu ərazilərində bir çox mənəvi inanc yerləri olan pir və ziyarətgahlar qalmaqdadır.

Tivi pirləri

Ordubad rayonundakı Tivi kəndi okean səviyyəsindən 3.000 metr yüksəklikdə, Süzgün çayının yamaclarında yerləşmişdir.

Ordubad şəhərindən kəndə 60 km məsafədə yol çəkilmişdir. Parağadan keçən dağ yolu qış aylarında təhlükəli olduğundan həmin kəndə yeni təhlükəsiz ikinci yol çəkmişlər.

Tivi kəndindəki əhalinin sayı 1.347 nəfər (2005-ci ilin st. məl.) olub. Meyvəçilik və heyvandarlıqla məşğuldurlar. Əhali əsasən Zəngəzurdan gələrək məskunlaşmış qədim türk dilli Azərilərdir. Tivi kəndi rayonda mədəni-sosyal sahələri yüksək inkişaf etmiş yaşayış yeridir. Kənddə yeni məktəb binası tikilmiş, mədəniyyət evi, kitabxana, mama feldişer məntəqəsi, gündəlik tələbat mağazaları, iaşə pavliyonları, poçt-rabitə və radiotele-ötürücü yarım stansiyası və sairə fəaliyyətdədir.

Əhalinin şəxsi evləri iki mərtəbəli aynəbəndli, üstü şiferlə örtülü və şəxsi minik maşınları ilə təsərrüfat əkin sahələri də, vardır.

Tivililər qonaqpərvər, qayğıkeş və zəhmət sevər İnsanlardır.

Kəndin əhalisinin orta yaşayış ömürləri aşağıdır. Belə ki, ətraf dağlardakı sel suları zamanı radiaktiv süxurların üzə çıxması və kənddəki bioloji amillər nəticəsində (çox saylı qoz və qovaq ağacları, ardıc kollarının olması ilə) özünü göstərmişdir.

Bunları sadəcə olaraq kənddəki iki qəbrstanlıqda dəfn olunanların məzar daşlarındakı yazılmış doğum və ölüm tarixlərindən müşahidə etmək mümkündür.

Tivi kəndində e.ə. II-I minillikdə Dəmyələr nekropolu (Yaşayış yeri), e.ə. I minillikdə Dəmirçilər nekropolu, e.ə. II-I minillikdə İlikliqaya nekropolu və başqa tarixi-arxeoloji yerlər qalmışdır.

Tivi kəndində iki məscidlə çox saylı pirlər vardır ki, onların sayı 70-ə yaxındır.

Kəndin yaşlı sakinləri söyləyirlər ki, yer üzünü su alan zaman Nuh peyğəmbərin gəmisində gələnlər ərazidəki Qapı Cudi (Qapıcıq-3.906 m.) dağında nicat tapmış və sonradan su çəkildikcə onların ocaq yerləri dövrümüzədək qalmış, ziyarətgahlara çevrilmişdir. (?)

Haliyyədə Tivi kəndində qədimdən qalma pir (ocaq) yerləri bunlardır; Qapıcıq, Qız-oğlan, Qara pir, Bibi Qətəl, İmran, Beş qardaş, Palıd, Tağı, Sarı qaya, Dağdağan, Cəviz, İmran mülkü, Əliəbbas, Qara daş, Həmzə, Navur, Anabat və s. Bunlardan başqa bir neçə sayda ocaq (pir) yerləri kəndin kənardakı qayalıqlar arasındadır.

Ən uca zirvədə olan Qapıcıq pirində daşlardan tikilmiş (20 sm. ucalığında) xüsusi sahə və ətraf qaya daşları üzərində çəkilmiş müəmmalı rəsmlər olan Gəmiqaya (E.ə. IV-I minillik) ərazileridir.

Tivi kəndindəki Anabat piri rayonda şöhrət tapmış ziyarətgahlardan olmaqla kəndin içərisindəki eyni adlı məsciddədir.

Pirin şöhrət qazanması orada saxlanılan möcüzəvi “əlam”dədir. Həmin əlamı (əşyanı) kəndin mollası Məşhədi Novruz kişi tərəfindən qoruyaraq saxlamışdır.

Pirdəki (məsciddəki) möcüzəvi əlamin adını “Tir-Əbülfəth” adlandırmışlar (Həmin söz ərəbcə “zəfər bayrağı” mənasında olmaqla, İslam savaş tarixində sancaqbəylər (bayraqdarlar) hərbi yürüşlərdə “Zəfər bayrağı”nı şərəflə gəzdirərdilər).

> *“Məgər görmürsünüz ki, Allah yeddi göyü qat-qat necə yaratdı?! Orada ayı bir nur, günəşi də bir çıraq etdi. Və Allah sizi yerdən bir bitki kimi göyərtdi. Sonra sizi yenə ora qaytaracaq və çıxaracaqdır. Allah yeri sizin üçün xalı etdi ki, onun geniş yollarında gəzəsiniz!”*
>
> **(Nuh surəsi, 15-20)**

Tir-Əbülfəth ələmi

Tivi kəndindəki Anabat məscidində illərdən bəri qorunub saxlanılan möcüzəvi əşya olan “Tir-Əbülfəth” ələmi vardır.

Ələmin möcüzəvi sirri, əsasən “tovuz quyruq” şəkildə metal parçasının çərçivəsindəki nazik məftil şəbəkə üzərindəki yazılardadır.

Ərəb əlifbası ilə çərçivədə Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn sözləri yazılmış əşyanın forması su damlasına oxşayır. Həmin “damlanın” eni 17, uzunluğu isə 25 sm-dir.

Metal şəbəkə üzərindəki yazılmış hərflər qırıldığından tor şəbəkənin üzərinə mühafizə edici sellioid təbəqə pərçimləmişlər.

Tor şəbəkədəki yazılar ortadakı “əlif” hərfinin üzərində yerləşərək yanlarında isə “pənc-Ali-əba”nın (Rəvayətə görə, Məhəmməd (s.ə.s) peyğəmbərin əbasının altında Əli, Fatimə, Həsən və Hüseynlə yanaşı Cəbrayıl mələk də oturmuşdur. (Bax, “Mövlüdnamə”yə, Bakı-1996) adları vardır.

Hər ilin Məhərrəm ayının əvvəlinci günü məsciddəki ələm saxlanılan sandıqdan cingiltili səs gəlir. Bundan sonra sandığı açaraq ələmi ehtiramla ələ götürüb, Quranın Bəqərə surəsindəki “Ayətəl-kürsü” duasını oxuyub, Məhəmməd (s.ə.s) peyqəmbərə salam (salavat) deyirlər. . .

Ələmin əsas başlıq hissəsi (möcüzəvi əşyanın) uzunluğu 1 metr, eni isə 30 sm. olaraq köhnə paslı dəmirdəndir. Onu uzun payaya bənd edərək nümayiş üçün kənddəki meydana aparırlar.

Həmin günlərdə kəndə qonşu kəndlərin əhalisi axışıb qonaq kimi ziyarətə gəlirlər. Meydanda ələmdarı (sancaqbəyini) sanki möcüzəvi bir qüvvə dartaraq nəzir gətirmiş adamlara tərəf aparır. Həmin anda yuxarı vəziyyətdə olan ələmin payası nəzir verənə

tərəf əyilərək sanki xeyir-dua istəyir. Nəzir deyən ziyarətçi ehtiramla ələmi öpər, niyyət etdiyi nəzirini payadakı qara rəngli parçaya bağlayır. Bundan sonra ələm sürətlə qalxaraq başqa səmtə tərəf ələmdarı dartıb aparır. . .

Məhərrəm ayının onuncu günü (Şiə təriqəti müsəlmanlarının üçüncü imamı Həzrət Hüseynin (Hicri 61-ci ildə) İraqın Kərbibəla çölündə şəhadətə çatdırılması anı) ələm sancaq bəyini dartaraq meydandakı qara örtüklü kəcavəyə tərəf gətirir. Bu zaman sanki təbiətdə bir matəm səsası yaranır. (Kərbibəla şəhidlərinin səslərinə səs verilir). Atlar kişnəyir, qoyun-quzular mələşir, xoruzlar da səs-səsə verərək banlayırlar.

Müqəddəs Quranın sözləri ilə desək, bu kədərli səhnəni görən gözlər, eşidən qulaqlar lazımdır.

Bütün bunlar Allahın qüdrəti ilə möcüzələrindəndir.

Möcüzəvi Tir-Əbülfəth ələmini Tivi kəndinə gətirilməsini kəndin mömünləri belə söyləyirlər;-Keçmiş vaxtlarda (XIX əsrin axırlarında) Naxçıvanlı Kərbəlayi Muxtər Hacı Ələkbər oğlu atasının məsləhəti ilə İraqın Nəcəf şəhərinə ruhanilik elmlərini öyrənməyə gedir.

Muxtəri Nəcəfdəki həmyerliləri (Nəcəfdəki azəri türkləri sayca on min nəfərdən artıq olaraq Xəlifə Mötəsim İbn Şimirin hakimiyyəti dövründə, Naxçıvandan sürgün olunanlardır) səmimi qarşılayaraq ona himayədarlıq etmişlər. Nəcəfdə onbeş il müddətində təhsil alan Muxtərə Üləma ruhani rütbəsi (Şeyxül İslam titulu) verilmişdir.

O, vətənə qayıdarkən İrandakı müqəddəs ziyarətgahları görmək məqsədi ilə Tus şəhərinə gedir. Muxtar orada şiə müsəlmanlarının səkkizinci imamı Həzrət Rzanın dəfn olunduğu məqbəni ziyarət edib, imamın yolunda özünü şəhadətə çatdırmış naxçıvanlı Hacı Muradın ruhuna dualar oxumuşdur.

Məşhəddən qayıdanda Məşhədi Muxtər Qumla Tehran şəhərlərindəki müqəddəs ziyarətgahlarda olur. Qumda olarkən onun Üləma ruhani şəhadətnaməsini görən İranın Ali Dini İşləri üzrə hakim dairələri tərəfindən Ələmdar vilayətinə Qazi təyin olunmuşdur.

Muxtər Ələmdarda Qazi rütbəsini icra edərkən oradakı azərbaycanlı ailəsindən qız alaraq evlənir. Bundan sonra Qazi Muxtər Ələmdarda xeyriyyəçiliklə məşğul olub, orada məscidlə mədrəsə binalarını tikdirir, körpə uşaqları məktəbdə oxudur, İslam ehkamlarını təbliğ edir. O, Ələmdarda ədəbi “Zikr” adlı dərnək yaratmış, həm özünün

yazdığı, həm də digər dərnək üzvlərinin ədəbi fəaliyyətlərini cəmləyərək bir neçə adda kitabların çap olunması üçün Qum şəhərinə göndərmişdir (Mərceyi Üləma Müxtər ibn Ələkbər ağanın (qazinin) əl yazma kitabları, İranın Qum şəhərindəki "Məsuməyi-Qum kitabxanası"ndadır. Müəllifin yazdığı "Muxtərnamə" adlı şerləri vətənpərvərlik ruhunda qələmə alınmışdır).

Muxtərin atasının vəfatı ilə əlaqədar ailəsi ilə birlikdə köçüb Ordubada gəlirlər. Məşhədi Muxtər özü ilə gələrkən çox saylı kitablarla bərabər həmin möcüzəvi "Tir-Əbülfəth ələmi"ni gətirmişdir.

Təssüf ki, ələmin onun əlinə haradan düşməsi haqqında heç bir məlumat yoxdur. Lakin kənddəki həmyaşıdları ilə söhbətdən belə məlum olmuşdur ki, Məşhədi Muxtər Ələmdarda Qazi işlərkən Məhərrəmlik aylarında tikdirdiyi məscidin həyətində Ələmi nümayiş etdirmiş, yığılan ianə ilə (nəzir payları ilə) xeyriyyəçilik göstərmişdir. Belə nəticə çıxarmaq olar ki, oxuduğu Nəcəf-Ül-Əşrəf Ali Mədrəsəsini əla qiymətlərlə bitirdiyindən çox güman ki, müəllimi tərəfindən (məktəb tərəfindən) hədiyyə edilmişdir.

Doğrusunu yalnız Allah bilir.

1900-cu ildən Məşhədi Muxtər Ordubadın səfalı dağ kəndlərindən olan Tivi kəndinə köçür. O, Kənddəki Anabad pirində yığılan nəzir vəsaiti ilə abadlıq işləri aparır və kənddəki məsciddə axundluq edir.

Hər ilin Məhərrəm ayının əvvəlinci on günündə kənddə möcüzəvi ələmi nümayiş etdirməklə yığılan vəsaiti yoxsul ailələrə paylayırdı.

Ərazidə (Naxçıvanda) sovet şura hökuməti qurulandan sonra bütün məscidlər kimi Tividəki məscid də, bağlanaraq əvvəl anbar, daha sonra isə dükan etmişlər. Kənddəki dini təbliğat işləri ilə bərabər hüzn yığıncaqları yerli hökümət rəhbərləri tərəfindən yasaq olunmuşdur.

Bu və digər təqiblərə məruz qalan Muxtər kişi başındakı əmmaməsini çıxarmış, dövranın dəyişildiyini görüb yaxın adamları son dəfə evinə qonaq çağırmışdır. O, evində mərhum atası Hacı Ələkbərin ruhuna ehsan vermiş, möcüzəvi ələmin qorunub saxlanmasına və məzarının əmanət qəbir kimi basdırılmasını vəsiyyət etmişdir.

Dünyadan köçən mərhum Məşhədi Muxtərin cənazəsini kənddəki köhnə qəbrstanlıqda əmanət qəbir kimi dəfn edilmiş, ələmi isə kənddəki pirlərdən birində gizlədib

saxlamışlar.

Haliyyədə Tivi kəndində mərhumun yeganə varisi qız nəvəsi, 68 yaşlı şikəst Məcid Ələkbər oğlu qalmışdır.

> *"Göylərin və yerin qeybi Allaha məxsusdur (Onun elmindəndir). Bütün işlərdə axırda Ona (Allaha) qayıdacaqdır. (Ya Rəsulum!) Yalnız Ona ibadət et və yalnız Ona təvəkkül elə. Rəbbin nə etdiklərinizdən qafil deyildir!"*
>
> **(Hud surəsi, 123)**

Malik İbrahim piri

Pir yeri Ordubad şəhərindəki Bəlkə dağının cənub ətəklərindəki 2 hektar ərazisi olan kohnə qəbrstanlıqdadır.

Şəhər qəbrstanlığında XVIII əsrdən qalma Malik İbrahim məscidi vardır. Məscid Naxçıvan Mədəniyyət və Turizm Nazirliyində 537 saylı qeydiyyatdadır. Ərazi okean səviyyəsindən 2.200 metr yüksəkdədir.

Məscid binası 18x16 metr ölçüsündə Kiril əlifbasının "Q" hərfi formasında bir mərtəbəli, eyvanlı tikilmişdir. Məsciddə 1554-cü ildə (hicri 962-ci ildə) vəfat etmiş Məhəmməd Fərruxzad bəyin məzarı vardır (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992. səh. 28).

Həmin məzar yeri ziyarətgaha çevrilərək müsəlmanlar tərəfindən ehtiramla yad edilir.

Aparılmış tədqiqatlarda həmin məsciddən bir qədər aralıdakı digər məzarın üstündə ərəbcə yazılmış "Əbu Səid Əbülxeyr" kitabəsi vardır ki, həmin məzar mərhum Şeyx Əbu Səidin (ona Malik İbrahim də deyərdilər) övladı (davamçısı)-nındır.

Buna görə məscidə gələnlər səhvən Malik İbrahimin adı ilə başqa məzarı ziyarət edirlər.

Həmin məzar daşındakı yazılmış ərəbcə mətnin tərcüməsi belədir;"Rəhimli və mərhəmətli Allahın adı ilə!Bu qəbir, xalqın mürşüdi, həqiqət sahiblərinin numunəvisi, dünya və dinin tacı, Şeyx Əbu Səid adıyla tanınmış, xorasanlı Əbu Səid Əbül xeyrindir.

Allah onun əziz ruhunu müqəddəsləşdirsin-yeddi arxa övladlarından olan şeyxülislamdır. Ölüm tarixi yeddi yüz əlli dördüncü hicri ili Məhərrəm ayının səkkizinci cümə axşamı günortadan sonra öldü. (miladi tarixi ilə 21 dekabr 1357-ci il).

Əbu Səid bu dar dünyadan köçdü. Cənnətdə babasının ruhuna qovuşdu.

Ustad, Nəcimeddin ibn ustad Hacı Pənahın işidir. Memar Məhəmməd bəy ibn Hacı dua ilə kömək istəyir (Yenə orada, səh. 29).

Ordubadlı axund, Kərbəlayi Yusif Ağabala oğlunun söyləməsinə görə Malik İbrahim həzrət Əli (ə)-in sərkərdəsi (əshabi) olmuş, İslam dininin möhkəmlənməsi uğrunda çox işlər görmüşdür. O, hicri 700-cü il tarixində (ərəblər Naxçıvanda olanda) Ordubad şəhərini özünə ikinci vətən seçmiş, burada əcəli ilə vəfat etmişdir.

Tarixi şəxsiyyət olmuş Malik İbrahimin Ordubaddakı məzarı üstündə XVIII əsrdə sərdabə və sonradan isə məscid tikmişlər.

Ordubad şəhərindəki Malik İbrahim piri xüsusilə Məhərrəm və Səfər aylarında ziyarətçilər tərəfindən daha çox ziyarət olunur.

> *"Allaha və Peyqəmbərə itaət edənlər Allahın nemətlər verdiyi nəbilər, siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necədə gözəl yoldaşlardır!"*
>
> **(Nisa surəsi, 69)**

"Qara pir" ziyarətgahı

Həmin pir yeri Ordubad şəhərindəki qəbrstanlığın şimal hissəsindəki təpə döşündə yarım qazma formasında külünclə çapılmış bir yerdədir. Pirin "tikilisində" 38x30 santi metr ölçüsündə yazılı kitabə vardır ki, farscadan tərcüməsi belədir;-"Allahın rəğbətini qazanmaq məqsədilə bu şərəfli və mübarək bina, Cəmadi-ül-axər ayının ikisində, mərhum, rizvanməkan Hacı Ağacan Ordubadinin oğlu, yaranmışların ən kiçiyi Hacı Zeynəlabdinin səyi və təşəbbüsü ilə 1264-cü ildə (miladi tarixi ilə 6 may 1848-ci ildə) tamamlanmışdır. "

"Qara pir" deyilən yerdə əvvəllər yerli camaat tərəfindən ölən şəxslərin meyyidlərini yuyar, kəfənləyər və lazım gəldikdə müvəqqəti olaraq orada (tabutda) saxlanılardı.

Pirin yaxınlığında içməli su çəkilmiş, ziyarətçilər üçün məişət avadanlıqları qoyulmuşdur.

Ziyarətə gələnlər "zağada" şam yandırıb ölənlərinə Allahdan rəhmət duaları oxuyar, gətirdikləri halvanı ehsan kimi paylayardılar.

“Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!

Dində məcburiyyət yoxdur. Artıq doğruluq azğınlıqdan ayrıd edildi. Hər kəs Tağutu inkar edib Allaha iman gətirərsə o, artıq ən möhkəm bir ipdən yapışmış olar.

Allah eşidəndir, biləndir!

Allah iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Tağutdur (Şeytandır). Onları nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!” (Bəqərə surəsi, 255-257) (“Ayətəl-Kürsü” duası)

Nüs-nüs piri

Həmin pir, Ordubad rayonunun Nüs-nüs kəndindəki məscid binasındadır.

Nüs-nüs pirinə rayonda “Qırx kimsə” adı deyərlər. Buraya Ordubad şəhərindən 7 km-lik asfalt yol gəlir. Kəndin ərazisi okean səviyyəsindən 2.500 metr yüksəklikdə yerləşir. Dübəndi çayının sahilindəki meyvə bağları içərisindədir.

Nüs-nüs kəndində 1.905 nəfər (2005-ci ilin st. məl.) əhali yaşayaraq, bağçılıq və heyvandarlıqla məşğuldurlar.

Nüs-nüs kəndinin yaranması ərazidəki pirlə əlaqədardır. Belə ki, orada ilk məskunlaşan adamların qara rəngli sütunvari daşa “nis-nis” (qeyb olmaq) deməklərindən kəndin adı yaranmışdır.

Əraziyə ilk dəfə Zəngəzurun Diyayçay ərazilərindən gəlmiş Qədimli tayfası məskunlaşmışdır. (Haliyyədə Muxtar Respublika ərazisində yaşayan Qədimli (Qədimov) nadir soyköklü şəxslər həmin tayfanın əqrəbalarıdır.)

Daha sonra isə əraziyə Arazın cənub sahillərindən (Cənubi Azərbaycandan) və digər yerlərindən tayfalar köçərək məskunlaşmışlar.

Haliyyədə kənddə yaşayan sakinlər əvvəllər köçüb gəlmiş Qədimli, Salehli, Abbaslı, Əlirzalı, Məmmədli, Hüseynli, Şıxlı və s. Tayfalardır. Onlar mehriban, qonaqpərvər və dindardırlar.

Kəndin ətrafında dörd qəbrstanlıq olaraq, əhalisi uzun ömürlüdürlər.

Nüs-nüs kəndində iki məscid binasından biri pir yerində tikilmişdir ki, bura el arasında "Sərçi" (sulu yer) deyərlər. Həmin məscid XIV əsrdə inşa edilərək dövrümüzədək salamat gəlib çatmışdır. Məscid binası əsasən iki mərtəbəlidir ki, birinci mərtəbədə möcüzəvi pir yeri vardır. Belə ki, məscidin (pirin) içərisindən hündürlüyü 6 metrə çatan və 1 metr enində kvadrat şəkli olan daş sütun "göyərməkdədir". Kəndin yaşlı sakinlərinin söyləməsinə görə burada əvvəllər bir neçə dəfə zəlzələ təkanından həmin qara daş sütunu uçaraq sınıb tökülmüş, lakin sonradan yenə də əvvəlki yerində "göyərərək" peyda olmuşdur. (?). . .

Kəndin mollası Kərbəlayi Əqil Əli oğlunun söyləməsinə görə (o da ata-ababsından eşitmişdir) pirdəki məscid binası 630 il bundan öncə Elxan hökmüdarı Əbu Səid Bahadur xan (?) tərəfindən tikdirilmişdir. Bundan başqa pirdəki qədim dövrlərdən qalma səndəl ağacından (?) hazırlanmış 1,5x1 metr ölçüsündəki taxta qapı üzərində qədim ərəb əlifbası ilə (süls xətti ilə) kitabə oyularaq yazılmışdır. (Həmin yazılı kitabə haqqında ilk dəfə pirdə olmuş rus şərqşunası N. V. Xanıkov məlumat vermişdir.) Bir tağlı taxta qapı üzərindəki yazının tərcüməsi belədir;-"Allahın adı ilə olan bu məscidi Bahadur şah tikdirmiş və burada iki rükət ziyarət namazı qılınmalıdır".

(Müəmmalıdır ki, camaat tərəfindən danışılan pirdəki qeybə çəkilmiş 40 nəfər müsəlmanın adları kitabənin yazısında göstərilməmişdir).

Məscid binası zəlzələdən sonra dəfələrlə təmir-bərpa edilərək əvvəlki vəziyyətinə salınmışdır.

Məscid binasının həyəti təxminən 0, 4 hektardır. Binanın birinci mərtəbəsindəki otaqlardan birində (pirdə) simvolik müsəlman məzarı vardır.

Pirə gələnlər əsasən buradakı yerdən göyərən qara daş sütuna daha çox diqqət yetirirlər.

Pir yerindəki həmin məzar çox güman ki, əvvəllər burada xidmət göstərmiş mücövürlərdən birininkidir.

Nüs-nüs pirində ziyarətçilər üçün bütün imkanlar yaradılmış, lazım olan avadanlıqlar qoyulmuşdur.

Pirin möcüzəvi xüsusiyyəti ondadır ki, bura gələn ruhi xəstələr, üç gün müddətində qara sütun daşın yanında yatmaqla, Allahın qüdrəti ilə pirdəki qeybə çəkilmiş 40 nəfər mömünlərin duası ilə sağalaraq şəfa tapırlar (?).

Pirin möcüzələrindən biri oradakı qədim taxta qapının astanasından içəri (otağa) keçərkən (qapı alçaq olduğundan əyilərək girmək lazım gəlir) natəmiz və bədniyyətli adamları hansısa bir qüvvə tutaraq içəri buraxmır.

Nüs-nüs pirinə ilin bütün fəsillərində gəlmək mümkündür. Pirə gələn ziyarətçilər gətirdikləri qurbanlıq heyvanlarını Allah yolunda kəsməklə ətindən istifadə edə bilərlər. Çünki kənddə yoxsul adamlar olmadığından və ziyarətçi qonaqlara burada yüksək məişət şəraiti yaradıldığından verilən ehsanlardan imtina edirlər.

Deyilənlərə görə pirdə qeybə çəkilmiş 40 nəfər mömün müsəlmanların Ruhlarını ağ geyimli paltarlarda, yalnız ilin bircə günündə-Ulus vaxtı (gecə ilə gündüzün bərabərləşdiyi gün, 19-20 mart) görmək olur.

Bunun üçün niyyət edib məsciddəki qara sütun daşa kürək nahiyyəsini dayamaqla röyada görmək mümkündür. Hər kimsə həmin anda ağ geyimli qırx nəfərin birindən bir şey alarsa, ömrünün qalmışını xöşbəxt keçirər, Qiyamət günündə sorğusu yüngül olar. Bütün bunlar Yaradanın möcüzələrindəndir. Ona həmd və səlam olsun! Amin!

“De: “Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz! Onlar yenidən nə vaxt diriləcəklərini də bilməzlər!”

> *“Sur çalınacağı gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətli bir qorxuya düşər və onların hamısı Onun hüzuruna müti vəziyyətdə gələr.”*
>
> **(Nəml surəsi, 87)**

Üstüpü piri

Bu pirə Üstüpü kəndində İsfəndiyar da deyirlər. Çünki burada səyyid İsfəndiyar adlı şəxsin məzarı vardır.

Pir Ordubad rayonundakı Üstüpü kəndində, Düyülün çayının sol sahilində yerləşir. Okean səviyyəsindən 2.000 metr yüksəklikdədir. Pir yerləşən ərazidən 600 metr aşağada kənd olduğundan sadəcə olaraq oranın adı “Üstü pir” adlanmışdır. Üstüpü kəndi Ordubad şəhərindən 36 km məsafədə yerləşir.

Orta əsrlərdə İslam xəlifəsi Abbasilərin zamanında Yusif ibn Səccad tərəfindən İrakla İran ərazilərindən Həzrət Əli nəslindən olan səyyidlər təqib olunaraq öldürülürdü. Həmin adamlardan biri olan səyyid İsfəndiyar (?) adlı şəxs gələrək Naxçıvandakı

müqəddəs Əshabi-Kəhf mağarasını ziyarət etmiş və indiki Üstüpü ərazisində (o vaxt ərazilər Gilan vilayətindəki Azad (Aza sözü oradan götürülmüşdür) şəhəri bələdiyyəsinə tabe idi) məskunlaşaraq qalmışdır.

XX əsrin əvvəllərində Üstüpü kəndindəki pir yerində mərhum səyyid İsfəndiyar şəcərəsindən olan Mir İsmayıl ağa (1964-1981-ci illərdə Naxçıvan came məscidinin axundu Mir Abdulla Seyidovun (1906-1981) atası olmuşdur) mücövür olmuş və vəfat etdikdən sonra cənazəsini pir yerində dəfn etmişlər.

Üstüpü kəndində 1.342 nəfər (2005-ci ilin st. məl.) əhali yaşayarır. Əsas məşğuliyyətləri meyvəçilik və heyvandarlıqdan ibarətdir.

Kənddə Zəngəzurun Gorus mahalından və Cənubi Azərbaycanın Mərənd vilayətindən türk dilli azərilər köçərək məskunlaşmışlar.

Haliyyədə kənddə Muxtarlı, Cəfərxanlı, Ağaməmmədli, Nəbili, Ələkbərli, Bəylərli və digər tayfaların törəmələri yaşayırlar. Kəndin əhalisi Zəngəzurdan gəlmə azəri oğuz türkləridir.

Üstüpü kəndində XIV əsrdən qalma “Köçəri” adında qəbrstanlıq vardır. Qəbrstanlığa bu adın verilməsi hələ ərazilərdə atəşpərəstlik Zərdüşt dini hökm sürəndən bəri qalır. Böyük küplərə qoyulmuş meyidlər mələklər tərəfindən “köçürdülərək” kimini Cənnətə, kimini isə Cəhənnəmə aparılacaqlar. Həmin Zərdüşt mifalogiyası ərazidə İslam dini yayılanadək qalmışdır.

Kənddə XVIII əsrdə tikilmiş iki məscid binaları vardır. Üstüpü kəndinin əraziləri sərin sulu bulaq və kəhrizlərlə məşhurdur. Kəhrizləri orta əsrlərdə tayfa başçıları tərəfindən qazdırılmış, öz adları ilə də adlandırmışlar.

Orta əsrlərdə məşhur Gilanla Azad şəhərlərinə buradan saxsı novçalarla kəhriz suları axıdılarmış.

Üstüpü piri iki mərtəbəli binadan ibarətdir. Burada ziyarətə gələnlər üçün lazım olan məişət şəraiti yaradılmışdır. Yaxın kəndlərdən pirə ziyarətçilər gəlir, Allah yolunda qurbanlar kəsdirib “pir sahibinə” (Səyyid İsfəndiyar ağaya) ehsanlar verərdilər.

> *(Ya Rəsulum!) De: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz! Onlar yenidən nə vaxt diriləcəklərini də bilməzlər!"*
>
> **(Nəml surəsi, 65)**

Səyyid Səfi (Səffan) piri

Ordubad rayonundakı Düyülün kəndindəki pir yeri sufi İslam təriqəti ilə bağlı XIX əsrdən sonra yaranmışdır. Orta əsrlərdə İslam xəlifəsi Yusif ibn Səccad tərəfindən (Abbasilərin zamanında) İrak ərazilərindən Həzrət Əli (ə) şəcərəsindən olan (şiə islam təriqətçiləri) müsəlmanlar təqib olunaraq öldürülürdü. Bütün bunlarla əlaqədar olaraq şiə müsəlmanlarının yeddinci imamı Həzrət Musa Kazimin oğlu Səyyid Səfi (Səffan) doğma yurdlarından didərgin salınmışdır.

Tale onu Araz çayının sol sahilində yerləşən orta əsrlətin məşhur şəhəri Azada gətirib çıxarmışdır. Həmin dövrlərdə xalq atəşpərəstliyə sitayış edir, İslam dininə məhəl qoymurdular. Səyyid Səfi (Səffan) Azad şəhərində qalıb İslam təlimlərini həyata keçirmiş və riayakar rahiblər tərəfindən zəhərləndirilərək şəhid olmuşdur.

Mərhumun məzarını qaldığı evinin içərisində dəfn etdikdən sonra hicri tarixi ilə 765-ci ildə müsəlman xeyriyyəçiləri tərəfindən sərdabə tikmişlər.

Düyülün kəndinin yaranması möhtəşəm Azadla Gilan şəhərlərinin yadelli istismarçıları tərəfindən (xüsusilə monqollar tərəfindən) dağıdılıb xarabazara çevrilməsindən sonra rəmzi mənada deyilmiş "Du gilan" (ikinci gilan) olmuşdur. Sonradan isə "Du gilan" sözü Təbriz şivəsi ilə "Düyülün"ə çevrilmişdir.

Müasir Düyülün kəndinin əhalisi tünd məcaz olaraq qaraqoyunlu hökmüdarı Qara Yusifin oğlu Pirbuği nəslindəndirlər.

Haliyyədə Düyülün kəndində XVIII əsrdən qalma tarixi məscid binasıdır. Sovet dövründə qapıları bağlanaraq ambara çevrilmişdir. . .

Düyülün kəndinə Ordubad şəhərindən 17 km məsafədə asfalt yol gəlir. Haliyyədə kənddə 779 nəfər (2005-ci ilin st. məl.) əhali yaşayır, heyvandarlıqla məşğuldurlar.

Düyülün kəndindəki köhnə qəbrstanlıqda qırmızı tuf dağ daşlarından yonulmuş qəbrüstü qoç heykəllər vardır ki, həmin məzar daşları orta əsrlər dövründəki Qaraqoyunlu hakimiyyəti zamanındakı feodal tayfa başçılarına məxsusdurlar.

Qəbrstanlıqda XIV əsrdən qalma və üzərində küfi ərəb xətti ilə yazılmış məzar daşlardan birində ərəbcə Quranın “Bəqərə” (2) sürəsinin 256-cı ayəsi həkk olunmuşdur. Daşın üzərində həmçinin məzarda dəfn olunmuş Xacə Məlik (Xacə Məlik Türkmənbaşı 1300-cü ildə Azad şəhərinin hakimi kimi, Səyyid Səfinin (Səffanın) zəhərləndirilməsinə fərman vermişdir) adlı şəxsin adı ilə ölüm tarixi (hicri 770 - miladi 1368) yazılmışdır.

Xacə Məlik Türkmənbaşı mərhum Səyyid Səfinin məzarı üstündə sərdabə tikdirərməklə oranı müqəddəs ziyarətgah elan etmişdir.

Qəbrstanlıqdakı daş qoçlardan birində ərəbcə;-“Rəhimli və mərhəmətli Allahın adı ilə! Həmd olsun Allaha, məzarın sahibi Salehdir (Saleh XIX əsrdə İran hakimi Pəhləvilər nəslinin (Məhəmməd Rza şahın) üçüncü babasıdır) -970” rəqəmi və Quranın “Ərrəhman” (55) surəsindəki “Yer üzərində olan hər kəs fanidir” (26-cı ayə) (Miladi 1562-ci il, Hicri 970-ci il) sözlərini yazmışlar.

Pir yeri əsasli şəkildə mütəxəssislər tərəfindən öyrənilməmişdir.

Pirin yaxınlığında əzəmətli Çinar ağacı keçmiş tariximizin yadigarı olaraq vüqarla dayanmış və öz sərinliyini ziyarətçilərdən əsirgəmir.

“Ey iman gətirənlər! (Sözlərinizlə hərəkətlərinizdə) Allahdan və Peyqəmbərindən önə keçməyin. Allahdan qorxun. Həqiqətən, Allah eşidəndir, biləndir!”

(Hucurət surəsi, 1)

Gilan türbəsi

Gilan şəhəri orta əsrlərin VIII-XVI yüz illiyində Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən olaraq Araz çayının sol sahilindəki Böyük İpək yolunun üstündə salınmışdır.

XIV əsrdə Nuh yurdunda gedən qanlı müharibələr nəticəsində Gilanla Azad şəhərləri əvvəl monqollar sonra isə Orta Asiya hakimi Əmr Teymurun qoşunları tərəfindən dağıdaraq xarabalığa çevirmişlər.

Gilan və Azad şəhərlərindəki sənətkarları at döşündə payi-piyada Səmərqəndlə Xorəzmə sürgünə göndərib, qadın və uşaqları isə qul edərək özbək feodal ailələrinə xidmətçi-kəniz kimi təhkim etmişlər.

XIV əsrədək Gilan şəhərinin əhalisi xoşbəxt yaşayaraq üzüm emalı ilə məşğul olub, dəvə karvanları ilə çox illik şərab, doşab, şurud və başqa içki məhsullarını satmaq üçün başqa

ölkələrə aparıb iqdisadi bazar əlaqələrini yaradırdılar.

Gilan və Azad şəhərlərində ticarət əlaqələrini genişləndirmək məqsədi ilə yeraltı məhsul saxlanan ambarlar, karvansaralar, buzxana və digər binalar tikdirmişlər.

Gilanlı tacirlər İraq, Ərəbistan, Bizans, İran, İber, Əfqan və Türkmənlərlə ticarət əlaqələri saxlayaraq Nuh yurdunun istehlak mallarını bazarlara çıxarırdılar.

Ərazidə baş verən dağıdıcı müharibələr mədəni-iqtisadi əlaqələrin kəsilməsinə səbəb olmaqla xalqımızın mənəviyatına da, ağır zərbələr vurulmuşdur.

Haliyyədə dövrümüzədək qalmış Gilan şəhərinin xərabəlikləri Ordubad şəhərindən 16 km qərbdə, Gilan çayın sol sahilindədir.

Sonrakı əsrlərdə Gilan şəhərini tikib bərpa etsələr də, ərazidə başlamış İran-Türkiyə müharibələri zamanında şəhər ələ keçməsin deyə I Şah Abbasın (1587-1629) hökmü ilə yurd yerimizi öz əlimizlə özümüzə sökdürmüşdür.

Gilan şəhərinin əhalisinin yarıdan çoxu İran ərazilərinə köçürülmüş, sonradan isə bir hissəsi qayıdaraq Aza ilə Dər kəndlərində məskunlaşmışlar.

Xalq arasında orta əsrlərin möhtəşəm şəhər yeri “Xaraba Gilan” adı ilə yaddaşlarda qalmışdır. Sökülmüş yaşayış ərazisində yalnız orta əsrlərin memarlıq abidəsi olan Gilan türbəsinin bir hissəsi dövrümüzədək qalmışdır. Maraqlıdır ki, ərazidə qanlı müharibələr törədilib, tikililər xərabəzarlığa çevrilsə belə şəhər yerindəki qəbrüstü türbə salamat qalmışdır. Qədim şəhər yeri seysmik zonada oduğundan zəlzələ nəticəsində türbənin bir hissəsi uçub dağılmışdır.

İndiki Sabir Dizə kəndi yaxınlığında VIII-XVI əsrlərin nekropolu qalmışdır. Ərazidə e.ə. II-I minilliklərə aid Dəlmə nekropolu da vardır.

1979-cu ildə Gilan şəhəri xərabəliklərində tarixçi tədqiqatçılar elmi axtarışlar aparmış və təpəlikdə tikilmiş türbədən maddi mədəniyyət nümunələri tapmışlar.

Gilan türbəsində qəbrüstü sərdabə tikilisi uçub dağıldığından məzar sahibləri müəyyən olunmamış, müəmmalı qalmışdır. Görünür ki, sərdabədəki məzarda dövrünün tanınmış şəxsiyyətlərindən olan adamlar dəfn olunmuşlar.

Gilan türbəsinin aşağa hissəsi Naxçıvandakı memar Əcəminin tikdiyi Mömünə Xatun məqbərəsinə oxşadığından həmin tikilini orta əsrlərin XII yüz illiyində inşa olunmasına ehtimal yaradır (Naxçıvan ensiklopediyası”. Bakı-2002, səh. 208).

Gilan türbəsi xalqımızın tarixi memarlıq abidəsi kimi qorunub bərpa olunmalı, mənəvi inanc yeri kimi ziyarətgaha çevrilməlidir.

Bu abidənin qorunması Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına zəmn ola bilər.

> *"Ruhun və Mələklərin səf-səf duracağı gün Rəhmanın izn verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir!"*
>
> **(Nəbə surəsi, 38)**

Şəmsəddin Məhəmməd piri

XIV əsrə aid pir yeri Ordubad rayonundakı qədim tarixi ərazilərindən sayılan Aşağa Aza kəndindədir.

Kənd, Culfa-Ordubad magistral yolundan 3 km cənubda Gilançayın mənsəbindədir.

Aşağa Aza kəndinə Ordubaddan 17 km-lik məsafədə şose yolu gəlir. Ərazidəki Gilançayın üstündən iki körpü salınmışdır ki, onlardan biri XVIII əsrin tikilisidir. . .

Aşağa Aza kəndində 442 nəfər əhali yaşayır (2005-ci ilin st. məl.), əkinçilik və heyvandarlıqla məşğuldurlar.

Aşağı Aza kəndinin əhalisi Zəngəzurun Aldərə, Qorçevan, Urud (Voratan) ərazilərindən köçürülərək məskunlaşmış Azəri türklərindən təşkil olunmuşdur.

Aşağa Aza kəndinin adının yaranması əsasən orta əsrlərdə ərazidə möhtəşəm Azad şəhərinin adından götürülmüşdür.

Tarixi "İpək yolu"nun üstündə salınmış həmin şəhərdən yalnız indiyədək Azad şəhərinin xərabəlikləri (XIV əsr), qəbrstanlıq (XIV əsr), hamam (XVII əsr) və körpü (XVIII əsr) qalmışdır.

Ərazidəki qədim qəbrstanlıqda məzarüstü qoç daş abidələr qalmaqdadır. Onlardan bir neçəsi gətirilərək Naxçıvan şəhərindəki Açıq Səma altındakı Muzeydə qoyularaq nümayiş etdirilir.

XIV əsrdə yaşamış tarixçi coğrafiyaşünas Həmdulla Qəzvinin yazdığı "Nüshət-əl-qürub" kitabında Naxçıvandakı Azad şəhəri haqqında geniş məlumat vermişdir.

Müəllif əsərində belə yazır;-“Azad şəhəri, bol taxıl, üzüm, pambıq məhsulları ilə şöhrət tapmışdır. . . Əhalisi təbiətcə savaşqandır. . . və sairə”.

Mənbəyini Qapan dağından götürən Gilançayın üstündə yerləşmiş Azad şəhəri XI-XII əsrlərdə Yaxın və Orta Şərqdə böyük ticarət və sənətkarlıq mərkəzi kimi şöhrət tapmışdır.

Mərkəzi Asiyadan Qərbə gedən mühüm ticarət yolları bu şəhərdən keçib gedərdi.

Gilançay üzərində dövrümüzədək qalmış körpü bütün bu deyilənləri bir daha təsdiqləyir (M. Nemət “Azərbaycanda pirlər”. Bakı-1992. səh. 43).

Aza piri kəndin aşağısında yerləşir. Oradakı üç ədəd daş qoçlardan başqa, qalanları müxtəlif yerlərə aparılmışdır. Oradakı daş qoçlardan birində ərəbcə bu sözlər yazılmışdır;“Onun (qəbirin) sahibi Səfərdir. Səkkiz yüz yetmiş yeddinci il” (miladi 1472-1473-cü illər).

Ərazidəki Şəmsəddin Məhəmməd pirinin ətrafı XIV-XVII əsrlərdən qalma böyük qəbrstanlıq olmuş, lakin kənddə yaşayan ermənilər özlərinə şəxsi mülk salarkən qəbrüstü yazılı daşları sındıraraq dağıtmışlar. Xoşbəxtlikdən pir binasının içərisindəki məzarüstü yazılı daş yerində salamat qalmışdır. Həmin məzarın üstündəki daşda ərəbcə bu sözlər yazılmışdır;-“Əbədi pərvərdigar olan Allahın yaxınlığına möhtac, xoşbəxt mömin, rəhmətlik, əzəmətli Mövlana (Ərəbcə “bizim ağa” deyilən söz, XIII əsrdə Mövlana Cəlaləddin Rumi tərəfindən təsdiq olunaraq, nüfuzlu adamların adlarının əvvəlində çəkilirdi) Şəmsəddin Məhəmməd, səkkiz yüz doxsan ikinci il, zilhiccə ayında fani dünyadan əbədi dünyaya köçdü. Allah onun qəbirini işıqlandırsın. Amin! Zilhiccə ayı, 892” (miladi 1487-ci il) (M. Nemət “Azərbaycanda pirlər”. Bakı-1992. səh. 42).

Pirin ətrafında sonradan orta əsr feodal tayfa başçıları dəfn olunmuşlar.

Altmışıncı illərdə ətraf kəndlərdən pirə ziyarətə gələnlərin sayı daha çox olmuşdur. Ziyarətçilər qəbirdəki yazının mənasını bilməmiş, oranın “imam qəbiri” olduğunu güman etməklə Allaha qurbanlar kəsib ehsanlar verərdilər. . .

> *“Biz qurbanlıq dəvələri də Allahın nişanələrindən etdik...”*
>
> **(Həcc surəsi, 36)**

Dər kəndindəki pir

Dər kəndi Ordubad rayonundakı kiçik yaşayış ərazilərindən olaraq rayon mərkəzindən 15 km cənub-şərqdə Gilançayın Arazla qovuşduğu yerdədir.

Kəndin torpaq ərazisi sərhəd zolağına düşdüyündən əhali tədricən Aşağa Aza kəndinə köçmüşdür. Haliyyədə Dər kəndində 500 nəfərə yaxın (2005-ci il st. məl.) əhali yaşayaraq heyvandarlıqla məşğuldurlar.

"Dər" sözü-darvaza qapısı deməkdir. Ərazi qədim İnsanların yaşayış məskənləri olduğundan burada xalqımızın tarixi mədəniyyət abidələri qalmaqdadır.

Kənddə tunc dövründən qalma daşdan yonulmuş qoç heykəllər (onlar qəbrüstü daşlar deyillər), hamam və türbə (XIV əsr), daş körpü (XVIII əsr) və başqa tarixi mədəniyyət tikililəri qalmışdır.

Ərazidəki türbə (ora pir də deyirlər) haqqında olan yeganə elmi məlumatı ilk dəfə 1870-ci ildə Sankt-Peterburqda nəşr olunmuş "Qafqaz haqqında məlumat" (rusca) toplusundakı "Qədim qala" sərlövhəli məqaləsindədir.

Həmin məqalənin yazılmasından yüz il sonra Azərbaycan alimləri Ə. V. Salamzadə ilə K. M. Məmmədzadə Dər kəndindəki pirdə olmuş, oradakı tarixi memarlıq tikililəri haqqında tədqiqatlar aparmışlar. Azərbaycan, rus və ingilis dillərindəki yazdıqları kitabda Dər kəndindəki pirin Naxçıvan ərazisində qiymətli tarixi memarlıq abidəsi olduğunu qeyd etmişlər (Ə. V. Salamzadə "Arazboyu abidələr". Bakı-1979).

Müəlliflər tədqiqat əsərlərində bildirmişlər ki, pir binası XIV əsrdə tikilmiş Azərbaycan memarlıq sənətinin incilərindəndir.

Kəndin ərazisində digər iki türbələrin (XIV-XVII əsrlər) xərabəlikləri dövrümüzədək qalmışdır. Tikilidəki divarın yarı uçuq vəziyyəti bir daha göstərir ki, pir yeri əvvəllər ərazidə yaşamış ermənilər tərəfindən vəhşiliklə sökülmüşdür.

Təssüf ki, pirdəki məzarların üzərindəki yazılı daş kitabələr götürüldüyündən orada basdırılan adamların şəxsiyyətindən məlumat vremək qeyri mümkündür.

Nuh yurdunun müqəddəs torpaq ərazilərində özlərinə məskən salmış ermənilər sovet dövründəki yerli rəhbərlərin laqeydliklərindən məharətlə istifadə etmiş, tarixi yurd yerlərimizin adları dəyişdirilməklə mənəviyyat abidələrimizi söküb dağıtmışlar.

Sovet dövründə doxsanıncı ilədək Dər kəndindəki pirə ziyarətə getmək müsəlman vətəndaşlara qadağan olunmuşdur.Hətta əraziyə (kəndə) qonaq kimi getmək belə yasaq olmuş, inzibati orqanlardan icazə alınmalı idi.

“Allaha əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları pis yurd (Cəhənnəm) gözləyir.”

> *“İman gətirib yaxşı işlər görənlərin xoş halına! (Onları) gözəl bir sığınacaq (Cənnət gözləyir)!”*
>
> **(Rəd surəsi, 29)**

Xanağa piri

Pir yeri Ordubad rayonundakı Xanağa (Çapayev) kəndində yerləşmişdir.

Kəndin adının yaranma mənşəyi ərazidə olan qədim tikili yeri xanəgahla bağlıdır. Sovetlər dövründə Naxçıvandakı bir neçə ərazi-coğrafi adları dəyişdirildiyindən həmin kəndə rusiyada vətəndaş müharibəsi komandiri “qırmızı bolşevik” V. V. Çapayevin adını vermişlər.

Azərbaycanda milli müstəqilliyimiz bərqərar olduqdan sonra 1993-cü ildə kənd əvvəlki adı kimi Xanağa adlandırılmışdı.

Xanağa kəndi okean səviyyəsindən 3.000 metr yüksəklikdə yerləşir. Bura Ordubad şəhərindən 14 km-lik məsafədədir.

Kənddəki əhalinin sayı 665 nəfərə çatmış (2005-ci ilin st. məl.), heyvandarlıq və bağçılıqla məşğuldurlar. Burada məskunlaşan insanlar Zəngəzurun Qarçevan-Mehri ərazilərindən gələnlərdirlər.

Kənddəki əhaliyə haliyyədə İslam ehkamlarını bilməyə ciddi ehtiyac vardır.

Bura hüzn mərasimlərini keçirməyə qonşu kəndlərdən çağırılan “əməli-mövtlar” (ölü yuyanlar) minnətlə gəlirlər...

Xanağa piri kəndin şimal-şərq tərəfindən axan Xanağa çayının sol sahilindədir. İki otağı olan binanın içərisində müsəlman məzarı vardır ki, əvvəllər onların sayı üç olmuşdur.

Həmin məzarlardan birində Şeyx Nurəddinin oğlu Şeyx İslam,digərində isə Səyyid Həmidin oğlu Səyyid Tahir adlarında nüfuzlu şəxslər (üləmalar) dəfn olunmuşlar.

Qəribədir ki, əvvəllər burada olmuş rus şərqşünası V. M. Sisoyev pirdəki məzarların sayının iki olduğunu göstərmişdir. . .

Görünür ki, üçüncü məzarın quruluş istiqaməti qərbdən şərqə olmamış, şimaldan cənuba tərəf (əmanət qəbir) basdırıldığından nəşin sümük qalıqları çıxarılıb aparılmışdır.

Pirin düzbucaqlı formada olan binası sonrakı illərdə bərpa olunaraq yenidən tikilmişdir. İçəridəki daş kitabələrlə mərmər sənduqələr bura gələnlərin diqqətini cəlb edir.

Tədqiqatçılar pirin yaranması tarixini XIV-XV və XVII əsrlərə aid etmişlər. Pirdəki daş üzərində yazılmış kitabənin ərəbcədən tərcüməsi belədir;-"Yer üzərində olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir. (Ərrəhman surəsi, 27).

Daha sonra isə orada bu sözlər də yazılmışdır;"Bu qəbir Həmidin oğlu Səyyid Tahirindir. 707/1307-08 il" (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992. səh. 27). Burada birinci göstərilən tarix hicri ilə ikinci isə miladini bildirərək "08" rəqəmi isə Hicrətin səkkisinci-Şəban ayını bildirmişdir. Bunlardan başqa pirdəki digər bir daş üzərində belə yazılmışdır ki, -"Ey bütün qəriblərin dostu! (buradakı dost sözü Allahı bildirir) Bu bağ (məzar deməkdir) Şeyx Nurəddinin oğlu Rəhmətlik, bağışlanılmış, xoşbəxt şəhid, 1010-cu ildə (hicri tarixi ilə) Allah rəhmətinə çatmış, şeyxlər nəslindən (olan), Şeyx İslamındır." (miladi 1601-1602-ci illərdə).

Həmin kitabənin mənasından aydın olur ki, pirdə basdırılan şəxs din yolunda, şəhid olmuş Şeyx İslam Şeyx Nüreddinin oğludur.

Mərhumun kübar feodal təbəqəsindən olması Quran ayələrinin məzar daşına yazdırılması sübut edir ki, ərazidə sufilərin Xanəgahı (mədrəsəsi) olmuşdur.

Həmin kəndin adının Xanağa adlanması buradakı "Xanəgah"la əlaqəlidir.

> *"Allah yolunda öldürülənlərə "ölü" deməyin. Əksinə onlar diridirlər, lakin siz bunu dərk etmirsiniz."*
>
> **(Bəqərə surəsi, 154)**

FƏSİL 9

Şərur rayonundakı ziyarətgahlar

Şərur rayonu Naxçıvan Muxtar Respublikasının şimal-qərbində yerləşmişdir. Ərazinin topaq sahəsi 0,81 min km2 olub, şimal-qərbdən Sədərək rayonu, şimal-şərqdən Ermənistan (Dərələyəz dağları ilə), cənub-qərbdən Araz çayı boyunca İran və cənub-şərqdən isə Kəngərli rayonu ilə həmsərhəddir.

Şərur rayonunun əhalisinin sayı 97.089 nəfərdir (2005-ci ilin st. məl.). Əkinçilik və heyvandarlıqla məşğuldurlar.

Şərur rayonunun ərazisi fiziki-coğrafi relyefinə görə düzənliklərdən ibarətdir. Ən yüksək yeri Tənənəm kəndi yaxınlığındakı Qaraquş (2600 m.) dağı və ən alçaq yeri isə Araz çayının sahilidir ki, okean səviyyəsindən 760 metr yüksəkdədir.

Rayondakı əhali əməksevər və qonaqpərvər olmaqla dünya elmlərinə maraqlıdırlar. Şərur elindən neçə-neçə adlı-sanlı əmək qəhrəmanları-Qızıl ulduzlu pambıqçı Bahar Talıbova, tütünçü Mirhəmzə Eminov və başqaları olmuşdur.

Naxçıvandan Şərur şəhərinə 66 km-lik məsafədə avtomobil və dəmir yolları uzanır. Əvvəllər Şərur rayonu torpaq ərazilərinin bir hissəsi əkin sularından korluq çəkmiş, 1970-77-ci illərdə Arpa çayı üzərində "Dəvəölən" ərazisində tikilmiş bəndə görə burada su tutumu 140 milyon kub metrə çatan dəryaça yaradılmışdır. Həmin dəryaçanın suları (sağ və sol kanallar vasitəsi ilə) axıdılaraq əkin sahələri suvarılır.

Şərur, iqdisad cəhətdən inkişaf etmiş aqrar-sənaye rayonudur. Ərazidə kənd təsərrüfatı sahələri ilə brabər özəl sənaye sahələri öz inkişafını tapmışdır.

Rayonun əhalisi İslam mənəviyyatına geniş yer vermiş, kəndlərdə məscidlər tikilmiş, pir və ziyarətgahlar imkanlı adamlar tərəfindən təmir-bərpa olunaraq əvvəlki görkəminə qaytarılmışdır.

Bu ərazilərin əski adı orta əsrlərdə Şərel olmuşdur (Ərazinin şimalındakı Ardıc (Şərel, 2.034 m.) dağının adından götürülərək, mifaloji deyimlərə görə həmin yerə qalxanlar "şərə düşərək" qan təzyiqinin qalxmasından əzab çəkərlər). Bu isə Şər təpəsinin mifaloji adı ilə bağlıdır.

Şərur torpaq ərazilərində qədim dövrlərdən türk dilli oğuz tayfaları, daha sonra isə orta əsrlərdə Mərkəzi Asiyadan türk dilli Kanqlı (Kəngərli) tayfaları gəlmiş, mehriban şəraitdə yaşayıb heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar. Orta əsrlərdə ərazinin məhsuldar sulu torpaqlarında çəltik, buğda, tütün (tənbəki toxumunu əraziyə avropalı səyyah-tacirlər "Böyük İpək yolu" ilə gətirmişlər), pambıq (çiyid toxumlarını Kəngərli tayfaları Xarəzmlə Səmərqənddən gətirmişlər), üzüm, qovun (hər iki bostan bitkisi toxumlarını Kəngərli tayfaları tərəfindən Sır-Dərya ərazilərindən gətirilmişdir), küncüt, vələmir, çovdar və sairə əkilib becərilirdi.

XVIII əsrin axırlarında ruslar (Malakanlar) ərazilərə gələrkən bir neçə taxıl və tərəvəz bitkilərinin toxumlarını özləri ilə gətirmişlər. Şərurun zəhmətkeş kəndliləri həmin dövrlərdən Arazla Arpa çayları sahili torpaqlarında qılçıqlı buğda, arpa, şəmbəllə, yulaf kimi taxıl bitkiləri ilə birlikdə pomidor, badımcan, bibər, kələm, kartof, yer alması, kök və çuğundurun üç növünü əkib becərirdilər.

Şərur ərazilərində orta əsrlərdən bəri heyvandarlıq sahəsi inkişaf edərək şöhrət tapmışdır. Qədim dövrlərdən burada atçılıqla dəvəçilik inkişaf etdirilmiş, uzun yunlu Balbas cinsli (buna "qızıl yunlu"da deyirlər) qoyunlar, soyuğa davamlı Anqar cinsli keçilər, inək və camışçılıq inkişaf etdirilmişdir.

Orta əsrlərdə Mərkəzi Asiyadan köçüb gələn Kəngərli tayfaları özləri ilə bərabər işlək qoşqu heyvanları olan öküz və iki hürküklü dəvələr, Meranus və İtquyruq cinsli südlük qoyunlar, ağır yük daşıyan qatırla qısa boylu zirək (çevik) Altay atlarını gətirib ərazidə yaymışlar. Çox təssüf ki, adları çəkilən heyvanlardan çoxusunun nəsli ərazidə kəsilmişdir.

80-ci illərin axırlarında Ermənistan silahlı quldur dəstələri Muxtar Respublikanın torpaq ərazilərinə basqın etmiş, nahaq yerdən qan tökmüş, xalqımızın oğlulları şəhid olmuşlar.

90-cı illərin döyüşlərində qəhrəman Şərur və Sədərək oğulları erməni basqınçılarının qarşısında məğrur dayanaraq torpaqlarımızı igidliklə qorumuşlar.

30-cu illərədək ərazidə İslam mənəviyyatı inkişaf etdirilmiş, sonradan sovet ateist rəhbər dairələr tərəfindən görkəmli üləma və müşteyidlər təqib edilib, bir qismi tutulub soyuq Sibirə sürgün edilmiş, digərləri isə vətəndən didərgin düşərək Araz çayından o taya keçmişlər.

Şərur ərazilərində qədim İnsanların yaşayış məskənləri olmuşdur. Onlardan rayondakı Püsyan kəndindəki yaşayış yerini (E.ə. II-I minillik), Təzəkənd kəndindəki qədim yaşayış

yerini (Antik dövr), İbadulla kəndindəki "Şor təpə" ərazisini (E.ə. IV-I minillik), Ərəbyengicə kəndindəki qədim yaşayış yerini (Antik dövr və E.ə. III minillik), Qarahəsənli kəndindəki "köhnə kənd" yaşayış yerini (E.ə. II-I minillik), Maxta kəndindəki I Kültəpə qədim yaşayış yerini (E.ə. III minillik), Axaməd kəndindəki qədim yaşayış yerini (E.ə. I minillik), Yuxarı Daşarx kəndindəki qəbir abidələrini (E.ə. IV minillik), Zeyvə kəndindəki torpaq qəbir abidələrini (E.ə. II-I minillik), Xələc kəndindəki qədim yaşayış yerini (E.ə. IV-III minillik) və ərazidəki "Yamaclar" qədim yaşayış yerlərini (E.ə. II-I minillik), o cümlədən buradakı mövcud daş dövrlərin İnsan yaşayış məskənlərini göstərmək olar.

Bundan başqa rayon ərazisində Oğlanqala kəndindəki qədim yaşayış yeri (E.ə. II minillik), Dizə kəndindəki "Ovçular təpəsi" yaşayış yeri (E.ə. IV-III minillik), Aşağa və Yuxarı Yaycı kəndlərindəki kurqanlar (həmçinin "Qız qalası" E.ə. III-II minillik), Gümüşlü qəsəbəsindəki "Qara su" qalası (E.ə. III-I minillik), Həmzəli kəndindəki "Avqan təpə" abidəsi (E.ə. IV-V minillik) və "Qoşa təpə" qədim yaşayış yeri (Antik dövr), Axura kəndindəki "Gavur qala" qədim yaşayış yeri (E.ə. II-I minillik) və Aşağa Yaycı kəndi ilə Dizə kəndləri arasında olan təpədə orta əsr arxeoloji abidələri vardır (Q. Həsənov. "Nax. MSSR-in tarixi və arxeoloji abidələri". Naxçıvan-1988. səh. 7).

Şərur rayonu kəndlərinin əksəriyyətində İnsanların inanc yerləri olan pir və ziyarətgahlar qalmaqdadır.

Parçı piri

Şərur rayonundakı Xanlıqlar kəndində XVII-XVIII əsrlərə aid olan "Parçı imamzadası" adında pir yeri vardır. Əvvəllər ərazi ayrı-ayrı Xanlıqlarla Parçı kəndlərindən ibarət olmuşdur.

Xanlıqlar kəndində 2.091 nəfər (2005-ci ilin st. məl.) əhali yaşayıb. Burada üzüm emalı zavodu olduğundan məşğuliyyətləri üzümçülüklə heyvandarlıqdan ibarətdir.

Parçı kəndi Arpa çayın sol sahilində Şərur şəhərindən cənub-şərqdə 8 km-lik məsafədə "Daşarx" dəmir yolu stansiyası yaxınlığındadır. Pir yeri kəndin şimal hissəsində yerləşir. Üstü kümbəzli bişmiş kərpicdən tikilmiş böyük binadan ibarətdir. Pir binasının içərisində müsəlman məzarı vardır ki, burada əvvəllər ərəbcə yazılmış daş kitabə naməlum səbəblərdən götürülmüşdür. Həmin kəndin əhalisi əraziyə müxtəlif yerlərdən köçüb gəldiklərindən pirdəki məzardan məlumatları yoxdur.

Qonşu kəndlərdə yaşayan yaşlı mömin şəxslərin söyləmələrinə görə pirdəki məzar yeri "Şəhzadə İbrahim Musa oğlu"nun olduğunu iddia edirlər.

1928-ci ildə həmin pirdə naxçıvanlı tədqiqatçılar olmuş və qəbirin üzərində ərəb əlifbası ilə yazılmış "İbrahim ibn Musa" sözlərini oxumuşlar (M. B. Mirheydərzadə "Noraşen dairəsinə səyahət" (Naxçıvandakı tədqiq və tətəbbö cəmiyyətinin 1928-ci ilin 40 №-li protokolu).)

1988-ci ildə nəşr olunmuş "Parçı imamzadəsi" adlı məlumat göstəricisində pirdəki məzarın "Musa İbrahim oğlu"na aid olması bildirilmişdir (Parçı imamzadəsi". (Məlumat kitabçası), İliç-1988). Bəs onda həmin məzar sahibi Musa İbrahim oğlu kim olmuşdur?

1930-cu ildə Naxçıvanda diyarşunaslıq muzeyi yaradılmış, orada müxtəlif əlyazmalar (elmi-tarixi məqalələr) toplanmışdır. Bu məqsədlə Bakıda "Azərbaycanı öyrənmə yolu" adlı məcmuə nəşr olunmuşdur. Məcmuədə H. Cavidin əmisi oğlu Məhəmməd Rəsizadənin imzası ilə Parçı imamzadəsindən bəhs edilən "Şərur dairəsinə səyahət haqqında qeydlər" sərlövhəli məqalə vardır("Azərbaycanı öyrənmə yolu" dərgisi, Bakı-1930 № 4, 5. səh. 81-82).

Həmin məqalədən məlum olur ki, Parçı pirindəki məzarın üzərində ərəbcə "İbrahim ibn Musa" sözləri olmuşdur. Maraqlıdır ki, "şəhzadə" sözü şiə müsəlmanlarının yeddinci imamı Musa Kazımın adına ehtiram kimi işlənmişdir.

Tarixdən məlumdur ki, şiə müsəlmanlarının yeddinci imamı Həzrəti Musa Kazım (hicri tarixi ilə 183-cü ildə) İslam xəlifəsi Harun ər-Rəşid ibn Abbas tərəfindən zəhərləndirilmiş, qorxudan imamın övladları vətənlərindən didərgin düşmüşlər.

İmam övladları səyyidlər Azərbaycanı (Naxçıvanı) özləri üçün təhlükəsiz görərək azəri türklərinin himayəsinə sığınmışlar.

Beləliklə bu qənaətə gəlmək olar ki, ata babasının (cəddinin) günahsız qətlindən sonra imam övladı səyyid İbrahim Şərur vilayətində (indiki Parçı kəndində) təhlükəsiz yaşayaraq əcəlin hökmü ilə dünyadan köçmüşdür.

Maraqlıdır ki, məzar üstü sərdabələr orta əsrlədə yalnız yüksək mənsəb sahiblərinin qərarı ilə tikilərdi.

Tarixdən məlumdur ki, 1501-ci ilin ortalarında Səfəvi dövlətinin başçısı Şah I İsmayılın (1487-1524) qoşun dəstələri Şərur çöllərində Ağqoyunlu hökmdarı Əlvənd Mirzə ilə savaşaraq ona qələbə çalmışdır. Müharibənin qələbəsi nəticəsində Şərur elində bir çox

xeyirxah işlər aparılmış və imam övladı mərhum səyyid İbrahimin məzarı üstündə sərdabə tikdirmişdir.

Səyyid İbrahimin digər qardaşları Nuh yurdunda yaşayaraq əcəlləri ilə vəfat etmişlər. Belə ki, Səyyid Əqil Nehrəm kəndində, Səyyid Səfi (Səffan) Düylün kəndində, Səyyid Əhməd Bufçar kəndində (Mehri rayonu) və Səyyid Qasım isə Cənubi Azərbaycanın Sofyan kəndində yaşayaraq vəfat etmişlər. İmam övladlarının bacıları isə (Musa Kazımın qızları) Rübabə İraqda (Bağdad şəhəri yaxınlığında), Hökümə isə Abşeron rayonundakı Şıx kəndində vəfat etmişlər.

Parçı kəndindəki pirin tikinti üslubu XV əsrin memarlıq üslubunda yenidən bərpa olunaraq XVII-XVIII əsrlər arasında tikilmişdir.

Parçı pirində son illər ziyarətçilər üçün şərait yaradılmış, içməli su xətti ilə elektrik çəkilmiş, həyətyanı sahəsi abadlaşdırılmışdır. Pirin yanındakı qədim qəbrstanlıqda 1501-ci ildəki döyüşlərdə şəhid olanların məzarlarını ziyarətə gələnlər ehtiramla yad edirlər (H. F. Səfərli “Naxçıvan ziyarətgahları”. Bakı-1998. səh. 14).

> *“Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapır!”*
>
> **(Rəd surəsi, 28)**

> *“Məgər sən bilmirsənmi ki, göylərin və yerin səltənəti ancaq Allaha məxsusdur və sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur?!”*
>
> **(Bəqərə surəsi, 107)**

Tənənəm piri

Şərur rayonundakı Tənənəm kəndinin şimal-şərq hissəsində “Qazma” mağarasında Dərələyəz silsiləsinin Qaraquş (2.600 m.) dağının şimal-qərbində orta əsrlərin yaşayış məskənləri olmuşdur.

Tənənəm kəndi rayon mərkəzindən 24 km, Naxçıvan-Sədərək avtoyolundan isə 9 km-lik məsafədə yerləşir. Kənddə əhali 761 nəfərdir (2005-ci ilin st. məl.). Heyvandarlıqla məşğuldurlar.

Ərazidə gur-sulu bulaqlar olduğundan ilk dəfə buraya Zəngəzurun qədim Tənovan yaşayış məskənlərindən Təhov elatları gəlib məskunlaşmışlar. Kəndin adının yaranması isə tayfa başçısı Təhovun adı ilə bağlıdır. Əvvəllər "Təhovan" sonradan isə Tənənəm kimi səslənmişdir.

Kənddəki pir yeri sadə formalı daxmadan və üstü yarı-uçuq künbəzdən ibarətdir. Tikilinin içərisində adı olmayan müsəlman məzarı vardır.

Pirin yaranması haqqında yalnız ərazidə olmuş tədqiqatçıların yazılarına görə fikir söyləmək olar.

1928-ci ildə Naxçıvan Ölkə diyarşünaslıq Müzeyinin elmi işçisi M. B. Mirheydərzadə pirdə olarkən yazmışdır ki, -"Asəri ətiqədən Tənənəm kəndində "Piri-müsəlman" adlı qədim bir yer vardır (M. B. Mirheydərzadə "Noraşen dairəsinə səyahət" (Tədqiq və tətəbbö cəmiyyəti, 1928-ci il. 40 №-li protokolu)"). Lakin həmin ziyarətgah el arasında "Piri-Süleyman" adı ilə adlanmışdır. Pirin yaranması haqqında əraziyə gəlmiş ağsaqqalları deyirlər ki, onlar burada (ərazidə) yalnız iki şeyin səbəbindən qalıb məskunlaşmışlar. Birincisi odur ki, ərazidə bol sulu bulaqla sakitçilik, ikincisi isə üzərində ərəbcə yazı daşı olmuş qəbir (pir) olmasıdır.

Əhalinin yaşlı nümayəndələri deyirlər ki, yirminci illərdə ərazidə rus şura hökuməti yarananda el ağsaqqalı Kərbəlayi İsmayılın tapşırığı ilə həmyerlimiz Qəmlonun silahlı adamları pirdə bir neçə gün gizlənmiş, rus qırmızı ordunun əsgərləri ilə atışmışlar. Həmin atışma zamanı "ruslar" məğlub olmuş, pirdəki qəbirüstü yazılı daş isə "güllə yarasından" sınıb parçalanmışdır.

90-cı ildə isə pirdəki məzar üstü sınıq daş yoxa çıxmışdır. Tənənəm piri çox güman ki, XVII-XVIII əsrlərdən qalma bir mənəvi tarixi abidədir.

Ərazi həmin dövrlərdə "Böyük ipək yolu"nun üstündə olduğundan Sədərək-Axura-Qarabağlar-Naxçıvan istiqamətindəki hərəkət edən ticarət karvanlarının sərin bulaq başında dayanacaq yerləri olmuşdur.

Ehtimal olunur ki, Yaxın Şərq ölkələrindən gəlmiş Süleyman adında mürşid və ya karvan sahibi həmin bulaqdakı növbəti dayanacaq yerində qəflətən öldüyündən orada dəfn olunmuşdur. (Süleyman adı orta əsrlərdə xüsusilə Suriya və Osmanlı Türkiyəsində geniş yayılmış addır.)

Təbiblərin dediyi kimi, İnsan yay aylarında tərlədikdə, ayaq üstə tələsik sərin su içməklə həyatı (ömrü) ilə vidalaşa bilər.

Həmin ehtimala görə pirdə dəfn olunan Süleyman adında naməlum şəxs taleyinin hökmü ilə ömrünü orada başa vurmuş və mərhumun cənazəsini yaxın qəbrstanlığa aparmaq müşkül olduğundan orada dəfn etmişlər

Kənddəki camaat səhv olaraq pir sahibinin "Süleyman peyqəmbərin məzarı" olduğunu güman edirlər. (?)

Son illərin tədqiqat işlərində pirlər haqqında bəzi məlumatlar öyrənilmişdir. Həmin ziyarətgah haqqında elmi bilgiləri Naxçıvan Dövlət Universitetinin tarixçi müəllimləri açıqlamışlar (H. F. Səfərli "Naxçıvan Ziyarətgahları." Bakı-1998).

Tənənəm piri müsəlmanların inanc yeri olmuş, istər ziyarətçilər və istərsə də, turizm həvəskarları üçün layiqli tarixi abidə kimi qorunmalı, öyrənməli və təbliğ olunmalıdır.

> *"...Sizin bilmədiyiniz daha neçə-neçə şeyləri də yaratmadıq?"*
>
> **(Nəml surəsi, 8)**

Axura Qaradaş piri

Şərur rayonundakı Axura kəndindəki pir yerində prizmatik-konusvari formada olan böyük qara daş vardır. Həmin maraqlı nadir göy cismnin ətrafında isə adətən başqa pirlərdə olduğu kimi kiçik yumurta formalı qara daşlar-meteoritlər qoyulmuşdur (V. Baxşəliyev "Pirlərlə bağlı miflər və inanclar." Bakı-2006).

Axura kəndi Şərur şəhərindən 20 km aralı, şərq tərəfdə Axura çayının sağ sahilindədir. Əhalisi 1.481 nəfər olaraq (2005-ci ilin st. məl.) qədim türk dilli oğuz tayfalarıdır. Kənddəki insanlar işgüzar və qonaqpərvərdirlər. Əsas məşğuliyyətləri isə heyvandarlıqdan ibarətdir.

Axura kəndinin şimal-şərq tərəfində Axura çayının Havuş çayına qovuşduğu yerdə dağ döşündə qədim dövrlərə aid Govurqala adlı yaşayış yerinin xərabəliləri qalmaqdadır.

Maraqlıdır ki, həmin "qala yerindən" şimal tərəfdə orta əsrlərdə tikilmiş möhtəşəm Tana qalasının xərabəlikləri dövrümüzədək qalmışdır.

Osmanlı türkləri ilə İran müsəlmanları arasında gedən qanlı savaşlar nəticəsində qaladakılar məğlub olmuşlar.

Lakin sonradan "düşmən" əlinə keçməsin deyə Şah I Abbas tərəfindən qala bürcləri sökdürülərək əhalisi Makuya köçürülmüşdür.

Həmin ərazilərdə dağ yamacında "Pisdər" (qorxulu qapı deməkdir) adlı mağara vardır ki, ilk İnsanlar orada məskunlaşaraq yaşamışlar.

Axura kəndindəki pirə adətən yaxınlıqdakı kəndlərdən ziyarətçilər gəlirlər. Xüsusilə bura gələnlər arasında uşağı olmayan ailələr (qadınlarla-kişilər) daha çox olurlar. Onlar pirdə gəzib-dolanıb niyyət edir, Allahdan övlad istəyir, gətirdikləri qurbanlıq heyvanlarını kəsdirib və ətini yoxsullara ehsan kimi paylayarlar. Adətən ziyarətçilərin niyyətləri Allah dərgahında qəbul olar, gənc ailələrə xoşbəxtlik qayğıları olan-övlad həsrətinə son qoyular.

Axura kəndindəki Qaradaş pirinin yaranmasını alimlərimiz XIII-XIV əsrlərə aid olduğunu güman edirlər.

> *"Ey Nuhla birlikdə (gəmiyə) mindirib apardığınız kəslərin nəsli! Həqiqətən, o çox şükr edən bir bəndə idi! Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (əməllərini) açıq kitab kimi qarşısına qoyarıq. ...Heç bir günahkar başkasının günahını daşımaz..."*
>
> **(İsra surəsi, 15)**

Hadı qaib piri

Həmin pir yeri Şərur rayonundakı Axura kəndinin yaxınlığında Axura çayının sol sahilindədir. Ərazinin ətrafı hündür dağlarla əhatə olunub. Dərədəki orta əsrlərdən (IX-XVIII əsrlər) qalma xərabə yaşayış yerindədir. Pir ətrafındakı yaşayış yeri (kəndi) İran-Osmanlı Türkiyəsi savaşlarında yadellilər tərəfindən dağıdılaraq evlər yandırılmış, əhalisini isə əsir aparmışlar.

Viranə qalmış həmin yerdə kol-kosluq yaranmış, cır alma, armud, alça və başqa ağaclar bitmişdir.

Pir yerindəki olan Armud ağacı yüz illərdən qalmış, bura gələnlər tərəfindən dilək ağacına çevrilmişdir. Ağacın qol-budaqlarına niyyət edən ziyarətçilər tərəfindən rəngli

əski parçaları bağlanılmışdır.

Pirə gələnlər ərazidə təmizlik işləri aparmaqla ağacları yaxındakı çeşmə suyu ilə suvarırlar. Allaha dua edib gətirdikləri qurbanlıq heyvanlarını kəsdirirlər.

Kənd adamlarının söyləməsinə görə pirin yaranmasına səbəb Armud ağacının yerində Allaha inanan gənc çoban Hadı həmkəndlilərinə kömək göstərərək təcavüzkarlara qarşı vuruşmuşdur. Düşmən qüvvələri üstün olduqlarından əhalini qırıb məhv etmiş, evlərini yandırmışlar. Kəndin yaxınlığındakı mağarada gizlətdiyi elin sərvəti olan qoyun sürünsünün yerini düşmənlərə deməmişdir. Çoban Hadını axtarıb tapmış, həmin yerdə əzabla öldürmək istəyən zaman adamların gözü qarşısında qeybə çəkilmişdir. Bu möcüzəni gördükdən sonra düşmən əsgərləri qorxaraq silahlarını atıb ərazini tərk etmişlər. Bundan sonra həmin yerdə cavan armud ağacı göyərmiş, böyüyərək ətrafı kol-kosluq basmışdır (V. Baxşəliyev "Pirlərlə bağlı miflər və inanclar." Bakı-2006).

Söyləyirlər ki, çoban Hadı qeyb olduqdan sonra gizlətdiyi qoyun sürüsünü vəfalı Xallı itinin müşayəti ilə Armud ağacının yanına gətirmişdir. . .

Ilin payız aylarında Hadı qayıb pirində daha çox ziyarətçilər olur ki, Allahın möcüzəsinə bir daha inam gətirirlər.

> *"Həqiqətən, Allahdan qorxub pis əməllərdən çəkinənləri Rəbbi yanında Nəim cənnətləri gözləyir! Məgər Biz müsəlmanları kafirlərlə eyni tutacağıq?!"*
>
> **(Qələm surəsi, 34-35)**

> *"Həqiqətən, yaxşı əməl və itaət sahibi olan mömünlər Nəim cənnətlərində olacaqlar."*
>
> **(Mütəffifin surəsi, 22)**

Havuş piri

Həmin pir yeri Şərur rayonundakı Havuş kəndinin şimal-şərq qurtaracağında sıldırım qayalar arasındakı mağaradadır. Bura (kəndə) Şərur şəhərindən 35 km-lik yol gəlir. Kəndin yollarına bələd olmayan sürücülərlə və avtomobili saz halda olmayanlar pirə getməkdə çətinlik çəkərlər. Belə ki, narahat yolları olan pir yeri okean səviyyəsindən 2.000 metr yüksəkdədir. Bundan başqa həmin yerlər haliyyədə təcavüzkar Ermənistan silahlı dəstələri tərəfindən hədəfə alınmaqla, sərhəd bölgəsində yerləşmişdir.

1992-ci ildən Havuş kəndinin yerli əhalisinin bir hissəsi rayonun digər kəndlərinə müvəqqəti köçürülmüşlər. Haliyyədə kənddə 114 nəfər əhali (2005-ci ilin st. məl.) yaşayır ki, onların məşğuliyyətləri arıçılıqla heyvandarlıqdan ibarətdir.

Havuş kəndində II-VI əsrlərə aid qəbir yerləri vardır.

Kəndin ərazisində e.ə. II-III əsrlərə aid Sarıbulaq nekropolu, II-IX əsrlərə aid Tamaşalı yaşayış yeri, IX-XVII əsrlərə aid Sarıbulaq oba yeri, IX-XVII əsrlərə aid İtqıran nekropolu və s. tarixi-arxeoloji yerlər qalmaqdadır.

Havuş sözünün toponimi dağlarla əhatə olunmuş məskən vəya "Dağ dibi" deməkdir. Əhalisi qədim türk dilli oğuz tayfası olaraq əsasən Dərələyəzdən gələnlərdir.

Havuş piri mağarada yerləşərək dərinliyi 15 metrdən artıq, eni 3-4 metr ölçüsündədir. Orada qədim əcdadlarımız ibtidai formada yaşamışlar.

Pirdə əsasən qədimdən qalma cır armud ağacı vardır ki, həmin ağacın qol-budaqlarına uşaq arzusunda olan gəlinlər niyyət edib Allahdan pay istər, gətirdikləri rəngli parçaları budaqlara bağlayarlar, kişilər isə Allah yolunda qurbanlar kəsər və ətini kənddəki yoxsullara ehsan edərlər (V. Baxşəliyev "Pirlərlə bağlı miflər və inanclar." Bakı-2006).

Pirin yaranması haqqında dəqiq məlumat yoxdur. Buraya əvvəllər (90-cı illərədək) yaxın-uzaq kəndlərdən ziyarətçilər gəlirdilər. İnanc yeri olan Havuş piri sərhəd bölgəsində yerləşdiyindən oraya getmək təhlükəlidir.

> *"Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! Allah sizin nəyi gizli saxladığınızı və nəyi aşkar etdiyinizi bilir! Sizin tanrınız bir olan Allahdır..."*
>
> **(Nəhl surəsi, 22)**

> *"Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"*
>
> **(Nəsr surəsi, 3)**

“Şapur bulağı” piri

“Şapur bulağı” adlanan pir yeri Şərur rayonundakı Şahbulaq (Cağazir) kəndinin yaxınlığındadır. Həmin bulaq-ziyarətgah haqqında kəndin yaşlı adamları belə deyirlər ki, uzaq səfərlərə çıxanlar ürəklərindəki arzularına çatmaq niyyəti ilə bulağa gəlib salam vermiş, sərin sudan içib su qablarını doldurar və bulağın gözünü daşlardan təmizləyib çınqılları bulaq başındakı “əjdaha ağzı” deyilən taxçaya tullayarlar.

Maraqlısı odur ki, ziyarətçilərin tulladıqları çınqıl daş parçaları həmin taxçadkı daş divara dəyməklə yapışıb qalardı. Bəzən elə hallar olub ki, tullanan daşlar divara dəyməklə yerə düşərdi. O zaman ziyarətçi kor-peşiman evinə geri dönər, getmək istədiyi səfərdən imtina edər.

Ziyarətçinin atdığı çınqıldaşlar divara yapışdıqdan sonra gətirdiyi qurbanlıq heyvanı (adətən bura erkək çəpiş gətirilərdi) Allah üçün kəsib ətini kasıb və ehityaclılara ehsan kimi paylayardı. Bundan başqa “Şapur bulağı”na uşaq həsrətində olan gənc ailələr gələr, həmin işləri icra etməklə pirdə təmizlik aparar, Allah üçün namaz qılıb və dualar edərdilər. Əgər niyyətləri qəbul olsaydı (əksər hallarda uşaq istəyənlərin işləri düz gətirərdi) ertəsi ili niyyət etdikləri qurbanlıq heyvanlarını kəsər, ətini yoxsullara paylayardılar. Uşaqları olan gənc ailələr, körpə çağaları ilə birlikdə bir neçə il həmin pirə mütəmadi sürətdə ziyarətə gələrdilər.

Şahbulaq (Cağazir) kəndi gözəl təbiəti ilə rayonda məhşur olmuş, sovetlər dövründə bağlar qoynunda düşərgə yerləşirdi ki, məktəblilər yay aylarında burada dincəlirdi.

Kənd rayon mərkəzindən 22 km şimal-şərqdə, Ermənistanla sərhəd ərazidə uca dağlarla əhatələnmişdir.

Kənddəki əhali məlum hadisələrdən sonra 1990-cı ildən (erməni silahlılarının ərazilərimizə təcavüzü nəticəsində) rayonun ayrı-ayrı kəndlərində müvəqqəti məskunlaşmışlar.

Haliyyədə kəndin əhalisi 564 nəfər qalmış (2005-ci ilin st. məl.) qədim türk dilli oğuz tayfaları olub, bağçılıq, arıçılıq və heyvandarlıqla məşğuldurlar.

Şahbulaq kəndi 1989-93-cü illərdə dəfələrlə erməni təcavüzünə məruz qalmalarına baxmayaraq kəndin igid oğlanları tərəfindən qorunmuşdur.

“Şapur bulağı”nın yaranmasını belə izah edirlər ki, 359-cu ildə İran Sasani şahı II Şapurun (309-379) ərazilərdə ova çıxib. Şah kəməndlə tutduğu dağ keçisini Allah yolunda

qurban kəsmək istəmişdir. Lakin bulaqdakı əjdaha ağzına oxşayan “taxça-mağara”dan gələn səsdən diskinərək ovunu diri buraxmışdır.

Şah bulaq gözündəki daş-çınqılları “əjdaha ağzı”na tullarkən daşların orada yapışıb qalmasından qorxmuş və düz çökərək Allaha pənah aparmışdır. Şah niyyət edərək atəşpərəstlikdən əl çəkmiş və Allahdan övlad diləmişdir. O, Bulağın başını (ərazisini) təmizlədib övlad həsrətilə yoxsulları doyurracağına əhd etmişdir.

Ertəsi ili Şapur şahın oğlu olur. Əhdini unudaraq yenə atəşpərəstliyindən əl çəkməmişdir. Bir neçə ildən sonra Şahın yeganə oğlu (varisi) böyüyərək atasının qatilinə çevrilməklə taxt-tacına sahib çıxmışdır.

Həmin vaxtlardan bulaq suyu etiqadsız, inamsız və əhdinə vəfa qılmayanlara öz təmizliyindən pay verməmişdir. Bütün bunlar Allahın möcüzələrindəndir.

70-80-ci illərdə Şabulaq kəndindəki “Şapur bulağı” piri rayonda şöhrət tapmış, ətraf kəndlərin əhalisi ziyarətə gələrdilər.

Haliyyədə pir yerinin əvvəlki şöhrəti unudulmuşdur.

> *“Kim islamdan başqa bir din ardınca gedərsə, heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar! Sevdiyiniz şeylərdən sərf etməyincə səvaba çatmazsınız...”*
>
> **(İmran ailəsi surəsi, 92)**

FƏSİL

Sədərək rayonundakı ziyarətgahlar

Əvvəllər Şərur rayonunun tərkibində olmuş Sədərək rayonu ərazi inzibati torpaq sahələri Naxçıvan Muxtar Respublikasının xəritəsində şimal-qərb hissədə yerləşir. Ermənistan və Türkiyə dövlətləri ilə həmsərhəddir.

Bu inzibati ərazi 1990-cı ilin 28 avqust tarixindən yaradılmışdır.

Qədim türk dilli oğuz tayfaları olan Sədərəklilər zəhmətkeşdirlər. Rayonun əhalisi 13.146 nəfərdən (2006-cı ilin st. məl.) ibarətdir. Əsas məşğuliyyətləri üzümçülük və taxılçılıqdan ibarətdir. Uzun illərdir ki, əkilən torpaq sahələri dəmyə üsulu ilə becərilir.

Sədərək rayonu ərazisi 0,15 min km2 ölçüsündə olaraq, tabeliyində Günnüt, Qaraağac və Kərki kəndlər ilə birlikdə yeni yaradılmış Heydərabad qəsəbəsi vardır.

Ərazinin sərhədlərində şimaldan Ermənistanın Ararat rayonu (24 km), qərbdən Tükiyənin İqdır vilayəti ilə (11 km) və cənubdan isə Şərur rayonu ilə qonşudur. Rayonun tərkibindəki Kərki kəndi haliyyədə Ermənistanın silahlı dəstələri tərəfindən 1990-cı ildən işğal olunmuşdur.

Kərkililərin çox hissəsi müvəqqəti köçürülərək Kəngərli rayonundakı yeni salınmış Kərki-II kəndində yerləşdirilmişlər.

Sədərək rayonundakı coğrafi relyefin ən yüksək yeri Tejkar (2.034 m.) dağı və ən alçaq sahəsi isə Araz çayı sahilidir ki, okean səviyyəsindən 780 metr yüksəkdədir.

Ərazidəki təbii hidromənbələr Araz çayının üstündə quraşdırılmış mexaniki üzən nasoslar və ilin çox aylarında quruyan yeganə Cəhənnəmdərə çayıdır. Rayondakı əhalinin sosial səviyyəsi sovetlər dövrü ilə müqayisədə xeyli yüksəkdədir.

1992-ci ilin sentyabr ayından Araz çayı üzərində “Ümüd körpüsü” salınmışdır ki, əhali buradan Türkiyəyə sərbəst keçib-gəlirlər.

Naxçıvandan Sədərəyə 88 km məsafədə avtomobil və dəmir yolları çəkilib. Sədərəkdə son illərdə “Heydarabad” qəsəbəsi tikilib istifadəyə verilmiş və orada mədəni sosial sahələr yaradılmışdır.

Sovetlər dövründə Sədərək əməkçiləri istehsalat qabaqcılları olmuş üzüm ustası Süleyman Nəsirovla fəxr etmişlər.

Sədərəkli yaradıcı ziyalılar xalqın rəğbətini qazanmışlar.

Sədərəyin igid oğlullar 90-cı illərin erməni təcavüzkarlığına qarşı mərdliklə vətənin müdafiəsində durmuş və neçə-neçə əsgərlər torpaq uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalmışlar.

Mərhum İbrahim Oruc qələmi ilə düşmənə nifrətini, vətənə sədaqətini belə vəsf etmişdir;

“Düşmənin önündə durub dağ kimi,

Dolanır elləri üzü ağ kimi,

Daim dalğalanır bir bayraq kimi,

Sərhəddə oyaqdır Sədərəklilər,

Polad tək dayaqdır Sədərəklilər.“

Sədərək rayonunun ərazilərində qədim insanların yaşayış məskənləri olmuşdur ki, həmin abidələr tarixi keçmişimizdən xəbər verirlər. Belə tarixi abidələrdən Sədərək qədim insanların yaşayış yeri (E.ə. IV minillik), Çanıq qədim yaşayış yeri (E.ə. II-I minillik), Kərki şəhəri xərabəlikləri (E.ə. III-I minillik), Sədərək mağarası (E.ə. VII-VI minillik), “Çiladağ” qədim yaşayış yeri (E.ə. III-II minillik), “Koroğlu” qalası xərabəlikləri (orta əsrlərin XVII-XVIII yüzillikləri) və başqa tarixi-arxeoloji abidələri misal çəkmək olar (Q. Həsənov. “Nax. MSSR-in tarixi və arxeoloji abidələri”. Naxçıvan-1988. səh. 7).

Sədərək əraziləri orta əsrlərin məşhur “Böyük ipək yolu”nun üstündə olmuşdur.

Sədərəklilər dini-sosial sahələrə maraqlı olduqlarından ərazidəki tarixi ziyarətgahlara etiqadlıdırlar.

Ərazidəki ziyarətgahlar islam mənəviyyatından öncə yaradılmış, tarix boyu insanlar tərəfindən qorunub saxlanılmışdır.

XVIII-XIX əsrlərdə İslam mənəviyyatı ərazidə yayıldığından sonra burada “Qırxmirri”, “Asnı”, “Qurbanlı” və başqa məscidlər tikilərək dindarların öhdəsinə verilmişdir.

Məscidlərdə yazılı daş kitabələr vardır.

Sədərəkdə son illərdə daha iki məscid binaları inşa olunmuşdur ki, onlardan hər birində 100 nəfərədək şəxs ibadət edə bilər. Məscidlərdən birini ümumxalq yolla, digərini isə sədərəkli xeyriyyəçi Yusif Qafar oğlunun səyi ilə tikdirilmişdir.

Sədərək rayonu ərazilərində müalicəvi əhəmiyyətli soyuq sulu mineral bulaqlar yer altından qaynayaraq çıxırlar. Onlardan ən məşhuru "Koroğlu" bulağı okean səviyyəsindən 1.020 metr yüksəklikdədir. Bundan başqa rayonun ərazisində olan Vəlidağın yamacındakı "Dəhnə" bulağı və qəsəbədən 1 km aralıdakı "Bahadur" mineral su bulaqlarını göstərmək olar.

"Tejkar" piri

Sədərək rayonu ərazisində məşhur ziyarətgahlardan sayılan "Tejkar" piri qəsəbənin şimal-qərbindəki Təkrar dağının üstündə ardıc kolları arasındadır.

"Tejkar" sözü ərəb mənşəli xatırlama, yada salma, təkrar etmək mənasında işlənib ərazidəki eyni adlı dağla əlaqəlidir.

Maraqlıdır ki, hər kəs ərzidə bitmiş ardıc kollarından kəsib aparmaqla cismani sürətdə zərər çəkənlərdən olmuşdur.

"Tejkar" pirində heç bir məzar yeri yoxdur, lakin buradakı təmiz hava, sərin şəfalı bulaq suyu ilə mənzərəli həmişə yaşıl ardıc kolları ziyarətçiləri heyran qoyur.

Pirdəki bulaq başında bitmiş ardıc kollarına niyyət edənlər müxtəlif rəngli parçalar bağlamaqla Ulu Tanrını möcüzələrinə inam gətirib, gətirdikləri qurbanlıq heyvanlarını kəsərlər. Həmin "ocaq"da bir neçə sayda (onların sayı 30-dan çoxdur) kiçik ölçülü "yumurtavari" qara daşlar-meteoritlər saxlanılır (V. Baxşəliyev "Pirlərlə bağlı miflər və inanclar." Bakı-2006, "Azərbaycan Mifoloji mətnləri". Bakı-1988.).

"Tejkar" piri nəinki mənəvi inanc ziyarətgahı, həmiçinin turizmlə maraqlananlar üçün təbiət qoynunda istirahət ormanıdır.

Pir yerinin yaranması indiyədək elmi şəkildə öyrənilməmişdir. Hər halda orta əsrlər dövrünün mədəniyyətindən yadigardır.

"Haqq olan (qəbul edilən) dua yalnız Ona (Allaha) olan duadır. Ondan başqasına edilən dualar (Ondan qeyrisinə ibadət edənlərin duaları) qəbul olunmaz..."

> *Göylərdə və yerdə kim varsa, (özləri də) kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər!"*
>
> **(Rəd surəsi, 14-15)**

> *"Şübhəsiz ki, toxumu da, çərdəyi də cücərdib çatladan, ölüdən diri, diridən də ölü çıxaran Allahdır. Budur! Axı siz ondan nə cür döndərilərsiniz?"*
>
> **(Ənam surəsi, 95)**

"Ağatlı oğlan" piri

Sədərək rayonu ərazisindəki Ucubiz dağının yamacında "Ağatlı oğlan" (Ağ oğlan) piri vardır. Pir yeri yaxın illərdə sədərəkli xeyriyyəçi Yusif Qafar oğlu tərəfindən təmir-bərpa etdirilmişdir. Pirdəki tikilidə məzar üstü sərdabəni xatırladan bina vardır.

"Ağatlı oğlan" piri 1514-cü ilin 23 avqust tarixində tarixi Çaldıran düzündəki Səfəvi-Osmanlı türkləri arasında gedən müharibədən sonra yaranmışdır.

Pirdəki məzar müharibə zamanı şəhid olmuş Səfəvi şahı I İsmayılın oxşarı Xızr Məhəmməd oğlununkudur.

Çaldıran savaşlarında siyasət işlədən türk sultanı I Səlim Yavuz (1435-1520) əsir düşmüş Xızrı, səfəvi döyüşçülərini ruhdan salmaq niyyəti ilə onlara göstərmişdir. (Həmin döyüşlərdə əsr düşənlər arasında kişi paltarı geymiş şah I İsmayılın arvadı da olmuşdur).

Dünya savaş tarixində bir çox hökmüdarlar döyüşlərdə qəfil ölümdən yaxa qurtarmaq üçün oxşarlarından istifadə etmişlər.

Sultan I Səlim Yavuz döyüşlərdə qələbə çaldıqdan sonra şah I İsmayılın qılıncı bağlanmış yaqut daşla bəzədilmiş kəmərini şahın oxşarına verərək onunla son dəfə döyüşməsinə izin vermişdir. Ağ paltarda, ağ atda qılıncı əlinə alan əsir son dəfə əlindəki siyirilmiş qılınca baxaraq demişdir;-"Qılınc həmən qılıncdır, Şah İsmayılındır, lakin onu tutan bilək isə Xızrındır". Bundan sonra qılıncı ürəyinə soxmaqla özünü şəhid etmişdir.

Sədərək camaatı Xızrı əfsanəvi "ağ oğlan" adlandıraraq şiə müsəlmanlarının on ikinci imamı "müqəddəs Ruh" bilmişlər.

Şəhid Xızrın cənazəsini yerli adamlar tərəfindən gətirilərək Ucubiz dağının yamacında dəfn etmişlər. Həmin dövrlərdən məzar yeri ziyarətgaha çevrilir. Ziyarətçilər tərəfindən Allaha qurbanlar kəsdirib ehsanlar verilir.

Maraqlıdır ki, pirdəki məzar sahibinə hələ çox-çox əvvəllər yaşamış sədərəkli üləmalardan Hacı Mirzə Ələkbər, Hacı Mirzə Hüseyn, Şeyx Rza, Qaragöz Axund və başqaları möcüzəvi ziyarətgah kimi baxmışlar.

> *"And olsun dan yerinə. And olsun on gecəyə. And olsun cütə və təkə. And olsun keçib getməkdə olan gecəyə. Məgər bunlarda ağıl sahibi üçün and yoxmudur?!"*
>
> **(Fəcr surəsi, 1-5)**

> *"(İnsan üçün) onu öndən və arxadan təqib edənlər (mələklər) vardır. Onu (insanı) Allahın əmri ilə qoruyarlar. Hər hansı bir tayfa öz tövrünü (əhvalını) dəyişməz. Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qisası heç cür alına bilməz və Ondan başqa onların heç bir hamisi də olmaz."*
>
> **(Rəd surəsi, 11)**

FƏSİL

Əlavələr

H. Əliyevin Naxçıvandakı tunc büstü

3500 illik tarixi olan Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmişdir.

H. Ə. Əliyev.

XX əsrin əvvəllərində çəkilmiş rəsmlə foto şəkillərdən məlum olur ki, Naxçıvan şəhərində iki böyük monumental tarixi abidə-Cümə məscidi və çatma-tağlı iki minarəli darvaza tikililəri olmuşdur (Ə. Ə. Salamzadə "Arazboyu abidələr". Bakı-1979, səh. 10).

XX əsrin birinci yarsında Naxçıvana gəlmiş şərqşünas N. M. Xanıkovun məlumatına əsasən şəhər darvazasının üstündə divarda ərəbcə "memar Əcəmi Əbubəkr oğlu-1187" (miladi tarixi ilə) sözləri olmuşdur.

1926-30-cu illərdə şəhərdəki bir sıra "köhnə tikililər" həmçinin həmin darvaza rus əsgərləri tərəfindən sökülərək kərpicləri aparılmışdır.

Naxçıvandakı Cümə məscidi XII-XIII əsrlərdə Mömünə Xatun məqbərəsindən 80-100 metr (sajen) aralıda şimal-şərq tərəfdə tikilmişdir.

Məscidin geniş həyətində "qırx pillə" deyilən kəhriz quyusu olmuşdur.

Cümə məscidi yararsız olduğundan rus əsgərləri tərəfindən sökülərək kərpicləri aparılmış və Kəngərli məhəlləsində yaşayan vətəndaşlara həyətyanı torpaq sahəsi kimi paylanmışdır. 1940-cı ildə həmin ərazidə (məscid yerində) M. Ə. Sabirin kiçik büstü qoyulmuş, ətrafında isə müəllimlərə (ziyalılara) istirahət parkı salınmışdır.

1970-ci illərdə park sahəsi sökülərək yerində böyük sərgi binası (pavilyonu) ətrafında isə su hovuzları tikilmiş, "Əcəmi seyrangahı" adlı istirahət parkı olmuşdur.

80-ci illərdə böyük memar Əcəmi Əbubəkr oğlunun yubleyi ilə əlaqədar burada dörd künc formalı darvaza (portal) tikilmişdir. Darvazanın yuxarısında tünd göy rəngli çaşılarla "Əcəmi seyrangahı" sözləri yazılmışdır.

1986-cı ildə həmin parkda yenidənqurma işləri aparılarkən sərgi pavilyonu ilə ətrafındakı su hovuzları sökülmüş, yerində güllük salınmışdır. Keçmiş Cümə məscidi yerində iki dəfə Sosialist əməyi Qəhrəmanı adını almış, Azərbaycan KPMK-in birinci katibi H. Ə. Əliyevin (1923-2003) vətənində (SSRİ Ali Sovetinin qərarı ilə) tunc büstü qoyulmuşdur (Abidənin müəllifi heykəltaraş Ö. Eldarovdur).

2001-ci il tarixində "Əcəmi seyrangahı" parkında əsaslı yenidən qurma təmir-tikinti işləri aparılıb oradakı darvaza tikilisi sökülərək götürülmüşdür.

Böyük şarimiz Məmməd Araz demişkən - Əsl insan sağlığında Vətənin əskəri, vətəndaşı olur, öləndən sonra isə daşlaşaraq qaya olub, onun keşikçisinə çevrilir.

...Nər igidlər düşmən üstə gedən zaman,

Babalar da daş qaldırıb, yer altından

Qaya kimi dayaq olub, yumruq olub, ox olublar

Qaya döşlü pəhləvanlar qayalıqda yox olublar

Bu torpağın taleyində o da ele bir gün idi

İgidlərin yaşaması daş olmaqla mümkün idi (İ. Hacıyev "Naxçıvan və Naxçıvanlılar" Bakı-2001, səh. 7).

Haliyyədə Azərbaycan Respublikasının Ümummilli Lideri mərhum H. Ə. Əliyevin büstünü xalq nümayəndələri və qonaqlar bu müqəddəs yerə gəlib oranı ziyarət edir, büstün önünə gül-çiçək dəstələri qoyarlar.

Şahab məhəllə məscidi

Şahab sözünün mənşəyi-"leysan yağmurunda göydən düşən adam"la əlaqələndirilir. XVIII əsrdə İslam dini bərqərar olduqdan sonra güclü yağmurlar zamanı göydən düşmüş səma cisminin-meteoritin ("Süddü nənə" adlanmışdır) tapılması nəticəsində yaranmışdır (bax: "Süddü nənə" piri məqaləsinə). Əvvəllər şəhərdə şöhrət tapmış Şahab məhəllə məscidindən yalnız təkcə uçuq divar və qarşısında şam yandırmaq üçün qoyulmuş köşk qalmışdır. Məscid şəhərdəki Yusif Küseyir oğlu məqbərəsinin iki yüz metr şimal-şərqindədir.

Məhəllənin yaşlı adamlarının dediklərdən aydın olur ki, Şahab məhəllə məscidinin həyət sahəsi iki hektardan artıq olmuş, ətrafında Kəngərlilər nəslindən olanların bir

neçə məzarları qalmışdır. Sonrakı illərdə (1930-cu ildə) məscid binası söküldüyündən ətraf sahələrdə yaşayış evləri tikilmişdir (mərhumə Dilarə Bəylər qızının söyləmələrindən).

Şahab məhəllə məscidinin şərq və qərb tərəfə açılan taxta qapıları olmuşdur. Bina dörd künc formada uzunluğu 30, eni isə 20 metrdir. Divarları içəridən gəclə suvanmış, eşikdən isə bişmiş kərpiclə üzləmə aparılmışdır.

Məsciddə eyni vaxtda 80 nəfər ibadət edə bilərdi. Digər məhəllə məscidləri kimi bunun da tək minarəsi olmuşdur.

Binanın hündürlüyü 6 metrdir. Məscidin mehrabla minbəri cənuba baxan divarda tikilmiş otağın (zalın) ortasından qara rəngli pərdə-arakəsmə asılmışdır.

Şahab məhəllə məscidi şəhərdə Kələntərli məscidi kimi tanınıb. Səbəbi bu idi ki, qonşuluqda yaşayan Məmmədkərim Kələntərli adlı xeyriyyəçi tərəfindən məscidə maddi himayədarlıq göstərilirdi.

Otuzuncu illərdə həmin məscidin axundu Mirzə Cabbar ağa (ona məşhədi Cabbar deyərdilər) olmuşdur. Həmin illərdə Naxçıvan qarnizonunun sərhəd əsgərləri məscid binasını at tövləsi etmiş, sonradan isə sökərək kərpiclərini, qapı və pəncərələrini aparmışlar.

Bütün bunları görən məhəllə sakinlərini başına toplayan Məmmədkərim kişi hökümət işlərinə qarışmış və NKVD tərəfindən həbs olunub Sibirə sürgün edilmişdir.

Daha sonra Məmmədkərim Kələntərlinin mülküni müsadirə etməklə evinin əşyalarını talan etmişlər. Həmin mülkü Naxçıvan Səhiyyə Komissarlığının öhdəsinə verilmiş, burada uzun illər dəri-zöhrəvi dispanseri ilə epidiamoloji stansiyası fəaliyyət göstərmişdir.

Son illərdə Naxçıvan şəhərindəki Şəhid İ. Məmmədov küçəsində abadılıq işləri nəticədə Naxçıvan xanının varislərindən olmuş Məmmədkərim Kələntərlinin (Kəngərlinin) iki mərtəbəli mülki ilə bərabər məhəllə məscidinin xərabəlikləri sökülmüşdür.

Çox yaxşı olardı ki, dövrünün xeyirxah insanı olmuş xeyriyyəçi, mömün-ziyalı M. Kələntərlinin yaşadığı evinin yerində gələcək nəsillərə xatirə kimi yazılı lövhə qoyulardı. . .

> *“Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!”*
>
> **(Maidə surəsi, 8)**

Əlixan məhəllə məscidi

Naxçıvan şəhərindəki Əlixan məhəlləsində əvvəllər fəaliyyət göstərmiş məscid binasından yalnız cənub tərəfdəki xərabə divarı qalmışdır.

Maraqlıdır ki, “salamat qalan” divarda 3x1,5 metr ölçüsündə iki mehrab yeri vardır.

Əvvəllər binanın uzunluğu 25, eni 15, divarlarının eni isə 1 metr ölçüsündə çiy kərpicdən tikilmişdir.

Şimal tərəfdəki divarda iki tağlı taxta qapı, şərq divarda iki pəncərə ilə bir tağlı qapı, qərb tərəfdəki divarda isə dörd pəncərələri olmuşdur.

Hündürlüyü 6,5 metr olan binanın üstü qarağac tirlərlə örtülmüş, divarlar saman-gillə suvanmışdır. Məsciddə eyni vaxtda 60 nəfər namaz qıla bilərdi. Binanın (otağın) içərisindən qara pərdə arakəsmə asılmışdır.

“Məscidin həyətində” Bazar çayı axmaqla çeşmə (kəhriz) quyusu olmuşdur. Binanın minarəsi olmadığından müəəzzim taxta nərdivanla dama qalxıb əzan verərdi.

İkinci Dünya savaşı ərəfəsində və əllinci illərədək məsciddə məhəllənin dindarları namaz qılıb, mərasimlər (təziyələr) keçirərdilər. Məscidin axundu Hacı (Molla) Talıb olmuşdur.

Məhəllənin yaşlı nümayəndəsi mərhum Mirzəyev Kamil Bəylər oğlu (1917-2003) dediklərinə görə həmin məscid binasını məhəllənin xeyirxah insanı Əlixan Kəngərli tərəfindən tikdirilmişdir. Mərhum Kərbəlayi Əlixan Kəngərlinin (1888-1935) iki mərtəbəli iqamətgahı indiki H. Cavid məqbərəsi ilə üz-üzə olmuşdur. Otuzuncu illərdə Kərbəlayi Əlixan kişi tutulmuş, 1918-20-ci illərdə erməni Andranikə qarşı şəhər (məhəllə) könüllülərini silahlandırdığı üçün güllələnmişdir. Mərhumu Hacı Məhəmmədtağı Sidqinin (1854-1903) Naxçıvan qəbrstanlığındakı məzarı yaxınlığında dəfn etmişlər.

1950-ci ildə ərazidəki “Nuhun qəbri” tarixi abidəsini buldozerlə sökəndə Kəngərli soyundan olan məzar yerləri də uçurulmuşdur.

1918-21-ci illərdə erməni quldurbaşı Andranik Ozanyan silahlı dəstəsi ilə şəhəri mühasirədə saxlayanda təslim olmaq üçün ultimatum yazıb göndəmişdir. Əlixan məhəllə məscidi, həmin illərdə naxçıvanlı vətənpərvərlərin düşmənə qarşı hərbi qərərgahına çevrilmişdir. Andranikin göndərdiyi ultimatum kağızının arxasında Əlixan Kəngərlinin tövsiyəsi ilə Şirəli bəyin (qohumunun) oğlu Bəhruz Kəngərli tayqulaq ulaq şəkli çəkərək altında ermənicə Andranikin adını yazıb geri göndərmişlər. . .

Naxçıvana köməyə gələn Türk xilaskar ordusunun əsgərləri komandanı Kazım Qarabəkir Paşa sonradan həmin əhvalatı öyrəndiyində gülüb şad olmuşdur. Nehrəmlilərlə bərabər Naxçıvanın Əlixan məhəlləsinin vətənpərvər döyüşçüləri Qarabəkir Paşa tərəfindən Ulduz və üzərində aypara şəkilli ordenlərlə mükafatlandırmışdır.

Əlixan məhəllə məscidində türk xilaskarının şərəfinə qurbanlıq heyvanlar kəsilmiş, əsgərlərə qayğı göstərilmişdir.

1970-ci ildə məhəllə ərazisində söküntü işləri aparılarkən Əlixan məhəllə məscidi uçurulmuş və yerində güləş idman məktəbi binası tikilmişdir. Haliyyədə binada Naxçıvan MR Gənclər və İdman Nazirliyinin inzibati idarəsi yerləşir.

Çox yaxşı olardı ki, yeniyetmə gənclərimizi vətənpərvər tərbiyəsində böyütmək üçün 1918-21-ci illərdə ermənilərə qarşı mübarizəyə qalxmış naxçıvanlı vətənpərvərlərin igidliyini göstərən Əlixan məhəllə məscidindəki hərbi məsləhət qərərgahının fəaliyyətini əks etdirən yazılı lövhə qoyulardı.

Bütün bunlar tariximizi bir daha yaşadar, Vətən yolunda şəhid olan vətəndaşlarımızın ruhuna ehtiram nümunəsi xatırladardı.

“And olsun ki, biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq...”

(Qəmər surəsi, 22)

Şəhidlər xiyabanı

Naxçıvan şəhərindəki “Şəhidlər məzarlığı” 1990-cı ilin yanvar ayından yaranmışdır. Şəhidlər xiyabanının arxitektor müəllifi naxçıvanlı rəssam-heykəltaraş Elman Cəfərov olmuşdur.

XX yüzillikdə Sovet Azərbaycanının hər yerində, o cümlədən Naxçıvan şəhərində (vilayətində) şəhid məzarları unudulmuş, xalqa həmin məzarların ziyarəti yasaq olunmuşdur.

Şəhid məzarları əsasən ermənilərin türk dilli Azərbaycan xalqına qarşı apardığı amansız təcavüzü nəticəsində tarix boyu 1905, 1918, 1920 və 1990-cı illərdə yaranmışdır.

Azərbaycandakı şəhid məzarlarının yenidən yaradılmasına səbəb Sovet dövlətinin rəhbərləri M. Qarbaçovla ermənipərəst arvadının havdarları olmuşlar (Hələ əvvəlki əsrlərdə Fransada yaşamış məşhur baxıcı-münəccim Mişel Nosdradamus (1503-1566) yazmışdır ki, yer üzərində İnsanların bərabərliyini pozan Mixayl adlı şəxs gələcəkdir. (Bax, Q. Paşayev "Nostradamusun möcüzəli aləmi". Bakı-2005)).

Şəhidlər xiyabanı Naxçıvan şəhər qəbrstanlığının yanında 350 m2 sahədə yerləşmişdir. Orada 1920-ci ildə ermənilərə qarşı döyüşlərdə şəhid olmuş türk əsgərlərinin xatirəsini əbədləşdirən abidə qoyulmuşdur.

Şəhidlər xiyabanı hər il 20 yanvar tarixində daha izdihamlı olur. Bura xalqımızın mənəvi-vətənpərvərlik ziyarətgahıdır.

"Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda şəhid olanlar əbədiyyətə qovuşublar. Onların qəhrəmanlıq xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır". Bu sözləri 1996-cı ilin 29 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əlirza oğlu Əliyev söyləmişdir.

2001-ci il tarixinədək Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında dəfn olunanların adlı siyahısı aşağıdakı kimidir;

Məmmədov İdris Ələsgər oğlu(1958-1990)

Zeynalov Vəli Məmməd oğlu(1956-1990)

Nəzərəliyev Abbasəli Qaragöz oğlu (1970-1990)

Tağıyev Azər Nemət oğlu (1970-1992)

Seyidov İlkin M. Nəzir oğlu (1969-1992)

Tarverdiyev Azər İsmət oğlu (1967-1992)

Mirzəyev Fərhad Səyyad oğlu(1972-1992)

Musayev Firudin Qulu oğlu (1957-1992)

Abbasov Bahadur Bayram oğlu(1960-1992)

10) Əliyev Səyyad Əhəd oğlu (1951-1992)

11) Ələkbərov Vahid Zahid oğlu(1973-1992)

12) İsmayılov Fərmayıl İsmayıl oğlu (1973-1992)

13) Orucov Mehman Rövşən oğlu(1973-1992)

14) Əliyev M. Malik M. Qabil oğlu (1973-1992)

15) Səmədov Əli Səməd oğlu (1969-1992)

16) Məmmədov Faiq Yaqub oğlu(1973-1992)

17) Əsgərov Canpolad Ağaverdi oğlu (1973-1992)

18) Məmmədov Nüsrət Hüseyn oğlu (1973-1992)

19) Mahmudov Vilayət Təvəkkül oğlu (1964-1992)

20) Seyidov Əsgər Abdulla oğlu (1970-1992)

21) Zeynalov Azər Fərrux oğlu (1964-1993)

22) Yusifov Məmmədəli Eldar oğlu (1973-1993)

23) Musayev Adəm Afiq oğlu (1971-1993)

24) İbrahimov Yalçın Səfər oğlu (1972-1993)

25) Hüseynov Afət İmran oğlu (1974-1993)

26) Mirzəyev Yusif Vəli oğlu (1958-1993)

27) Nəcəfov Rüstəm Hidayət oğlu(1974-1993)

28) Qasımov Vüqar Fərman oğlu(1974-1994)

29) Məmmədov Abbas Əbülfəz oğlu (1973-1994)

30) Məmmədov İbrahim İsmayıl oğlu (1958-1994) (Azərbaycan Respublikasının Milli Qəhrəmanı.)

31) Hacıyev Afət Əsgər oğlu (1958-1994)

32) Rüstəmov İntiqam Dilən oğlu (1972-1994)

33) Sadiqov Qoşqar Hidayət oğlu (1973-1994)

34) Əliyev Babək Əsəd oğlu (1974-1994)

35) Budaqov Ramiz Qərib oğlu (1973-1994)

36) Hacıyev Mehman Şəmil oğlu (1975-1994)

37) Hacıyev Nizami Davud oğlu (1973-1994)

38) Əliyev Əmiraslan Rza oğlu (1960-1995) (Azərbaycan Respublikasının Milli Qəhrəmanı.)

39) Mehdiyev Bəşir Yusif oğlu (1977-2001)

Azərbaycan ərazisinin iyirmi faizindən çoxunu tutmuş Ermənistanın qoşun hissələri müqəddəs ziyarətgahlarımızı, tarixi arxeoloji abidələrimizi və nəhayət ki, təbiətin gözəlliklərini vəhşiliklə dağıtmışlar.

Azərbaycan prezidenti H. Əliyev cənablarının təşəbbüsü ilə 1994-cü ildən atəşkəs əldə olub, torpaq ərazilərimizin geri alınmasını danışıqlarla həyata keçirilməsi siyasətini avropanın sülh sevər qüvvələri tərəfindən bəyənilmişdir.

Həmin siyasəti haliyyədə mərhumun oğlu, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu Əliyev tərəfindən davam etdirilir. Məhz onun səyi nəticəsində bu münaqişə səbəbləri və nəticələri Dünya dövlətləri parlamentləri qarşısına çıxarılmış həllinə zəmin yaratmışdır.

> *"Allah yolunda öldürülənlərə (şəhidlərə) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz!"*
>
> **(Bəqərə surəsi, 154)**

Şəhidlərin xatirə muzeyi

"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır."

Heydər Əliyev.

Naxçıvan şəhərində uca təpəli ərazidə (Əziz Əliyev küçəsinin başlanğıcında) naxçıvanlı şəhidlərin xatirəsini əks etdirən muzey binası vardır.

1977-ci ildən "Döyüş şöhrəti muzeyi" kimi fəaliyyət göstərən mədəniyyət müəssəsində naxçıvanlı vətənpərvər döyüşçülərin foto şəkilləri, sənədləri və başqa məlumatlar, arxiv əşyaları nümayiş olunur.

Ərazisi beş hektara çatan muzey sahəsində son illərdə abadlıq və yenidən qurma işləri aparılmış, geniş meydanın ortasında simvolik şəkildə sərdabə ucaldılmışdır.

1984-85-ci illərdə tikilmiş muzey binası əvvəllər "Döyüş şöhrəti", 1997-ci ildən "Şəhidlər muzeyi" və 2000-ci ildən isə "Xatirə muzeyi" adlanmışdır. Muzeydə milli bəzək naxışları naxçıvanlı memar-rəssam Məmməd Talıbov tərəfindən sənətkarlıqla yaradılmışdır.

Hər ilin 26 fevral, 31 mart və 9 may günlərində ərazidə şəhidlərin anma mərasimləri keçirilir, vətənpərvərlik mövzusunda foto və rəsm sərgiləri açılır, soyqırımla bağlı siyasi yığıncaq və mitinqlər təşkil olunur.

Muzeydə 363 nəfər naxçıvanlı şəhidlərin adları vardır. Səkkiz nəfəri Azərbaycan Milli Qəhrəmanı adlarına layiq görülmüşlər ki, onlar Məhərrəm Seyidov, Yusif Mirzəyev, İbrahim Məmmədov, Əmiraslan Əliyev, Kərim Kərimov, Əli Məmmədov, Səyavuş Həsənov, Mirələsgər Seyidovdur.

Xatirə muzeyində İkinci Cahan savaşlarında naxçıvanlı Qəhrəmanlardan Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev və Abbas Quliyevin şanlı həyat yolları əks olunmuşdur.

Xatirə muzeyində 1200-ə yaxın sənədli tarixi eksponatlar toplanmışdır.

2002-ci il tarixində həmin ərazinin şimal hissəsində abadlıq işləri aparılmışdır. Orada Naxçıvan Dövlət Universitetinin kollektiv iməcliklərі sayəsində tələbə parkı salınmış və soyqırım hadisələrini əks etdirən monumental abidə ucaldılmışdır.

Abidə ətrafında ermənilərin azəri türklərinə qarşı vəhşiliklərinin tarixlərini bildirən "1905-1918-1920-1990-cı illərin soyqırımı" sözləri yazılmışdır. Həmin abidəni Universitetin bacarıqlı tələbəsi M. Həmzəyevanın layihəsi əsasında inşa etmişlər.

> *Göylərdəki və yerdəki ordular Allahın ixtiyarındadır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"*
>
> **(Fəth surəsi, 7)**

> *"Həqiqətən, axır dönüş sənin Rəbbinədir! Güldürən də, ağladan da Odur! Öldürən də, dirildən də Odur!"*
>
> **(Nəcm surəsi, 42-44)**

FƏSİL

Son söz

Azərbaycanın mənəvi tarixi mənbələrində “Naxçıvan çuxuru” adlanan-Nuh yurdundakı ziyarətgahlar lazımınca öyrənilməmişdir. Bütün bunlara səbəb keçmiş sovetlər ölkəsindəki ateizm təbliğatının güclü olması nəticəsində insanların mənəvi ziyarətgahlara qadağalar qoyulmaqla gənc nəslin yaddaşlarından silinmişdir.

Naxçıvandakı mövcud ziyarətgahlar haqqında yazılanlar müxtəlif mənbələrdən istifadə edilməklə mənəvi tariximizi bir daha yada salmaq istəmişik.

Naxçıvandakı ziyarətgahları indiyədək bir çox tədqiqatçılar araşdırma aparmaqla xalqımıza lazımınca çatdırmışlar. Belə ki, 1882-ci ildə Naxçıvanda müəllim işləmiş K. Nikitin, 1885-ci ildə Naxçıvanda olmuş şərqşünaslar N. Xanıkov ilə V. M. Sısoyev, 1920-ci illərdə Naxçıvanda olmuş İ. Əzimbəyov, 1936-40-cı illərdə Naxçıvan Ölkə Tarix Diyarşünaslıq muzeyinin işçisi və tariximizi öyrənən Cəmiyyətin elmi katibi Mirheydərzadə Mirbağır, 1970-ci illərdə Naxçıvanda olmuş şərqşünas Məşhədi Xanım Nemətzadə, 1984-cü ildə Azərbaycan tarixi abidələrini öyrənən memarlar Ə. Salamzadə ilə K. Məmmədzadə, 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin müəllimlərindən Q. Qədirzadə, V. Baxşəliyev, H. F. Səfərli və Naxçıvan MR Tarix və Memarlıq Abidələri Mühafizə Cəmiyyətinin sədri Q. Həsənov və AMEA-nın Naxçıvan bölməsinin mütəxəssisləri elmi məqalələrini oxuculara çatdırmışlar.

Bu sahədə son illərdə Naxçıvan Ali Məclisi Sədri cənab V. Talıbovun imzaladığı sərəncamları və diqqət yönümlü məsləhətləri ilə tarixi mənəviyyatımızın öyrənilib gələcək nəsillərə çatdırılmasındakı əməli işləri diqqətə layiqdir.

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi əməkdaşları tərəfindən lazımi işlər görülmüş, tarixi abidələrimiz təmir-bərpa olunmuş, mənəvi sərvətlərimiz kimi qorunaraq xalqımıza təbliğ edilmiş və pasportlaşdırılaraq mühafizə olunurlar.

Mənəvi tarixi zənginliyimizi geniş miqyasda təbliğ etmək üçün dövrü mətbuatda mütəmadi sürətdə elmi məqalələrlə informatik məlumatlar verilməkdədir.

Naxçıvan Muxtar Respublikasındakı mövcud ziyarətgahların bir qismi qəbirüstü sərdabələrdir ki, onlar müxtəlif tarixi dövrlərdə ictimai-siyasi təqiblərə məruz qalmışlar.

Buna görə həmin mənəvi inanc yerləri olan pirlər, sərdabələr və imamzadələr xalqın mənəviyyatından uzaq düşmüşdür.

Naxçıvan çuxuru orta əsrlərdə ticarət yolları üstündə olduğundan ərazidə ziyarətgahlar meydana çıxmışdır.

Həmin vaxtlarda İslam dini İspaniyadan Çinin Kaşkar əyalətinədək geniş bir ərazidə yayılmışdır. Ərəb xilafəti bu zamanlar inkişaf edərək genişlənmiş, lakin İslam dini birlikləri olmadığından dövlətlərarası ziddiyyətlər baş vermiş, müsəlmançılıq zəifləmişdir. Həmin dövrlərdə Naxçıvan diyarında İslam dini inkişaf edib şəxsi həyatımızın bir hissəsi kimi əxlaqı baxımdan dövrümüzədək qalmışdır.

Hər yerdə olduğu kimi həmçinin Naxçıvanda feodal hakim dairələr qüvvə və şöhrətlərini saxlayıb möhkəmlətmək üçün istehkam qalaları ilə bərabər əzizlərinin məzar yerlərini əbədiləşdirmək bəhanəsi ilə sərdabələr tikdirmişlər.

Bir tərəfdən İslam təbliğatçıları sayılan şeyxlər bütpərəstlik siyasətini pisləmiş, digər tərəfdən isə bir qisim hakim şəxslərin məzarlarını "ilahiləşdirərək" özlərinin şəxsi qazanc vasitəsinə çevirmişlər.

Bütün bu kimi avamçılığı görmüş S. Ə. Şirvani (1835-1888) qələmə aldığı "Köpəyə ehsan" şeirində iki üzlü şeyxlərin iç üzünü məharətlə açıb göstərmişdir.

Zaman hökmü ilə bir çox qəbirüstü "daş kitabələr" sıradan çıxmış, sınmış, ovulmuş və oğurlanaraq missionerlərə satılmış və dövrümüzədək qalmamışlar.

Şərqşünas Məşhədi Xanım Nemətzadənin sözləri ilə desək, bu cür yazılı daşlarda əsasən "mürşüd" mənasında işlənmiş ərəbcə "şeyx", "həzrət", farsca "pir", azəricə isə "baba", "ağa" kimi sözlər, müasir dilimizdə "ocaq" və ya "pir" kimi qalmaqdadır (M. Nemət "Azərbaycanda pirlər". Bakı-1992. səh. 6).

Naxçıvan çuxurunda mövcud pir və ziyarətgahların yaranması əsasən üç yerə ayrılırlar:

1) İslamdan əvvəlki dövrlər.

2) İslam dininin Azərbaycanda tərəqqi dövrü.

3) Müasir ictimai dövrlər.

Həmin ziyarətgahların özləri də dörd yerə ayrılmışlar:

1) Əsası olmayan "qurama" pirlər.

2) Əsaslı (fundamental) ziyarətgahlar.

3) Dünya şöhrətli ziyarətgahlar.

4) Müasir mənəvi-əxlaqi ziyarətgahlar.

İslam dini yaranmasından əvvəlki pirlər Muxtar Respublikada əsasən Ordubad rayonundakı Tivi və Nüsnüs kəndlərində, Babək rayonundakı Tumbul, Məzrə və Cəhri kəndlərində, Culfa rayonundakı Milaxla Nəhəcir kəndlərində, Şahbuz rayonundakı, Keçili, Badamlı və Kükü kəndlərində, Kəngərli rayonundakı Xok kəndində olanlardır.

Bu cür pirlərə Naxçıvan şəhərində belə rast gəlinir ki, onlar Nuh türbəsi, Pirqəmiş məhəllə məscidinin həyətində olmuş zavallı Qələndərin məzar yeri və başqalarını göstərmək olar.

İslam dininin Azərbaycanda tərəqqi dövrlərinə aid olanlardan Naxçıvan şəhərindəki imamzadə, Mömünə Xatunla Yusif Küseyir oğlunun məqbərələri, Mir Yaqub, Xədicəbəyim, "Süddü nənə", Pir Ömər Nəşəvi və başqa ziyarətgahları göstərmək olar.

Həmin dövrə aid olan Babək rayonunun Nehrəm kəndindəki imamzadə (məzar), Didivar, və Qaraqala kəndlərindəki məzar yerləri, Culfa rayonunun Ərəfsə, Göynük, Xanəgah və Camaldın kəndlərindəki məzar yerləri, bundan başqa Gülüstan (Cuğa) kəndindəki türbə, Ordubad rayonunun Nüsnüs, Düylün, Üstüpü, Xanağa, Aza və Dər kəndlərindəki məzar yerləri, Şərur rayonunun Xanlıqlar kəndindəki imamzadə və Tənənəm kəndindəki məzar yeri, Kəngərli rayonunun Qarabağlar kəndində olan əzəmətli Quti Xatun məqbərəsi və başqalarını göstərmək olar.

Nuh yurdu-Naxçıvan elində İslam dini yayılarkən ərazidə əsgidən qalma Zərdüşt atəşpərəstlərinin məbədləri dağıdılmış və tədricən atəşpərəstlik dini aradan götürülmüşdür.

Lakin ərazilərə sonradan gəlmiş xaçpərəstlər həmin məbəd binalarını saxtalaşdıraraq özlərinki etmiş, hətta məbədlərdə təmir işləri aparıb kilsələrə çevirmişlər. Bütün bu proseslər Sovetlər dövründə sərbəst şəkildə xaçpərəstlər tərəfindən edilmişdir.

Xalqımız müstəqillik qazandıqdan sonra milli mədəni sərvətlərimiz olan tarixi memarlıq abidələri ilə birlikdə mənəvi ziyarətgahlarımız özümüzə qaytarılmışdır.

Etiraf etməliyik ki, laqeydlik üzündən bir çox tarixi abidələrimizlə yanaşı məzarüstü yazılı kitabələr, əlyazma kitabları, maddi tarixi əşyalar vətəndaşlarımız tərəfindən

uçurulmuş, bərbad hala salınmış, oğurlanmış və xarici vətəndaşlara “lazımsız əşya” kimi bağışlanmışdır.

Onlardan Naxçıvan şəhərindəki Mömünə Xatunla Yusif Kuseyr oğlu məqbərələrindəki məzarlar sökülmüş, orta əsrlərdən qalma Cümə məscidi ilə nəhəng portal qoşa minarəli darvaza tikililəri, məhəllə məscidləri, Ordubad rayonundakı tarixi arxeoloji abidələr, Culfa rayonundakı Gülüstan türbəsindəki məzar yeri, Xanəgah kəndindəki Şeyx Nəiminin məzar yeri, Babək rayonundakı məscid binaları, Kəngərli rayonundakı qoşa minarəli məscid, Şahbuz rayonundakı Xudavənglə Yel pirlərinin binaları və sairə tikililər vəhşiliklə uçurulmuşdur.

Üçüncü qrupdan olan müasir ziyarətgahlara aşağıdakıları aid etmək olar;

Naxçıvan şəhərindəki Cümə, Pirqəmiş, Həzrəti Zəhra, Kazım Qarabəkir Paşa məscidləri, Miryaqubla Fatiməbəyim pirləri, “Şəhidlər xiyabanı”, H. Cavidin məqbərəsi və sairə ziyarətgahları misal göstərmək olar.

Naxçıvan Muxtar Respublikasında elə bir kənd olmaz ki, orada məscid binası (yeni tikilmiş) olmasın. Hətta rayon mərkəzlərində son illərdə məscid binaları tikilib, mömünlərin ixtiyarına verilmişdir.

Şəhər və rayon mərkəzlərində habelə iri yaşayış kəndlərində şəhidlərlə, ikinci dünya müharibəsi iştirakçılarının şərəfinə park və xiyabanlar salınmış, abidələr ucaldılmışdır. Hər ilin tarixi əlamətdar günlərində ictimaiyyət nümayəndələri həmin yerlərə yığışaraq orada siyasi vətənpərvərlik tədbirləri keçirirlər.

Yuxarıda qeyd olunduğu kimi ziyarətgah və pirlər elmi-mənəvi baxımdan bir neçə yerə ayrılmışlar.

Son illərdə xalqımızın mənəvi dəyərlərinə və İslam mənəviyyətinə zərbə vuran elmi əsasları olmayan “qurama pirlər” artaraq çoxalmışdır.

İslam mənəviyyəti elmi əsaslarla öyrənilib, təbliğ olunması məsələləri unudularaq, cəhalətpərəst fanatik mollalar tərəfindən müqəddəs Quran və İslam dini kölgədə qalmışdır.

Əsası olmayan pirlərdən Babək rayonunun Tumbul və Sirab kəndlərində, Culfa rayonunun Şurut kəndində, Ordubad rayonunun Tivi kəndindəki pirlər, Şahbuz rayonunun Keçili, Badamlı, Kükü və başqa kəndlərindəki pirlər, Şərur rayonunun Axura,

Havuş, Cağazir və başqa kəndlərdəki pirlər, Kəngərli rayonunun Xok və Şaxtaxtı kəndlərindəki pirlər, Sədərək rayonunun pirləri bu qrupa aiddirlər.

Əsaslı (fundamental) ziyarətgahlar Şərur rayonunun Xanlıqlar imamzadəsi, Kəngərli rayonunun Qarabağlar (Quti Xatun) türbə-məqbərəsi, Ordubad rayonunun imamzadə, Culfa rayonunun Xanəgah sərdabəsi və Gülüstan türbəsi, Babək rayonunun Nehrəm imamzadəsini göstərmək olar.

Dünya şöhrətli ziyarətgahlar isə Naxçıvan şəhərində Nuh türbəsi, Mömünə Xatun və Yusif Küseyir oğlunun məqbərələri, Ordubad rayonunun Gəmiqaya rəsmləri (petroqlifləri), Babək rayonunun Əshabi-Kəhf mağarası, Culfa rayonunun Gülüstan türbəsi, Kəngərli rayonunun Qarabağlar kəndində tikilmiş Quti Xatun məqbərəsi və başqalarını misal göstərmək olar.

Bunlarla yanaşı Nuh yurdu ərazilərində müasir tarixi abidələr-ziyarətgahlar vardır ki, onlardan Naxçıvan şəhərində tikilmiş Kazım Qarabəkir Paşa məscidi, Həzrəti Zəhra məscidi, H. Cavid məqbərəsi, Şəhidlər xiyabanı, Şəhidlərin xatirəsi muzeyi, Soyqırım abidəsi və başqalarını göstərmək olar.

Naxçıvan şəhərində hələ sovetlər dövründə tikilmiş Azərbaycan xalqının Qəhrəman oğlu, Ümummilli Lider mərhum H. Ə. Əliyevin Vətənində qoyulmuş büst-abidəsi, şəhərdəki H. Ə. Əliyev muzeyi qarşısındakı ucaldılmış möhtəşəm H. Ə. Əliyevin ayaqüstü heykəli şəhərimizin qonaqlarının ziyarətgahına çevrilmişdir.

Naxçıvan şəhərində bir çox möhtəşəm abidələrlə yanaşı xalq qəhrəmanları və görkəmli şəxsiyyətlərin şərəfinə xatirə heykəllər ucaldılmışdır. Onlardan Dədə Qorqud, Koroğlu, Babək, Əcəmi Naxçıvani, böyük pedaqoq Məmmədtağı Sidqinin dərs dediyi məktəbin yerində “Ana dili” abidəsi, Cəlil Məmmədquluzadə, Y. Məmmədəliyev, M. Ordubadi, H. Cavid, N. Nərimanov, B. Kəngərli və başqalarını göstərmək olar.

1930-cu illərdə H. Ə. Əliyevin Naxçıvanda oxuduğu pedaqoji məktəbin binasında realist rəssam Bəhruz (Şamil) Şirəlibəy oğlu Kəngərlinin əl işlərindən ibarət sərgi-muzey yaradılmışdır ki, şəhərimizə gələn qonaqlar oranı ziyarət etməklə rəngkarlıq tariximizin gözəlliklərinə heyran qalırlar.

Bundan başqa Nuh yurdu-Naxçıvan diyarında elm məbədləri olan muzeylər, sərgi salonları, teatr və filarmoniya fəaliyyət göstərərək incəsənətlə maraqlanan adamlara bilgilər çatdırılır. Naxçıvan şəhərində Dövlət Tarix muzeyi, H. Ə. Əliyev muzeyi, Ədəbiyyat muzeyi, Şəhidlərin Xatirəsi muzeyi, Xalça muzeyi, Açıq səma altında muzey,

C. Məmmədquluzadənin, H. Cavidin, B. Kəngərlinin və Azərbaycanın görkəmli hərbi xadimi olmuş C. Naxçıvanıskinin ev muzeyləri fəaliyyət göstərir. Bundan başqa Ordubad şəhərində akademik Y. Məmmədəliyevin, yazıçı M. Ordubadinin ev muzeyləri ilə yanaşı bütün rayonlarda ölkəşunaslıq muzeyləri fəaliyyət göstərir.

Babək rayonundakı Nehrəm və Şərur rayonunun Cəlil kənd kəndlərində "Molla Nəsirəddin" jurnalının banisi C. Məmmədquluzadənin ev muzeyləri xalqımızın tarixi-mədəni məbədlərindəndir.

Nuh yurdu-Naxçıvan torpağındakı ziyarətgahlara ehtiram göstərməklə yalnız Ulu Yaradana üz tutub şükr etməklə Ondan da nicat istəyərək Ruhumuzu zənginləşdirə bilərik.

FƏSİL

Ədəbiyyat

"Azərb. M. E. A-nın tarix inst. elmi məqalələri". Bakı-1975

"Azərbaycan Sovet Ensiklopediyası" (10 cilddə) VII cild, Bakı-1983

"Ərəb və Fars sözləri lüğəti". Bakı-1985

"Qurani-Kərim". Bakı-2005

"Mavzoleyi Naxeçevani" (rusca) Bakı-1984

"Mədəni-maarif" jurnalı. Bakı-2006

"Naxçıvan Ensiklopediyası" (2 cilddə) Naxçıvan-2005

"Nuh yurdu" qəzeti. № 1, 1996

"Sbornik svedeniy o Kafkaze" (rusca), St. Peterburq-1870

"Şəhriyar" qəzeti. Bakı-1997

"Şərq qapısı" Naxçıvan MR vilayət qəzeti-1961, 1970-ci illər

Azərb. SSR EA-nın məruzələri, XXXI cild, Bakı-1975, səh. 89

C. Zeynaloğlu "Müxtəsər Azərbaycan Tarixi". Bakı-1992

Ə. Əliyev "Biz əzablı günlər yaşadıq". Bakı-1994.

Ə. Salamzadə "Araz boyu abidələr". Bakı-1979

F. Kərimzadə "Xudafərin". (tarixi trilogiya), Bakı-1982-87

G. Məmmədova "Qarabəkir əfsanəsi". Bakı-2001

H. Arzulu "Qaçaq Quşdan". Bakı-2000

H. F. Səfərli "Naxçıvan ziyarətgahları". Bakı-1998

H. S. Həsənli "Əshabi-Kəhf". Bakı-2001

İ. Azimbekov "Musilmaniskiye nadpisi Naxiçevana" (rusca). Bakı-1929

İ. Hacıyev “Naxçıvan və Naxçıvanlılar”. Bakı-2001

K. Nikitin “Narodnıye predaniya v Nax. uezde” (rusca). Tiflis-1882

Q. Həsənov “Nax. MSSR-in tarixi və arxeoloji abidələri”. Naxçıvan-1988

M. F. Bağırov “Ziyarətnamə”. Bursa -1996

M. Nemət “Azərbaycanda pirlər”. Bakı-1992

Naxçıvan MR Stat. Kom. Məl. Bül. (1999-2006)

S. Babyev “Qədim diyarın təbiəti”. Bakı-1970

V. Baxşəliyev “Pirlərlə bağlı miflər və inanclar.” Bakı-2006

V. Əliyev “Gəmiqaya abidələri”. Bakı-1990

31. İ.Kazımov “Naxçıvanın əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)”, Bakı-2007.

ALBOM

Plan, xəritə və foto şəkillər



Azərbaycan Respublikasının xəritəsi.



Naxçıvan MR-in siyasi-inzibati xəritəsi.



Kazım Qarabəkir Paşa



Türk Azadlıq ordusunun Naxçıvan mahalına gəlməsi xəritəsi. (1918-1921)



“Nuh Türbəsi” İmamzadə.



“Nuhun qəbri” (Rəssam B. Kəngərli -1918)



Mömünə Xatun məqbərəsi.



Yusif ibni Küseyr sərdabəsi.



Hüseyn Cavid məqbərəsi.



Naxçıvan Cümə məscidi (2000-ci il).



Zaviyə məhəllə məscidi (2000-ci il)



Kazım Qarabəkir Paşa məscidi.



Həzrəti Zəhra məscidi.



Açıq səma altında muzey.



Babək rayonunun xəritəsi.



Nehrəm, Səyyid Əqil məscidi.



Əshabi-Kəhf pirinin planı.



Əshabi-Kəhf piri.



Əshabi-Kəhf piri.



Şahbuz rayonunun xəritəsi.



Xuda Vəng piri.



Şah Abbas (Fərhad evi) piri və planı.



Culfa rayonunun xəritəsi.



Culfa rayonunun xəritəsi.



Şeyx Xorasan piri.



Gülüstan türbəsi.



Kəngərli rayonunun xəritəsi.



Qarabağlar, Qutixatun məqbərəsi.



Qarabağlar, Qutixatun məqbərəsi.



Ordubad rayonunun xəritəsi.



Malik İbrahim piri.



Səyyid Səfi (Səffan) piri.



Gilan türbəsi (Xaraba Gilan).



Şərur rayonunun xəritəsi.



Şərur rayonunun xəritəsi.



Parçı piri.



Tənənəm piri.



Sədərək rayonunun xəritəsi.



“Ağ atlı oğlan” piri.



H. Əliyevin Naxçıvandakı tunc büstü.



Naxçıvan, Cümə məscidi (XIX əsr).



Şəhidlər xiyabanı.



Şəhidlərin xatirə muzeyi.

MÜƏLLİF

Müəllif haqqında





Feyruz Abdulla oğlu Bağırov 1946-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur.

O, ibtidai təhsilini şəhərdəki 5 № -li orta məktəbdən başlayaraq Ali Pedaqoji İnstitut bitirmişdir. Əmək fəaliyyətinə erkən başlayan F. Bağırov mədəniyyət və təhsil sahələrində çalışmışdır.

Müəllifin ilk kitabı olan "Ziyarətnamə" 1996-cı ildə işıq üzü görmüşdür.

Həmin illərdə təhsil sahəsində işləyən F. Bağırov Azərbaycanın ilk realist rəssamı B. Kəngərlinin həyatından danışılan "Əzablı günlər" adlı tarixi pyesini yazaraq məktəb bədii öz fəaliyyət kollektivlərində səhnələşdirilmiş və Təhsil Nazirliyinin rəğbətini qazanmışdır.

Xalq teatrları üçün nəzərdə tutulmuş həmin pyes Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin mətbu orqanı olan “Mədəni-maarif” jurnalında dərc edilmişdir.

Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş “Nuh yurduna ziyarət” adlı kitabda Naxçıvandakı tarixi və arxeoloji abidələrlə yanaşı ziyarətgahlardan, insanların inanc yerləri olan pirlərdən məlumat verilir.

F. Bağırov Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi Elmi-Metodik Mərkəzində çalışaraq Muxtar Respublikanın ərazilərində Turizm və mənəviyyat sahələrini inkişaf etdirmək məqsədi ilə yaradıcı axtarışda olub dövrü mətbuatda tarixi-mənəvi sərvətlərimiz olan ziyarətgahların qorunub saxlanılmasını təbliğ etməkdədir.

Müəllifin Web saytı: www.nuhyurdu.com

E-mail ünvanı: info@nuhyurdu.com